AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**RƏHMAN HACIYEV**

# AZƏRBAYCAN GƏNCLİYİNİN HİMAYƏDARI

*(Heydər Əliyevin gənclər siyasəti (1993–2003-cü illər))*

**BAKI – 2014**

**Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının Qərarı ilə çap olunur.**

Elmi redaktor: **İsmayıl Hacıyev,**
*AMEA-nın həqiqi üzvü, akademik*

Rəyçi: **Cəbi Bəhramov,**
*tarix üzrə fəlsəfə doktoru*

**Hacıyev Rəhman**
**H 33 Azərbaycan gəncliyinin himayədarı.**
*(Heydər Əliyevin gənclər siyasəti (1993–2003-cü illər)).*
Bakı, «Aspoliqraf», 2014, 192 səh.

Monoqrafiyada xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində işlədiyi müddətdə həyata keçirdiyi dövlət gənclər siyasəti təhlil edilmişdir. Əsərdə Heydər Əliyevin gənclərlə bağlı çoxşaxəli fəaliyyətinin bütün aspektləri, Azərbaycanda vahid gənclər siyasəti və dövlət strukturlarının formalaşdırılması, ölkə gənclərinin sosial-iqtisadi, mənəvi ehtiyaclarının ödənilməsi, cəmiyyət həyatının bütün sahələrində onların iştirakının təmin edilməsi məsələləri öz əksini tapmışdır. Monoqrafiya Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsində, gənclərin mənəvi, vətənpərvərlik tərbiyəsinin təkmilləşdirilməsində, bütövlükdə Azərbaycanda gənclər siyasətinin və gənclər hərəkatının daha geniş şəkildə araşdırılmasında mühüm vasitə rolunu oynaya bilər.

**H $\frac{4502020000}{053}$ 2014**

**© «Aspoliqraf», 2014**

Rəhman Hacıyevin **«Azərbaycan gəncliyinin himayədarı.** (Heydər Əliyevin gənclər siyasəti (1993–2003-cü illər))» monoqrafiyasına

## ÖNSÖZ

Hazırda ölkəmizdə ictimai elmlər qarşısında duran ən vacib məsələlərdən biri zəmanəmizin böyük strateqi, görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyətinin və nəzəri baxışlarının elmi əsaslarla öyrənilməsi və tədqiqidir. Azərbaycanın tərəqqisində, onun milli dövlətçiliyinin inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti tariximizin ən parlaq mərhələsini təşkil edir. Ulu Öndərin siyasi fəaliyyətinin mühüm istiqamətlərindən biri gənclərlə bağlı idi. Gənclər siyasəti, gənc nəslin mənəvi tərbiyəsi, ictimai tərəqqidə gəncliyin rolu kimi məsələlər Heydər Əliyevin siyasi-ideoloji dəyərlər sistemində və dövlətçilik fəaliyyətində həmişə mühüm yer tutmuşdur. Ümummilli liderimiz Azərbaycan gəncliyinin cəmiyyətin aparıcı qüvvəsi kimi intişar tapmasında, onun iqtisadi və mənəvi problemlərinin həlli istiqamətində böyük xidmətlər göstərmişdir. Müstəqil Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında, gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında Ulu Öndərin müstəsna xidmətləri olmuşdur. Bu baxımdan tarix üzrə fəlsəfə doktoru Rəhman Balabəy oğlu Hacıyevin «Azərbaycan gəncliyinin himayədarı» adlı monoqrafiyası çox mühüm əhəmiyyət kəsb edir. Müəllif monoqrafiyada Azərbaycan tarixinin mühüm bir dövrünü təşkil edən 1993–2003-cü illərdə ölkəmizdə gənclər siyasətinin formalaşması və həyata keçirilməsi istiqamətində Heydər Əliyevin çoxcəhətli fəaliyyətini kompleks şəkildə araşdırmaq məqsədini qarşısına qoymuş və bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirmişdir. Bununla da Rəhman Hacıyev tarixşünaslığımıza dəyərli bir əsər təqdim etmişdir.

Monoqrafiyada Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda gənclərlə bağlı həyata keçirilən təşkilati, hüquqi tədbirlər ətraflı təhlil edilmiş, gənclər siyasətinin normativ-hüquqi bazasının formalaşdırılması və inkişafı istiqamətində görülən işlər işıqlandırılmışdır.

R.Hacıyev tədqiqat işində Heydər Əliyevin bilavasitə rəhbərliyi altında Azərbaycanda 1993-cü ildən başlayaraq təşəkkül tapmış və inkişaf etmiş dövlət gənclər siyasətinin əsas istiqamətlərini və xüsusiyyətlərini hərtərəfli təhlil etmiş, bütövlükdə müasir dövrdə Azərbaycan dövlətinin gənclərlə bağlı siyasətinin əsas mahiyyətini açmağa müvəffəq olmuşdur.

Müəllif Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərliyə gəlməsindən sonra, ictimai həyatın bütün sahələrində olduğu kimi, gənclər siyasəti sahəsində də əsaslı dönüşün baş verdiyini konkret faktlarla əsaslandırmış, ölkəmizdə müharibə vəziyyətinin, iqtisadi böhranın davam etməsinə baxmayaraq, gənclərlə iş sahəsində qazanılmış müsbət təcrübəni ümumiləşdirmişdir.

Kitabda gənc nəslin sosial-iqtisadi inkişafı üçün Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər təhlil edilmiş, müxtəlif dövlət strukturlarının, birinci növbədə, gənclər siyasətinin həyata keçirilməsi üzrə əsas səlahiyyətli orqan olan Gənclər və İdman Nazirliyinin fəaliyyəti geniş, faktik material əsasında öyrənilmişdir.

Heydər Əliyevin dünyagörüşünün mühüm hissəsini təşkil edən gəncliyin mənəvi inkişafı, vətəndaşlıq tərbiyəsi məsələləri işdə öz geniş əksini tapmışdır. Bu məsələləri tədqiq edərkən müəllif Heydər Əliyevin əsərlərinin, gənclər qarşısında çıxışlarının elmi təhlilini vermiş, onun dövlət başçısı kimi bu istiqamətdə atdığı addımları, qəbul etdiyi qərarları ətraflı öyrənmişdir. Ümummilli liderimizin nəzəri ideya və fikirlərinə diqqəti yönəldən müəllif, onun gənclərin mənəvi tərbiyəsinə dair bitkin nəzəriyyə formalaşdırdığını sübuta yetirir.

Tədqiqata cəlb edilmiş ən müxtəlif mənbələrin, ədəbiyyatın təhlili əsasında müəllif Azərbaycan Respublikasında gənclər

siyasətinin əsas mərhələlərini, qanunauyğunluqlarını dərindən araşdırmış və maraqlı elmi nəticələr çıxarmışdır.

Giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olan monoqrafiyada Heydər Əliyevin gənclərlə bağlı dövlət siyasətinin, demək olar ki, bütün aspektləri öz əksini tapmışdır.

Kitabda 1993-cü ildən sonra Azərbaycanda gənclər hərəkatının təşəkkül tapması, gənclər təşkilatlarının yaranması, onlara dövlət dəstəyinin artırılması, gənclərin dövlət quruculuğuna cəlb edilməsi, beynəlxalq əlaqələrinin genişlənməsi ilə bağlı maraqlı materiallar mövcuddur.

Monoqrafiya müasir mərhələdə gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı bir sıra məsələləri özündə ehtiva etdiyindən böyük elmi-nəzəri əhəmiyyət daşıyır. Monoqrafiya ölkəmizdə gənclər siyasətinin tarixi təcrübəsini, nailiyyətlərini və bu sahədə qarşıda duran vəzifələri müəyyənləşdirmək baxımından həm də mühüm əməli əhəmiyyətə malikdir.

Hesab edirəm ki, kitabda öz əksini tapmış faktlar, eləcə də müəllif tərəfindən irəli sürülmüş müddəalar həm elmi ictimaiyyət üçün, həm də gənclər siyasəti ilə məşğul olan müvafiq dövlət orqanları üçün aktual və faydalı ola bilər.

İnanıram, Rəhman Hacıyevin «Azərbaycan gəncliyinin himayədarı» əsəri bütün məziyyətlərinə görə Heydər Əliyevin zəngin elmi-nəzəri irsinin öyrənilməsinə, bütövlükdə Əliyevşünaslığın inkişafına mühüm töhfə olacaqdır.

**Ədalət Qasımov,**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*A.A.Bakıxanov adına Tarix İnstitutunun «Əliyevşünaslıq»*
*şöbəsinin müdiri, tarix elmləri doktoru*

# GİRİŞ

Hər bir ölkənin maddi və mənəvi tərəqqisi cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin sosial-psixoloji vəziyyətindən, həyat və fəaliyyət şəraitindən, əmək fəaliyyətindən bilavasitə asılıdır. İctimai-iqtisadi münasibətlərin təkmilləşdirilməsində gəncliyin, gənclər hərəkatının böyük rolu vardır. Gənc nəsil öz sələflərindən təkcə cəmiyyətin topladığı maddi və mənəvi dəyərləri, mövcud sosial strukturu, inkişafın müəyyən səviyyəsini deyil, həm də sosial ziddiyyətlərin, dünyagörüşü formalarının bütöv kompleksini qəbul edərək yeni nəsillərə ötürür. Gənclər qarşısında cəmiyyətin fəaliyyətinin onların maraq və istəklərinə ən yaxşı cavab verən tərəflərini seçmək və inkişaf etdirmək zərurəti durur. Gəncliyin taleyi yaşadığı ölkənin taleyi ilə qırılmaz surətdə bağlı olmaqla, onu əhatə edən sosial mühitin ziddiyyətləri, uğur və nöqsanları ilə müəyyənləşir. Gənclər ölkənin və millətin gələcəyi, onun inkişafının və yüksəlişinin əsas meyarıdır. Ona görə də cəmiyyətin tərəqqisi dövlətin gənclər siyasətinin düzgün müəyyənləşdirilməsindən və həyata keçirilməsindən bilavasitə asılıdır.

Hər bir dövlət gənclik problemini öz milli-tarixi xüsusiyyətlərinə, mövcud sosial-iqtisadi inkişaf potensialına uyğun olaraq həll etməyə çalışır. Bu məsələ, əslində, dövlətin strateji inkişafının mühüm sahəsini təşkil edir.

Azərbaycan Respublikasında gənclər hərəkatının təşəkkül tapmasına və inkişafına təsir edən amillərin öyrənilməsi, müasir dövrdə ölkədə həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərinin, prinsiplərinin, metodlarının, vasitə və formalarının tədqiqi gənclərin ictimai-siyasi dəyişikliklərdə rolunu və yerini dərindən dərk etməyə və qiymətləndirməyə kömək edir.

Bundan başqa, məsələnin müəyyən geosiyasi aspektlərini də nəzərdən qaçırmaq olmaz. Azərbaycanda gənclər siyasətinin təşəkkül tapma təcrübəsinin öyrənilməsi təkcə Azərbaycan Respublikasında deyil, bütün keçmiş postsovet məkanında müasir

gənclər strategiyasının hazırlanması və həyata keçirilməsi vəzifələrinin müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dövlətinin gənclər siyasəti bir sıra yaxın dövlətlərə xas olan xüsusiyyətlərə malik olsa da, eyni zamanda müəyyən özəlliklərə də malikdir ki, onlar ölkədə gəncliyin formalaşmasına öz təsirini göstərməklə yanaşı, bütün postsovet məkanında da gənclər hərəkatı probleminə dair daha ümumiləşdirilmiş nəticələr çıxarmağa imkan verir.

Gənclər siyasəti – gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən müvafiq ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir [100]. Gənclər siyasətinin əsas məqsədi yaşı 29-dək olan insanların fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına kömək etməkdir.

Dövlətin gənclər siyasəti çox geniş bir spektri – gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, sosial problemlərinin həlli, hüquqlarının müdafiəsi, ölkənin ictimai-siyasi, mədəni həyatında iştirakı, gənclər təşkilatlarının fəaliyyəti, beynəlxalq əlaqələri və s. ilə bağlı məsələləri əhatə edir.

Azərbaycan gəncliyi tarixin bütün dövrlərində cəmiyyətin həyatında mühüm rol oynamış, xalqımızın əldə etdiyi uğurlarda gənclərin böyük əməyi olmuşdur. Azərbaycanın öz dövlət müstəqilliyini əldə etməsində də gənclərin böyük xidmətləri olmuşdur. Sovet imperiyasına qarşı azadlıq mübarizəsinin, Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. Azərbaycanın müstəqillik əldə edənə qədər SSRİ gənclər təşkilatı olan komsomol (kommunist gənclər ittifaqı) təşkilatının mühüm tərkib hissələrindən biri Azərbaycan komsomol təşkilatı idi ki, bu təşkilat rejimin ideoloji maraqlarına xidmət edirdi. Müstəqillik əldə edildikdən sonra gəncləri yenidən təşkilatlandırmaq, onları dövlət siyasətinin aparıcı qüvvələrindən birinə çevirmək lazım idi. Lakin 80-ci illərin sonu, 90-cı illərin

əvvəllərində ölkəmizdə hökm sürən hərc-mərclik, qeyri-sabitlik şəraitində dövlət səviyyəsində gənclərlə bağlı, demək olar ki, heç bir iş aparılmırdı, başlı-başına buraxılmış gənclərin bir çoxu xalqımızın mənəvi dəyərlərinə zidd vərdişlərə qurşanmış, bəziləri isə ölkədə nizami ordu olmaması səbəbindən fərarilik edərək ölkəni tərk etmişdilər.

Hakimiyyət hərc-mərcliyi, siyasi qeyri-sabitlik və bütün bunların məntiqi nəticəsi olaraq torpaqlarımızın bir hissəsinin işğalı gənclərimiz arasında pessimist əhvali-ruhiyyənin artmasına, milli dövlət məsələlərinə laqeyd münasibətin formalaşmasına, vətənpərvərlik hislərinin azalmasına gətirib çıxarmışdı. Hələ 70-ci illərin sonu, 80-ci illərin I yarısında Azərbaycanda gənclərlə bağlı həyata keçirilən bir çox müsbət işlər, qazanılmış təcrübə itirilmiş, dövlətin bir çox sahələrində olduğu kimi, gənclərlə bağlı siyasəti də tənəzzülə uğramışdı. Gənclər siyasətinin siyasi-hüquqi əsasını təşkil edən, 1991-ci ildə qəbul edilmiş «Dövlət gənclər siyasəti haqqında» Qanun, digər normativ-hüquqi aktlar, sadəcə olaraq, deklorativ xarakter daşıyırdı. Bütün bunlar mənəvi düşkünlüyə, ölkənin gələcək perspektivləri ilə bağlı bədbin fikirlərə gətirib çıxarırdı.

Yalnız 1993-cü ilin iyununda xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra Azərbaycan anarxiya və özbaşınalıq məngənəsindən çıxa bildi. Həmin həyəcanlı günlərdə Heydər Əliyev xalqın çağırışına səs verərək, xilaskarlıq missiyasını öz üzərinə götürdü, ölkəni vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas etdi.

Böyüməkdə olan nəslin və gənclərin mənəvi-etnik tərbiyəsinin möhkəmləndirilməsi məsələsi dövlət siyasətinin mühüm istiqamətinə çevrildi. Heydər Əliyevin hələ 70-ci illərdə gənclərlə bağlı həyata keçirdiyi ideya və proqramlar artıq yeni, müasir şəraitdə konkret işlərdə təzahür etməyə başladı. Gənclər siyasəti sahəsində sabit tərəqqi təmin edildi, dövlət gənclər siyasətinin milli hüquqi-qanunvericilik bazası formalaşdırılmağa başlandı. Tam əminliklə demək olar ki, Azərbaycan tarixində gənclərlə

bağlı vahid dövlət siyasəti məhz 1993-cü ildən həyata keçirilməyə başlanmış və bu iş bilavasitə Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk anlardan Heydər Əliyev atdığı hər addımında, qəbul etdiyi hər qərarında öz xalqına, onun gəncliyinə güvənmiş, gənclərin enerjisinə, gələcəyə olan böyük ümidlərinə istinad etmişdir [76].

Ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında gənclərin fəal iştirakının təmin olunması, onların sosial-mənəvi ehtiyaclarının ödənilməsi, gələcəyin layiqli vətəndaşları kimi formalaşmaqları üçün onlara münbit şərait yaradılması, bütövlükdə gənc nəslə diqqət və qayğının artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirməsi, Heydər Əliyevin dövlət rəhbəri kimi çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Heydər Əliyev gənclərlə çoxsaylı görüşlərində Azərbaycan gəncləri qarşısında duran vəzifələri və onların həlli yollarını müəyyənləşdirmişdir. Heydər Əliyevin müəyyənləşdirdiyi vəzifələr bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub saxlamaqdadır və bu vəzifələrin zaman hüdudu yoxdur.

Bütövlükdə, 1993–2003-cü illərdə Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində mühüm təcrübə qazanılmışdır. Bu gün gənclər problematikası ilə məşğul olan ictimai elmlər, o cümlədən tarix elmi qarşısında müstəqillik illərində Azərbaycan Respublikasında həyata keçirilən dövlət gənclər siyasətinin tarixi təcrübəsini, xüsusiyyətlərini, nəticələrini tədqiq etmək, bu əsasda ölkədə gənclərlə bağlı strategiyanın təkmilləşdirilməsi üçün təklif və tövsiyələr hazırlamaq kimi mühüm vəzifələr durur. Təqdim olunan monoqrafiya işi bu vəzifələrin yerinə yetirilməsi istiqamətində atılan addımlardan biri kimi mühüm aktuallıq kəsb edir.

Monoqrafiyanın xronoloji çərçivəsi onun vəzifələri ilə müəyyənləşir və əsasən, 1993–2003-cü illəri əhatə edir.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993–2003-cü illərdə dövlət gənclər siyasətinin əsas prinsipləri

müəyyənləşdirilmiş, bu sahəni tənzimləyən normativ-hüquqi baza yaradılmış, gənclər siyasətini həyata keçirən dövlət strukturları formalaşdırılmış, gəncliyin ölkənin ictimai-siyasi həyatında fəal iştirakına, mənəvi-iqtisadi problemlərin həllinə yönəlmiş proqram və layihələr həyata keçirilmişdir. Mövzunun tam açılması üçün 1993-cü ilə qədər Azərbaycanda gənclərlə iş sahəsində mövcud olmuş vəziyyət təhlil edilmiş, əvvəlki mərhələdə gəncliyə münasibətin siyasi əsasları nəzərdən keçirilmişdir. Bu birinci növbədə gənclərlə bağlı həyata keçirilmiş siyasətin əsas problemlərinin müəyyənləşdirilməsi baxımından zəruri olmuşdur.

Problemin tarixşünaslıq bazasından danışarkən bəzi məqamlara diqqət yetirmək lazımdır. Birinci növbədə onu qeyd etmək lazımdır ki, Azərbaycanda gənclik problemi ilə bağlı tarixi araşdırmaların mütləq əksəriyyəti sovet dövrü ilə əlaqədardır ki, onlar elmi-nəzəri, həm də siyasi cəhətdən öz aktuallığını itirdiklərindən elmi-tədqiqata cəlb edilməmişdir. İkincisi, gənclərin problemlərinə həsr edilmiş azsaylı müasir əsərlərin, monoqrafiya işlərinin əksəriyyəti fəlsəfi, psixoloji, pedaqoji aspektdən yazılmış və onlarda araşdırılan mövzu ilə tam uyğunluq tapmaq mümkün deyildir.

Bununla yanaşı, qeyd etməliyik ki, müstəqillik illərində Azərbaycanda dövlət gənclər siyasətinə, gənclər hərəkatının vəziyyətinə, gənclərimizin sosial-mənəvi problemlərinə, ölkənin ictimai-siyasi, mədəni həyatında iştirakına, xarici əlaqələrinə aid xüsusi tədqiqat əsərləri hələlik işıq üzü görməsə də, son dövrlərdə nəşr edilmiş ədəbiyyatda mövzu ilə bağlı bir sıra məqamlar diqqəti cəlb edir.

Xüsusilə Heydər Əliyevin siyasi-nəzəri irsinin, dövlətçilik fəaliyyətinin tədqiqinə həsr edilmiş fundamental əsərlərdə [1–3, 39; 40; 110; 127–128; 129; 152, 162, 111–132, 158] ümummilli liderin gənclərin cəmiyyətdə yeri, təhsili, mənəvi tərbiyəsi, vətəndaşlıq və vətənpərvərlik hislərinin gücləndirilməsi ilə bağlı fikir və düşüncələri ümumi şəkildə də olsa öz əksini tapmışdır.

R.A.Mehdiyevin (138–142), Y.Mahmudovun (134–137) əsərlərində Heydər Əliyevin siyasi fəaliyyətində, nəzəri irsində

mühüm yer tutan cəmiyyətin mənəvi problemləri, milli ideologiyanın əsasını təşkil edən azərbaycançılıq ideyasının tərkib hissəsi kimi gənc nəslin mədəni-mənəvi ehtiyacları ilə bağlı məsələlər öz əksini tapmışdır.

Azərbaycanın müstəqillik dövrü tarixinə həsr edilmiş bir sıra əsərlərdə [13, 123, 128, 143, 147], xüsusən «Azərbaycan Respublikası 1991–2001-ci illər» adlı kitabda [16] Azərbaycan Respublikasında gənclər siyasətinin inkişafı ayrıca paraqraf kimi nəzərdən keçirilmişdir. H.Cəfərovun Azərbaycanda gənclər hərəkatının tarixinə aid monoqrafiyalarında [37, 38] müstəqillik dövründə Azərbaycanda gənclər hərəkatına ayrıca fəsil həsr edilmişdir. Fəsildə ölkədə dövlət gənclər siyasətinin formalaşması və inkişafı, gənclərin respublikanın ictimai-siyasi və sosial-mədəni həyatında iştirakı məsələləri (2007-ci ilə qədər) təhlil edilmişdir. H.Cəfərovun əsərləri Azərbaycanda gənclər hərəkatının ümumi tarixinə həsr edildiyindən, 1993–2003-cü illərdə H.Əliyevin gənclər siyasəti də məhz bu kontekstdən işıqlandırılmışdır.

R.Hacının namizədlik monoqrafiyasının [110] mövzusu araşdırılan problemlə bilavasitə bağlı olsa da, orada məsələlər, əsasən, 80-ci illərin son, 90-cı illərin I yarısını əhatə edir və gənclərin ictimai-siyasi və mədəni fəaliyyətinə həsr edilmişdir.

Gənclərin mənəvi tərbiyəsi məsələsinə bir sıra kitab və jurnal məqalələrində də ümumi şəkildə toxunulmuşdur [2, 116, 123, 130]. Mövzuya aid ədəbiyyatın əksər hissəsini müxtəlif mətbuat səhifələrində işıq üzü görmüş məqalələr təşkil edir [31, 35, 95, 106, 107, 108, 143, 159, 162]. Publisist xarakter daşımasına baxmayaraq, onlardakı müəyyən faktiki material mövzunun işlənməsində mühüm rol oynamışdır.

Bütövlükdə müasir dövrdə Azərbaycan Respublikasında gənclər siyasətinin, gənclər hərəkatının öyrənilməsi və tədqiqi ictimai elmlər qarşısında duran əsas məsələlərdəndir. Təqdim olunan monoqrafiya məhz bu istiqamətdə atılan ilk addımlardan biri sayılmalıdır.

Monoqrafiyanın əsas mənbəşünaslıq bazasını Heydər Əliyevin zəngin elmi-mənəvi irsi, onun dövlət quruculuğu, mənəvi

dəyərlərin və milli-mədəni sərvətlərin qorunub saxlanılması sahəsində gənclərin roluna dair fikirləri təşkil edir.

Ümummilli Liderimizin gənclərin cəmiyyətdəki rolu, statusu, onların dövlət quruculuğu, siyasi-ictimai və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı vəzifələri, gənc nəslin mənəvi və vətəndaşlıq tərbiyəsi, sosial-iqtisadi problemlərinin həlli ilə bağlı fikirləri çoxsaylı çıxış və nitqlərində öz əksini tapmışdır [44–93]. Heydər Əliyevin bilavasitə gənclər haqqındakı çıxışları, həmçinin gəncliyin cəmiyyətdəki yeri, onların problem və vəzifələri ilə bağlı məsələləri əks etdirən digər fikirləri onun əsərlərindən ibarət toplu və məcmuələrdə toplanmışdır [5, 9,10, 15, 32; 34; 73; 82; 97; 98; 100; 112; 114; 115; 117; 145].

Digər mühüm qrup mənbələr sırasına Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi imzaladığı müxtəlif fərmanlar, sərəncamlar daxildir ki, onlar gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini, istiqamətlərini öyrənməyə imkan verir [17; 18; 25; 27; 28; 33; 41; 42; 43; 146].

Mənbələr sırasına, həmçinin 1993–2003-cü illərdə və sonrakı dövrdə Azərbaycan Respublikasında dövlət gənclər siyasətini özündə ehtiva edən müvafiq qanunvericilik aktları və qərarları, dövlət proqramları daxildir. Hər iki qrupa aid mənbələr həm Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda, həm dövri mətbuatda, həm də müxtəlif toplularda nəşr edilmişdir [6, 8; 34; 36; 97; 101; 105; 116; 122; 124; 126; 149; 153; 154; 156; 160].

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bilavasitə məşğul olan Gənclər və İdman Nazirliyinin Cari Arxivinin materialları ölkədə gənclərlə bağlı görülən işləri, toplanmış təcrübəni araşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir [19].

Azərbaycanda 1993–2003-cü illərdə gənclərlə bağlı həyata keçirilən dövlət siyasətinin əsas mərhələlərini, forma və vasitələrini, nəticələrini araşdırmaq, gənclərin sosial-iqtisadi, mənəvi-mədəni ehtiyaclarının təmin edilməsi ilə bağlı müxtəlif dövlət orqanlarının fəaliyyətinin, gənclərin siyasi, ictimai, mədəni

həyatda iştirakını öyrənmək baxımından Gənclər və İdman Nazirliyinin, digər dövlət strukturlarının, gənclər təşkilatlarının müxtəlif xarakterli sənədləri (normativ aktlar, hesabatlar, arayışlar, proqramlar) mühüm əhəmiyyət kəsb edən mənbələrdir [19; 20; 22; 26; 29; 99; 102; 103; 148; 155; 157; 161].

Ölkə gənclərinin təhsil, mədəni məşğulluq səviyyəsinin dinamikasını öyrənmək baxımından müxtəlif statistik məlumat kitablarından geniş istifadə edilmişdir [6, 23, 24; 26; 29; 30; 123; 148; 165; 167–171]. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışlarında, imzaladığı dövlət proqramlarında Heydər Əliyevin gənclər siyasətinin mahiyyətini daha dərindən anlamaq baxımından mühüm məqamlar mövcuddur və onlardan da mənbə kimi istifadə edilmişdir [8, 94–96; 122].

Elmi problemin aktuallığını və əhəmiyyətini nəzərə alaraq, tədqiqatın əsas məqsədi kimi Heydər Əliyevin gənclərlə bağlı siyasi və nəzəri irsinin araşdırılması, Azərbaycan Respublikasının dövlət başçısı kimi vahid gənclər siyasətinin hazırlanması və həyata keçirilməsi istiqamətində fəaliyyətinin öyrənilməsi, ölkəmizdə 1993–2003-cü illərdə gənclərlə bağlı həyata keçirilən strategiyanın forma və vasitələrinin, əsas nəticələrinin tədqiq edilməsi müəyyənləşdirilmişdir.

Göstərilən məqsədə uyğun olaraq aşağıdakı məsələlərə xüsusi diqqət yetirilmişdir:

– Müstəqillik ərəfəsində və müstəqilliyin ilk illərində Azərbaycanda gənclərin vəziyyəti, gənclərlə bağlı həyata keçirilən siyasətin təhlili;

– Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra ölkədə gənclərlə bağlı vahid dövlət siyasətinin hazırlanaraq həyata keçirilməsi, dövlət idarəetmə strukturlarının formalaşdırılması, gənclər siyasətinin normativ-hüquqi bazasının yaradılması və təkmilləşdirilməsi prosesinin izlənilməsi;

– Heydər Əliyevin başçılığı altında Azərbaycan gənclərinin sosial, iqtisadi problemlərinin həlli istiqamətində ölkədə həyata keçirilən tədbirlərin işıqlandırılması;

– Bu məqsədlə qəbul edilmiş proqram və layihələrin məzmununun və tətbiqinin nəticələrinin təhlili;

– Heydər Əliyevin gənclərin mənəvi tərbiyəsinin yaxşılaşdırılması, onların ölkənin layiqli vətəndaşları kimi yetişmələri üçün irəli sürdüyü fikir və ideyaların öyrənilməsi;

– Ulu Öndərin dövlət rəhbəri kimi gənclərin mədəni-mənəvi inkişafı üçün həyata keçirdiyi strateji kursun əsas mahiyyətinin və məzmununun açılması;

– Uşaqların hüquqlarının təmin edilməsi sahəsində Azərbaycanda 1993–2003-cü illərdə həyata keçirilən hüquqi, siyasi və təşkilati tədbirlərin təhlili;

– Ölkənin ictimai, siyasi, mədəni həyatında gənclərin iştirakının genişləndirilməsi, gənclərin təşkilatlanması, qeyri-hökumət gənclər təşkilatlarının yaradılması və inkişafı istiqamətində həyata keçirilən işlərin təhlili;

– İctimai həyatın bütün sahələrində gənclərin və onun müxtəlif qruplarının yerini və rolunu müəyyən edən statistik göstəricilərin, gənclərin hüquq və təminatlarına dair normativ-hüquqi sənədlərin öyrənilməsi;

– Gənclərin problemlərinin həlli, onların maraq və mənafelərinin müdafiəsi sahəsində gənclər təşkilatlarının fəaliyyəti, bu fəaliyyətin səmərəliliyinin müəyyənləşdirilməsi;

– Azərbaycan gənclərinin beynəlxalq əlaqələrinin inkişafı, ölkəmizin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində onların fəaliyyətinin öyrənilməsi;

– Dövlət orqanlarının və qeyri-dövlət təşkilatlarının gənclər siyasətinin həyata keçirilməsi sahəsində qazandıqları təcrübənin təhlili.

Heydər Əliyevin gənclərlə bağlı irəli sürdüyü elmi-nəzəri müddəalar, gənclərin mənəvi tərbiyəsi strategiyası, bütövlükdə, böyük öndərin dərin fəlsəfi-sosioloji irsi monoqrafiyanın əsas nəzəri-ideoloji bazasını təşkil edir. Əsas tədqiqat prinsipləri kimi tarixi yanaşma, obyektivlik, formal-məntiqi və müqayisəli təhlil metodları tətbiq edilmiş, cəmiyyətin sosial-demoqrafik qrupu

olan gənclərin problemlərinin kompleks öyrənilməsinə həsr edilmiş metodoloji xarakterli ədəbiyyatdan da geniş istifadə edilmişdir.

Monoqrafiyada Azərbaycanın müasir tarixşünaslığında ilk dəfə olaraq dövlət gənclər siyasətinin formalaşmasında və həyata keçirilməsi istiqamətində Heydər Əliyevin titanik fəaliyyəti kompleks şəkildə tədqiq edilmişdir.

– Gənclərlə bağlı Heydər Əliyevin siyasi-nəzəri görüşləri, həyatın müxtəlif sahələrində gənclərin fəallıq təzahürü ilk dəfə olaraq tədqiqat obyekti olmuşdur.

– 1993–2003-cü illərdə Azərbaycan cəmiyyətində gənclərin vəziyyəti, müxtəlif həyat sahələrində onun yeri və rolu kompleks şəkildə araşdırılmışdır.

– Müstəqillik dövrünün mühüm mərhələsi olan 1993–2003-cü illərdə dövlət gənclər siyasətinin əsas məqsədləri, prinsipləri, istiqamətləri, həyata keçirilmə mexanizmləri araşdırılmış, ölkədə bu sahədə qazanılmış təcrübə və nəticələr ümumiləşdirilmiş, gənclər siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə rəy və təkliflər irəli sürülmüşdür.

– İlk dəfə olaraq gənclər tərəfindən yaradılmış qeyri-hökumət təşkilatlarının fəaliyyətinin, onların gənclərin hüquq və mənafelərinin müdafiəsində rolunun təhlilinə cəhd edilmişdir.

Gənclərin beynəlxalq əlaqələrinin inkişafı dövlətin ümumi xarici siyasət kursu ilə sıx əlaqədə işıqlandırılmışdır.

Bütövlükdə gənclər siyasəti Heydər Əliyevin milli inkişaf strategiyası kontekstindən təhlil edilmişdir.

Əsərin əsas müddəa və nəticələrindən tədris vəsaitlərinin, mühazirə və xüsusi kursların hazırlanmasında, gənclər siyasəti ilə məşğul olan dövlət və qeyri-dövlət qurumlarının, siyasi partiyaların işinin təkmilləşdirilməsində geniş istifadə oluna bilər.

# I FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA YENİ GƏNCLƏR SİYASƏTİNİN TƏŞƏKKÜL TAPMASI

## 1.1. Müstəqilliyin ilk illərində Azərbaycan gəncliyinin inkişaf problemləri

Bütün dövrlərdə gənclik mövcud ictimai münasibətləri yaşadıqları zamanın tələblərinə uyğun olaraq dəyişdirməyə və təkmilləşdirməyə can atmış, bununla da bəşəriyyətin tarixi inkişaf prosesinə öz töhfələrini vermişdir.

XX əsr Azərbaycan xalqının taleyində mühüm bir mərhələ təşkil edir. Bu zaman kəsiyində xalqımız bir çox faciələr və məhrumiyyətlərlə üzləşsə də, böyük tərəqqi dövrü yaşamış, həyatın bütün sahələrində möhtəşəm nailiyyətlərə imza atmış, onun dövlətçiliyi, iqtisadiyyatı, mədəniyyəti, elmi və təhsili görünməmiş zirvələrə qalxmışdır. Əldə olunan tarixi uğurlarda gəncliyin də böyük payı vardır.

Yaşadığı cəmiyyətin inkişafı ilə bərabər Azərbaycan gəncliyinin özü də inkişaf etmiş, onun mədəni-təhsil səviyyəsi, siyasi dünyagörüşü,  ictimai fəallığı xeyli yüksəlmişdir.

Xüsusən dövlətçilik tariximizə ümummilli liderimiz Heydər Əliyevin birinci hakimiyyət dövrü kimi daxil olmuş 1969–1982-ci illər Azərbaycan xalqının və onun gəncliyinin taleyində silinməz izlər buraxmışdır.

Məlumdur ki, nominal göstəricilərin artmasına baxmayaraq, 60-cı illərdə Azərbaycan SSR-də iqtisadiyyata rəhbərlikdə, partiya, sovet, həmkarlar ittifaqı və komsomol təşkilatlarının təşkilatçılıq, kütləvi-siyasi və ideoloji işində yol verilən nöqsanlar, səhvlər və qüsurlarla əlaqədar olaraq ağır vəziyyət yaranmışdı. İqtisadiyyatın artım sürəti aşağı düşməkdə idi. Bir sıra göstəricilər






AZƏRBAYCAN
RESPUBLİKASI





















üzrə Azərbaycan, SSRİ respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. 1969-cu ildə SSRİ-də ümummilli məhsul 43% artdığı halda, Azərbaycanda bu göstərici cəmi 22% təşkil etmişdi. Bu müttəfiq respublikalar arasında ən aşağı göstərici idi. İqtisadiyyatın mütəmadi geriliyini aradan qaldırmaq, təsərrüfat və mədəniyyət quruculuğunun bütün sahələrində işi tamamilə yenidən qurmaq, respublikada sağlam mənəvi-psixoloji iqlim yaratmaq üçün bütün saf və vicdanlı qüvvələrin səfərbər olunması tələb olunurdu [61,10].

Həmin dövrdə iqtisadi dinamikliyin aşağı düşməsinin bir sıra obyektiv səbəbləri olsa da, subyektiv amillərin təsiri də çox böyük idi. Dövlət intizamının pozulması, mövcud potensialdan səmərəli istifadə edilməməsi, iqtisadi inkişafla yanaşı, əhalinin mənəvi-psixoloji vəziyyətinə də mənfi təsir göstərirdi. Neqativ proseslərin, tənəzzülün qarşısını almaq üçün Azərbaycan rəhbərliyində köklü kadr dəyişikliyinə zərurət yaranmışdı, radikal dəyişikliklər etmək iqtidarında olan bacarıqlı, nüfuzlu rəhbərə kəskin ehtiyac duyulurdu. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK Birinci Katibi seçilmiş Heydər Əliyev xalqımızın ümidlərini və inamını özünə qaytaran belə bir rəhbər oldu. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi ilə iqtisadi-ictimai, mədəni həyatın bütün sahələrində əsl tərəqqi və çiçəklənmə dövrü başlandı.

Heydər Əliyevin həyata keçirdiyi kompleks təşkilatçılıq, ideya-tərbiyə və sosial-mədəni tədbirlər nəticəsində respublikanın iqtisadi potensialı xeyli artdı, sənayenin strukturu yaxşılaşdı, kənd təsərrüfatı keyfiyyətcə yeni pilləyə qalxdı. Əhalinin həyat səviyyəsində və şəraitində mütərəqqi dəyişikliklər baş verdi. Rəhbərin titanik səyləri nəticəsində 13 il ərzində (1969–1982-ci illərdə) Azərbaycan SSR-də milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı isə 1,7 dəfə artmışdı [22, v. 26; 30, 38; 168, s. 141]. İnkişafın bütün sahələri üzrə dövlət plan və öhdəlikləri hər il artıqlaması ilə yerinə yetirilirdi. Azərbaycanın elmi, mədəniyyəti, təhsili, səhiyyəsi görünməmiş zirvələrə qalxmışdı. Qanunçuluğun

pozulmasına, vəzifəli şəxslərin xidməti səlahiyyətlərindən sui-istifadə etmələrinə, proteksionizmə, rüşvətxorluğa, korrupsiyaya qarşı amansız mübarizə aparılırdı. Cəmiyyətdə işgüzar əhvali-ruhiyyə, sağlam mənəvi atmosfer hökm sürürdü.

Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində Heydər Əliyev respublikanın əldə etdiyi uğurlara və müvəffəqiyyətlərə böyük şəxsi töhfə vermişdi. Özünün təşkilatçılıq qabiliyyəti, əməksevərliyi, prinsipiallığı, nöqsanlara qarşı barışmazlığı ilə o bütün Azərbaycan xalqının dərin hörmət və sevgisini qazanmış, onun çoxşaxəli fəaliyyəti keçmiş SSRİ-də və bütün dünyada geniş əks-səda doğurmuşdu.

70–80-ci illərdə Azərbaycan xalqının əldə etdiyi möhtəşəm uğurlarda gəncliyin də öz xidmətləri var idi. 1987-ci ildə Azərbaycanın xalq təsərrüfatında 800 minə qədər gənc oğlan və qız çalışırdı. İqtisadiyyatla məşğul olan ali və orta ixtisas təhsilli mütəxəssislərin 45 faizini gənclər təşkil edirdilər. Yüngül sənaye, ticarət və xidmət sahələrində 84 mindən çox, kənd təsərrüfatında 400 mindən çox oğlan və qız işləyirdi [164, 34, 38, 42].

Heydər Əliyevin XX yüzilliyin 70–80-ci illərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Azərbaycan o zaman SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970–1982-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanırdı [50].

Heydər Əliyevin başçılığı altında Azərbaycan SSR-də cəmiyyətin bütün sahələrində həyata keçirilən kompleks tədbirlər gənclər siyasətində də öz əksini tapmış, gənclərin maddi və mənəvi problemlərinin həlli, onların həyat şəraitinin, mədəni-təhsil

səviyyəsinin yüksəldilməsi istiqamətində çox ciddi dönüş baş vermişdi. Respublikada mənəvi-psixoloji iqlimin yaxşılaşdırılması, neqativ hallara qarşı ardıcıl və prinsipial mübarizə gənclərin sosial-siyasi fəallığının artmasına səbəb olmuş, onlar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha fəal iştirak etməyə başlamışdılar.

Millətin, cəmiyyətin tərəqqisini yalnız təhsilin və maarifin inkişafında görən Heydər Əliyev respublikaya rəhbərlik etdiyi birinci dövrdə bu sahələri öz xüsusi himayəsinə götürmüş, nəticədə Azərbaycan təhsilinin inkişafında çox mütərəqqi keyfiyyət və kəmiyyət göstəriciləri baş vermişdi. Həmin illərdə Azərbaycanda 703 min şagird yeri olan 1058 ümumtəhsil məktəb binası tikilərək istifadəyə verilmiş, texniki peşə məktəblərinin sayı 1970-ci ildə 76-dan 1980-ci ildə 173-ə çatdırılmışdı [20, 229].

Heydər Əliyev təhsil müəssisələrində mənəvi mühitin sağlamlaşdırılması üçün bütün zəruri addımların atılmasını təmin edərək mənəvi cəhətdən sağlam, zəngin gənc nəslin yetişdirilməsini dövlətin ən mühüm vəzifəsi kimi müəyyənləşdirmişdi. Digər sovet rəhbərlərindən fərqli olaraq, o, təhsildə olan neqativ halların, xüsusən rüşvətxorluğun mövcudluğunu gizlətməyərək onlara qarşı açıq mübarizə aparırdı. Milli liderimizin bu istiqamətdə fəaliyyəti bütün cəmiyyət tərəfindən müdafiə edilir, rəğbətlə qarşılanırdı.

Heydər Əliyev ali məktəb sisteminin inkişaf sahəsində də böyük xidmətlər göstərmiş, onun dövründə 5 yeni ali təhsil müəssisəsi açılmış, tələbələrin sayı 70 mindən 105 minə qədər artmış, yeni ixtisaslar, kafedralar təşkil olunmuşdu [167, 222]. Ölkənin gələcək inkişafı üçün zəruri ixtisaslar üzrə milli kadrlar yetişdirilməsi məqsədilə gənclərimizin SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilməsi onun milli ziyalı kadrların hazırlanmasına göstərdiyi xüsusi qayğının ən parlaq nümunəsi idi. O, öz şəxsi əlaqələri və əzmkarlığı sayəsində Azərbaycandan göndərilən tələbələrin sayının artırılmasına nail olmuş, nəticədə əgər 1971-ci ildə respublikadan kənar cəmi 60 nəfər göndərilirdisə, 1986-cı

ildə onların sayı 830 nəfərə çatdırılmışdı. Artıq 1986–1987-ci tədris ilində keçmiş SSRİ-nin 170 ali məktəbində 244 ixtisas üzrə 3500 nəfər azərbaycanlı oğlan və qız təhsil alırdı [163, 1987, 29 avqust]. Heydər Əliyevin uzaqgörənliyi sayəsində respublikadan kənarda oxumağa gedənlərin mütləq əksəriyyətini yerli millətdən olan tələbələr təşkil etmişdir.

Milli liderimizin gənclər siyasəti, milli kadr hazırlığı sahəsində ən mühüm xidmətlərindən biri də milli hərbi kadrların hazırlanması üçün kompleks tədbirləri həyata keçirməsi oldu. Məhz onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycanda hərbi təhsil sisteminin əsası qoyulmuş və C.Naxçıvanski adına xüsusi hərbi məktəb açılmışdı. Eyni zamanda Heydər Əliyev SSRİ-nin müxtəlif ali hərbi məktəblərində təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasını da təmin etmişdir. Hələ 1981-ci ildə SSRİ-nin ali hərbi təhsil məktəblərinə göndərilən 804 Azərbaycan vətəndaşının 416-sı yerli millətin nümayəndəsi idi [14, 1981, 29 avqust].

Bütün bunları böyük şəxsiyyət Azərbaycanın gələcək taleyini düşünərək edirdi. Bütövlükdə 1970–82-ci illərdə Azərbaycandan kənarda respublikamız üçün 17 mindən çox mütəxəssis hazırlanmışdı [127, 195].

1970–82-ci illərdə Heydər Əliyevin başçılığı altında həyata keçirilmiş çoxcəhətli, düşünülmüş siyasət nəticəsində respublikamızın iqtisadi, sosial, mədəni inkişafında qazanılmış uğurlar, sağlam mənəvi-psixoloji mühit gənclərin sosial-psixoloji vəziyyətinə, siyasi aktivliyinə də müsbət təsir göstərirdi. Gənclərin fəallığı həyatın bütün sahələrində təzahür edirdi. Respublika əhalisinin yarıdan çoxunu təşkil edən gənclər ölkə iqtisadiyyatının özəyini təşkil edən sahələrdə əsas aparıcı qüvvə idi, bütün sənayedə işləyənlərin 41%-ni onlar təşkil edirdilər, kənd təsərrüfatında yarım milyon gənc çalışırdı [65, 29].

Yeni istifadəyə verilən iri sənaye müəssisələrinin, elm tutumlu sahələrin, əsasən, gənc fəhlə və mühəndis-texnik kadrlarla komplektləşdirilməsi sayəsində maşınqayırma, elektronika, ra-

diotexnika, kimya sənayesi sahələri kimi yeni istiqamətlər təşəkkül tapırdı.

Heydər Əliyev Azərbaycan gəncliyinin mənəvi tərbiyəsinə xüsusi diqqət yetirməyi tələb edir, gənclərə xalqımızın milli-mənəvi, tarixi irsini, dəyərlərini öyrənməyi, əxz etməyi, eyni zamanda ümumbəşəri dəyərlərə də biganə qalmamağı, hərtərəfli inkişaf etmiş şəxsiyyətə çevrilmələrini tövsiyə edirdi.

Heydər Əliyevin idealı intellektual və mənəvi cəhətdən hərtərəfli inkişaf etmiş, zəngin biliyə malik, ictimai borcunu dərk edən, fəal vətəndaşlıq mövqeyi ilə seçilən, öz hərəkətlərinə və işlərinə məsuliyyət hissi ilə yanaşan şəxsiyyət idi [65, 40] və o gənclərimizə bu keyfiyyətlərə malik olmağı tövsiyə edirdi. O gənclərdə estetik zövqün, gözəlliyə sevgi ruhunun formalaşmasını gənclərlə işin mühüm vəzifəsi hesab edir, gəncləri teatr, opera tamaşalarına, simfonik konsertlərə, sərgi salonlarına tez-tez getməyə, mədəniyyətin bütün növləri ilə maraqlanmağa çağırırdı [65, 46].

Gənclərin estetik tərbiyəsindən danışarkən Ulu Öndər qeyd edirdi ki, estetik tərbiyə gənclərdə nəinki gözəlliyi duymaq və başa düşmək qabiliyyəti formalaşdırmalı, həm də gözəlliyi yaratmaq tələbatı tərbiyə etməli, hər bir adamda olan bədii rüşeymləri aşkara çıxarmalıdır [65, 42].

Respublikada gənclərin mədəni, özfəaliyyət yaradıcılığına, gənc rəssamların, musiqiçilərin, şair və yazıçıların yaradıcılığına xüsusi diqqət yetirilirdi. Onları yaradıcılığa həvəsləndirmək üçün müxtəlif müsabiqə, festivallar keçirilir, mükafatlar təsis edilirdi. Uşaq-gənclər mətbuatı da respublika rəhbərinin xüsusi qayğısı və diqqəti ilə əhatə olunmuşdu.

Heydər Əliyev gənclərin bədən tərbiyəsi və idmanla məşğul olmalarını daim tövsiyə edir, müvafiq şəraitin yaradılması üçün bütün imkanların səfərbər edilməsini tələb edirdi. Azərbaycan partiya təşkilatının lideri kimi gənclər qarşısında son çıxışında – 1982-ci ildə keçirilmiş respublika komsomolunun XXXI qurultayında Heydər Əliyev kütləvi bədən tərbiyəsi və idman sahəsində

Azərbaycanda çox ciddi problemlərin və geriliyin olduğunu nəzərə çatdıraraq bu sahədə qısa müddət ərzində əsaslı dönüş yaradılmasını müvafiq strukturlar və komsomol təşkilatları qarşısında bir vəzifə olaraq qoymuşdu.

Heydər Əliyevin 70-ci illərdə və 80-ci illərin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində bu dövr Azərbaycan tarixinə əsl quruculuq və tərəqqi dövrü kimi daxil oldu. Gələcək müstəqil və çiçəklənən dövlətin iqtisadi, mənəvi-mədəni, kadr potensialı yaradıldı. Bu dövrdə Heydər Əliyevin gənclərlə bağlı yürütdüyü siyasət öz müsbət nəticəsini vermiş, gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevrilmiş, gənclərin fəallığı həyatın bütün sahələrində təzahür etməyə, Azərbaycan gəncliyi ölkəmizin dinamik inkişafında mühüm xidmətlər göstərməyə başlamışdır.

Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi o oldu ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı [50].

Lakin çox təəssüf ki, keçmiş SSRİ-də 80-ci illərin II yarısında baş vermiş siyasi proseslərin dağıdıcı nəticələri bu potensialın müəyyən qədər itirilməsi ilə nəticələndi. Mixail Qorbaçovun «yenidənqurma» avantürası sovet rejiminin siyasi, iqtisadi, mənəvi böhranını daha da dərinləşdirdi, onun süqutunu yaxınlaşdırdı.

Qorbaçov və erməni sövdəkarlarının fitnəkarlığı, «sapı özündən olan baltalar»ın xəyanəti sayəsində Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra Azərbaycanın fəlakətli dövrləri başlandı. Bu böyük siyasətçinin zorən istefasından cəmi 20 gün sonra ermənilər Azərbaycanın Qarabağ torpaqlarına iddia irəli sürərək təcavüzkar müharibəyə başladılar. Ermənilər yaxşı başa düşürdülər ki, nə qədər ki, Heydər Əliyev aktiv siyasi fəaliyyətdədir, onların məkrli planları baş tutmayacaq, Azərbaycanın bir qarış torpağını belə ələ keçirmək mümkün olmayacaqdır. Heydər Əliyevin hakimiyyətdən getməsi ilə Azərbaycanda dağıdıcı,

tənəzzül prosesləri güclənməyə başladı. 1989-cu ildən illik istehsal həcmi düşməyə başlamış və müstəqillik ərəfəsində sosial-iqtisadi və siyasi böhran dərinləşmişdi.

Dövlət müstəqilliyinin əldə edildiyi gündən Azərbaycan Respublikasında baş verən ictimai-siyasi proseslər, idarəetmə və istehsal intizamının pozulması, ölkənin məcburən cəlb olunduğu müharibə və bunun nəticəsində torpaqlarımızın işğalı, bir milyondan çox vətəndaşın qaçqın vəziyyətinə düşməsi, ayrı-ayrı siyasi və silahlı qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, dövlət çevrilişləri cəhdləri ölkənin ümumi inkişafına ciddi zərər vurmuş, məhsul istehsalı kəskin sürətdə azalmış, əhalinin rifahının pisləşməsinə səbəb olmuşdur. 1991–1993-cü illərdə respublikada ümumdaxili məhsulun həcmi 61,7% azalmış, sənaye məhsullarının istehsal həcmi 70%, kənd təsərrüfatı istehsalı iki dəfədən çox aşağı düşmüşdü [9]. Ümumiyyətlə, 90-cı illərin əvvəlləri Azərbaycanda iqtisadi tənəzzülün sürətlənməsi ilə səciyyələnir. 1991–1994-cü illərdə milli gəlir 50% azalmış, dövlət büdcəsi böyük kəsirlərlə formalaşmağa başlamışdı [147, 136–137].

İdxal və ixracın həcmi də 50%-dən çox aşağı düşmüşdü. Siyasi tələblərlə keçirilən tətillər, əslində, iqtisadi gerilik yaradır, istehsalın normal ahəngini, nizamını pozurdu. Təkcə 1989-cu ildə, tətillər nəticəsində Azərbaycan iqtisadiyyatına 218 mln. manat, 1990 ilin iki ayı ərzində isə 700 min manat ziyan dəymişdi [125, 1990, 23 noyabr]. Əmək və istehsal intizamının zəifləməsi, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi və s. səbəblər əhalinin güzəranının daha da pisləşməsinə gətirib çıxarırdı.

İşsizliyin, inflyasiyanın artması, regionlararası əlaqələrin pozulması, iqtisadiyyatın gücdən düşməsi bütün sosial təbəqələr kimi, gənclərin də həyat şəraitini dözülməz edirdi. Siyasi və sosial gərginlik, iqtisadi səbatsızlıq, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi gənclərə ağır və dramatik təsir göstərirdi.

Gəncləri ruhdan salan, ümidsiz vəziyyətə gətirən səbəblərdən biri də sosial ədalət prinsipinin pozulması idi. Adamlara biliyinə, qabiliyyət və bacarığına görə deyil, valideyninə, qohumlarına və

digər münasibətlərə görə qiymət verilməsi bir çoxlarının əl-qolunu bağlayır, mənəvi zərbə vururdu. Diplom alıb istehsalata gedən gənc ən aşağı əməkhaqqı alırdı. Fəhlə və tələbə yataqxanalarında ən adi şərait belə yox idi. Nəticədə sosial problemlərlə üzləşən gənc bədbinləşir və ümidini itirirdi. 80-ci illərin sonunda sosial təbəqələşmənin güclənməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar gənclərin həyatında baş verən mənfi proseslər də genişlənirdi.

İqtisadi hərc-mərcliyin bir səbəbi də siyasi hakimiyyət uğrunda mübarizə idi. Mütəllibov hakimiyyəti və onu əvəzləmiş Xalq Cəbhəsi iqtidarı islahatların alternativsizliyini dəfələrlə bəyan etsələr də, real olaraq heç bir dəyişiklik və islahat həyata keçirə bilmədilər. Nəticədə Azərbaycan istehsalın azalma göstəricisinə görə (59%) keçmiş SSRİ respublikaları arasında ilk yerlərdən birini tutmuşdu. ÜDM-in real həcmi əvvəlki illə müqayisədə 1993-cü ildə iki dəfə azalmış, sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı 47 faiz aşağı düşmüşdü. Əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı enmişdi. 1992–1994-cü illərdə istehlak mallarının qiyməti orta hesabla 3768 dəfə artsa da, real əməkhaqqı cəmi 130 dəfə, minimum əməkhaqqı isə 57 dəfə artmışdı [123, 45–65]. Bu isə əhalinin həyat şəraitinə ciddi olaraq mənfi təsir göstərirdi.

Bütün bunların əsas səbəblərindən biri də idarəetmə səviyyəsinin aşağı düşməsi, nizam-intizamın pozulması, nəticədə ölkənin iqtisadi potensialının tənəzzülə uğraması idi.

80-ci illərin birinci yarısından başlayaraq keçmiş SSRİ-də və bütün dünyada gedən ictimai-siyasi proseslərin nəticəsində Azərbaycan öz müstəqilliyini əldə etsə də, hakimiyyətdə olan qüvvələrin səbatsızlıq və səriştəsizliyi nəticəsində Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi [7].

Heydər Əliyev o illəri təhlil edərək qeyd edirdi ki, müstəqillik yoluna qədəm qoymuş bir ölkə kimi Azərbaycan üçün də öz daxili və xarici siyasət konsepsiyasını təxirə salmadan hazırlayıb həyata keçirilməsinə başlaması aktual və taleyüklü vəzifə idi. Təəssüf ki, 1991–1992-ci illərdə bu istiqamətdə heç bir iş aparılmadı.

Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış, qızğın hakimiyyət çəkişməsi güclənmişdi. Bütün bunlar Azərbaycana böyük zərbələr vururdu.

1992–1993-cü illərdə Xalq Cəbhəsinin hakimiyyəti dövründə ölkədə vəziyyət günü-gündən pisləşir, respublikada nəinki siyasi, iqtisadi, sosial islahatlar aparılmır, əksinə bu iqtidarın atdığı bütün addımlar cəmiyyəti sonu görünməyən uçuruma doğru sürükləyirdi. Nəticədə 1993-cü ilin yazında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi [50].

Böyük öndər 1991–1993-cü illəri Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər adlandırır, həm də bu illərdə Azərbaycanın «ölüm, ya olum» dilemması qarşısında qaldığını göstərirdi [50]. 1985-ci ildən başlayan iqtisadi və mənəvi böhran getdikcə dərinləşirdi.

80-ci illərin sonlarından Azərbaycan gəncliyinin həyatında totalitar sovet sisteminin iqtisadi, siyasi, mənəvi, ideoloji böhranı və süqutu ilə əlaqədar olaraq yeni mərhələ başlandı. Yenidənqurmanın sosial-iqtisadi və mənəvi fəsadları birinci növbədə gənclərə təsir göstərirdi. Respublika əhalisinin 60%-ni təşkil edən gənclərin problemləri daha da kəskinləşmişdi. 1989-cu ildə 15–29 yaşlı vətəndaşların sayı 1956 min və ya bütün əhalinin 27,9%-ni təşkil etmişdir. 1970-ci illə müqayisədə gənclərin xüsusi çəkisi 17,2%-dən 27,9%-ə qədər artsa da (10,7% çox), 1979-cu illə müqayisədə bu artım cəmi 0,1% təşkil etmişdi ki, bu da gənclərin artım sürətinin azaldığını göstərirdi. 1990-cı ildə keçmiş SSRİ respublikaları ilə müqayisədə 16–29 yaşlı gənclərin xüsusi çəkisinə görə Azərbaycan ən sonuncu yerlərdən birini tuturdu, halbuki 1979-cu ildə respublikamız bu göstəriciyə görə ikinci yerdə idi [165, 8–12]. Bütövlükdə xalq təsərrüfatında çalışan hər üç nəfərdən birinin (34,9%) yaşı 29-a qədər idi. Sahələr üzrə gənclərin ən çox xüsusi çəkisi informasiya hesablama xidməti (54,5%), sənaye (40,7%), mədəniyyət və incəsənət (39,1%), tikinti (38,7%),

kənd təsərrüfatı (38%), ən aşağısını isə idarəetmə orqanları (27,3%), xalq təhsili (23%) sahələri təşkil edirdi. Gənclərin ən çox məşğul olduqları sahə maddi istehsal sahələri (33–41%) idi [165, 48]. Məşğul əhalinin əksər hissəsini təşkil etməsinə baxmayaraq, rəhbər vəzifələr, müəssisə rəhbərləri, hətta orta rəhbər heyəti arasında gənclərin sayı çox az idi [165, 51]. Əmək qabiliyyətli əhali arasında gənclərin sayı üstünlük təşkil etsə də, iqtisadiyyatda çalışanların sayı təkcə 1983–1987-ci illərdə 1,7 faiz, sonrakı illərdə isə daha kəskin surətdə azalmışdı. 1975-ci ildə ali və natamam ali təhsilli məşğul gənclərin faizinə görə Azərbaycan SSRİ-də 2–3-cü, 1985-ci ildə isə 2-ci yeri tuturdusa, sonrakı illərdə respublikamız öz qabaqcıl mövqeyini tamamilə itirmişdi. 1989-cu ildə 16–29 yaş qrupunda ali təhsilli min nəfərə görə Azərbaycan Cənubi Qafqazda sonuncu yeri tuturdu (Azərbaycan – 61, Ermənistan – 95, Gürcüstan – 97). Ali məktəbi bitirən gənclər üçün öz ixtisasına uyğun iş tapmaq da əsl problemə çevrilmişdi. Təkcə 1985–1987-ci illərdə gənc mütəxəssislərin beşdə üçü öz ixtisası üzrə işləmirdi. İstehsalatda işləyən gənclərin orta aylıq əməkhaqqı digər kateqoriyadan olanlarla müqayisədə ikiqat aşağı idi [162, 49–52].

Mənzil almaq, ailə qurmaq təkcə gəncliyin deyil, cəmiyyətin ciddi probleminə çevrilmişdi. 1988-ci ildə mənzil almış gənclərin sayına görə Azərbaycan SSRİ-də 10-cu yerdə idi. Nəticədə mənzil-məişət şəraitini yaxşılaşdıra bilməyən gənc nikaha girə bilmir, bu da respublikada demoqrafik vəziyyətə öz mənfi təsirini göstərirdi. Hər 1000 nəfər əhaliyə 16–29 yaşlarında nikahda olanların sayına görə 1989-cu ildə Azərbaycan SSRİ-də yenə də sonuncu yeri tuturdu [162, 54]. 1989-cu ildə Azərbaycan SSRİ-də 30 yaşına çatmış gənclərin cəmi 29,3%-i, qadınların isə 22,1%-i ailə qurmuşdu [165, 87].

Elm, təhsil, mədəniyyət sahəsində də mənfi meyillər özünü göstərirdi. Elm sahəsində çalışan gənc mütəxəssislərin sayına görə Azərbaycan SSRİ-də doqquzuncu, mədəniyyət və incəsənət sahəsində beşinci, təhsil sahəsində isə on üçüncü yeri tuturdu [38, 361].

Ciddi sosial-məişət problemləri, işsizliklə, sosial ədalətsizliklə üzləşən gənclər respublikanı tərk etməli olur, kütləvi surətdə Rusiyaya, Ukraynaya və digər respublikalara köçüb gedirdilər. Bu da respublikanın sosial-iqtisadi və demoqrafik vəziyyətinə təsirsiz ötüşmürdü. Xüsusən kənd yerlərindən gənclərin kütləvi miqrasiyası nəticəsində əhalinin ümumi tərkibində qocalma prosesi güclənir, ailə qurmayan qızlarımızın sayı durmadan artırdı. Əhalinin yaş quruluşunda gələcəkdə baş verəcək çox ciddi mənfi meyillərin təzahürləri elə o vaxtdan görünməyə başlamışdı. Belə ki əhalinin ümumi sayında 29 yaşadək gənclərin xüsusi çəkisi azalmağa doğru meyil edərək 1979-cu ildə 65,8%-dən 1989-cu ildə 62,6%-ə, 1999-cu ildə 57,4%-ə, 2002-ci ildə isə 55,3%-ə enmişdi [29, 2000, 47–48].

İqtisadi tənəzzülün dağıdıcı fəsadları ən çox gənc nəslə təsir göstərirdi. 1987-ci ilin rəsmi statistikasına görə, ümumiyyətlə, işləməyən və oxumayan gənclərin sayı ümumi əhalinin 9,8%-ni təşkil edirdi. Bəzi rayonlar üzrə bu rəqəm daha yüksək idi. Məsələn, Yardımlı rayonu üzrə 42,4%, Neftçala rayonu üzrə 29,3%, Göyçay rayonu üzrə 24,9%, Laçın rayonu üzrə 24,6% [165, 56–7] idi. Ümumən, işləməyən əhalinin 66%-ni gənclər təşkil edirdi (müqayisə üçün Ermənistanda bu göstərici 46%, Gürcüstanda 37% təşkil edirdi) [125, 1989, 29 yanvar]. İşləməyən gənclər arasında isə qızlar mütləq əksəriyyət təşkil edirdilər.

Həyat səviyyəsinin əsas göstəricilərindən biri olan orta əməkhaqqının səviyyəsinə görə də Azərbaycan SSR 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində keçmiş SSRİ respublikaları arasında sonuncu – 15-ci yeri tutmuşdu. Müqayisə üçün bizdən əvvəl gələn Tacikistanda bu göstərici 206 manat, birinci yeri tutan Estoniyada 340 manat idi [169, 38–39]. Respublikada xalq istehlakı mallarının istehsalı da tələb olunan səviyyədən çox aşağı idi. Gənclər üçün mal istehsalı ümumi istehsalın cəmi 5–6%-i həcmində idi, baxmayaraq ki, gənclər əhalinin 1/3 hissəsini təşkil edirdilər [163, 1989 12 may].

Gənclər arasında aparılan sorğular da gənclərin öz maddi və mənəvi vəziyyətindən narazı olduğunu üzə çıxarırdı. 30 yaşadək

gənclərin 90%-i öz maddi vəziyyətlərini qeyri-qənaətbəxş hesab edirdilər. İqtisadi böhran gənclərin onsuz da aşağı olan istehlak səviyyəsini daha da aşağı salırdı. Ölkədə adi mallar belə defisit idi. Möhtəkirlik və alverçilik dəhşətli xarakter almışdı [162].

Gəncliyin ictimai həyatın kənarına atılması, onun ciddi sosial və ictimai fəaliyyətdən, hətta gənclərin öz problemlərinə dair qərarların qəbulundan, rəhbər orqanlarda iştirakdan, ictimai nəzarətdən kənarlaşdırılması, gənclərin biliklərinin, əməkhaqqının qiymətləndirməsində, ali məktəblərə, işə qəbulunda sosial ədalət prinsiplərinin pozulması, bütün bunlar gəncliyin cəmiyyətlə təbii münasibətlərini korlayır, gəncliyin öz daxilində neqativ halların artmasına gətirib çıxarırdı. Gənclərin problemlərinin həlli üçün iqtisadi, elmi-texniki tərəqqinin, sosial yaradıcılığın və mənəvi inkişafın bütün istiqamətləri üzrə ona ən geniş perespektivlərin açılması tələb olunurdu. Lakin gəncliyin öz sosial-mənəvi problemlərinin həllindən faktiki olaraq uzaqlaşdırılması, keçmiş SSRİ-nin totalitar dövlət kimi süqutunun sürətlənməsi şəraitində bu vəzifənin öhdəsindən gəlmək mümkün deyildi.

Mövcud sosial-iqtisadi, siyasi, mənəvi tənəzzül şəraitində hər hansı dövlət gənclər siyasətindən söhbət belə gedə bilməzdi. Partiya və komsomol gəncliyin inamını və etimadını tamamilə itirmişdi. Düzdür, 80-ci illərin sonunda Azərbaycan SSR-də gənclərlə bağlı müəyyən hüquqi-siyasi addımlar atılmağa cəhd göstərilsə də, onların səmərəli tətbiqi təmin olunmadı.

1989-cu ildən başlayaraq ALKGİ MK-nın fəal iştirakı ilə Azərbaycan SSR-də dövlət gənclər siyasəti haqqında qanun hazırlanmasına başlandı. Geniş müzakirələrdən sonra qanun layihəsi 1991-ci il noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalandıqdan sonra qüvvəyə mindi [7, 1992, 9 yanvar]. Qanun dövlət gənclər siyasətinin həyata keçirilməsinin hüquqi, iqtisadi, siyasi və təşkilati əsaslarını, eləcə də əhalinin digər sosial qrupları ilə gənclərin əsl bərabərliyinin təmin olunmasına yönəldilmiş hüquq və vəzifələr sistemini təmin etməli idi. 5 fəsildən ibarət qanunda dövlət gənclər sisteminin

mahiyyəti və prinsipləri, həyata keçirilməsi qaydaları, təşkilati əsasları, təminatları, gənclərin hüquqi və sosial müdafiəsi, sahibkarlıq fəaliyyəti, uşaqlı ailələrə müavinətlər, gənc ailələrə və vətəndaşlara müxtəlif güzəştlər, gənclər təşkilatlarının fəaliyyətləri, onlara yardım göstərilməsi, gənclərə çoxsaylı güzəştlər edilməsi kimi müddəalar öz əksini tapmışdı.

Maddi və maliyyə cəhətdən əsaslandırılmamış, həyata keçirilmə mexanizmi müəyyənləşdirilməmiş bu qanun da həmin dövrün bütün digər qanunverici aktları kimi işləmədi.

Müvafiq qanun qəbul edildikdən sonra onun müddəalarını həyata keçirmək üçün təşkilati strukturların yaradılması məsələsi ortaya çıxdı. Gənclər siyasəti üzrə təşkilati, idarəetmə orqanlarının yaradılması zəruriliyi gənclər siyasəti haqqında qanunda öz əksini tapmışdı (maddə 2, bənd 4).

Yeri gəlmişkən, o dövrdə həm Qərb ölkələrində, həm də MDB ölkələrində gənclərlə iş aparan müvafiq dövlət strukturları ya fəaliyyət göstərirdi, ya da təzəcə yaradılmağa başlamışdı ki, onların əsas vəzifəsi ölkədəki gənclərlə işin planlaşdırılması və əlaqələndirilməsi idi. Gənclər siyasəti üzrə dövlət orqanları 80-dən çox ölkədə mövcud idi [116, 1991, 7 dekabr].

Dövlət gənclər siyasəti haqqında qanuna görə gənclərlə əlaqədar işləri dövlət rəhbərliyi, səlahiyyətli dövlət hakimiyyət orqanları olan xalq deputatları sovetləri həyata keçirməli idilər. Gənclərlə əlaqədar işlər üçün Azərbaycan Respublikası Ali Soveti, Naxçıvan MR Ali Məclisinin və yerli xalq deputatları sovetlərinin daimi komitələri və komissiyalarının yaradılması nəzərdə tutulurdu.

Qanunda gənclərlə iş üzrə komissiyalara bir sıra hüquqlar da verilmişdi. Lakin respublikada baş verən siyasi proseslər, hakimiyyət strukturunda ciddi dəyişikliklər, o cümlədən yerli sovetlərin ləğvi, qanunun digər müddəaları kimi bu tələbin də yerinə yetirilməsinə mane oldu. Respublikada gənclər siyasətini həyata keçirən vahid dövlət orqanının yaradılması yalnız 1994-cü ildə, ümummilli lider Heydər Əliyevin siyasi iradəsi sayəsində baş tutdu.

80-ci illərin sonlarında keçmiş SSRİ-də cərəyan edən proseslər, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü Azərbaycan gənclərinin siyasi fəallığının genişlənməsinə gətirib çıxardı. Azərbaycanın müstəqilliyi uğrunda vüsət alan xalq hərəkatının əsas aparıcı qüvvəsini də məhz gənclər təşkil etdilər. Ermənilərin hərbi təcavüzünü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və düşmənə fəal müqavimət göstərilməsində gənclərimizin xidmətləri böyükdür. Mərkəzin ermənipərəst mövqeyinə qarşı çıxış edən və bu məqsədlə ilk qeyri-formal təşkilatları da yaradan məhz Azərbaycan gəncliyi oldu. 1987–1988-ci illərdə, əsasən, gənclərdən ibarət «Yurd», «Çənlibel», «Müstəqillər», «Qala», «Aşıq Ələsgər», «Ozan», «Şah İsmayıl», «Bakı Gənc alimlər klubu», «Varlıq» kimi təşkilatlar Azərbaycanda demokratiya və müstəqillik uğrunda mübarizənin simvoluna çevrildilər. İmperiyanın antiazərbaycan siyasətinə qarşı ilk mitinq də 1988-ci il fevralın 19-da tələbə gənclər tərəfindən keçirilmiş, həmin ilin sonlarında geniş vüsət almış və tarixə «Meydan hərəkatı» kimi düşmüş hərəkatın əsas təşəbbüskarları və iştirakçıları da gənclər olmuşdular. Bakıdan başqa Azərbaycanın digər bölgələrində gənclərimiz fəal siyasi mübarizəyə qoşulmuşdular. 1989-cu ildə Naxçıvanda və İranla sərhəd digər rayonlarımızda həyata keçirilən sərhəd hərəkatında da onlar yaxından iştirak etmişdilər. Minlərlə adam mitinq və nümayişlərə Heydər Əliyevin portreti ilə çıxırdı. Gənclər respublikanı ağır vəziyyətdən çıxara biləcək yeganə qüvvə kimi Heydər Əliyevi görürdülər [38, 356–357].

1990-cı il yanvarın 19–20-də sovet qoşunlarının Bakıda və respublikanın digər rayon və şəhərlərində törətdikləri qanlı cinayətlərin də ilk şəhidləri gənclər olmuşlar.

Milli-demokratik hərəkatın genişlənməsi, imperiyanın süqutu, totalitar partiya-dövlət sistemin tərkib hissəsi olan komsomolun böhranını dərinləşdirdi, bu təşkilatın gənclər arasında nüfuzunu tamamilə itirməsinə səbəb oldu. 1990–1991-ci illərdə Azərbaycan komsomolunu labüd iflasından xilas etmək üçün edilən cəhdlər, o cümlədən onun adının iki dəfə dəyişdirilməsi də

nəticəsiz oldu. ALKGİ-nin 1990-cı ilin noyabrında keçirilmiş XXXIII qurultayında təşkilatın adı dəyişdirilərək Azərbaycanın Tərəqqisi Uğrunda Kommunist Gənclər İttifaqı qoyuldu. ATUKGİ özünü partiya orqanlarına və ümumittifaq komsomoluna tabe olmayan, əsas vəzifəsi gənclərin sosial müdafiəsi, hüquq və azadlıqlarının keşiyində duran gənclər təşkilatı elan etdi [7, 1990, 27 noyabr, 4 dekabr]. Lakin 1991-ci ilin avqustunda baş vermiş dövlət çevrilişi cəhdi respublikada komsomolun sonrakı fəaliyyətinə ciddi təsir göstərdi.

Düzdür, Azərbaycan Respublikası Prezidentinin respublikanın dövlət orqanlarında, müəssisə, idarə və təşkilatlarında siyasi partiyaların və siyasi məqsədlər güdən kütləvi ictimai təşkilatların təşkilati strukturlarının fəaliyyətinin dayandırılması haqqında 26 avqust 1991-ci il tarixli Fərmanı respublika komsomolunun struktur bölmələrinə aid edilməsə də [7, 1991, 29 avqust], ATUKGİ MK hesab etdi ki, Gİ gənclərin könüllü, müstəqil, qeyri-siyasi, ictimai, ideoloji buxovlardan azad təşkilatı olmalıdır [7, 1991, 3 sentyabr].

ATUKGİ-nin 14 sentyabr 1991-ci ildə keçirilmiş konfransında təşkilatın adından, ideoloji və siyasi platformasından imtina edilərək onun bazasında Azərbaycan Gənclər İttifaqının (AGİ) yaradılması haqqında qərar qəbul edildi [7, 1991, 17 sentyabr]. AGİ-nin əsas vəzifəsi «gənclərin hüquq və mənafelərinin, intellektual və mənəvi inkişafının, gənclərin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, gənclər turizminə və gənclərin beynəlxalq əməkdaşlığına dəstək» idi [7, 1991, 19 sentyabr]. Yeri gəlmişkən, hələ avqustun 26-da Naxçıvan MR Ali Məclisinin qərarı ilə MR ərazisində Kommunist Partiyası ilə bərabər, komsomolun da bütün struktur bölmələrinin fəaliyyəti dayandırılmış və onun mülkiyyəti milliləşdirilmişdi [133, 792].

Həmin dövrdə gənclərin siyasi və ictimai fəaliyyətinin bir nümunəsi də onların ictimai-siyasi təşkilatlarda birləşmələri oldu. 1991-ci ilin sonlarında Azərbaycanda AGİ, Azərbaycan Sosial-Demokratik Gənclər Təşkilatı, Tələbə Gənclər Assosiasiyası,

Millətçi Gənclər Təşkilatı, Gənc Türklər Təşkilatı və digər təşkilatlar, gənclər təşkilatlarının «dəyirmi masası» fəaliyyət göstərirdi. Bütövlükdə o dövrdə respublikada 60-dan çox ictimai təşkilat var idi [170, 1991, №29, 8–14 avqust].

Yaranmaqda olan siyasi partiyaların tərkibində gənclər təşkilatları yaradılmış, gənclər qeyri-hökumət, ictimai təşkilatların («Vətən», «Qayğı», «Qarabağa Xalq Yardımı Komitəsi» və s.) fəaliyyətində də yaxından iştirak edirdilər.

Gənclər təşkilatlarının hüquqi statusu «Dövlət gənclər siyasəti haqqında» 13 noyabr 1991-ci il tarixli Qanunla, «İctimai birliklər haqqında» qanunvericiliklə, eləcə də digər qanunvericilik aktları ilə müəyyən edilirdi. Dövlət gənclər siyasəti haqqında qanunda dövlətin gənclər təşkilatları ilə qarşılıqlı münasibətlərinin əsasları, gənclər təşkilatlarına dövlət yardımının formaları, gənclər təşkilatlarının beynəlxalq fəaliyyət prinsipləri öz əksini tapmışdı.

Hər bir dövlətdə gənclərin ictimai təşkilatları dövlətin gənclər siyasətinin həyata keçirilməsində mühüm rol oynayırlar. Onlar dövlətlə gənclər arasında əsas əlaqələndirici halqədirlər. Dövlət bütün səviyyələrdə öz gənclər siyasətini, birinci növbədə, gənclər birliklərinə istinad etməklə həyata keçirirdi. Dünya praktikası da sübut edir ki, gənclərin tələbatlarının ödənilməsi, hüquqlarının müdafiəsi, böyüməkdə olan nəslin hərtərəfli inkişafı, müvafiq maddi bazası, hazırlıqlı kadr heyətinə malik gənclər təşkilatları olmadan təmin edilə bilməz. Bunu Qərb ölkələrinin tarixi təcrübəsi də təsdiq edir. Orada gənclər təşkilatları dövlət gənclər siyasətinin həyata keçirilməsində mühüm rol oynayırlar.

Lakin çox təəssüf ki, SSRİ-nin süqutu ərəfəsində və Azərbaycanın yenidən müstəqillik qazandığı ilk dövrdə, 1991–1993-cü illərdə yaranan gənclər təşkilatları respublikada baş alıb gedən hərc-mərclik şəraitində dövlətin vahid gənclər siyasətinin işlənib hazırlanması istiqamətində heç bir əməli təşəbbüs göstərə bilmədilər. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif siyasi partiya və qurumların təsiri altına düşdü.

Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prose-

sinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunmasını, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsini tələb edirdi. Lakin hakimiyyət uğrunda mübarizədən doğan qarmaqarışıqlıq, Qarabağ müharibəsində acınacaqlı məğlubiyyət, torpaqlarımızın işğalı şəraitində dövlət orqanlarının gənclərlə bağlı hər hansı fəaliyyət istiqamətindən söhbət gedə bilməzdi. Əksinə, belə şəraitdə gənclərimizin sosial-iqtisadi, mənəvi-psixoloji vəziyyəti daha da pisləşir, neqativ meyillər təhlükəli səviyyəyə çatırdı. Gənclərdə gələcəyə inam, vətənpərvərlik hissləri getdikcə aşağı düşməkdə idi.

Beləliklə, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycan gəncliyinin qarşısında siyasi, iqtisadi, mənəvi sahələrdə bir sıra həlli vacib, mürəkkəb vəzifələr və problemlərin durmasına baxmayaraq, mövcud şəraitdə gənc nəslin həyat fəaliyyəti üçün mütərəqqi şəraitin yaradılmasına yönəldilmiş səmərəli dövlət gənclər siyasətini formalaşdırmaq və həyata keçirmək mümkün olmadı.

Dövlət gənclər siyasətini özündə ehtiva edən bir sıra addımlar atılsa da, o cümlədən müvafiq qanun qəbul edilsə də, təşkilati mexanizmlərin, maliyyə-iqtisadi resursların olmaması, bütövlükdə mövcud ictimai-siyasi və iqtisadi şərait vahid dövlət gənclər siyasətinin hazırlanıb həyata keçirilməsinə imkan yaratmadı. Nəticədə gənclərlə iş sahəsində böyük boşluq yarandı.

## 1.2. Gənclərlə bağlı yeni dövlət siyasəti və strukturlarının formalaşması

1993-cü ilin iyununda Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycan Respublikasında ali siyasi hakimiyyətə qayıdışı ölkəmizi ağır fəlakətlərdən, parçalanmaqdan və müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Böyük öndərin qayıdışı ilə gənclərin qarşısında duran problemlərin həlli üçün real imkanlar yarandı. Gənc nəslə qayğı və diqqət dövlətin ən vacib fəaliyyət istiqamətlərindən birinə çevrildi. Heydər Əliyev uşaq, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətlərinin və prinsiplərinin müəyyənləşdirilməsi, onların sosial-iqtisadi, mənəvi

problemlərinin aradan qaldırılması, ictimai-siyasi fəallıqlarının artırılması və yenidən təşkilatlanması üçün kompleks strategiya işləyib hazırladı və həyata keçirməyə başladı.

Milli dövlətçiliyimizin təhlükə altında olduğu, rayonlarımızın bir-birinin ardınca ermənilər tərəfindən işğal edildiyi mürəkkəb anlarda, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Ali Sovetinin sədri, prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyev ölkənin bir qrup gənci ilə görüşmək üçün vaxt taparaq onların respublikanın və gəncliyin problemlərinə dair fikir və mülahizələrini dinlədi, gənclərə öz tövsiyələrini verdi. Proqram xarakterli bu çıxışında Heydər Əliyev Azərbaycanın düşdüyü mürəkkəb şəraiti dərindən təhlil edərək gəncləri ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırdı [76].

Dahi analitik Azərbaycanın vadar edildiyi müharibənin səbəblərini açıb göstərərək bəyan etdi ki, bu müharibə başıbəlalı Azərbaycanı parçalamaq, yenidən dağıtmaq məqsədi güdən böyük siyasi qüvvələr tərəfindən başlanıb. Müharibədəki uğursuzluqlarımızın daha çox subyektiv səbəblərlə bağlı olduğunu qeyd edən Heydər Əliyev bunu respublikamıza rəhbərlik etmiş dairələrin dövlət, millət, xalq haqqında düşünməməklərinin nəticəsi olaraq göstərmişdi. Gənclərimizə Azərbaycanın düşdüyü vəziyyət haqqında düzgün təsəvvürə malik olmağı, eyni zamanda bədbinliyə uymamağı, gələcəyə nikbinliklə baxmağı tövsiyə edirdi [76].

Hərbi əməliyyatların dayandırılması, ictimai-siyasi sabitliyin və qanunçuluğun təmin edilməsi ilə ölkənin qarşısında duran mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi problemlərin həlli üçün ilkin şərait yarandı. Ölkə vətəndaşlarının üçdə bir hissəsini təşkil edən gənc nəslin problemlərinin həllini özündə ehtiva edən vahid gənclər siyasətinin formalaşdırılması istiqamətində də ilk səmərəli tədbirlər həyata keçirilməyə başlandı.

Müstəqil dövlət quruculuğu prosesi gənclərlə bağlı siyasətin yeni şəraitə və reallıqlara uyğun həyata keçirilməsini, Azərbaycan gənclərinin yenidən təşkilatlanmasını zəruri edirdi. Gənclər

hərəkatını əlaqələndirmək, gənclərin problemlərini sistemli şəkildə həll etmək, gənclərlə bağlı dövlət siyasətini həyata keçirmək üçün xüsusi dövlət strukturunun yaradılması günün tələbinə çevrilmişdi. Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və Azərbaycan Respublikasının Milli Məclisinin 1994-cü il 26 iyul tarixli Qərarı ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (GİN) yaradıldı. Həmin qərara müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında 1994-cü il 26 iyul tarixli Fərmanı imzalandı. Həmin fərmanda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə on gün müddətində Nazirliyin funksiyalarını, hüquq və vəzifələrini özündə əks etdirən əsasnaməsinin və strukturunun hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinin təsdiqinə təqdim edilməsi tapşırıldı [32, 6–7].

Fərmanda yeni yaradılmış nazirliyin qarşısında ölkənin sosial-iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun olaraq gənc nəslin tərbiyəsi, gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi, gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahat proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması, gənclərin sosial, mənəvi və fiziki inkişafını təmin edən fəaliyyət sahələrinin istiqamətləndirilməsi kimi vəzifələr qoyulmuşdu. Sənəddə gənclərin vətənpərvərlik, vətənə sədaqət, müstəqilliyin, dövlətçiliyin, torpaqlarımızın müdafiəsinə daim hazırlıq ruhunda tərbiyə edilməsi Gənclər və İdman Nazirliyinin əsas vəzifələrindən biri kimi müəyyənləşdirilmişdi. Prezidentin fərmanında gənclərin və uşaqlarının sosial problemlərin həlli də dövlətin gənclər siyasətinin mühüm tərkib hissəsi kimi göstərilir, Nazirliyin qarşısında gənclər arasında işsizliyin aradan qaldırılması üçün başqa dövlət orqanları ilə birgə fəaliyyət göstərməsi, aztəminatlı ailələrdən olan uşaqların və yetim uşaqların sosial

vəziyyətinin yaxşılaşdırılmasına dair proqramların həyata keçirilməsi, beynəlxalq prinsip və normalara uyğun uşaq hüquqları müdafiə sisteminin yaradılması, gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi üçün digər dövlət idarəetmə orqanları ilə işinin əlaqələndirilməsi məsələləri qoyulurdu [32, 6–7].

Fərmana uyğun olaraq, Nazirlik Azərbaycan Respublikasında gənclər hərəkatının genişlənməsində və inkişafında əlaqələndirici funksiya daşıyan dövlət orqanı olaraq gənclər təşkilatlarının formalaşmasında, gənclərin və onların təşkilatlarının beynəlxalq əməkdaşlığının inkişaf etdirilməsində yaxından iştirakı nəzərdə tutulurdu.

Gənclər və İdman Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən birini Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafının təmin edilməsi, bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsi təşkil edirdi. Bunu nəzərə alaraq Nazirlik qarşısında ölkədə bədən tərbiyəsi sahəsində milli proqramın həyata keçirilməsi, xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliği, idmanın və bədən tərbiyəsinin kütləviliyini təmin etmək məqsədilə digər dövlət orqanları və ictimai təşkilatlarla birgə idmanın maddi-texniki bazasının inkişaf etdirilməsi, Azərbaycanın beynəlxalq idman əlaqələrinin genişləndirilməsinə kömək göstərilməsi kimi konkret vəzifələr qoyulmuşdu [32, 7].

Qısa zaman kəsiyində Gənclər və İdman Nazirliyinin strukturları formalaşdırıldı, maliyyə və maddi-texniki təchizatı ilə bağlı məsələlər öz həllini tapdı. Gənclər və İdman Nazirliyi tərəfindən Nazirliyin Əsasnaməsi, gənclərlə iş sahəsində milli siyasət konsepsiyası və əhalinin fiziki tərbiyə proqramı hazırlanaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə mindi. Əsasnamədə Nazirliyin əsas vəzifələri, funksiyaları, hüquqları, sistemi və fəaliyyətinin təşkili prinsipləri öz əksini tapmışdı. Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi gənclərlə iş və idman

sahələrində dövlət siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanına çevrildi. 1994-cü il ərzində Azərbaycan Respublikasının yerli icra hakimiyyəti strukturlarının tərkibində gənclər və idman idarə və şöbələri təsis olunaraq fəaliyyətə başladılar. 30 dekabr 1994-cü ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi də təşkil olundu.

Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilmiş, Nazirliyin yeni strukturları formalaşmış, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, onların beynəlxalq əlaqələrinin inkişafı sahəsində bir sıra işlər görülmüş, müvafiq dövlət proqramları həyata keçirilməyə başlanılmışdı.

Azərbaycan Respublikasında gənclər hərəkatının inkişafında, gənclərlə işin yeni səviyyəyə qalxmasında Azərbaycan gənclərinin forumları çox mühüm rol oynadı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, gənclər təşkilatlarının çoxsaylı təklif və müraciətlərini nəzərə alaraq Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunun keçirilməsi haqqında 26 yanvar 1996-cı il tarixli Sərəncam imzaladı. GİN-ə, şəhər və rayon icra hakimiyyətləri, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və digər əlaqədar təşkilatlarla birgə Gənclərin I Forumunun hazırlanması və keçirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi tapşırıldı [146].

1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikasının gənclərinin I Forumu işə başladı. Forumda ölkənin bütün rayon və şəhərlərini, gənclərin müxtəlif təbəqələrini, təşkilatlarını, siyasi partiyaları təmsil edən 2 minədək nümayəndə iştirak edirdi. Gənclərin ali məclisində onlar azad, sərbəst şəkildə öz problemlərindən, ölkənin qarşısında duran məsələlərdən danışmış, təklif və arzularını dövlət başçısına, ali hakimiyyət orqanlarına çatdırmaq imkanı əldə etmişdilər. Heydər Əliyevin göstərişi ilə Foruma respublikanın ali hakimiyyət orqanlarının rəhbərləri, yerli icra hakimiyyəti başçıları da dəvət edilmişdilər. Onların buraya dəvət

olunmasında məqsəd «gənclərin problemlərini bilavasitə eşidib, hiss edib bunların həlli üçün tədbirlər görülməsi» idi. Heydər Əliyevin qeyd etdiyi kimi, «dövlət orqanlarının vəzifəsi, hakimiyyət orqanlarının vəzifəsi gənclərə diqqət artırmaq, gənclər probleminin həll olunması ilə bundan sonra daha da yaxından məşğul olmaq və irəli sürülən təkliflərin həyata keçirilməsi üçün çalışmaq, lazımi tədbirlər görməkdən ibarətdir» [70, 93].

Müstəqil Azərbaycan gənclərinin ilk mötəbər toplantısında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev proqram xarakterli çıxış edərək, Azərbaycan gəncləri qarşısında duran əsas vəzifələri müəyyənləşdirmiş, onların problemlərinin həlli yollarını göstərmişdir.

«Azərbaycanın gələcəyi etibarlı əllərdədir» deyən Ümummilli Lider əminliklə bildirirdi ki, yetişməkdə olan nəsil müstəqil Azərbaycan Respublikasının gələcəyini mütləq qoruyub saxlayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti Forumda və ondan sonra da gənclər tərəfindən irəli sürülmüş bir sıra təkliflərə dərhal reaksiya verərək, bu təkliflərin həyata keçirilməsi ilə bağlı müvafiq addımlar atmışdır. Ölkə başçısının göstərişi ilə Gənclik Beynəlxalq Turizm Mərkəzi, uşaq və pionerlər mərkəzləri, əvvəllər komsomol təşkilatına məxsus olmuş əksər obyektlər Gənclər və İdman Nazirliyinin balansına keçirilərək yeni məzmunda gənclərin ixtiyarına verildi. Gənclərin sosial-mənəvi, məişət, ailə, təhsil problemlərinin həlli ilə bağlı konkret proqramların hazırlanmasına başlandı. Prezidentin tapşırığına əsasən gənclər və uşaq mətbu orqanlarının bir neçəsinin maliyyə məsələsi müsbət həll olunmuş və onlar dövlət büdcəsindən maliyyələşdirilməyə başlanmışlar.

Azərbaycan gənclərinin I Forumundan sonra gənclərlə bağlı dövlət siyasəti daha mütəşəkkil və məqsədəuyğun şəkildə aparılmağa başlandı. Prezident Heydər Əliyev bu işlərə bilavasitə rəhbərlik edirdi.

Görülən işlər nəticəsində Azərbaycan Respublikasında gənclər arasında aparılan iş xeyli canlanmış, onların istiqamətləri

müəyyənləşdirilmiş, gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsində müəyyən nailiyyətlər əldə edilmişdi. Bütün bunlar ölkədə gənclər arasında aparılan işin düzgün qurulduğunu sübut edirdi. Heydər Əliyev Gənclər və İdman Nazirliyinin qısa müddətdə gördüyü işləri müsbət qiymətləndirərək bu işləri daha səmərəli davam etdirməyi tələb edirdi.

Gənclərin I Forumundan sonra keçən müddətdə bu sahədə görülən işlərin vəziyyəti ilə tanış olmaq məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyev 1997-ci il fevralın 1-də Forum nümayəndələrinin bir qrupu ilə görüşdü. Dövlət başçısı görüşdə bir sıra digər təkliflərlə yanaşı, Azərbaycanda gənclər gününün təsis edilməsi ilə bağlı irəli sürülmüş təklifə də müsbət yanaşmışdı. Azərbaycanda dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu və 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikasının gənclərinin I Forumunun keçirildiyini nəzərə alaraq Azərbaycan Prezidenti elə həmin gün imzaladığı sərəncamla 2 fevralın «Azərbaycan Gənclər Günü» elan edilməsi haqqında Sərəncam verdi [171]. Bununla da ölkəmizdə gənclər bayramının qeyd edilməsi mütərəqqi bir ənənəyə çevrildi. Ölkə prezidenti 1998-ci il fevralın 2-də Azərbaycan gəncləri gününün qeyd edilməsi ilə bağlı keçirilən bayram mərasimində iştirak edərək onlara öz dəyərli məsləhətlərini və tövsiyələrini verdi. Sonrakı illərdə də o dövlət başçısı kimi bu bayramlarda bir neçə dəfə şəxsən iştirak edir və ya təbrik məktubu göndərirdi. Həmin bayram mərasimində çıxış edən Heydər Əliyev 1993-cü ildən sonra görülən işlərə yekun vuraraq bu illəri Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanılması, iqtisadiyyatın, milli ordunun, dövlət strukturlarının yaranması illəri kimi səciyyələndirmiş, bütün sınaqlardan, çətinliklərdən məharətlə çıxdığımızı, ölkədə sağlam əhvali-ruhiyyə, ictimai-siyasi sabitlik mövcud olduğunu göstərmişdi. O qeyd etmişdi ki, bu illərdə Azərbaycanda əldə olunan ən böyük nailiyyətlərdən biri – ölkəmizin sağlam, yüksək ideallarla yaşayan, xalqına, vətəninə, torpağına hədsiz sədaqət hissləri ilə bağlanan gənclərinin olmasıdır [53].

Heydər Əliyev hər imkan tapdıqca gənclərlə görüşməyi, onların problemləri ilə maraqlanmağı, təklif və ideyalarını dinləməyi özünə mənəvi borc bilirdi. 1998-ci il fevralın 18-də Yeni Azərbaycan Partiyası gənclər təşkilatı nümayəndələrinin ümumrespublika toplantısında iştirak edən Prezident YAP-çı gənclər qarşısında duran vəzifələrin bütün respublika gənclərinə şamil olunduğunu, ən ümdə vəzifənin isə Azərbaycan Respublikasının dövlət müstəqilliyini qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızın azad edilməsinə nail olmaq vəzifəsi olduğunu vurğulamışdır. Prezidentin ölkədə gedən ictimai-siyasi prosesləri təhlil edərək gəncləri bu proseslərdə yaxından iştirak etməyə, demokratik cəmiyyət quruculuğuna öz töhfələrini verməyə səslədi [90]. 1998-ci il mayın 20-də Heydər Əliyev Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsas atributlarından sayılan milli pasportları bir qrup gəncə təqdim etdi. Bu hadisənin təsadüfi olmadığını söyləyən Prezident gənclərin cəmiyyətin əksəriyyətini təşkil etdiyini, bizim həm bu günümüz, həm də gələcəyimiz olduğunu vurğulayaraq konstitusiyanın onlara verdiyi hüquqlardan səmərəli istifadə etməyi, eyni zamanda konstitusiyanın öz vətəndaşının üzərinə qoyduğu vəzifələri də uğurla yerinə yetirmələrini arzuladı [66].

Azərbaycan gəncliyi də Prezidentin ona göstərdiyi etimadı doğruldaraq, onun gördüyü işlərə, apardığı siyasətə, vətənə, dövlətçiliyə sədaqət nümayiş etdirərək 1998-ci ilin oktyabr ayındakı prezident seçkilərində Heydər Əliyevə yekdilliklə səs verdi.

I Forumun qətnaməsinə uyğun olaraq 1999-cu il martın 2–3-də Azərbaycan gənclərinin II Forumu keçirildi. Forumun işində iştirak edən ölkə prezidenti öz bilik və bacarıqlarını reallaşdıra bilmələri üçün gənclərə şərait yaratmağı, müstəqil dövlət quruculuğu prosesində onların potensialından daha səmərəli istifadə etməyi bütün dövlət orqanlarına tövsiyə etdi [77].

Forumda plenar iclaslarla yanaşı, 11 istiqamət üzrə bölmə iclaslarının təşkili, onun işində gənclərin daha fəal iştirak etməsinə, I Forumla müqayisədə daha çox nümayəndənin çıxış etməsinə şərait yaratmışdı. II Forum görülmüş işləri müsbət qiymətləndirdi

və dövlət gənclər siyasətinin keyfiyyətcə yeni mərhələsinin başlanğıcını qoydu. Heydər Əliyevin qeyd etdiyi kimi, artıq tam qətiyyətlə demək olar ki, Azərbaycan gəncləri təşkilatlanıb, birləşib, cəmiyyətdə öz yerini tutub və müstəqil Azərbaycanın inkişaf etməsi üçün lazımi işlər görürlər [77].

Forumda gəncliyin vəziyyəti, mövcud nöqsanlar və qarşıda duran vəzifələr ətraflı müzakirə edildi. Forumda çıxış edən gənclər onların problemlərinə biganə olan dövlət orqanlarını ciddi tənqid etmişdilər. Prezident gənclərin bu tənqidi çıxışlarını yüksək qiymətləndirərək hamının onlardan nəticə çıxarmasını tələb etmiş və söz vermişdi ki, irəli sürülən təklif və layihələrə onun tərəfindən diqqətlə baxılacaq və lazımi qərarlar qəbul ediləcəkdir [77]. Bu prezidentin gənclərin qayğı və problemlərinə diqqətlə yanaşmasının əyani təzahürü idi. Respublika prezidenti 1993-cü ildən sonra Azərbaycan Respublikasının siyasi və iqtisadi sahələrdə qazandığı nailiyyətlər barədə gəncləri məlumatlandırmış, ölkədə aparılan islahatların uğurla həyata keçirilməsi üçün gəncləri daha da fəal olmağa çağırmışdı. Ölkə prezidenti üzünü bütün gənclərə tutaraq müraciət etmişdi. «Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun! [77, 221] Bu sözlər hər bir Azərbaycan gəncinin həyat devizinə, həyat amalına çevrildi.

Forumdan az müddət keçəndən sonra, 1999-cu il iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Dövlət gənclər siyasəti» haqqında Fərman imzaladı. Fərmanda Azərbaycan gəncliyinin XX əsrdə keçirdiyi yola nəzər salınmış, xalqımızın əldə etdiyi uğurlarda onun rolu qeyd edilmiş, müstəqillik əldə edildikdən sonra gənclər siyasəti sahəsində atılan addımlara toxunulmuşdur. Fərmanda dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində həllini gözləyən bir sıra problem və məsə-

lələrin mövcudluğu qeyd edilir, bu problemlərin elmi şəkildə öyrənilməsi, ayrı-ayrı dövlət hakimiyyətinin və idarəetmə orqanlarının gənclərlə iş üzrə əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsi üçün lazımi şəraitin yaradılması vacibliyi vurğulanırdı. Gənclərin daha geniş təbəqələrinin dövlət idarəetmə işlərinə cəlb olunması və bunun üçün lazımi maliyyə vəsaitinin ayrılmasına ehtiyac olduğu, ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq, yeniyetmə və gənclərin üzləşdiyi problemləri həll etmək, onları yeni dövrün tələblərinə uyğun hazırlamaq üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruriliyi diqqətə çəkilirdi. Fərmanda Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planının hazırlanması, Azərbaycan Respublikası GİN nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin yaradılması, AR GİN dövlət gənclər siyasətinin həyata keçirilməsinin gedişi haqqında hər təqvim ilinin sonunda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına hesabat təqdim etməsi nəzərdə tutulmuşdu [43].

Bütövlükdə 1997–2000-ci illərdə dövlət gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görülmüşdü. Həmin illərdə uşaq və gənclərin fiziki, mənəvi vətənpərvərlik tərbiyəsini yaxşılaşdırmaq, sosial-iqtisadi problemlərini həll etmək üçün bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdu. «Uşaq hüquqları haqqında» (19 may 1998-ci il), «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında (22 iyun 1999-cu il) Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1998-ci il tarixli müvafiq Fərmanı, «Gənc ailə» (16 fevral 1999-cu il), «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi» (17 fevral 1999-cu il), «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» (22 iyun 2000-ci il), «İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi və s. problemlərin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək» (4 avqust 2000-ci il), «Ordudan tərxis olunmuş gənclərin məşğulluğu» (23 avqust 2000-ci il) və s. proqramlar

qəbul edilərək həyata keçirilmişdir [97, 3–10]. Eyni zamanda Prezident tərəfindən təsdiq olunmuş dövlət proqramlarının əksəriyyətində gənclərlə bağlı müvafiq maddələr öz əksini tapmışdı.

Bununla yanaşı, dövlətin gənclər siyasətini tənzimləyən yeni qanuna ehtiyac getdikcə daha artıq hiss olunurdu.

1991-ci ildə qəbul olunmuş «Dövlət gənclər siyasəti haqqında» qanun gənclərlə bağlı cəmiyyətdə yaranmış münasibətləri tənzimləmək iqtidarında deyildi. Ölkədə gənc nəslin hərtərəfli inkişafını təmin edən, bu sahədə müxtəlif dövlət orqanlarının səlahiyyətlərini müəyyən edən və müasir dövrün tələblərinə cavab verən yeni qanuna ehtiyac var idi. Azərbaycan Respublikasının Prezidentinin 6 may 2002-ci il tarixli Fərmanı ilə qüvvəyə minmiş «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu məhz bu tələblərə cavab verdi. 3 fəsildən və 14 maddədən ibarət Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etdi və bu sahədə yaranan münasibətləri tənzimləməyə başladı.

Qanuna görə yaşı 16-dan 35-dək olan şəxslər gənclər qrupuna şamil edilmiş, gənclər siyasəti, gənc ailə, istedadlı gənclər təşkilatları kimi anlayışların mənaları açıqlanmışdır. Qanuna müvafiq olaraq Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi – gənclərin sosial, fiziki, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün şərait yaratmaqdır. Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmışdır. Burada gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas prinsiplər kimi müəyyənləşdirilmişdir [95].

Qanunda gənclər siyasətinin həyata keçirilməsi sahəsində dövlətin vəzifələri aşağıdakı şəkildə müəyyənləşdirilmişdir: gənclər

siyasəti sahəsində qanunvericilik aktlarının, dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, hüquqi və fiziki şəxslərin gənclərlə iş sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi; gənclərin təhsili, tərbiyəsi, fiziki, əqli və mənəvi inkişafı, sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi; gənclərin peşə hazırlığı, məşğulluğunun təmin olunması, sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi sahəsində tədbirlərin, dövlət gənclər siyasəti sahəsində informasiya təminatının həyata keçirilməsi; gənclərin hərbi xidmətə hazırlanması, gənclər siyasəti sahəsində tədbirlərin müəyyənləşdirilməsi, gənclərin vəziyyətinin təhlil və problemlərinin həlli ilə əlaqədar elmi araşdırmaların təşkili; gənclərin beynəlxalq tədbirlərdə iştirakı, xarici ölkələrdəki həmvətənlərlə qarşılıqlı əlaqələr üçün imkan və şəraitin yaradılması [101].

Qanunda gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, onların sağlamlığının qorunması və fiziki inkişafı, məşğulluğunun təmin edilməsi, gənc ailələrə və gənclər təşkilatlarına dövlət yardımı gənclər siyasətinin əsas istiqamətləri kimi öz əksini tapmışdır.

Qanunda gənclər siyasətinin formalaşmasında və həyata keçirilməsində gənclərin iştirakının təmin olunması üçün müvafiq mexanizm müəyyənləşdirilmişdir. Belə ki gənclər bilavasitə və ya yaratdıqları təşkilatlar vasitəsilə dövlət orqanları qarşısında təkliflər irəli sürə, müvafiq qanunvericilik aktlarının hazırlanmasında, gənclər siyasətinin əsas istiqamətlərinə uyğun proqramların həyata keçirilməsində iştirak edə bilərlər [101].

Gənclər siyasətinin həyata keçirilməsinin maddi təminatı ilə bağlı məsələlər də Qanunun müvafiq maddəsində öz əksini tapmışdır.

«Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli müvafiq Fərmanı ilə qüvvədə olan qanunvericilik aktlarının, Nazirlər Kabineti və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması, eləcə də qanunda nəzərdə tutulmuş maddələ-

rin icrası ilə bağlı icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyənləşdirilirdi [4, 2002 7 may].

«Gənclər siyasəti haqqında» Qanunun qəbul edilməsi Azərbaycan gənclərinin hərtərəfli inkişafına daha da əlverişli şərait yaratmış, ölkənin ictimai həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasını sürətləndirmiş, yaxın gələcəkdə gənclərin dövlət quruculuğu işlərinə geniş cəlb olunmasına və onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir.

Göstərilən dövrdə gəncliyin potensial bazası kimi uşaqlarla iş sahəsində də bir sıra qanunlar qəbul edilmiş və tətbiq edilməyə başlamışdı.

Azərbaycanda uşaq hüquqları barəsində qanunvericilik «Uşaq hüquqları haqqında» qanundan və digər normativ-hüquqi aktlardan ibarətdir. 1998-ci il 19 may tarixli «Uşaq hüquqları haqqında» Qanun Azərbaycan Respublikası Konstitusiyasına, Uşaq hüquqları Bəyannaməsinə, Uşaq hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizdə uşaqların hüquq və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən etdi. Beş fəsildən və qırx dörd maddədən ibarət bu qanunun təsir dairəsi 18 yaşına çatmamış hər bir şəxsə aid edilirdi [154].

Qanunda göstərildiyi kimi, uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilmiş, milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla məqsədli uşaq sosial proqramları vasitəsilə həyata keçirilirdi.

Bu qanun Azərbaycan Respublikasında bütün uşaqların hüquq bərabərliyini təsbit etməklə onların bütün hüquq və azadlıqlarını, vəzifələrini dəqiq müəyyənləşdirirdi. Yaşamaq və inkişaf etmək hüququ, sağlamlığının mühafizəsi, ad və vətəndaşlıq almaq, tərbiyə almaq, şəxsi toxunulmazlıq və azadlıq, maddi təmi-

nat, ailədə yaşamaq, mənzil, təhsil, istirahət, şərəf və ləyaqətin müdafiəsi, əmək hüquqları, eləcə də uşağın vicdan, fikir, söz, məlumat azadlığı kimi ümumbəşəri dəyərlər və normalar həmin qanunda öz əksini tapmışdır. Eyni zamanda qanunun 16-cı maddəsində uşağın əsas vəzifələri də öz əksini tapmışdır. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu uşaq və ailənin, uşaq və cəmiyyətin qarşılıqlı münasibətlərini, valideynlərin hüquq və vəzifələrini, habelə uşaqlarla bağlı cəmiyyətin və dövlətin vəzifələrini tənzimləyirdi.

Qanunun mühüm tətbiq istiqamətini uşaqların mənəvi, təhsil, sosial problemlərinin həlli, əlverişsiz şəraitə düşmüş uşaqların, o cümlədən valideyn himayəsindən məhrum olmuş, uşaqlığa götürülmüş, internat müəssisələrində saxlanılan və tərbiyə olunan, əlil, əqli və fiziki çatışmazlıqları olan uşaqların müdafiəsi, hərbi münaqişələrdən, təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalardan zərər çəkmiş, qaçqın və məcburi köçkün uşaqların müdafiəsi ilə bağlı dövlət siyasəti təşkil edirdi. Dövlət bu uşaqların, eləcə də aztəminatlı ailələrin uşaqlarının, şəhid uşaqlarının müdafiəsini xüsusi proqramlar əsasında təmin edirdi [154].

Bu qanunun müddəalarına uyğun olaraq, sonrakı dövrlərdə digər normativ-hüquqi aktlar və proqramlar hazırlanaraq qəbul olunmuşdur. Belə ki 2 iyun 1999-cu il tarixdə «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olunmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu qanun valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından 23 yaşadək olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununu, tədbirlərini müəyyən edir, bu təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar münasibətləri tənzimləyirdi.

Qanunda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və digər anlayışların dəqiq hüquqi mənası müəyyənləşdirilmiş, onların sosial müdafiəsi üzrə tədbirlər, o cümlədən təhsil, tibbi xidmət, əmlak və yaşayış sahəsi, əmək hüququ üzrə təlimatlar, onların hüquqlarının müdafiəsi kimi məsələlər öz əksini tapmışdır [160].

5 iyun 2001-ci ildə «Fiziki cəhətdən qüsurlu olan şəxslərin xüsusi təhsili haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Qanun fiziki qüsuru olan şəxslərin təhsil hüququnun təmin edilməsi üçün müvafiq dövlət orqanlarının vəzifələrini müəyyən edirdi.

31 may 2002-ci il tarixdə qüvvəyə minmiş «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununda [161] yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması sahəsində vahid dövlət orqanının əlaqədar dövlət orqanlarının nümayəndələrindən formalaşmış komissiyalar olduğu və onun yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması ilə bağlı hər hansı bir məsələnin həllində sərbəst qərarverici qurum olması qeyd edilmişdir.

Körpələrin və erkən yaşlı uşaqların ana südü ilə qidalanmasının təbliği və müdafiəsinin başlıca istiqamətlərini, süni qida məhsullarının istehsalı, idxalı, reklamı və satışına nəzarətin təşkilati-hüquqi əsaslarını müəyyən edən, bu sahədə yaranan münasibətləri tənzimləyən əsas qanun 17 iyun 2003-cü ildən qüvvəyə minmiş «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında» Azərbaycan Respublikasının Qanunudur. Qanunda körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında Azərbaycan Respublikasının Qanunvericiliyi, onların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri, ana südü ilə qidalanmanın təbliği, hamilə qadınların və uşaq əmizdirən anaların sosial müdafiəsi, süni qida məhsuluna qoyulan tələblər və s. müddəalar öz əksini tapmışdır [126].

2000–2003-cü illərdə, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən uşaq və gənclərlə bağlı bir neçə dövlət proqramları da təqdim edilmişdir.

Prezident Heydər Əliyevin 2000-ci il iyunun 22-də imzaladığı Sərəncamla «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramı» təsdiq edilmişdir. Bu proqramda əsas məqsəd – uşaqlarla iş sahəsində

vahid dövlət siyasətinin həyata keçirilməsi, onların mənəvi və fiziki kamilliyə çatması, layiqli vətəndaş kimi yetişməsinə əlverişli şəraitin yaradılması idi [97, 8].

Həyat inkişaf etdikcə gənclərin problemlərinin həlli ilə bağlı həyata keçirilən dövlət siyasəti də təkmilləşir və inkişaf edirdi. Bu isə öz növbəsində gənclərlə iş aparan dövlət orqanlarından işini günün tələbləri səviyyəsində qurmağı, onların strukturlarının təkmilləşdirilməsini tələb edirdi. Məhz bu ehtiyacı nəzərə alaraq, 1993-cü ildən sonra Heydər Əliyevin başçılığı altında gənclər siyasətinin mühüm istiqamətini təşkil edən kütləvi bədən tərbiyəsi və idmanın inkişafının hüquqi-normativ bazasının formalaşdırılması sahəsində də böyük işlər görülmüşdür. 1997-ci il dekabrın 23-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin imzası ilə qüvvəyə minmiş «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının Qanunu bədən tərbiyəsi və idman sahəsində yaranan münasibətləri tənzimləyən, Azərbaycan Respublikasının dövlət siyasətini müəyyənləşdirən, bədən tərbiyəsi və idmanla hər kəsin məşğul olmaq hüququna təminat verən mühüm normativ-hüquqi sənəd oldu. Qanunun əsas məqsədi bədən tərbiyəsi və idman vasitəsilə insanların hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin etmək, xəstəliklərin, zərərli vərdişlərin qarşısını almaq, əhalinin yüksək əmək qabiliyyəti səviyyəsinə, fəal uzun ömürlülüyünə, eləcə də Azərbaycan idmanının beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsinə nail olmaqla, gəncləri fiziki və mənəvi cəhətdən vətənin müdafiəsinə hazırlamaqdan ibarətdir [6]. Üç fəsil, otuz maddədən ibarət bu qanun vətəndaşların bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququnu təmin etmək, bədən tərbiyəsi və idmanın sistemli fəaliyyəti və inkişafı üçün hüquqi təlimat yaratmaq, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini, məsuliyyətini müəyyən etmək vəzifəsini yerinə yetirməklə yanaşı, bədən tərbiyəsi və idman sahəsində dövlət siyasətini, ictimai birliklərin, vətəndaşların hüquqlarını, bədən tərbiyəsi və idman sahəsində beynəlxalq əlaqələrə, sahibkarlıq fəaliyyəti, bu sahənin təşviqi və təbliğini, yüksək səviyyəli id-

mançıların hazırlanması, Azərbaycanın yığma komandalarını yaratmaq kimi məsələləri də müəyyənləşdirirdi. Bədən tərbiyəsi və idman sahəsində təminatlar, bu sahənin maliyyə məsələləri də göstərilən qanunun ən mühüm müddəalarından idi [36].

Prezidentliyi dövründə Heydər Əliyev Azərbaycanda bədən tərbiyəsinin kütləviliyini təmin etmək, ölkə idmanının şöhrətini və nüfuzunu qaldırmaq məqsədilə bir neçə fərman və sərəncamlar (1996-cı ildə ABŞ-ın Atlanta şəhərində keçiriləcək XXVI «Yay Olimpiya oyunlarına hazırlıq haqqında» 25 fevral 1995-ci il tarixli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, «Azərbaycan Respublikası idmançılarının təltif edilməsi haqqında» Azərbaycan Respublikasının Prezidentinin 5 mart 1995-ci il tarixli Fərmanı, «XXVII Yay Olimpiya oyunlarına hazırlıq haqqında» Azərbaycan Respublikasının Prezidentinin 20 fevral 1998-ci il tarixli Sərəncamı, «Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında» Azərbaycan Respublikasının Prezidentinin 18 dekabr 1998-ci il tarixli Sərəncamı, «Azərbaycanın Olimpiya çempionları üçün Azərbaycan Respublikasının Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Prezidentinin 10 oktyabr 2002-ci il tarixli Fərmanını və s.) dövlət proqramları imzalamışdır.

Bu proqramlar arasında əsas yer tutan «Bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı» (fevral, 2000-ci il tarixdə təsdiq edilmişdir) əhalinin sağlam həyat tərzinin təmin olunması məqsədilə hər bir vətəndaşın bədən tərbiyəsi və idmanla məşğul olması üçün şəraitin yaradılması, xəstəliklərin, zərərli vərdişlərin aradan qaldırılmasında bədən tərbiyəsi və idman vasitələrindən istifadə olunması, ölkənin şəhər və rayonlarında idmanın mövcud maddi-texniki bazasının qorunub saxlanılması və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi güdürdü.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda kütləvi idmanın və bədən tərbiyəsinin normativ-hüquqi bazasının inkişaf etdirilməsi, bu sahədə idarəetmə strukturunun təkmilləşdirilməsi istiqamətində əməli işlər sonrakı dövrdə də uğurla davam etdirilməkdədir. Prezi-

dent İlham Əliyev tərəfindən gənclər siyasəti ilə bağlı həyata keçirilən strateji xətt, böyüməkdə olan nəslin iqtisadi, mənəvi fiziki inkişafının təmin edilməsi üçün əlverişli şərait yaratmışdır.

Heydər Əliyevin gənclər siyasətini yeni şəraitə uyğun daha da inkişaf etdirmək, gənclərin sosial-iqtisadi problemlərinin həllini, siyasi fəallığının artırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Gəncliyi 2005–2009-cu illər» Dövlət Proqramı, 2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı, 2005–2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı, 2007–2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı və s. dövlət əhəmiyyətli sənədlər imzalamışdır.

Gənclərlə bağlı siyasəti həyata keçirən dövlət qurumlarının fəaliyyəti də daim təkmilləşdirilir, bu sahəyə ayrılan dövlət vəsaitlərinin həcmi, onların maddi-texniki bazası ildən-ilə genişləndirilir. 2004-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin strukturunda yenidən dəyişiklik edilmiş, turizm işləri ilə məşğul olan sahə bu Nazirlikdən Mədəniyyət və Turizm Nazirliyinə verilmişdir. Bu da gənclər siyasəti və idmanla bağlı vahid dövlət siyasətinin daha uğurla həyata keçirilməsinə şərait yaratmışdır.

Beləliklə, 1993-cü ildən sonra Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin hüquqi-normativ bazası və təşkilati mexanizmləri formalaşmış, gənclər siyasətinin əsas prinsipləri, məzmunu, istiqamətləri müəyyənləşdirilmişdir. Hazırda dövlətin vahid gənclər siyasətinin əsaslarını müəyyən edən və həyata keçirən mükəmməl milli qanunvericilik və idarəçilik sistemi mövcuddur.

Gənclərlə bağlı həyata keçirilən dövlət siyasətinin nəticəsi olaraq Azərbaycan Respublikasında gənclərin sosial-siyasi fəallığı artmış, problemlərinin həlli üçün təsirli tədbirlər həyata keçirilmişdir.

# II FƏSİL

# HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Azərbaycan Respublikasında gənclərin sosial-iqtisadi problemlərinin həlli istiqamətlərində tədbirlər

Azərbaycan Respublikasında 1993-cü ildən sonra həyata keçirilməyə başlayan dövlət gənclər siyasətinin əsas məqsədlərindən biri də gənclərin şəxsiyyət kimi formalaşması və inkişafı, onların cəmiyyətin sosial-iqtisadi, siyasi, mənəvi tərəqqisində yaxından iştirakının təmin edilməsi, öz potensial imkanlarının reallaşdırılmaları üçün şəraitin yaradılması, bazar iqtisadiyyatı şəraitində əmək, peşələrə yiyələnmək hüququnun həyata keçirilməsi, həyata keçirilən sərt sosial-iqtisadi islahatların gənclərə mənfi təsirinin yumşaldılması, iqtisadi fəaliyyətlərinə müvafiq yardımların göstərilməsindən ibarətdir. Gəncliyin sosial müdafiəsinin təminatı, onlara həyatda öz yerini tapmaları üçün zəruri start imkanlarının yaradılması və tam iqtisadi məşğulluğunun təmin edilməsi gənclik siyasətini həyata keçirən müvafiq dövlət strukturlarının fəaliyyətində əsas yer tutmuşdur.

Hakimiyyətə ikinci dəfə qayıdışından sonra Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatlar iqtisadiyyatda 80-ci illərin sonlarından davam edən tənəzzülün qarşısını almağa və 1996-cı ildən başlayaraq bir çox sahələrdə, xüsusilə makroiqtisadi göstəricilərdə irəliləyişlərin əldə edilməsinə imkan yaratdı. Həmin ildən başlayaraq iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul ilbəil artmağa başlamış, 1996–2001-ci illərdə ümumilikdə 52,8% təşkil etmişdir [16, 123].

İqtisadiyyatın bütün sahələrində aparılan mütərəqqi dəyişikliklər, ictimai-siyasi sabitlik əhalinin bütün təbəqələrinə, o cümlədən gəncliyin sosial-iqtisadi həyatına müsbət təsir göstərmiş,

onun maddi rifah halının yaxşılaşmasında, problemlərinin həllində mühüm rol oynamışdı. Əlbəttə, bütün bunları yalnız Heydər Əliyev qüdrətinin, Heydər Əliyev dühasının qətiyyəti sayəsində həyata keçirmək mümkün olmuşdur.

Hələ 1993-cü il sentyabrın 23-də gənclərlə ilk görüşündə Heydər Əliyev öz xalqına müraciət edərək göstərirdi: «Azərbaycan Respublikası müstəqil dövlət kimi öz dövlətçiliyinin bütün sahələrində çox iş görməlidir, dünya miqyasında bir müstəqil dövlət kimi yaşamaq, beynəlxalq aləmdə layiqli yer tutmaq üçün Azərbaycan xalqı həm bugünkü potensialından səmərəli istifadə etməli, həm də öz gələcəyini düşünməlidir [73, 164]. O bu müqəddəs məqsədə çatmaqda ən çox Azərbaycan gənclərinə istinad edir, onun güclü enerjisinə, gələcəyə olan ümidlərinə güvənirdi.

Heydər Əliyevin rəhbərliyi altında qısa müddət ərzində həyata keçirilmiş düşünülmüş, məqsədyönlü milli strategiya, ölkə həyatının bütün sahələrində olduğu kimi, gənclərlə iş sahəsində də canlanma yaratdı, onların spesifik sosial-iqtisadi problemlərinin həllində ciddi uğurlar əldə edildi.

Heydər Əliyev öz təşəbbüsü ilə yaratdığı Gənclər və İdman Nazirliyinin başlıca fəaliyyət istiqamətləri arasında bir sıra digər istiqamətlərlə yanaşı, gənclər arasında işsizliyin aradan qaldırılması üçün başqa dövlət orqanları ilə birgə fəaliyyət göstərməsi, aztəminatlı ailələrdəki uşaqların və yetim uşaqların sosial problemlərinin həllinə dair dövlət proqramlarının həyata keçirilməsinə yaxından kömək göstərilməsi, bazar iqtisadiyyatı mühitində gənclərin sahibkarlığa cəlb edilməsi sahəsində başqa dövlət idarəetmə orqanlarının işinin əlaqələndirilməsi kimi məsələləri də müəyyən etmişdir [17]. Bir qədər sonra 1994-cü il sentyabr ayının 3-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş ARGİN haqqında Əsasnamədə Nazirliyin əsas vəzifələri sırasında gənclərin sosial problemlərinin həlli, hüquqlarının müdafiəsi, müxtəlif peşələrə yiyələnməsi və işlə təmin olunması sahəsində əlaqədar təşkilatlarla birgə tədbirlər görmək (2; 5 bənd), aztəminatlı ailələrdəki uşaqların və yetim uşaqların

sosial problemlərinə dair dövlət proqramlarının həyata keçirilməsində, birinci növbədə, vətən uğrunda həlak olanların uşaqlarına və qaçqınların uşaqlarına kömək göstərilməsində iştirak etmək kimi vəzifələr də öz əksini tapmışdır [18].

Öz əsasnaməsinə uyğun olaraq, ARGİN gənclərin əmək, məşğulluq, sosial müdafiə, təhsil problemlərinin həllinə yönəlmiş dövlət proqramlarının işlənib hazırlanmasında və həyata keçirilməsində bilavasitə iştirak edir, istedadlı gənclər üçün yaradıcı mühitin formalaşdırılmasında, gənclərin sosial və hüquqi müdafiəsi sahəsində dövlət əmək və sosial müdafiə, iqtisadiyyat orqanları və ictimai təşkilatlarla birgə işlər aparır, gənclərin peşəyönlü və işsizliyin aradan qaldırılması məsələlərində yaxından iştirak edirdi.

Yarandığı gündən etibarən Gənclər və İdman Nazirliyi gəncləri idarəetmə, bazar iqtisadiyyatının prinsipləri və qanunları, istehsalatın səmərəli təşkili, sahibkarlıq və fermerlik məsələlərinə dair məlumatlandırmaq, sahibkarlığa yiyələnmək istəyənlərə metodik məsləhətlərin və hüquqi yardımın göstərilməsi məsələləri ilə də bilavasitə məşğul olmağa başlamışdı. Əmək fəaliyyəti ilə məşğul olan yeniyetmə və gənclərin hüquqlarının qorunması da nazirliyin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edirdi.

Heydər Əliyev gənclərin problemləri ilə bilavasitə tanış olmağa üstünlük verir, dövlət orqanlarından, vəzifəli şəxslərdən gənclərə diqqəti artırmağı, onların problemlərinin həlli ilə yaxından məşğul olmağı, irəli sürdükləri təkliflərin həyata keçirilməsi üçün bütün lazımi tədbirləri görməyi tələb edirdi.

Məhz belə yanaşmanın nəticəsi idi ki, Heydər Əliyev Azərbaycan gənclərinin I Forumunun çağırılması haqqında ona edilmiş müraciəti müsbət qarşılamış, respublikanın həmin inkişaf mərhələsində gənclərin vəzifələrini müəyyən etmək, eyni zamanda Azərbaycan gəncliyinə qayğı və diqqət sahəsində lazımi tədbirləri müəyyənləşdirmək baxımından bu məclisin keçirilməsi haqqında qərar qəbul etmişdi [70]. O özü şəxsən Forumun işində iştirak etmiş, gənclərin irəli sürdükləri problemləri, təklifləri

dinləmişdir. Forumun keçirilməsi haqqında qərar qəbul edərkən o, burada respublika ali hakimiyyət orqanlarının nümayəndələrini – nazirləri, yerli icra orqanlarının başçılarını və hakimiyyət orqanlarının başqa nümayəndələrini də dəvət etmiş, onlar qarşısında gənclərin problemlərini bilavasitə dinləyib, həll olunması üçün tədbirləri görməyi bir vəzifə kimi qoymuşdu. Ölkə başçısı respublika hökumətindən, nazirlik və komitələrdən, yerli icra orqanlarından gənclər forumundan irəliyə gələn məsələlərin həll olunması ilə dərhal məşğul olmalarını tələb etmişdir [70].

Heydər Əliyev ölkəmizin artıq fərqli iqtisadi-ictimai münasibətlər sistemində yaşadığını vurğulayaraq çox şeyin hər bir vəzifəli şəxsin təşəbbüskarlığından, mövcud ehtiyat və imkanlarından istifadə etmək bacarığından asılı olduğunu, buna görə də gənclərin problemləri ilə bağlı vəzifələri konkret olaraq hakimiyyət orqanlarına rəhbərlik edən hər bir şəxsin qarşısında qoyur, bu vəzifənin yerinə yetirilməsi ilə ciddi məşğul olmağı tələb edirdi.

Eyni zamanda Heydər Əliyev böyük problemlər haqqında düşünən, onların həlli ilə bağlı müxtəlif təkliflər irəli sürən gənclərə respublikanın mövcud şəraitini, sosial-iqtisadi vəziyyətini nəzərə almağı tövsiyə edir və göstərirdi ki, irəli sürülən təkliflər, qaldırılan məsələlər, problemlər həqiqətə nə qədər uyğun və təbii olsa da, söhbət ondan getməlidir ki, bunların hamısının dərhal, yaxud indiki mərhələdə həyata keçirilməsi nə qədər realdır, nə qədər mümkündür [70, 93].

Heydər Əliyev Gənclər və İdman Nazirliyinə gənclərin irəli sürdükləri təklif və xahişləri nəzərdən keçirərək təhlil etməyi, onların həyata keçirilməsi üçün təklifləri prezidentə təqdim etməyi tapşırmış, öz növbəsində həmin təkliflərə diqqətlə baxacağına və onların həyata keçirilməsi üçün imkan daxilində bütün səyləri göstərəcəyini gənclərə söz vermişdi.

Prezident Forumun gedişində gənclərin müəyyən təkliflərinə dərhal reaksiya vermiş, bir sıra sərəncamlar imzalayaraq onların həyata keçirilməsini təmin etmişdir. Belə ki onun göstərişi ilə əvvəllər gənclər təşkilatlarına, komsomola məxsus bütün əmlak,

o cümlədən Zuğulba «Gənclik» sağlamlıq və istirahət mərkəzi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin ixtiyarına verilmişdi.

Eyni zamanda Heydər Əliyev gənclərə öz problemlərinin həlli ilə bağlı yalnız dövlət orqanlarına ümid etməmələrini, əksinə özlərinin fəallıq göstərmələrini, dövlət və hökumətə kömək göstərmələrini tövsiyə edir, onların bütün təşəbbüslərini dəstəkləyəcəyini bildirirdi.

Heydər Əliyev əminliklə bildirirdi ki, əhalinin çox hissəsinin ağır maddi vəziyyətdə yaşamasına baxmayaraq, iqtisadiyyatda nəzərdə tutulmuş dəyişikliklər, həyata keçirilən proqramlar bütün digər problemlər kimi, gənclərin də problemlərinin həllinə şərait yaradacaqdır.

Heydər Əliyevin rəhbərliyi altında 1996-cı ildən başlayaraq Azərbaycan Respublikasında həyata keçirilən islahatlar, qəbul edilmiş qanunlar və dövlət proqramları sosial-iqtisadi inkişafın dönməzliyini, mövcud problemlərin aradan qaldırılmasını təmin etməklə yanaşı, Azərbaycan gəncliyinin hərtərəfli inkişafına da əlverişli şərait yaratmış, cəmiyyətin həyatında onların daha fəal iştirakı üçün hüquqi-siyasi, sosial, iqtisadi təminatlar yaradılmasını sürətləndirmişdi.

Gənclərin sosial-iqtisadi problemlərinin həllində dövlət gənclər siyasətinin həyata keçirilməsi məqsədilə qəbul edilmiş proqramlar mühüm rol oynamışdı.

Dövlət gənclər siyasətinin mühüm tərkib hissəsini gənc ailələrə dövlət qayğısının artırılması və onların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər təşkil edir. Gənc ailələrə dövlət qayğısı təkcə gənclər siyasəti ilə deyil, həmçinin Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları ilə müəyyənləşdirilərək həyata keçirilir. Gənclər siyasəti haqqında Azərbaycan Respublikası Qanununa görə gənc ailə dedikdə gənclərin nikaha daxil olmasından yaranan ailələr, habelə himayəsində azı bir uşağı olan və yaşı 35-dən çox olmayan tək valideynlər başa düşülür [101, m.1,0.3]. Həmin qanunun gənc ailələrə dövlət yardımını

nəzərdə tutan 9-cu maddəsinə görə yaşayış evi tikmək, ya mənzil almaq, ev təsərrüfatı yaratmaq üçün gənc ailələrə həcmi və verilmə qaydası qanunvericiliklə müəyyən edilən güzəştli kreditlər və ssudalar verilə bilərdi. Sonrakı dövrlərdə qanunun bu maddəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən gənclərə güzəştli kreditlərin verilməsi qaydalarının layihəsi hazırlanaraq rəy və təklifləri bildirmələri üçün əlaqədar dövlət qurumlarına təqdim edilmiş, həmin qaydalar razılaşdırıldıqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Gənc ailələrə dövlət qayğısının artırılması məqsədilə ölkənin aparıcı mütəxəssis və ekspertlərinin iştirakı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən «Gənc ailə» proqramı hazırlanmışdı. Proqram geniş müzakirələrdən keçmiş, aidiyyəti nazirlik, komitə və digər dövlət qurumları ilə razılaşdırıldıqdan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 fevral 1999-cu il tarixli 27 saylı Sərəncamı ilə təsdiq edilmişdi.

Gənc ailə proqramının əsas məqsədi hər bir gəncin nikahdan əvvəl və sonrakı problemlərinin kompleks təhlili əsasında elə tədbirlər sistemi hazırlamaqdan ibarət idi ki, həyata keçiriləcək tədbirlər, eyni zamanda həm hər bir ailənin xoşbəxtliyinə, həm də cəmiyyətin tərəqqisinə kömək etməklə yanaşı, son nəticədə, ailə institutunun sabitləşməsinə, ailə nüfuzunun və dəyərlərinin gənclər arasında artmasına və sağlam nəslin yetişməsinə gətirib çıxaracağına münbit şərait yaratsın.

Proqramın əsas istiqamətlərini gənclərin erkən yaşlarından başlayaraq nikaha girənə qədərki dövrədək ailə həyatına hazırlanması, gənc ailənin reproduktiv sağlamlığının qorunması, ailə mənəviyyatının möhkəmləndirilməsi, ailənin sosial orientasiyası, sosial müdafiəsi və digər hüquqi, maliyyə, təşkilati məsələlər təşkil edirdi [99].

Proqramda yerinə yetirilməsi üçün təşkilati, təbliğat xarakterli, maarifləndirmə, səhiyyə və iqtisadi tədbirlər sistemi müəyyənləşdirilmiş, burada nikahaqədərki hüquq məsləhətxanalarının,


OLİMPİYACILAR !












HEYDƏR ƏLİYEV
və
AZƏRBAYCANDA
OLİMPİYA
HƏRƏKATI





anonim etimad mərkəzlərinin yaradılması, gənclərin ailə problemləri ilə bağlı proqramların hazırlanması, informasiya vasitələrinin təsis edilməsi, sənədli və bədii filmlərin yaradılması, mənəvi mühitin yaxşılaşdırılmasına yönəlmiş, təbliğat işlərinin aparılması, gənc ailələrə səhiyyə xidmətinin yaxşılaşdırılmış reproduktiv sağlamlığın təbliği, qanunsuz abortlara qarşı mübarizə, uşaq reabilitasiya və diaqnostik mərkəzinin yaradılması kimi işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

Proqramda gənc ailələrin məşğulluğu, məişət problemləri, işlə təminatı, sahibkarlıqla və fermer təsərrüfatı ilə məşğul olan gənc ailələrə kreditlərin verilməsi kimi məsələlərin həlli də nəzərdə tutulurdu.

Proqramda nəzərdə tutulmuş işlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və digər müvafiq dövlət strukturları, qeyri-hökumət təşkilatları tərəfindən bir çox işlər görülmüş, səmərəli tədbirlər həyata keçirilmişdir. Bütün rayon (şəhər) gənclər, idman və turizm idarələri tərəfindən proqramın həyata keçirilməsi məqsədilə tədbirlər planı hazırlanmış və icra hakimiyyəti başçılarının sərəncamı ilə təsdiq edilmişdi. Proqramdan irəli gələn vəzifələrin icrası ilə bağlı gənclər, idman, turizm idarələrinin, müvafiq nazirlik və komitələrin həyata keçirdikləri tədbirlər haqqında hesabatlar əsasında Gənclər, İdman Nazirliyi tərəfindən arayışlar hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdu. Gənc ailələrə dövlət qayğısının artırılması məqsədilə ölkənin rayon və şəhərlərində nikahaqədərki məsləhət xidmətlərinin geniş şəbəkəsinin yaradılmasına başlanılmışdı. Həmin xidmətlərdən gənclərə reproduktiv sağlamlıq, nikah və ailə problemləri ilə bağlı onları maraqlandıran məsələlər haqqında informasiya-maarifləndirmə yardımı göstərilir, gənc ailə münasibətlərində yarana biləcək neqativ halların qarşısının alınması üçün profilaktik tədbirlər görülürdü [97, 21].

«Gənc ailə» proqramında gənclərə bu sahədə səmərəli yardım göstərilməsini nəzərdə tutan xüsusi tədbirlərin həyata keçirilməsi öz əksini tapmışdı. Bunu nəzərə alaraq ölkənin bir çox

rayonlarında gənclərin ailə planlaşdırılması, reproduktiv sağlamlıq, ailənin mənəvi-psixoloji problemləri ilə bağlı müxtəlif suallar ətrafında məlumat və məsləhət ala bilmələri üçün anonim etimad mərkəzləri yaradılmış, bir çox rayon mərkəzi xəstəxanalarında ailə planlaşdırılması kabinetləri açılmışdır.

Gənclər və İdman Nazirliyi tərəfindən ölkənin müxtəlif rayon və şəhərlərində gənclərin sosial inkişaf mərkəzlərinin yaradılması haqqında qərar qəbul edilmişdi. Bu mərkəzlərin yaradılmasında əsas məqsəd gənclərin reproduktiv sağlamlığının möhkəmləndirilməsi və ailə planlaşdırılması sahəsində məsləhət xidmətinin təşkil edilməsi, həmçinin uşaq və gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması, onların hüquqlarının qorunması, gənc ailələrin üzləşdiyi problemlərin həlli istiqamətində uşaq və gənclərin qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara informasiya yardımının göstərilməsi idi [97, 21].

Respublikada gənc ailələrin problemlərinin həlli istiqamətində atılan addımlar, həyata keçirilən proqram tədbirləri ölkə prezidenti Heydər Əliyevin tövsiyə və göstərişlərinə uyğun aparılırdı. Heydər Əliyev cəmiyyətin özəyi hesab olunan ailənin möhkəmləndirilməsi, onun sağlamlığının qorunmasını dövlətin ən mühüm sosial vəzifəsi hesab edirdi və bu sahədə zəruri addımlar atırdı. Heydər Əliyev hələ 70-ci illərdə ailə səhiyyəsinin inkişafına çalışmış, bu sahəyə xeyli vəsait ayrılmasına nail olmuşdu. İndi Azərbaycanda əhaliyə səhiyyə xidməti sahəsində mövcud olan maddi-texniki baza, kadr potensialının hamısı o illərdə görülmüş işlərin əsasında formalaşmışdır. Təəssüf ki, sonrakı dövrlərdə respublikada baş vermiş məlum dəyişikliklər, sosial-iqtisadi böhran nəticəsində səhiyyədə o vaxtlar qazanılmış bir sıra müvəffəqiyyətlər sonralar itirilmiş oldu. Yalnız Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra bu sahənin yenidən dirçəldilməsi üçün əlverişli şərait yaradılmağa və müvafiq addımlar atılmağa başlandı. Belə tədbirlərin biri də Azərbaycanda müasir tələblərə cavab verən, elmin, texnologiyanın ən son nailiyyətlərindən istifadə olunan, qabaqcıl aparatlarla təchiz olunmuş səhiyyə ocaqlarının açılması

idi. Belə səhiyyə ocaqlarından biri Respublika Ailə-Sağlamlıq Mərkəzi 1995-ci ilin dekabrında ölkə prezidenti Heydər Əliyevin iştirakı ilə açılmışdı.

Heydər Əliyev ailənin sağlamlığı problemini Azərbaycan cəmiyyəti üçün çox mühüm problem hesab edir, alimlər, tibb ictimaiyyəti qarşısında ailə, bütövlükdə insan sağlamlığı ilə bağlı problemlərin dərindən araşdırılmasını, tədqiqatlar aparılmasını tələb edirdi. Heydər Əliyev belə problemlərdən biri kimi, Azərbaycanın özünəməxsus xüsusiyyətlərinə aid olmaqla qan qohumlarının bir-biri ilə ailə qurmasına bütün ictimaiyyətin diqqətini cəlb edərək onun həm ailələr üçün, həm də ümumiyyətlə, millətimizin gələcəyi üçün nə qədər zərərli olduğunu nəzərə çatdırırdı.

Əlbəttə, o bu məsələ ilə bağlı xalqın mühafizəkar mövqeyini yaxşı bilirdi və guya, «əmioğlu ilə əmiqızının kəbininin göydə kəsildiyi» kimi düşüncələrlə də tanış idi. Amma Heydər Əliyev bu məsələyə əsl vətəndaşlıq, azərbaycanlı mövqeyindən yanaşaraq insanlar, cəmiyyət üçün zərərli olan adət-ənənələrdən, o cümlədən bizim xalqımıza xas olan yaxın qohumların ailə qurması ənənəsindən qətiyyətlə imtina etməyi tələb edirdi.

Bu problem hələ 70-ci illərdə Heydər Əliyevi narahat etmiş, onunla ciddi məşğul olmuşdu. O hətta qohumların bir-biri ilə evlənməsinin qadağan olunması haqqında qərar qəbul etmək istəmiş, lakin müəyyən səbəblər ucbatından axıra çatdıra bilməmişdi. 1995-ci ilin dekabrında Respublika Ailə-Sağlamlıq Mərkəzinin açılması zamanı Heydər Əliyev yenidən çox mühüm olan bu problemi ictimai müzakirəyə çıxararaq onunla ciddi məşğul olmağı və onun köklü surətdə həllinə nail olmağı tövsiyə etdi. O bu məsələyə öz prinsipial münasibətini bir daha bildirərək göstərirdi: «məlum həqiqətdir ki, qohumlar bir-biri ilə evlənə bilməz. Bu heç vaxt müsbət nəticə tapa bilməz. Heç vaxt. Bəlkə də, bu, bəzi hallarda müsbət nəticə verir, amma əksər hallarda mənfi nəticə verir» [74].

Respublikamızda rast gəlinən digər mühüm sosial problem nikah yaşına çatmamış qızların ərə verilməsi idi. Azyaşlı qızlarla

nikah bağlanması hallarına qarşı Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə birgə layihələr hazırlanmış və həyata keçirilməsinə başlanmışdır. Bu məqsədlə bir sıra bölgələrdə anonim etimad mərkəzləri yaradılmış, məktəblərdə, kənd yerlərində maarifləndirmə işləri aparılmışdır.

Sağlam Ailə İnstitutunun yaradılmasında kütləvi informasiya vasitələrinin rolu önəmli məsələlərdəndir. Bu məqsədlə Azərbaycan elektron informasiya vasitələrində gənc ailələrin qayğı və problemlərini əks etdirən proqramlar geniş təbliğ edilirdi. Qəzet və jurnallarda mütəmadi olaraq ailə problemlərinə həsr edilmiş məqalələr dərc edilir, ailə planlaşdırılması və reproduktiv sağlamlıq məsələləri ilə bağlı məlumatlar işıqlandırılırdı. 1997-ci ildən başlayaraq yerli qəzetlərdə ailə problemlərini əks etdirən təbliğat xarakterli materiallar dərc edilməsi məqsədilə ilbəil müsabiqələr təşkil olunurdu. Ağsu, Bərdə, Qax rayonlarında yaradılmış məlumat mərkəzləri tərəfindən gənc ailələrin problemlərindən bəhs edən verilişlərin, çıxışların yerli radio qovşağı ilə səsləndirilməsinə başlanmışdı [97, 21–22].

Gənclərin ailə problemlərini əks etdirən, habelə onların sağlamlığına, gələcəkdə sağlam nəslin yetişməsinə mənfi təsir göstərən zərərli vərdişlərdən (tütün, alkoqol, narkotiklərdən istifadə və s.) yayınmasına dair sənədli və bədii filmlərin çəkilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Belə ki 2001-ci ildən Professional Kinorejissorlar Gildiyası ilə birgə «Gənc professional» audiovizual festivalı keçirilməyə başlanmışdır ki, burada təqdim olunmuş əsərlərin bir çoxu ailə problemlərini əhatə etmişdir. Bundan əlavə, 2003-cü ildən etibarən Gənclər, İdman və Turizm, Mədəniyyət nazirlikləri Azərbaycan Kinematoqrafçılar İttifaqı ilə birgə gənc kinematoqrafçıların festivalını keçirirdi ki, burada cəmiyyəti düşündürən mövzulara həsr edilmiş əsərlər ilə yanaşı, ailə mövzusuna və sağlam həyat tərzinin formalaşması məsələlərinə də toxunularaq geniş müzakirələr aparılırdı. Bu istiqamətdə «Ünvansız qız» adlı 10 seriyalı televiziya filmi çəkilərək televiziya kanalı ilə yayımlanmışdır [97, 12].

Bədən tərbiyəsi və idmanın gənc ailələrin həyat tərzinə geniş şəkildə daxil olması üçün Gənclər, İdman və Turizm Nazirliyinin yerli idarələri, həmçinin əlaqədar dövlət qurumları tərəfindən təbliğat işi aparılmış, sağlam nəslin tərbiyə olunmasına mənfi təsir göstərən zərərli halların aradan qaldırılmasına dair gənclər arasında izahat işləri, narkomanlığın, alkoqolizmin ailə mənəviyyatına mənfi təsiri mövzularında söhbətlər edilmişdi. Bir çox yaşayış məntəqələrində uşaq və gənclərin idmanla məşğul olması, idman qurğularından, stadionlardan geniş istifadə etməsi üçün mövcud idman qurğuları və meydançaları təmir olunmuşdur. Nazirlik hər il «Olimpiya Ümidləri» və «Ata, Ana və Mən» əyləncəli-idman yarışlarını keçirir, yay tətili günlərində respublikanın rayon və şəhərlərindən olan məktəblər üçün istirahət və sağlamlıq düşərgələri təşkil edirdi [97, 22].

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən gənclərin nikaha qədərki ailə həyatına hazırlanması, ailənin hüquq və vəzifələrinin öyrənilməsi və düzgün ailə siyasətinin aparılması məqsədilə ali və orta ixtisas məktəblərində «Qanunçuluğun əsasları», «Mülki hüquq» fənləri üzrə «Ailə və nikah», «Ailənin hüquq və vəzifələri» mövzuları gənclərə öyrədilir, gənc nəslin sağlam böyüməsi üçün «Reproduktiv sağlamlığın əsasları» adlı maraq üzrə kursun tədris proqramı və dərsliyi hazırlanaraq tədris olunurdu. Ali və orta ümumtəhsil məktəblərində xüsusi dərs saatları, dəyirmi masalar təşkil edilmiş, internat məktəbləri və uşaq evləri arasında «Mənim hüquqlarım və mən» mövzusunda inşa müsabiqəsi, ciddi tərbiyəyə ehtiyacı olan oğlanlar üçün xüsusi məktəblərin (Mərdəkan, Quba) şagirdləri arasında sosioloji sorğular keçirilmişdir [97, 23].

Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən 2001-ci ildən etibarən hər il keçirilən Gənc Jurnalistlərin ümumrespublika müsabiqəsində nominasiyalardan biri gənc ailələrin problemləri nominasiyasıdır. Gənclərin reproduktiv sağlamlıq və ailə planlaşdırması haqqında lazımi məlumatlara malik olmamalarından cinsi yolla yoluxan xəstəliklərə tutulmaq ehtimalının çox olmasını, kontraseptiv

maddələrdən düzgün istifadə edilməməsinin xoşagəlməz nəticələrə gətirib çıxarmasını nəzərə alaraq, tibb müəssisələrində seminarlar təşkil olunurdu.

Ümumdünya əhali günü münasibəti ilə Gənclər, İdman və Turizm Nazirliyi «Musiqili-Əyləncəli İdman Bayramı»nı keçirmişdir. Bayram şənlikləri 11 iyul 2002-ci il tarixində Milli Parkda keçirilmişdir. Təntənəli açılış mərasimindən sonra, roller və skeyt-bording üzrə yarışlar keçirilmişdir. Fasilələr zamanı ayrı-ayrı uşaq yaradıcılıq kollektivlərinin musiqi nömrələri nümayiş etdirilmişdir. Bayram şənlikləri vaxtı Ümumdünya əhali günü ilə əlaqədar çap olunmuş informasiya və profilaktik yönümlü poliqrafiya məhsulları gənclərə paylanmışdır.

Gənc ailələrin reproduktiv sağlamlıq problemləri ilə bağlı məlumat və məsləhətlər ala bilməsi məqsədilə Səhiyyə və Təhsil Nazirlikləri tərəfindən ailə sağlamlıq mərkəzinin mütəxəssisləri ilə birlikdə Bakı şəhərinin bir sıra məktəblərində «Ailə planlaşdırılması və reproduktiv sağlamlıq» mövzusunda sorğular aparılmışdır. Sorğuların nəticələrinə əsasən gənc ailənin reproduktiv sağlamlığının qorunması ilə əlaqədar olaraq «Reproduktiv sağlamlığın əsasları», «İnsan, sağlamlıq, gələcək» adlı maraq üzrə kursun tədris planı, proqramı, dərsliyi hazırlanmış və hal-hazırda Bakı şəhərinin ümumtəhsil məktəblərində tədrisinə başlanmışdı [97, 23].

Gənc ailələrə səhiyyə xidmətinin yaxşılaşdırılması üçün respublikada fəaliyyət göstərən qadın məsləhətxanalarının, ailə planlaşdırılması mərkəzinin və respublika uşaq sağlamlıq mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq standartlara cavab verməsi, müasir avadanlıqlarla təchiz edilməsi, həmçinin səhiyyə xidmətlərinin yaxşılaşdırılması istiqamətində işlər həyata keçirilmişdi. Belə ki Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların və fondların BMT-nin Uşaq Fondunun, Əhali Fondunun Azərbaycan hökuməti ilə birgə həyata keçirdiyi kompleks tədbirlər çərçivəsində gənc ailələrin reproduktiv sağlamlığının möhkəmləndirilməsi, onlara məsləhət xidmətlərinin verilməsi,

hamiləlik dövründə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi kimi tədbirlər həyata keçirilirdi.

Keyfiyyətli uşaq yeməklərinin hazırlanması ilə əlaqədar Səhiyyə Nazirliyi körpələrin fiziki, psixoemosional və intellektual inkişafı üçün ana südünün əvəzolunmaz qida olmasını və 1981-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının verdiyi hesabatda körpələrin süni qatışıqlarla qidalanmasını «dünyada geniş yayılmış uğursuz eksperiment» adlandırmasını nəzərə almış və 1998-ci ildə «Döşlə əmizdirmə və millətin sağlamlığı» proqramını təsdiq etmişdir. Bu proqram xüsusi yaradılmış Milli Komitə və UNICEF-in dəstəyi ilə müvəffəqiyyətlə həyata keçirilirdi.

Qeyd etmək lazımdır ki, həyata keçirilən tədbirlər yeni qurulan hər bir gənc ailənin nikahdan əvvəl və nikahdan sonrakı problemlərinin kompleks təhlil olunması və həllində böyük əhəmiyyət kəsb etmiş, ailə institutunun sabitləşməsinə, ailə nüfuzunun və dəyərlərinin gənclər arasında artmasına və sağlam nəslin yetişməsinə kömək etmişdir. Bundan savayı, gənclərin uşaqlıqdan başlayaraq nikahaqədərki ailə həyatına hazırlanmasına, gənc ailənin reproduktiv sağlamlığının qorunmasına, ailə mənəviyyatının möhkəmləndirilməsinə, ailənin sosial müdafiəsinin təmin edilməsinə də müsbət təsir edən nəticələr əldə olunmuşdur [97, 25].

«Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən fərdi yaşayış evləri tikmək və ya mənzil almaq, ev təsərrüfatı yaratmaq üçün gənc ailələrə güzəştli kredit və ssudalar verilməsi nəzərdə tutulmuşdur. Qanunun həmin maddəsini təmin etmək məqsədilə AR GİTN tərəfindən güzəştli kreditlərin verilməsi qaydaları işlənib hazırlanmışdı.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin mühüm istiqamətini gənclərin məşğulluğunun təmin edilməsi, işsizliyin azaldılması, onların peşəyönümü işi təşkil edirdi. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında 90-cı illərin ortalarından başlayaraq həyata keçirilən tədbirlər əhalinin maddi rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması və yoxsulluğun səviyyəsinin ilbəil azaldılması ilə müşayiət

olunurdu. Lakin bazar iqtisadiyyatına keçid şəraitində, eləcə də respublikada son illərdə cərəyan edən ictimai, siyasi, iqtisadi proseslərin təsiri altında cəmiyyətin müəyyən təbəqələri, xüsusən yeni həyata qədəm qoyan gənclər arasında işsizliyin mövcudluğu çox ciddi sosial problem kimi özünü göstərirdi. Heydər Əliyevin prinsipial mövqeyi ondan ibarət idi ki, gənclər əldə olunmuş nailiyyətləri qiymətləndirməklə yanaşı, hələ həll olunmamış problemləri də bilməlidirlər. O qeyd edirdi ki, Azərbaycan gənclər ölkəsidir. Belə olan halda gənclərə daha da geniş imkanlar yaratmaq, geniş yollar açmaq lazımdır, gənclərin əmək fəaliyyətinə, dövlət, hökumət işlərinə cəlb olunması bizim əsas vəzifələrimizdəndir [77, 219].

Heydər Əliyevin bu tapşırıq və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi digər əlaqədar qurumlarla birlikdə bir sıra tədbirlər həyata keçirmiş, zəruri olan işlər görmüşdür.

Gənclərin məşğulluq problemi «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun əsas predmetlərindən birini təşkil edir. Həmin qanunun 8-ci maddəsində dövlət orqanları tərəfindən yeni iş yerləri yaratmaq, əmək birjaları, peşə hazırlığı, yenidən hazırlanma və ixtisasartırma kurslarının təşkili yolu ilə gənclərin işlə təmin olunması, ordudan tərxis olunmuş, həmçinin özəlləşdirilmiş müəssisə və təşkilatlardan azad olunmuş gənclərin yeni peşələrə yiyələnməsi, ixtisaslarının artırılması və məşğulluğu ilə bağlı müvafiq icra hakimiyyəti və yerli özünü idarəetmə orqanları tərəfindən proqramın hazırlanması və həyata keçirilməsi, müvafiq proqram və layihələrin həyata keçirilməsi yolu ilə gənc fermerlərə və digər sahibkarlara yardım göstərilməsi kimi müddəalar öz əksini tapmışdır [101, m. 8].

Qanunun mühüm müddəalarından biri sərhədyanı və dağlıq ərazilərdə yaşayan, daimi yaşamaq üçün həmin ərazilərə köçən, təsərrüfatla məşğul olmaq istəyən gənclərin qanunvericilikdə müəyyən olunmuş qaydada torpaq sahələri və güzəştli kreditlərlə ilk növbədə təmin olunmasıdır [101, m.8.1].

«Gənclər siyasəti haqqında» Qanunun 8.2 və 8.3.-cü maddələrinə uyğun olaraq Azərbaycan hökuməti səviyyəsində bir neçə dövlət proqramları hazırlanaraq həyata keçirilmişdir.

«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı dövlət proqramı»ndan (2002–2005-ci illər) irəli gələn vəzifələrin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi əlaqədar dövlət orqanları ilə birlikdə bir sıra tədbirlər həyata keçirmişdir. Proqramdan irəli gələn vəzifələrlə əlaqədar olaraq Nazirlik tədbirlər planını qəbul etmişdir ki, orada gənclərin məşğulluğu ilə bağlı müəyyən işlər öz əksini tapmışdır. Ölkənin bütün rayon və şəhərlərində gənclərin işlə təmin edilməsi məqsədilə əmək yarmarkaları təşkil olunmuş, onların fəaliyyəti nəticəsində yüzlərlə gənc iş yerləri ilə təmin olunmuş, müxtəlif ixtisasartırma və peşəyönümü kurslarına cəlb olunmuşlar. Məcburi köçkünlərə əkib becərmək üçün 47 min torpaq sahəsi ayrılmışdır ki, orada işləyənlərin əksəriyyətini gənclər təşkil edirdi [97, 31].

Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2002-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında turizmin inkişafına dair dövlət proqramı»nda nəzərdə tutulmuş işlərin icrasını təmin etmək, turizm sahəsində çalışmaq üçün mütəxəssislərin hazırlanması, peşə səviyyəsinin artırılması məqsədilə ciddi addımlar atılmış, 100-dək mütəxəssis ixtisasını artırmaq üçün ARGİN tərəfindən inkişaf etmiş ölkələrin turizm mərkəzlərinə göndərilmişdir [97, 32].

Gənclər və İdman Nazirliyinin təşəbbüsü, görkəmli mütəxəssislərin yaxından iştirakı ilə hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 avqust 2000-ci il tarixli 1649 saylı Sərəncamı ilə təsdiq olunmuş «Ordudan tərxis olunmuş gənclərin məşğulluğu ilə bağlı dövlət proqramı» hərbi xidməti başa vurmuş gənclərin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm rol oynamışdır. Proqramın məqsədi ordudan tərxis olunmuş gənclərin fəal həyata qoşulması, onların məşğulluq probleminin həll olunması mexanizmini və yollarını müəyyənləşdirmək, bu sahədə

digər əlaqədar təşkilatların fəaliyyətini əlaqələndirməkdən ibarət idi [149].

Bu proqram «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı»nın III bölməsinin I bəndinə uyğun olaraq hazırlanmışdı. 2001–2005-ci illəri əhatə edən proqramda ordudan tərxis olunan gənclərin məşğulluğunun təmin edilməsi istiqamətində konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər sırasına ordudan tərxis olunmuş gənclərin problemlərinin həll edilməsi, eləcə də proqramın həyata keçirilməsinə məsul olan təşkilatların fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın yaradılması, ordudan buraxılmış gənclərin problemləri ilə bağlı informasiya şəbəkəsinin təşkili, müntəzəm sosial sorğuların keçirilməsi, bu problemlərin kütləvi informasiya vasitələrində geniş müzakirəsi, məsləhət xidmətləri, seminarların təşkili, ordudan tərxis olunmuşların peşə təhsili və işə düzəlmə problemlərinin həllində dövlət, qeyri-dövlət təşkilatlarının və bələdiyyələrin birgə fəaliyyətini tənzimləyən mexanizmlərin hazırlanması, təhsil almaq istəyənlər üçün hazırlıq kurslarının təşkili və s. daxil idi.

Ölkə rəhbərliyinin göstərişlərinə uyğun olaraq regionlarda sahibkarlıqla məşğul olmaq istəyən və ordudan tərxis olunmuş gənclər üçün sahibkarlığın əsaslarına dair treninq, məsləhət, informasiya xidmətinin və peşəyönümü kurslarının təşkil edilməsinə başlanılmışdır. Bu tip tədbirlərin keçirilməsində əsas məqsəd ordu xidmətini başa vurmuş gənclərin sahibkarlıq və biznes fəaliyyətinə cəlb olunmasına kömək göstərmək, bu sahədə onların biliklərini artırmaq, gənclərə hüquqi və informasiya xidməti göstərməkdən ibarət idi.

Gənclər və İdman Nazirliyi kiçik və orta sahibkarlıqla məşğul olan gənc sahibkarların problemləri, qarşılaşdıqları bürokratik maneələrin səbəblərini araşdırmaq, bu sahənin inkişafında gənclərin rolunun artmasına şərait yaratmaq məqsədilə mütəmadi

olaraq sosioloji tədqiqatlar, təhlillər aparır, dəyirmi masalar, seminar və konfranslar təşkil edirdi. Təkcə 2000-ci illərin əvvəllərində sahibkarlığa kömək sistemi çərçivəsində təşkil olunmuş treninq, kurs və seminarlarda 3000-dək sahibkar xüsusi hazırlıq keçmişdi ki, onların əksəriyyətini gənclər təşkil etmişlər. Regionlarda gənc sahibkar və fermerlərə hüquqi yardım göstərilməsi, onların problemlərinin həllinə nail olmaq məqsədilə 1999-cu ildə bir sıra bölgələrdə (Masallı, Zaqatala, Qusar, Gəncə) rayon gənclər, idman və turizm idarəsi rəislərinin və həmin bölgələrdə fəaliyyət göstərən gənc fermer və sahibkarların iştirakı ilə «gənclərin fermer və sahibkarlıq fəaliyyətinin formalaşdırılmasında iqtisadi islahatların rolu» mövzusunda seminar müşavirələr, 2002-ci ildə Bakıda Gənclər və İdman Nazirliyi tərəfindən «Sahibkarlığın inkişafında gənclərin rolunun artırılması» mövzusunda isə dəyirmi masanın keçirilməsi gənc sahibkarların problemlərinə dövlət səviyyəsində diqqətin artmasını sübut edirdi [97, 32–34]. Həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sahibkarlığın inkişafına dəstək siyasətindən irəli gəlirdi və «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafına dair dövlət proqramı»na (2002–2005) və digər proqramlara uyğun olaraq hazırlanmış tədbirlər planına əsaslanırdı.

Azərbaycan gəncləri sahibkarlığa dəstək beynəlxalq proqramları çərçivəsində də həyata keçirilən tədbirlərdə fəal iştirak edirdi. Təkcə 1999–2003-cü illərdə əksər hissəsi gənclərdən ibarət 200-ə yaxın iş adamı Avropa ölkələrində müvafiq proqramlar çərçivəsində hazırlıq kursları keçmiş və beynəlxalq təcrübəni öyrənmişdilər.

2002-ci ilin noyabrında Beynəlxalq Miqrasiya təşkilatı ilə birgə Qeyri-hökumət təşkilatları və gənclərlə iş üzrə mütəxəssislər üçün «Tənzimlənməyən miqrasiya: qaçaqmalçılıq və miqrantların qanunsuz daşınması, insanlarla ticarət» mövzusunda beynəlxalq tədbir keçirilmişdir. Tədbirdə müasir dövrdə dünyada, o cümlədən Azərbaycanda tənzimlənməyən miqrasiya problemi, qanunsuz miqrasiyanın dinamikası, qaçaqmalçılıq və insan alveri barədə

geniş danışılmışdı. BMT-nin Azərbaycanda tənzimlənməyən miqrasiyanın qarşısının alınması məqsədilə həyata keçirdiyi Məlumat Yayımı Layihəsi və Miqrasiya İnformasiya mərkəzinin fəaliyyəti barədə QHT-lərin məlumatlandırılması, tənzimlənməyən miqrasiyanın qarşısının alınması sahəsində onların rolu, BMT ilə Azərbaycanda fəaliyyət göstərən QHT-lərin əməkdaşlığının perspektivləri mövzularında məruzələri dinlənilmiş və müzakirələrdə gənclər yaxından iştirak etmişdilər [91, 34].

Heydər Əliyevin hazırlayaraq həyata keçirdiyi məqsədyönlü islahatlar ölkənin dinamik iqtisadi inkişafı üçün münbit şərait yaratmış, sahibkarlıq və kommersiya fəaliyyəti üçün zəruri hüquqi və iqtisadi baza formalaşdırmışdı. Bu isə daha çox gənclərin bizneslə məşğul olmasına, gənclərin işgüzarlığına, potensialının gerçəkləşməsinə əlverişli imkanlar yaranmasında, son nəticədə isə respublikanın sosial-iqtisadi inkişafında gənclərin rolunu əhəmiyyətli dərəcədə artırmışdır.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini qaçqın və köçkün gənclərin sosial müdafiəsini və cəmiyyətə inteqrasiyasını təmin etmək, onların problemlərinin həllinin daim dövlətin diqqət mərkəzində saxlanılması təşkil edirdi. 90-cı illərin ortalarında Ermənistanın təcavüzü nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş qaçqın və köçkün əmək qabiliyyətli 260–312 min gəncin yalnız 45 mini işləyən gənclər idi, qalan 115 min nəfər gənc isə işsiz idi. 191.346 qaçqın isə təhsil alırdı [104]. Heydər Əliyev bu təbəqələrdən olan gənclərə xüsusi qayğı, diqqət göstərməyi bütün dövlət orqanlarının, birinci növbədə, Gənclər və İdman Nazirliyinin əsas vəzifəsi hesab edirdi. Azərbaycan gənclərinin II Forumunda çıxış edərkən o gənclərlə bağlı həyata keçirilməsi vacib olan vəzifələrdən danışarkən göstərmişdi: «Azərbaycan gənclərinin bir hissəsi işğal olunmuş torpaqlarımızdan zorla köçürülmüş ailələrin övladlarıdır, həmin torpaqların gəncləridir. Biz yerindən, yurdundan didərgin düşmüş bütün soydaşlarımıza daim qayğı və diqqət göstərməliyik və göstəririk. Ancaq köçkün, qaçqın ailələrin uşaq-

larına, gənclərinə diqqət və qayğı xüsusi olmalıdır… Həyatımızda problemlər çoxdur. Hər bir vətəndaş, gənc ona qayğı göstərilməsini istəyir. Biz bunu etməliyik. Ancaq adlarını çəkdiyim təbəqələrdən olan gənclərə xüsusi qayğı, diqqət göstərilməlidir» [77, 218].

Qaçqın və köçkün gənclərin sosial-iqtisadi, mənəvi ehtiyaclarının həll olunmasında Azərbaycan gənclərinin II Forumunun xüsusi əhəmiyyəti oldu. Forumda yaradılmış bölmələrdən biri də bu gənclərin problemləri ilə bağlı idi. Bölmədə qaçqın və köçkün gənclərin problemləri geniş müzakirə olunmuş və təkliflər şəklində forum iştirakçılarının, dövlət rəhbərlərinin diqqətinə çatdırılmışdır [10; 100].

Heydər Əliyev qaçqın və köçkün gənclərin problemlərinin həlli ilə bağlı təkliflərə də münasibət bildirmiş və vurğulamışdır ki, forumdakı çıxışlarda qeyd olundu ki, onların təhsili də qənaətbəxş vəziyyətdə deyildir… «Biz gərək bütün qaçqın və köçkün düşərgələrində məktəblər təşkil edək və onların uşaqlarına, gənclərə lazımi səviyyədə təhsil verilməsi üçün ciddi tədbirlər görək. Bu da Forumun yekunlarından biridir. Hesab edirəm ki, bizim qəbul edəcəyimiz sənədlərdə bunlar öz əksini tapmalıdır [77, 218].

Azərbaycan Respublikası Prezidentinin «Dövlət Gənclər siyasəti haqqında» fərmanı ilə təsdiq olunmuş tədbirlər planında dövlət gənclər siyasətinin əsas istiqamətləri üzrə öz əksini tapmış vəzifələr sırasında çadır şəhərciklərində və digər qaçqın məntəqələrində yeni məktəblərin açılması və təhsilin səviyyəsinin gücləndirilməsi üçün tədbirlərin görülməsi, uşaqların yay istirahətlərinin səmərəli təşkili üçün həmin təbəqədən olan tələbələrin təqaüdlərinin artırılması, yaradıcı və istedadlı gənclərə dövlət qayğısının artırılması, gənc abituriyentlər üçün pulsuz test hazırlıq kurslarının təşkili, işğal olunmuş rayonların gənclər, idman və turizm idarələrinə əlavə ştat vahidlərinin verilməsi və s. məsələlər qeyd edilmişdir. Həmin vəzifələrin icrası Nazirlik və onun yerli idarələrinin daim diqqət mərkəzində olmuş, bu məqsədlə kompleks tədbirlər planı təsdiq edilmiş, rayon (şəhər) gənclər, idman və turizm idarələrinin rəisləri və mütəxəssislərinin iştirakı ilə keçirilmiş müşavirə və

toplantılarda qarşıda duran vəzifələr ətrafında geniş müzakirələr aparılmışdır.

Tədbirlər planının müvafiq bəndlərinə uyğun olaraq Təhsil Nazirliyi ilə birgə respublikanın müxtəlif bölgələrində məskunlaşan məcburi köçkünlərdən olan buraxılış siniflərinin şagirdləri ilə mütəmadi görüşlər keçirilmiş, onlara peşəyönümü barədə məsləhətlər verilmiş, qəbul imtahanlarına hazırlaşmaları üçün tədris-metodik materiallar, dərsliklər, test kitabçaları və dərs ləvazimatları verilmişdir. Eyni zamanda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəzdində fəaliyyət göstərən təsərrüfat hesablı hazırlıq kurslarında qaçqın ailələrindən olan gənclərin güzəştli şərtlərlə təhsil almaları təmin edilmişdir. Bütün bu tədbirlərin nəticəsində ali məktəblərə qəbul olunan qaçqın və məcburi köçkün ailələrindən olan abituriyentlərin sayı əvvəlki illərə nisbətən xeyli artmışdır [97, 26].

Tədbirlər planının icrası ilə bağlı işğal olunmuş rayonların gənclər, idman və turizm idarələrinə 12 sayda əlavə ştat vahidinin verilməsi qaçqın və məcburi köçkün gənclərlə işin daha səmərəli aparılmasına kömək edirdi. Nazirlik çadır şəhərciklərində qaçqın və məcburi köçkün gənclər üçün kiçik idman qurğularının (futbol, voleybol, basketbol meydançaları və s.), tikintisini qismən təmin etmiş, həmçinin onların müxtəlif idman ləvazimatı (idman paltarı, şahmat, dama, futbol, voleybol, basketbol topları, torları və s.) ilə təmin olunmasına yardım etmişdir [97, 26].

2001-ci ildə Bakıda Avropa Şurasının Gənclər və İdman Direktorluğunun xətti ilə Gənclər, İdman və Turizm Nazirliyi və Gənclər Təşkilatlarının Milli Şurasının təşkilati dəstəyi ilə «Qaçqın düşmüş gənclərin qeyri-formal təhsil vasitəsilə səlahiyyətləndirilməsi» mövzusunda seminar keçirilmişdi. Seminarın əsas məqsədi qeyri-formal təhsil metodlarından istifadə etməklə, qaçqın və məcburi köçkün düşərgələrində yaşayan gənclərin yaşayış şəraitini nəzərə almaqla onları səlahiyyətləndirmək, öz təşəbbüsü və fəaliyyətini inkişaf etdirmək üçün ruhlandırmaq və dəstəkləmək olmuşdur. Seminarda 33 nəfər gənc iştirak etmişdir. Onlardan 20

nəfəri öz icmalarından xüsusilə gənclərin işlərinə cəlb olunmuş gənc lider və işçilər, həmçinin qeyri-hökumət təşkilatlarının üzvləri olmuşdur. Seminarda Avropa Şurasının qaçqın və məcburi köçkünlərlə iş təcrübəsi olan 3 nəfər nümayəndəsi trener kimi iştirak etmişdir [97, 26–27].

«Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» Dövlət Proqramının müvafiq bəndlərində qaçqın və məcburi köçkün, habelə hərbi münaqişə dövründə zərər çəkmiş uşaqların sosial-psixoloji reabilitasiyası üzrə xüsusi proqramın hazırlanması və qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yerlərdə uşaqların sağlamlığının qorunması məqsədilə xüsusi profilaktik tədbirlərin görülməsi işi dövlət orqanlarının qarşısına vəzifə kimi qoyulmuşdur. Nazirlik tərəfindən uşaqların hüquqlarının qorunması və təlim-tərbiyəsi işinin təşkilinə dair metodiki tövsiyə hazırlanmışdır ki, burada qaçqın və məcburi köçkün uşaqların təhsilinin, sağlamlığının yaxşılaşdırılması, tətil günlərində istirahətlərinin səmərəli təşkil olunması sahəsində yerli idarələr qarşısında bir sıra vəzifələr qeyd olunmuşdur.

Qəbul edilmiş bir çox dövlət proqramlarında və normativ-hüquqi sənədlərdə qaçqın və məcburi köçkün uşaq, yeniyetmə və gənclərin sağlamlığının möhkəmləndirilməsi, yay istirahətinin səmərəli təşkili istiqamətində tədbirlərin həyata keçirilməsi əsas vəzifələrdən biri kimi qeyd olunmuşdur. Araşdırılan dövr ərzində də Nazirlik tərəfindən bu sahədə bir çox tədbirlər həyata keçirilmişdir. Belə ki hər il minlərlə gənc respublikanın ayrı-ayrı istirahət zonalarında məktəblilərin yay və qış tətili günləri xüsusi reabilitasiya proqramları əsasında sağlamlaşdırma tədbirlərinə cəlb olunurdular. Həmin tədbirlərdən Bakı şəhərində məskunlaşmış qaçqın və köçkün ailələrin uşaqları üçün 2000-ci ildə Pirşağı qəsəbəsindəki «Qarabağ» pansionatında yay istirahət düşərgəsinin təşkil edilməsini, 2001–2002-ci illərdə Sabirabad rayonunda yerləşən çadır şəhərciyində məskunlaşmış qaçqın və məcburi köçkün uşaqların qış tətili günlərində asudə vaxtlarını səmərəli

keçirməsi üçün Uşaq İstirahət və Sağlamlıq Mərkəzində düşərgələrin təşkil edilməsini göstərmək olar [97, 27].

Bundan başqa UNICEF-in Azərbaycandakı nümayəndəliyi ilə birgə çadır şəhərciklərində, eləcə də məcburi köçkünlərin məskunlaşdıqları digər yaşayış məntəqələrində Gənclərin təhsil və sağlamlıq mərkəzləri yaradılmış, müvafiq müasir texniki avadanlıqla təchiz edilmişdir. Həmin mərkəzlərdə işləyən mütəxəssislər ilə beynəlxalq qurumların köməyi ilə təlim kursları keçirilmiş, onlar lazımi metodiki vəsaitlərlə təmin olunmuşdurlar. Gənclər, İdman və Turizm Nazirliyi uşaq və gənclərin qeyri-hökumət təşkilatlarına təhsil proqramları ilə bağlı layihələrini reallaşdırmalarına kömək göstərmişdir.

Belə ki hər il Respublika Uşaq təşkilatı, Azərbaycan Skautlar Assosiasiyası, Azərbaycan Uşaqlar Birliyi və digər ictimai təşkilatlar tərəfindən qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların sağlamlıqlarının möhkəmləndirilməsi, sosial-psixoloji reabilitasiya olunması və tətil günlərinin səmərəli təşkil edilməsi sahəsində təqdim etdikləri layihələr Nazirlik tərəfindən qismən müəyyənləşdirilmişdir.

«Kainat» Gənclər Mərkəzi Gənclər, İdman və Turizm Nazirliyinin dəstəyi ilə qaçqın uşaq və gənclərin sosial, fiziki, intellektual və mənəvi inkişafına yönəlmiş bir çox layihələr həyata keçirmişdir. Belə tədbirlərdən hər il yay tətili günlərində çadır düşərgələrində məskunlaşmış uşaqlara ədəbi-bədii proqramların təşkilini, maraqlı konsert proqramlarının və viktorinaların keçirilməsini, Novruz bayramı ərəfəsində çərşənbə tonqalları, ədəbi-bədii yaradıcılıq müsabiqələrini qeyd etmək olar. «Kainat» Gənclik Mərkəzi qaçqın və məcburi köçkün uşaq və gənclər arasında istedadlı və yaradıcı uşaqların üzə çıxarılması istiqamətində müxtəlif sərgilər, müsabiqə və festivallar keçirirdi. Belə tədbirlərdən biri hər il keçirilən uşaq muğam festivalıdır. Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı qaçqın və məcburi köçkün gənclərin sosial-iqtisadi, elmi-mədəni, təhsil, tibbi problemlərin həlli və onların hüquqlarının müdafiəsinin təmin olunması

sahəsində tədbirlər həyata keçirirdi. Təşkilat qaçqın və məcburi köçkün tələbələrlə və orta məktəblərdə təhsil alan şagirdlərlə müntəzəm görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həlli ilə bağlı müxtəlif layihələr həyata keçirirdi. Gənclər, İdman və Turizm Nazirliyi, Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin dəstəyi ilə işğal olunmuş rayonlardan olan istedadlı yeniyetmə və gənclər arasında «Qarabağ təranələri» Respublika Baxış Müsabiqəsi keçirirdi [97, 27–29].

2002-ci ildə Gənclərin III Forumu ilə bağlı təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, respublikanın ayrı-ayrı şəhər və rayonlarında qaçqın və məcburi köçkün uşaq və gənclərlə görüşlər keçirilmiş, Əli Bayramlı şəhərində (indiki Şirvan), İmişli, Saatlı, Goranboy rayonlarında məskunlaşmış qaçqın uşaq və gənclər üçün sadə idman qurğuları yaradılmış, idman ləvazimatları paylanmışdır. Bundan əlavə, Mingəçevir şəhərində və İmişlidə məskunlaşmış qaçqınlar üçün Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən 20 tona yaxın un paylanmışdır.

Nazirliyin göstərdiyi səylər nəticəsində ABŞ-ın Azərbaycana göndərdiyi ümumi dəyəri 1 milyon 200 min ABŞ dolları olan 2200 qutu (22 ton) uşaq və gənclər üçün qış geyim paltarı bütün rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə paylanmışdır. Gənclər, İdman və Turizm Nazirliyinin məsul işçilərinin iştirakı ilə Sabirabad rayonu ərazisində yerləşən Çalaqayın çadır şəhərciyində, Bərdə rayonunda, Türk çadır şəhərciyində, Mingəçevirdə «Kür» OTİM-də, Beyləqan rayonunda məskunlaşmış qaçqın və məcburi köçkün gənclərlə görüşlər keçirilmiş, onlara ərzaq, geyim əşyaları və idman avadanlıqları verilmiş, çadır şəhərciyində sadə idman qurğularının açılışı olmuşdur [97, 29].

2003-cü ildə Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən 200 nəfər qaçqın və məcburi köçkün, şəhid, kimsəsiz, valideyn himayəsindən məhrum olmuş yeniyetmə və gənclər üçün Bakı Bələdiyyə teatrında «İnsan və İblis» tamaşasına baxış təşkil edilmiş, müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatları

nümayəndələrinin iştirakı ilə «Qaçqın və məcburi köçkün gənclərin sosial problemləri və onların həlli yolları» mövzusunda «dəyirmi masa» keçirilmişdir.

Beləliklə, 1993-cü ildən sonra Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar dövlət gənclər siyasətinin səmərəli reallaşmasına, gənclərin sosial-iqtisadi problemlərinin həlli üçün əlverişli şəraitin formalaşmasına müsbət təsir göstərmişdi.

Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə qəbul edilmiş normativ-hüquqi aktlar, müvafiq dövlət proqramları gənclərin potensialının gerçəkləşdirilməsinə, onların iqtisadi fəallığının artmasına təkan vermişdir.

## 2.2. Heydər Əliyevin nəzəri irsində gəncliyin mədəni-mənəvi inkişafı məsələləri

Müstəqil dövlət quruculuğu prosesində gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Ölkəmizin əksər gəncləri vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında, milli dövlət quruculuğunda fəal iştirak edirdilər. Bununla belə, təəssüflə qeyd edilməlidir ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində baş vermiş ictimai-siyasi böhranın, Qarabağ müharibəsində müvəqqəti uğursuzluqlarımızın mühüm səbəblərindən biri də bəzi gənclərdə vətənpərvərlik və milli ləyaqət hislərinin kifayət qədər olmaması idi.

Vətənin taleyinin təhlükə altında olduğu, onun bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin getdiyi bir zamanda Azərbaycan xalqının vətəni qorumağa qadir, mərd, sadiq gənclərə çox ehtiyacı var idi.

Hələ Ali Sovetin sədri kimi Heydər Əliyev dövlət başçısı səlahiyyətlərini yerinə yetirdiyi zaman – 1993-cü il sentyabrın 22-də gənclərlə ilk görüşündə Azərbaycan Respublikasının o dövrdə

yaşadığı mürəkkəb şəraiti təhlil edərək xalqımızın məğlubiyyətlərinin və ağır vəziyyətinin əsas səbəblərindən biri kimi həmin dövrdə mövcud olmuş ictimai-siyasi proseslər nəticəsində gənclərimizin bir qismində vətənpərvərlik hisslərinin müəyyən qədər itirilməsi, milli dəyərlərə biganəliyin yaranmasını göstərərək, burada həm valideynlərin, həm məktəbin, həm də bütünlüklə cəmiyyətin günahının olduğunu vurğulamışdır [76].

Ölkə rəhbəri gənclərlə görüşündə Azərbaycanda təhsil sisteminin mövcud vəziyyətinə də toxunaraq, gənclərin yüksək səviyyəli təhsil almasının dövlətin birinci dərəcəli vəzifəsi olduğunu, gəncləri milli-mənəvi dəyərlərimizi, tarixi ənənələrimizi mənimsəməyə, eyni zamanda milli məhdudluğa qapanmamağa, ümumbəşəri dəyərləri mənimsəməyə çağırdı: «Təhsili olmayan gənc, şübhəsiz, həyatda lazımi yer tuta bilməz. İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki səviyyədə inkişaf etdirmək üçün şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq» [76; 168; 98, 23].

Gənclərimiz arasında cinayətkarlıq, əxlaq pozğunluğu, sərxoşluq, narkomanlıq kimi mənfi meyillərin artmasını ürək ağrısı ilə qarşılayan milli lider xalqın genefondu olan gənclərimizin mənəvi və fiziki sağlamlığının qorunmasının hər bir vətəndaşın, dövlət orqanının, təhsil müəssisəsinin, bütövlükdə cəmiyyətin əsas vəzifəsi olduğunu qeyd etmişdi [76].

O, dövlətin digər əsas vəzifələrindən birinin gənclər arasında vətənpərvərlik hissini geniş təbliğ etmək, onlarda milli ruhun, döyüş ruhunun qaldırılması olduğunu göstərərək gəncləri ordu quruculuğu işində yaxından iştirak etməyə çağırdı. Heydər Əliyev gənclərin son illərin ağır nəticələrindən ibrət dərsi alacaqlarına, özlərində vətənpərvərlik hisslərini daha da gücləndirəcəklərinə, vətəndaşlıq borclarını müqəddəs vəzifə kimi yerinə yetirəcəklərinə və son nəticədə müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılacağına, onun ərazi bütövlüyünün təmin ediləcəyinə qəti inamını bildirmişdi. O, gənclərimizə bədbinliyə qapanmamağı, gələcəyə inamla baxmağı tövsiyə edirdi: «Xalqımızın gücünü bir

yerə toplasaq, onun daxili mənəviyyat hissini oyatsaq, tarixi ənənələrini və tarix boyu göstərdiyi qəhrəmanlıq nümunələrini bu gün xalqımıza, xüsusən gənclərimizə bir daha çatdıra bilsək, şübhəsiz ki, xalqımız birləşəcək, səfərbər olacaq, ayağa qalxacaq, birinci növbədə, öz namusunu, şərəfini qoruyacaq… torpağını qoruyacaq… Mən buna inanıram. Mənim bu fikirlərim bizim gənclərin gücünə, zəkasına, fitri istedadına və vətənpərvərlik hislərinə əsaslanır» [98, 14]. Heydər Əliyev gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərini gücləndirmə sahəsində məqsədyönlü və sistemli iş aparılmasını bütün dövlət orqanları, təhsil müəssisələri, ictimai təşkilatlar qarşısında dövlət gənclər siyasətinin təxirəsalınmaz məqsədi kimi müəyyənləşdirmişdi. Heydər Əliyev vətənpərvərliyin həmin mürəkkəb anlarda ən aktual məsələ olduğunu vurğulayaraq müharibədə məğlubiyyətlərin səbəbləri arasında gənclərin daxili imkanlarından səmərəli istifadə olunmaması, gənclərin bir hissəsinin ölkənin fəlakətli vəziyyətində özlərini kənara çəkməsini göstərərək, gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaq, bütün gənclərin hərbi xidmət keçmələrinin zəruri olduğunu, fərariliyə qarşı ümumi nifrət hissini açıqlanmasını ön plana çəkirdi: «Axı nə üçün Azərbaycan oğulları fərari olsunlar?» sualını verən lider burada təkcə gəncləri günahlandırmağın düzgün olmadığını, günahın çoxunun ordu quruculuğunda səriştəsizlik göstərən dövlət başçılarında, bu işlə məşğul olan adamlarda olduğunu qeyd etmişdi [76].

Mənəvi yoxsullaşma yolunu tutmuş gənclərə etinasızlıq, əvvəlki dövrlərdə dövlətin gənclərlə bağlı siyasətində formalaşmış ideoloji boşluq hərbi-vətənpərvərlik ənənələrinin zəifləməsinə, bəzən də unudulmasına gətirib çıxarmışdı. Məhz vətənpərvərlik ideologiyasına etinasızlığın acı nəticəsi idi ki, Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə 992 nəfər, Ağdamın müdafiəsi zamanı isə 1351 əsgərimiz döyüş şəraitində hərbi hissələri tərk etmişdi [144, 1996, 8 fevral].

Bütün Azərbaycan xalqı kimi, gənclər də ölkəni ağır durumdan çıxara biləcək yeganə amil kimi Heydər Əliyevi görərək

onun ətrafında sıx birləşməyə başladı. 1993-cü il oktyabrın 3-də Heydər Əliyevi özünə prezident seçən Azərbaycan xalqı və gəncliyi dövlətçiliyin bərpası və möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin, ərazi bütövlüyünün təmin olunması, dövlət intizamının, qanunçuluğun, ordunun möhkəmləndirilməsi işində onun ən yaxın köməkçisinə çevrildi.

Ermənilər Azərbaycandakı siyasi böhrandan, ordu quruculuğu və döyüş əməliyyatlarına rəhbərlikdə buraxılan kobud səhvlərdən məharətlə istifadə edərək 1993-cü ilin yayında və payızında güclü hücuma keçdi və Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını ələ keçirdi. Azərbaycan Respublikası ərazisinin 20 faizi düşmən tapdağı altına düşdü. Belə mürəkkəb bir vəziyyətdə, 1993-cü il noyabrın 2-də Prezident Heydər Əliyev xalqa müraciət edərək, ölkənin müdafiəsi və azadlığı uğrunda birləşib düşmənlə mübarizəyə qalxmağa çağırdı.

Bütün Azərbaycan xalqı kimi, gənclər də prezidentin çağırışına ürəkdən qoşuldu. Prezidentin çağırışına cavab olaraq minlərlə gənci birləşdirən müxtəlif gənclər təşkilatları, ayrı-ayrı şəxslər vətənin müdafiəsində iştirak etmək, öz xidmətlərini göstərmək üçün vətənpərvərlik təşəbbüsləri ilə prezidentə müraciət etdilər [4, 1994, 4 noyabr]. Heydər Əliyevin müraciətinə birinci cavab verənlər arasında sovet-əfqan müharibəsində iştirak etmiş keçmiş beynəlmiləlçi döyüşçülər də var idi. Onların nümayəndələri ilə görüşündə Heydər Əliyev bir daha qeyd etmişdi: «Biz Vətənimizi müdafiə edirik, torpağımızı müdafiə edirik, dövlətimizi müdafiə edirik». Ona görə də bizim işimiz haqq işidir və Vətənini sevən hər bir adam bu işə qoşulmalıdır, dövlət qarşısında, xalq qarşısında öz vətəndaşlıq borcunu ödəməlidir.

Prezidentin müraciətindən sonra könüllülərdən ibarət batalyonlar yaradılaraq cəbhəyə göndərildi. 1993-cü ilin noyabr-dekabr aylarında 16,7 min nəfərlik 40 ehtiyat taboru təşkil edildi. Orduya xalq yardımı genişləndi, silahlı qüvvələrin maddi bazası xeyli möhkəmləndirildi. Bütün bunların nəticəsi olaraq ermənilərin Azərbaycanın içərilərinə doğru hücumu ordumuz tərəfindən

dayandırıldı. Cəbhədə əldə edilən uğurlar xalqın mənəvi ovqatına da müsbət təsir göstərir, gənclərdə vətənpərvərlik hissini, torpağı müdafiə etmək əzmini yüksəldirdi. Azərbaycan gəncləri orduda ləyaqətlə xidmət edir, qəhrəmanlıq nümunələri göstərirdilər.

Azərbaycan dövlətinin başçısı cəbhədə qəhrəmanlıq göstərmiş, fərqlənən zabit və əsgərlərimizin xidmətlərini vətənin yüksək mükafatları ilə təltif etməklə bütün əsgərlərin döyüş əhvali-ruhiyyəsinin artırılmasına nail olmuşdu. Prezident cəbhə bölgələri ilə əlaqə saxlayır, qəhrəmanlıq göstərən komandirləri, zabitləri şəxsən təbrik etməyi unutmurdu.

Lakin təəssüf ki, qəhrəmanlıqla vuruşub həlak olanlarla yanaşı qorxaqlıq göstərib, təxribata uyub döyüş mövqelərini qoyub qaçanlar da var idi. Fərarilik edərək döyüş bölgəsini qoyub qaçanlar haqqında ciddi tədbirlər həyata keçirilirdi. Azərbaycan Respublikasının prezidenti belə gənclərə münasibətdə böyük humanistlik göstərərək onları öz günahlarını etiraf edərək orduya qayıtmağa, xidmətlərini davam etdirməyə çağırmış, yalnız belə olacağı təqdirdə bağışlanılacaqlarını bildirmişdi. Prezidentin bu addımı dərhal öz səmərəsini vermiş, fərarilik edən gənclər hərbi prokurorluğa müraciət edərək hərbi hissələrə göndərilmələrini xahiş etmişdilər. 1994-cü il yanvarın 2-də Heydər Əliyev hərbi hissələri özbaşına tərk etmiş gənclər və onların valideynləri ilə görüşərək fərarilik etmiş, lakin orduya qayıtmaq üçün qeydiyyatdan keçmiş əsgərlərin hamısını bağışladığını və onları cəza çəkməkdən azad etdiyini bəyan etdi. Onun «Vətəni qorumaq ən yüksək, şərəfli vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır» sözləri bütün Azərbaycan xalqına, hər bir gəncə ünvanlanan rəhbər çağırışı idi [4, 1996, 8 fevral].

Heydər Əliyevin humanizm və ədalət prinsiplərini əldə əsas tutaraq və yüzlərlə ailənin müraciətini nəzərə alaraq 5 iyul, 18 oktyabr, 11 noyabr, 27 dekabr 1995-ci il tarixli fərmanları ilə 1027 nəfər fərarilik etmiş gənci cəzaçəkmə yerlərindən azad etməsi cəmiyyətdə yüksək əks-səda doğurmuş, həmin gənclərin vətən qarşısında öz günahlarını yumağı üçün real şans yaratmışdı.

Heydər Əliyevin qətiyyəti sayəsində qısa müddət ərzində ordu daxilində hökm sürən hərc-mərcliyin, özbaşınalığın, kütləvi fərariliyin qarşısı alındı, genişmiqyaslı səfərbərlik tədbirləri həyata keçirildi, ordunun idarə olunması təkmilləşdirildi. Görülmüş tədbirlər nəticəsində cəbhədə təşəbbüs Azərbaycan ordusunun tərəfinə keçdi. Düşmən hərbi yolla öz məqsədlərinə nail olmağın perspektivsizliyini dərk edərək cəbhədə atəşkəsə razılıq verməli oldu.

Heydər Əliyev gənclərin mənəvi tərbiyəsində məktəbin, təhsil müəssisələrinin mühüm əhəmiyyət kəsb etdiyini, buna görə də təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsinin ön planda olmasına diqqəti cəlb edirdi. O üzünü müəllimlərə tutaraq bu prinsipləri öz fəaliyyətində, öz həyatlarında əsas tutmalarını, gəncləri yüksək mənəvi ruhda tərbiyələndirməyi, hazırlamağı tövsiyə edirdi [78].

Çox təəssüf ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda təzahür edən ictimai-siyasi proseslər, mənfi meyillər ölkənin təhsil sisteminə də mənfi təsir göstərmiş, bu sahədə qazanılmış bir çox müsbət ənənələr itirilmiş, təhsil sistemi böhran vəziyyətinə düşmüşdü. Hakimiyyətə ikinci qayıdışından sonra təhsilin, tərbiyə işinin dövlətin, dövlət başçısının əsas vəzifəsi və qayğısı altında olduğunu bəyan edən Heydər Əliyev təhsilimizi tənəzzüldən çıxarmaq, onun inkişafını təmin etmək üçün komplekt tədbirlər sistemi həyata keçirdi. O bütün imkanların gənclərin təkmilləşməsinə, tərbiyələnməsinə həsr edilməsini, təhsildə nöqsanların, naqis cəhətlərin aradan götürülməsinə yönəltməyi tələb edərək, hər bir vətəndaşa gənclərin yaxşı tərbiyə və təhsil alması, müasir tələblərə çatması üçün çalışmasını tövsiyə edirdi. Heydər Əliyevin başçılığı altında həyata keçirilmiş təhsil islahatları, özəl təhsilin inkişafı, təhsil sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, tədrisin və təlimin yeniləşdirilməsi qısa zaman ərzində inkişafın əsas özəyi olan təhsil sisteminin böhrandan çıxmasına və inkişafına gətirib çıxardı.

Təhsil sahəsində islahatların həyata keçirilməsində ölkə prezidentinin 1998-ci il mart tarixli Sərəncamı ilə yaradılmış Azərbaycan

Respublikasında təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyası mühüm rol oynadı. Komissiyanın hazırladığı «Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı» 1999-cu ilin iyununda dövlət başçısının imzası ilə qüvvəyə mindi. İslahatların hüquqi-normativ bazasının yaradılması məqsədilə müvafiq işlər həyata keçirildi.

Heydər Əliyevin «insan təhsilinin əsasını orta məktəbdə alır, ona görə də bütün təhsil sistemində orta təhsil, məktəb … xüsusi yer tutmalıdır» konseptual göstərişi əsas tutularaq orta təhsilin inkişafı üçün zəruri addımlar atılmağa başlandı. Ölkənin ali qanunu bütün vətəndaşların pulsuz, icbari ümumi təhsil hüququnu təmin edir (maddə 42). Prezidentin təşəbbüsü ilə bütün orta məktəb şagirdlərinin pulsuz dərsliklərlə təmin edilməsi həyata keçirilmişdir. Təhsil tarixində ilk dəfə orta təhsilin dövlət standartları və baza tədris planları 1999-cu ildə təsdiq edilmiş, dərsliklərin hamısı məzmunca yeniləşdirilmişdir.

Təhsil sahəsində ən ciddi yeniliklərdən biri, bu sahənin digər sahələrə nisbətən birinci olaraq latın qrafikalı əlifbaya keçməsi olmuşdur [16, 218]. Azərbaycanda latın qrafikası əsasında yeni əlifbaya keçid haqqında prinsipial qərar 1991-ci ildə qəbul edilsə də, uzun müddət keçməsinə baxmayaraq, bu sahədə ciddi dönüş baş verməmişdi. Yalnız Heydər Əliyevin fəaliyyəti sayəsində məsələ öz qəti həllini tapdı. 1999-cu il sentyabrın 1-də Bakı şəhərindəki 18 nömrəli məktəbdə yeni dərs ilinin başlanması münasibətilə keçirilmiş tədbirdə o, latın əlifbasının tətbiqində ləngimənin davam etməsindən təəssüfləndiyini bildirmişdi. «Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır» deyə bəyan edərək Təhsil Nazirliyindən, məktəblərdən, nəşriyyatlardan tezliklə yeni əlifbaya keçməyi tələb etmişdir [91, 165–169].

Müstəqillik dövründə ali təhsil sistemində məzmun və keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyulmuşdur. 1993–94-cü illərdə ikipilləli ali təhsilə keçid həyata keçirilmiş, dövlət ali məktəblərinin sayı 17-dən 2001-ci ildə 30-a çatmış, 18 qeyri-dövlət ali təhsil müəssisə fəaliyyətə başlamışdır.

2001-ci ildə Azərbaycan təhsil sistemində 1814 məktəbəqədər təhsil müəssisəsi, 4561 orta məktəb, 108 peşə liseyi və peşə məktəbi, 72 orta ixtisas təhsil müəssisəsi, 48 ali məktəb fəaliyyət göstərirdi. Məktəbəqədər tərbiyə müəssisələrində 112280, ümumtəhsil müəssisələrində 1689 682, texniki peşə məktəblərində 24454 şagird, orta ixtisas təhsil müəssisələrində 42598, ali məktəblərdə isə 123329 tələbə tərbiyə və təhsil alırdı.

Ölkəmizin təhsil sahəsində beynəlxalq əlaqələri xeyli genişlənmişdi. Dünyanın 40-a yaxın ölkəsində 160 ixtisas üzrə 3000-dən çox azərbaycanlı təhsil alırdı. Respublikanın ali məktəblərində isə 2000-dən artıq tələbə, magistr, aspirant təhsil alırdı. Azərbaycan ali məktəblərinin dünyanın bir sıra ali məktəbləri ilə sıx elmi-tədris əlaqələri yaranmış, onlar müxtəlif beynəlxalq təhsil proqramları və layihələrində yaxından iştirak etməyə başlamışdılar.

1993-cü ildən sonra təhsilin inkişafına ayrılan büdcə vəsaitinin həcmi də ilbəil artırdı və 2001-ci ildə bu sahəyə ayrılan vəsait dövlət büdcəsinin 23 faizini təşkil etmişdi [16, 219].

Heydər Əliyev təhsilə dövlətin strateji sahəsi kimi baxaraq bu sahənin inkişafını daim diqqətdə saxlayırdı. O, hər il sentyabrın 1-də tədris ilinin başlanması münasibəti ilə orta məktəblərə baş çəkir, müəllim və tələbələrin qayğıları ilə maraqlanırdı. Ulu Öndər müəllimlərə, müəllimlik peşəsinə həmişə öz hörmətini, ehtiramını bildirmiş, ona dərs deyən müəllimləri də heç vaxt unutmamış və ən xoş duyğularla xatırlamışdır. O, xüsusi sevgi ilə deyirdi: «Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur…» «Mən Azərbaycan müəllim ordusuna hörmət və ehtiramımı bildirirəm və bəyan edirəm ki, cəmiyyətimizdə Azərbaycan ziyalıları xüsusi yer tuturlar. Müəllimlər hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar [32, 164].

Heydər Əliyev vətəndaşlıq hislərinin formalaşmasında, tədrisin, təhsilin çox böyük əhəmiyyətə malik olduğunu göstərir, bunu təhsilimizin əsas istiqaməti, məktəblərin, müəllimlərin borcu hesab edirdi. «Uşaqlar gərək orta məktəblərdə bütün fənləri mənimsəsinlər. Bunların hamısı ilə bərabər, bizim xalqımızın zəngin

tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur. Mən arzu edirəm ki, müəllimlər bunu heç vaxt unutmasınlar» [91, 166].

Təhsili millətin gələcəyi hesab edən böyük öndər təhsilin əsas məqsədini Azərbaycan vətəndaşını hazırlamaqda görürdü. O bu məsələdə gənclərin hərtərəfli inkişafında özül olan orta təhsilə daha çox üstünlük verirdi. O təhsilin məqsədini gənc nəslə, uşaqlara təhsil verib, onları gələcəyə hazırlamaqda görürdü və qeyd edirdi ki, hər bir gənc insan gərək eyni zamanda vətəndaş olsun. O bunu sadəcə Azərbaycan vətəndaşı olması ilə deyil, dövlətinə, millətinə, ənənələrinə, xalqına sadiq vətəndaş olması ilə izah edirdi. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir verməyi tələb edirdi. O, qeyd edirdi ki, müəllim çalışmalıdır ki, uşaq nəinki bilik alsın, həm də cəmiyyətdə bütün əxlaq normalarını mənimsəsin və onlara riayət etsin, öz həyatını yüksək əxlaqi dəyərlər əsasında qursun.

Heydər Əliyevin məktəb qarşısında qoyduğu mühüm vəzifələrdən biri də vətəndaşlıq tərbiyəsi konsepsiyasının əsas sahələrindən olan Azərbaycanın müstəqilliyinin atributlarının təbliği ilə əlaqədar idi. Heydər Əliyev məktəblərdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənasını, məzmununu geniş tədris etməyi, vətənpərvərlik hislərinin insanlara uşaq vaxtlarından aşılanmasını tövsiyə edirdi. Onun üçün Azərbaycan bayrağı sadəcə bayraq deyil, dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi idi. Bayrağa olan məhəbbət, eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətdir. Ona görə də Heydər Əliyev Azərbaycan bayrağının təkcə rəsmi yerlərdə, idarələrdə, küçələrdə, saraylarda, məktəblərdə deyil, hər bir evdə, hər bir ailədə olmasını, hamının həyatının əziz bir hissəsinə çevrilməsini arzulayırdı [91, 167].

O, bayraqla yanaşı, gerbimizə və himnimizə də iftixar hissi ilə yanaşmağı tövsiyə edir və təəssüflə bildirirdi ki, bizdə hələ də himni oxumaq ənənəsi yaranmayıbdır. Ona görə də o, tələb edirdi ki, himni təkcə öyrənməklə, dinləməklə məhdudlaşmaq

olmaz, onu həm də oxumaq lazımdır. Dahi rəhbərin nəzərincə bu insanlarda vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə kömək etməklə bərabər, həm də himnimizə xüsusi hörmətinin təzahürü olardı [91, 167–168].

Məktəbin, müəllimlərin ən əsas vəzifəsinin cəmiyyətə, xalqa, ölkəyə dəyərli vətəndaşlar hazırlamaqdan ibarət olduğunu deyən Heydər Əliyev bunun üçün müəllimin özünün bu xüsusiyyətlərə malik olmasını, özünü təkmilləşdirməsini, öz üzərində işləməsini tələb edirdi.

Heydər Əliyev müəllim əməyinin cəmiyyət üçün vacibliyini çox yaxşı bilirdi və qiymətləndirirdi. O qeyd edirdi ki, hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır [61].

Azərbaycanın iqtisadi potensialı artdıqca, dövlət büdcəsinin imkanları genişləndikcə, məktəbə, təhsilə ayrılan vəsaitlərlə yanaşı, müəllimlərin, təhsil işçilərinin maaşları da artırılır, maddi rifahı yüksəlirdi. Təkcə 1993–2001-ci illərdə təhsil işçilərinin əməkhaqqının artırılması haqqında Heydər Əliyev 9 dəfə müvafiq sərəncam imzalamışdı [116, 193].

Heydər Əliyev Azərbaycanda mənəvi cəhətdən sağlam, yüksək intellektə malik gənclərin yetişməsində ali məktəblərin rolunun yüksək olduğunu vurğulayaraq, bu təhsil mərhələsinin yeni çağdaş tələblər səviyyəsində inkişafını diqqət mərkəzində saxlayırdı. O, dəfələrlə ölkənin ali məktəb sistemində mövcud olmuş və davam etməkdə olan nöqsanları və çatışmazlıqları, təhsilin səviyyəsinin aşağı düşməsini açıq şəkildə etiraf edərək, hamıdan bu nöqsanların aradan qaldırılmasını tələb edir və göstərirdi ki, respublikanın gələcəyi gənclərimizin nə dərəcədə keyfiyyətlə hazırlanmasından asılıdır. İnanırdı ki, ali məktəblərin professor-müəllim kollektivi öz vəzifələrini şərəflə yerinə yetirəcək və Azərbaycanın gənc nəslinin hazırlanmasında öz xidmətlərini göstərəcəklər. O, ali məktəblərin, müəllimlərin əsas vəzifəsinin yüksəkixtisaslı mütəxəssislər hazırlamaqla yanaşı, mənəvi cəhətdən saf vətəndaşlar

yetişdirmək, gənclərimizin vətənpərvərlik ruhunda, müstəqil Azərbaycanın qorunub saxlanılması ruhunda tərbiyə edilməsi olduğunu qeyd edirdi. O, inamla bildirirdi ki, ali məktəb tələbələri olan gənclərin hamısı öz gələcək həyatlarını xalqımızın əsrlərdən-əsrlərə ötürülən milli-mənəvi dəyərləri əsasında quracaq və Azərbaycanın gələcəyi naminə layiqincə hazırlaşacaqlar [78, 215–222].

Heydər Əliyev təhsil sahəsində çalışan bütün insanlara üzünü tutaraq deyirdi: «... Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Ona görə də universitetlər işini təkmilləşdirməli, professor-müəllim heyəti isə işə münasibətlərini daha da yüksəltməlidirlər ki, gənclərə müasir tələblərə uyğun bilik verə bilsinlər» [45, 331].

Heydər Əliyev bizə gənclərin vətəndaşlıq tərbiyəsinin mənəvi tərbiyəsinin bütün aspektlərini özündə birləşdirən bütöv elmi nəzəriyyə, zəngin irs qoyub getmişdir. Bu baxımdan onun Azərbaycan Gənclərinin I Forumundakı çıxışı diqqətə layiqdir. Öz çıxışında Azərbaycan gəncliyinin qarşısında duran strateji vəzifələri və yolları müəyyənləşdirmiş və qeyd etmişdir ki, hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.

Heydər Əliyevin milli ideologiya konsepsiyasının mühüm istiqamətini gənclərin, birinci növbədə, Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiqlik ruhunda tərbiyə edilməsi təşkil edirdi. «Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir» [98, 143].

O, gənclərin tərbiyəsində milli ənənələrin, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə vəhdətdə götürülməsi, bunun gənclərimizin mənəvi kodeksini təşkil etməsini, gənclərlə işin bu istiqamətdə aparılmasını tövsiyə edirdi. O, milli vətənpərvərliyin Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyat prin-

sipinə çevrilməsini, xüsusən ölkəmizdə yeni müstəqil, hüquqi dövlət, yeni iqtisadi-siyasi sistem quruculuğu dövründə xüsusi önəm daşıdığını qeyd edirdi. Eyni zamanda Heydər Əliyevə görə işğal edilmiş torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi dövlətin əsas məqsədlərindən biri olduğuna görə milli vətənpərvərlik prinsipi körpəlikdən başlayaraq, hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olmalıdır [71, 382–395].

Gənclərin əsas vəzifəsinin onların özlərini müstəqil Azərbaycan Respublikasının yaranmasına və əbədi olmasına həsr etməkdən, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, işğal olunmuş torpaqların azad olunmasından və dövlət sərhədlərinin bərpa olunmasından ibarət olduğunu qeyd edən Azərbaycan Respublikasının prezidenti bu vəzifələrin yerinə yetirilməsi üçün gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini, orduya diqqətin artırılmasını bütün dövlət orqanları, gənclər təşkilatları qarşısında konkret vəzifə kimi qoymuşdur.

Heydər Əliyev gənclərimizi konstitusiyanı, onun maddələrini, xüsusən vətəndaşların hüquq və vəzifələrinə aid maddələrini öyrənməyə və onlara riayət etməyə çağırır və göstərirdi ki, müstəqilliyi təmin etmək üçün birinci növbədə, qanunun aliliyini təmin etmək, insanların hüquq və azadlıqlarını qorumaq lazımdır və bu dövlətin və hər bir vətəndaşının borcudur. Heydər Əliyev Azərbaycanın ictimai-siyasi vəziyyətinin, dövlət quruculuğu prosesinin, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyətin dərin, elmi təhlilini vermiş, bu sahədə gənclərin də üzərinə böyük vəzifələr düşdüyünü onların nəzərinə çatdırmışdır.

Gənclər təşkilatlarının, gənclərin ən əsas vəzifəsinin hər bir gənci, hər bir Azərbaycan övladını orduya xidmətə hazırlamaqdan ibarət olduğunu vurğulayan ölkə başçısı ürək ağrısı ilə etiraf edirdi ki, bu iş bizdə hələ də istənilən səviyyədə deyildir. Azərbaycan xalqının böyük hərbi ənənələrindən söhbət açan Heydər Əliyev orduya xidmət etməyi hər bir gəncin vətəndaşlıq vəzifəsi və şərəfli borcu olduğunu göstərirdi.

Gənclərin qarşısında duran əsas vəzifələrdən birinin də mənəvi tərbiyə olduğunu göstərən Heydər Əliyev onlara ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini mənimsəməyi, tariximizi, dinimizi yaxşı bilməyi tövsiyə edir və qeyd edirdi ki, milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Heydər Əliyevin fəlsəfəsinə görə vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik [5, 54]. O əminliklə bildirirdi ki, vətənini, millətini, dilini, dinini, ənənələrini sevməyən, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda da özünə yer tapa bilməyəcəkdir. İctimai-siyasi proseslərdə, Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir. Ümummilli lider professional tarixçi kimi Azərbaycan xalqının tarixinə də qısa ekskurs edərək onu layiqincə qiymətləndirməyi, ondan gənclərə vətənpərvərlik hissinin aşılanmasında istifadə etməyi tövsiyə edirdi.

Heydər Əliyev gənclərin mənəvi inkişafının əsas amili kimi azərbaycançılıq, azərbaycanlılıq amalını görür və bu hissiyyatları hər bir gəncdə yaratmağı arzulayırdı: «Azərbaycanı sevmək azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir» [70, 109].

Milli vətənpərvərlik haqqında danışarkən o keçmiş tarixin düzgün qiymətləndirilməsi zərurətini ortaya qoyurdu. O, qeyd edirdi ki, bizim xalqımızın böyük, möhtəşəm tarixi vardır və biz öz tariximizlə fəxr edə bilərik. Tariximizin hər mərhələsinin bizim üçün qiymətli olduğunu göstərən Heydər Əliyev xüsusən XX əsrdə Azərbaycanın bir sıçrayış dövrü keçdiyini, bu dövrün ən böyük nailiyyətlərindən birinin ilk demokratik respublikanın yaranmasını vurğulamaqla, 70 illik sovet tarixinə də qara yaxmamağı, obyektiv qiymətləndirməyi tələb edirdi. O göstərirdi ki, bu dövrdə Azərbaycan xalqının elmi, təhsili, mədəniyyəti sürətlə inkişaf etmiş, bugünkü müstəqil Azərbaycanın təməlini həmin dövrdə yaranmış iqtisadiyyat, təhsil, elmi-mədəni potensial təşkil etmişdir. Xalqımızın böyük dövlətçilik tarixi olduğunu göstərən Heydər Əliyev bu ərazilərdə tarixən yaranmış bütün dövlətlərin hamısının Azərbaycan xalqının dövlətçilik tarixi olduğunu bil-

dirərək açıq şəkildə bəyan edirdi ki, indi müstəqil Azərbaycan Respublikası Azərbaycanın məlum hüdudları çərçivəsindədir, keçmiş dövrlərdə isə Azərbaycan dövlətləri daha geniş ərazidə olmuşlar [70, 109]. Bununla da Heydər Əliyev «Bütöv Azərbaycan» ideyasına nə qədər bağlı olduğunu və bunun bütün azərbaycanlıların, o cümlədən xaricdə yaşayan azərbaycanlıların həyat amalına çevrilməsini arzuladığını sübut edirdi. Azərbaycançılığın əsasında isə birinci növbədə, onun tarixinə, mədəniyyətinə, dilinə münasibət dururdu. Heydər Əliyevə görə, öz dilini bilməyən və sevməyən adam öz tarixini də yaxşı bilə bilməz. Onun üçün ana dilinə münasibət elə vətənə münasibət idi.

Heydər Əliyev hələ 70-ci illərdə Azərbaycana rəhbərlik edərkən çox narahatlıqla rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatının, tarixinin çox zəif tədris edildiyindən gənclərin öz ana dilində sərbəst danışa bilməməsini müşahidə edir və bu vəziyyətin aradan qaldırılması, Azərbaycan dilinin hakim dilə çevrilməsi üçün gərgin mübarizə aparırdı.

Bir neçə xarici dil bilməyin zəruriliyindən danışan ölkə başçısı gənclərə, birinci növbədə, öz ana dilini, Azərbaycan dilini daha yaxşı mənimsəməyi və sevməyi tövsiyə edirdi. Bu zaman Heydər Əliyev bütün Azərbaycan xalqının lideri kimi milli hislərə qapanmamağı, bütün xalqların adət-ənənələrinə, mədəniyyətinə hörmətlə yanaşmağı tələb edirdi. O, qeyd edirdi ki, «Azərbaycanda yaşayan bütün vətəndaşlar eyni hüquqa malikdir və bütün dillərdən sərbəst istifadə olunur. Azərbaycan burada yaşayan bütün millətlərin doğma vətənidir. Azərbaycan xalqı deyəndə, biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik. Ona görə də Azərbaycanın çoxmillətli, çoxdilli ölkə kimi xüsusiyyətini qoruyub saxlamaq bizim borcumuzdur, gənclərimizin vəzifəsidir» [70, 111–112].

Heydər Əliyev tarixin bütün mərhələlərində gənclərin xüsusi xidmətlərinin olduğunu dönə-dönə xatırladırdı. 1990-cı ilin Yanvar hadisələrindən danışarkən bu tarixi xalqımız üçün böyük faciə, onu tarixin qara səhifəsi, eyni zamanda həm də tarixin qəhrəmanlıq

səhifəsi, milli azadlıq uğrunda mübarizəsinin parlaq səhifəsi adlandırırdı. O, fəxrlə bildirirdi ki, xalqımız, xüsusən gənclər o dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olan ədalətsizliyə dözmədi və milli-azadlıq hislərini, istəklərini həyata keçirmək üçün meydanlara, küçələrə toplaşdılar, haqsızlığa, zülmə öz etirazlarını bildirdilər. O illər mübarizəyə qalxanların əksəriyyəti gənclər idi… O tankların altında qalanların, şəhid olanların əksəriyyəti məhz gənclər olublar. Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısının alınması üçün döyüşlərdə şəhid olanların əksəriyyəti gənclərimizdir. Vuruşanlar, döyüşənlər gənclərimizdir. Torpağımızı müdafiə edərkən şikəst, əlil olanların əksəriyyəti gənclərimizdir [71]. Buna görə də o gənclərin tərbiyəsində bu qəhrəmanlıq nümunələrindən geniş istifadə etməyə çağırırdı.

Heydər Əliyev dini dəyərləri gənclərin tərbiyəsinin mühüm amili kimi dəyərləndirirdi. 70 illik sovet dövründə Azərbaycan xalqı dinindən məhrum olsa da, İslama məhəbbətini, sadiqliyini daim öz ürəyində saxlamış, müstəqillik əldə etdikdən sonra bütün mənəvi dəyərləri kimi dinini də qoruyub saxlamışdır. Heydər Əliyev İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün mənəvi nemətlərdən hər bir azərbaycanlının istifadə etməsini, xüsusən cəmiyyətdəki davranışında İslamın tələblərini əsas götürməsini arzulayırdı. Konstitusiyaya görə Azərbaycanın dünyəvi dövlət olduğunu, dinin dövlətdən ayrı olduğunu göstərməklə yanaşı, Heydər Əliyev bunun bizə, dinə münasibətdə başqa mövqe tutmağımızı, gənclərimizin İslam dinini mənimsəmələri üçün lazımi tədbirlər görülməsini tələb edirdi. Heydər Əliyev gənclər arasında bəzi mənfi meyillərin meydana çıxmasının, ayrı-ayrı qrupların gənclərə faşizm əhvali-ruhiyyəsini aşılamaq cəhdlərinin onların tərbiyəsinə zərər vurduğunu, ona görə də İslam dininin məktəblərdə tədris olunması, təbliğinin zəruriliyinə diqqəti cəlb edirdi. O, gəncləri İslam dinini olduğu kimi öyrənməyi, qəbul etməyi və ondan istifadə etməyi tövsiyə edir, eyni zamanda ayrı-ayrı şəxslərin, qüvvələrin şəxsi mənafeləri naminə öz fəaliyyətləri ilə İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini pozanlara qarşı qəti mübarizə aparmağa çağırırdı [70, 112–113].

Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatına əsaslanan, sərbəst, açıq cəmiyyət quruculuğuna başlamış, dünya birliyinin tam hüquqlu üzvü olmaq üçün bütün imkanlardan yararlanmağa çalışırdı. Ona görə də Heydər Əliyev ölkəmizi, xalqımızı olduğu kimi göstərmək və xalqımızın mənəvi dəyərlərini, uğur və nailiyyətlərini bütün dünyada təbliğ etməyi mühüm vəzifələrdən biri hesab edirdi. Eyni zamanda ümumbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etmək, onları milli-mənəvi dəyərlərlə birləşdirmək və xalqın mənəviyyatını zənginləşdirməyi də əsas vəzifə kimi ortaya qoyur, bu zaman həmin vəzifələri ağıl və zəka ilə həyata keçirməyi, milli və ümumbəşəri dəyərlərin sintezinə nail olmağı tələb edirdi [98, 174–175].

Heydər Əliyev gənclərin hərbi vətənpərvərlik tərbiyəsini, onlarda orduya hörmət hislərinin, döyüş ruhunun möhkəmləndirilməsini mənəvi tərbiyənin ən mühüm istiqaməti və müqəddəs vəzifəsi hesab edirdi. Vətəni, torpağı müdafiə etməyi hər bir gəncin müqəddəs borcu hesab edən liderimiz millətini, torpağını sevən hər bir namuslu gənci torpaqlarımızın zəbt olunmasına dözməməyi, hərbi xidmət keçmələrini həyatın tələbi sayırdı [76].

Prezident kimi ölkəmizin müdafiəsində özünü qurban vermiş insanların xatirəsini daim əziz tutmağı, vətənin müdafiəsində əlil olmuş, xəsarət almış insanlara, şəhid ailələrinə xüsusi qayğı göstərməyi, mənəvi dayaq olmağı onların problemlərinin həlli ilə müntəzəm məşğul olmağı dövlət və hökumət orqanlarından tələb edir və bu məsələləri daim nəzarətdə saxlayırdı.

Azərbaycan gənclərinin I Forumunda çıxışı zamanı ordu quruculuğu məsələsinə toxunan Heydər Əliyev müstəqillik əldə edildikdən sonra bu sahədəki vəziyyəti təhlil edərək uğursuzluqların əsas səbəblərindən birinin məhz ordu quruculuğunda buraxılmış səhvlər, hətta xəyanətlər, gedən qanlı müharibədən ayrı-ayrı adamların öz mənafeyi üçün istifadə etməsi nəticəsində nizami ordumuzun vaxtında yaranmaması olduğunu göstərmişdir. Azərbaycanda həqiqi ordu quruculuğu müstəqillik əldə edildikdən yalnız iki il sonra – 1993-cü ilin noyabrından başlanmışdır. O zamana qədər isə böyük vaxt itirilmiş, keçmiş sovet ordusundan

qalma hərbi potensial, silah-sursat, texnika dağıdılmış və ya mənimsənilmişdir. Ordu quruculuğunda, xəyanətə bərabər digər meyil – müxtəlif siyasi qüvvələrin və qrupların ayrı-ayrı silahlı dəstələr düzəldərək onlardan öz hakimiyyət hərisliyini təmin etmək üçün istifadə etmələri olmuşdu.

Ona görə də Heydər Əliyev gənclər təşkilatlarının, gənclərin əsas vəzifələrindən biri kimi hərbi qulluğa hazırlanmasını ön plana çəkirdi: «Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalı, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən birinə çevrilməli və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik» [70, 103–104].

Heydər Əliyev bir çox ölkələrdə, xüsusən qardaş Türkiyədə gənclərin orduya münasibətini, orduda xidmətin hər bir insanın şərəfli borcu olmasını bir örnək kimi göstərərək Azərbaycan gənclərinə onlardan nümunə götürməyi tövsiyə edirdi [70, 104; 47, 344].

Milli liderimiz gənclərin hərbi vətənpərvərlik tərbiyəsindən danışarkən tariximizin şanlı səhifələrindən, hərb tariximizin görkəmli şəxsiyyətlərinin həyatından çoxlu nümunələr göstərir, guya, Azərbaycan xalqının döyüşkən olmaması, vuruşa bilməməsi və ya heç bir görkəmli hərbi sərkərdəsi, generalının olmaması haqqında şüurlu surətdə beyinlərə yeridilən, gənclərdə təslimçilik meyli yaratmaq məqsədi güdən fikirləri qətiyyətlə təkzib edir, tərbiyə işində mütərəqqi ənənələrimizdən istifadə etməyə çağırırdı [70, 104–105]. Eyni zamanda Azərbaycan torpaqlarını Ermənistanın təcavüzündən müdafiə edərkən qəhrəmanlıq göstərən əsgərlərimizin, şəhidlərin nümunəsindən də istifadə etməyi tövsiyə edirdi [71].

Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun ildönümü ilə əlaqədar olaraq forum nümayəndələrinin bir qrupu ilə 1 fevral 1997-ci ildə keçirilən görüşdə Heydər Əliyev diqqəti yenidən hərbi vətənpərvərlik, ordu quruculuğu məsələlərinə cəlb edərək bütün gənclər təşkilatlarını, GİN, Müdafiə Nazirliyini və bütün dövlət orqanlarını gənclərin hərbi vətənpərvərlik tərbiyəsini

gücləndirmək üçün əlavə tədbirlər görməyə çağırıb bu vəzifələri yerinə yetirmək məqsədilə lazımi proqram tərtib edib həyata keçirməyi təklif etdi [71].

Gənclərdə vətənpərvərlik hissinin gücləndirilməsinin mühüm amilini Qarabağ müharibəsinin iştirakçıları olan gənclərin sosial problemlərinin həlli, onlara diqqət və qayğının artırılması təşkil edirdi. Qeyri-rəsmi məlumatlara görə, 1988-ci ildən Qarabağ uğrunda gedən döyüşlərdə 250 mindən çox adam iştirak etmiş, onlardan 21 mindən çoxu şəhid olmuş, 6 minə qədəri isə əlillik statusu almışdır [144].

1993-cü ildən sonra gənc müharibə veteranları ilə bağlı bir çox tədbirlər həyata keçirilmişdir. Belə ki 1994-cü ildə «Veteranlar haqqında» Qanun qəbul edilmiş və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşmüş şəxslər ilk dəfə olaraq müharibə veteranı statusu almış və onlar üçün nəzərdə tutulan bütün imtiyazlardan istifadə etməyə başlamışdılar. Qanundan başqa bir sıra digər qanunvericilik aktları da qəbul edilmiş və ya mövcud qanunlarda dəyişiklik edilmişdir.

Müharibə veteranları demək olar ki, bütün ödəmələrdən, vergilərdən və rüsumlardan azad edilmişdi. Bununla yanaşı, müharibə veteranları və əlillərə qarşı süründürməçilik, biganəlik halları yenə mövcud idi. Gənclər Heydər Əliyevlə görüşlərdə yerli icra hakimiyyəti strukturları, məmurlar tərəfindən onların problemlərinə qarşı laqeydlik göstərmələri ilə bağlı bir neçə dəfə məsələ qaldırmışdılar. Məsələn, 1992-ci il avqustun 25-də «Əlillərin sosial müdafiəsi haqqında» Qanun qəbul edilsə də, demək olar ki, kağız üzərində qalmışdı. Həmin qanunun işləməməsi ucbatından Qarabağ müharibəsi əlilləri bir neçə dəfə etiraz piketi keçirmişdilər. Yalnız Azərbaycan Respublikası Prezidentinin onları qəbul etməsindən sonra problem öz həllini tapmağa başlamışdı. Prezident irəli sürülən təkliflərə dərhal reaksiya verərək 26 avqust 1994-cü ildə «Azərbaycan torpaqlarını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş gənclərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında» Fərman imzalamışdı [4, 1994, 27 avqust].

Orduya münasibətin formalaşmasında ailə faktoruna Heydər Əliyev böyük önəm verirdi. «Orduya xidmət hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır. Valideyn öz övladlarını tərbiyə edərkən onlara verdikləri nəsihətlər içərisində ən birinci nəsihət, tapşırıq övladının orduda xidmət etməsi olmalıdır» [71].

Gənclər arasında orduya, hərbi xidmətə hörmət hissinin və diqqətin artırılması üçün Heydər Əliyev yeni ənənənin yaradılmasını – gənclərin orduya xidmətə getməsinin onun ailəsində bayram kimi qeyd edilməsini təklif etmiş və nümunə kimi sovet dövründə gənclərin orduya yola salınması ənənəsini misal gətirmişdi. O, həmçinin hərbi hissələrlə, ordu ilə əlaqə yaradılmasının, torpaqların müdafiəsində duran gənclərlə müntəzəm görüşlər keçirilməsinin hərbi vətənpərvərlik işi ilə məşğul olan strukturların və şəxslərin əsas işi olduğunu vurğulamışdır [71].

Gənclərlə görüşlərində Azərbaycan gəncliyinin qarşısında duran ən birinci, ən ümdə vəzifənin ordu ilə əlaqəni möhkəmləndirmək, orduya qayğı göstərmək, ordunun hörmətini qaldırmaq olduğunu göstərən Prezident qeyd edirdi ki, orduda, Azərbaycan silahlı qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, ən mötəbər adamı olmalıdır [53, 197–205]. Milli liderimiz göstərirdi: «Hər bir gənc orduda sədaqətlə xidmət etməlidir. Orduda xidmət etməyən gənc cəmiyyətdə hörmət qazana bilməz» [90]. Bütün bunların nəticəsi olaraq Azərbaycanda ordu quruculuğu sahəsində, orduya münasibətdə mütərəqqi dəyişikliklər baş vermiş, ölkənin hərbi qüdrəti güclənməyə başlamışdı. Gənclər orduya həvəslə gedərək şərəflə xidmət edir, öz vətəndaşlıq borclarını yerinə yetirirdilər.

Orduya olan münasibətin yaxşılaşmasının ən bariz nümunəsi gənclər arasında ali hərbi təhsil almağa, peşəkar zabit olmağa həvəsin artması oldu.

Hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə Heydər Əliyev bütün çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, azərbaycanlı gənclər arasında zabit kadrların sayının artırılmasına nail olmuş, Ç.Naxçıvanskinin adına hərbi məktəb yaratmaqla, Sovet İttifaqının ali hərbi məktəblərinə güzəştli şərtlərlə azərbaycan-

lıları qəbul etdirməklə, Bakı Ümumqoşun Ali Hərbi Məktəbində və Ali Hərbi Dənizçilik Məktəbində onların sayını artırmaqla Azərbaycanın gələcək müstəqilliyinə, təhlükəsizliyinə əvəzsiz xidmətlər göstərmişdi.

1993-cü ildən sonra Azərbaycan Silahlı Qüvvələrinin peşəkar hərbi kadrlarla təmin olunması yolunda da mühüm işlər həyata keçirildi. Hərbi təhsil sistemi sahəsində islahatlar aparılmağa başlandı. 1998-ci ilin martında Cəmşid Naxçıvanski adına hərbi məktəbin Naxçıvan filialının açılması haqqında Sərəncam verildi. Ölkə prezidentinin 20 fevral 1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı. 2001-ci il avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi ilə bağlı fərman imzaladı.

Heydər Əliyev hər imkan tapdıqca hərbi hissələrə və hərbi məktəblərə baş çəkir, onların qayğı və problemləri ilə bilavasitə tanış olmağa çalışırdı. Onun silahlı qüvvələr günündə çıxışları ordu quruculuğu sahəsində hər bir dövlət strukturunun vəzifəsini müəyyənləşdirmək baxımından mühüm rol oynayırdı.

Ümumiyyətlə, müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında dövlət quruculuğunun bütün sahələrində əldə edilmiş ciddi nəticələr, əsasən, mövcud potensiala əsaslanmışdısa, ordu quruculuğuna faktiki olaraq müharibə şəraitində başlanılmalı olmuşdu. Həm də nəzərə almaq lazım idi ki, bütün başqa sahələrdə böyük kadr potensialı mövcud idisə, ordu sahəsində Azərbaycan bundan məhrum idi. Ona görə də nizami ordu yaratmaq, peşəkar zabit kadrları hazırlamaq böyük iradə və səy tələb edirdi. Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində Azərbaycan bu sahədə qarşıya qoyulmuş məqsədlərə qısa müddətdə nail oldu və milli ali hərbi təhsilin inkişafı baş verdi.

Yeri gəlmişkən, bu uğurların əldə edilməsində qardaş Türkiyə Cümhuriyyəti ilə əməkdaşlığın mühüm əhəmiyyəti olmuşdur. Heydər Əliyev Azərbaycanda ali hərbi təhsilin inkişafında dost

ölkənin yardımını həmişə minnətdarlıqla qeyd edirdi. Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışına həsr olunmuş mərasimdə (25 avqust 2001-ci il) çıxışında Heydər Əliyev Azərbaycan–Türkiyə əməkdaşlığının ən mühüm nəticəsinin hərbi sahədə təzahür etdiyini böyük məmnunluqla bildirmişdi [47, 341–342]. Həmin mərasim zamanı Türkiyə Silahlı Qüvvələrinin «Türk ulduzları» adlanan təyyarələri Bakının səmasında nümayiş etdirdikləri görüntülər bu əməkdaşlığın uğurla davam etdiyini bir daha sübut etmişdi. Heydər Əliyev türk ulduzlarının Azərbaycana gəlməsi münasibəti ilə bütün xalqımız adından minnətdarlığını bildirmiş və onları şəxsi hədiyyəsi ilə təltif etmişdi.

2001-ci ilin yayında Heydər Əliyev Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışında, eləcə də Ali Hərbi Dənizçilik Məktəbinin və Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunlarının buraxılışına həsr olunmuş mərasimdə iştirak edərək çıxış etmişdi. O, Azərbaycan əsgərinə, zabitinə yüksək mənəviyyata malik olmağı, xalqımızın yüksək mənəvi dəyərləri ilə yaşamağı, Vətən yolunda şəhid olmağı daim gözü önündə saxlamağı nəsihət edərək, onlardan özlərinə qarşı tələbkar olmağı, yüksək qəhrəmanlıq nümunələri göstərməyi və bu nümunələr əsasında da əsgərləri, bütün ordumuzu tərbiyə etməyi arzulayırdı [47, 344–346].

Heydər Əliyev göstərirdi ki, hərbi peşə insandan çox şey tələb edir. Həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, mərdlik, qəhrəmanlıq. Zabit gərək daim özündə bu keyfiyyətləri nümayiş etdirsin. Bizim Silahlı Qüvvələrimizdə hər bir zabitin, hər bir komandirin mənəviyyatı saf olmalıdır. Çünki mənəvi saflıq insanı daim yüksəldir və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmləşməsi üçün əsas yaradır [46, 352]. O, Azərbaycan hərbçilərinin bu tövsiyəni heç vaxt unutmayacaqlarına əsla şübhə etmirdi.

Bəlkə də, Simvolik haldır ki, ümummilli liderimiz Heydər Əliyev həyatının ən son çıxışını gələcəyin hərbçiləri qarşısında, C.Naxçıvanski adına hərbi liseyin 30 illiyinə həsr olunmuş mərasimdə etmişdir. Əvvəlcə, 17 aprel 2003-cü il tarixdə o, hərbi liseyin vəziyyəti və fəaliyyəti ilə tanış olmuş, kursantlar qarşısında

çıxış etmişdir. İki gün sonra, aprelin 19-da isə Respublika sarayında liseyin 30 illiyinə həsr olunmuş ikinci mərasimdə çıxış etmişdir. Hərbi liseyin 30 illik yubileyini Azərbaycanın həyatında tarixi hadisə, bayram kimi qiymətləndirərək qeyd edirdi ki, mən həmişə düşünürdüm ki, bizim xalqımızın gələcəyi, nə vaxt da olsa, müstəqilliyə qovuşacaqdır. Məhz bizim bu günümüzə – müstəqillik dövrümüzə görə də, mən bu məktəbi yaratdım, yaşatdım, 30 yaşa çatdırdım [62, 369]. Bütün bunlara görə də Heydər Əliyev C.Naxçıvanski adına liseyə öz övladı kimi baxırdı.

Lakin taleyin acı hökmü böyük şəxsiyyətə öz nitqini davam etdirməyə imkan vermədi. Çıxış zamanı iki dəfə infarkt vursa da, o, sanki ilahi qüvvədən güc alırmış kimi zala qayıtdı, çıxışını başa çatdıra bildi. Bunun özü də əsl qəhrəmanlıq və vətənə sədaqətin bir təzahürü idi.

Heydər Əliyev Azərbaycanın gəncliyinə son rəsmi müraciətində, Azərbaycan Respublika Gənclərinin III Forumuna təbrikində də inamla bildirirdi ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycan dövlətçiliyini yaşatmağa, onu qüdrətli etməyə yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalıdır [62, 372].

Təbrikdə Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini qoruyub möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək, torpaqları işğaldan azad etmək, eləcə də ölkə iqtisadiyyatını inkişaf etdirmək, əhalinin sosial problemlərini həll etmək, dünya birliyində ölkəmizin öz layiqli yerini tutması kimi vəzifələrin ağırlığının və məsuliyyətinin gənclərin üzərinə düşdüyünü bildirərək, gəncliyi Azərbaycanın dövlətçiliyini yaşatmağa, onun qüdrətini artırmağa daim hazır olmağa çağırırdı. O əmin edirdi ki, gənclərlə bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsi bundan sonra da təmin ediləcəkdir [62, 371–372].

Beləliklə, Heydər Əliyevin məruzə və çıxışlarında gənclərin vətəndaşlıq və hərbi vətənpərvərlik tərbiyəsinin bütöv konsepsiyasının əsas istiqamətləri, prinsipləri, üsul və vasitələri öz əksini tapmışdı.

Prezidentin müəyyənləşdirdiyi vəzifələrə uyğun olaraq Gənclər İdman və Turizm Nazirliyi, digər dövlət və yerli idarəetmə orqanları tərəfindən müxtəlif tədbirlər hazırlanaraq həyata keçirilməyə başlanmışdı. 1998-ci ilin martında «Gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yaxşılaşdırılması yolları» mövzusunda respublika elmi-praktik konfransının keçirilməsi, yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işlərin səmərəliliyinin artırılması məqsədilə GİN-in xüsusi tədbirlər planı təsdiq edilmişdir [4, 1999, 4 mart].

Heydər Əliyevin göstərişinə uyğun olaraq, GİN «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi» proqramı hazırlanmış və Nazirlər Kabinetinin 17 fevral 1999-cu il 285 №-li Sərəncamı ilə təsdiq edilmişdir [23, 1999, №2, s.3–35].

Proqramda gənclərin vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəsi, onlarda bu hislərin gücləndirilməsi üçün konkret tədbirlər müəyyənləşdirilmişdi. Proqramın əsas məqsədi gənclərə vətənə məhəbbət, vətənin tərəqqisi üçün çalışmaq, vətənin maddi və mənəvi sərvətlərini daim qoruyub saxlamaq, onu müdafiə etmək hislərini aşılamaqdan ibarət idi.

Proqramda göstərildiyi kimi, vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır. Vətəndaşlıq hissi isə vətənpərvərlik hissinin ən yüksək təzahür formasıdır.

Proqramda keçiriləcək tədbirlərin siyahısı və icraçı təşkilatların adı, icra müddəti, maliyyə mexanizmləri öz əksini tapmışdı [23, №2, 2000, s.36–43]. Sənəddə vətənpərvərlik tərbiyəsi mərkəzinin yaradılması, böyüməkdə olan nəslin yeni tərbiyə sisteminin strategiyasının müəyyənləşdirilməsi, onların hərbi-vətənpərvərlik tərbiyəsi üçün fəaliyyət proqramının hazırlanması, uşaq ensiklopediyasının hazırlanması, ordu nümayəndələri ilə müntəzəm əlaqələrin yaradılması, hərbi-tətbiqi, milli oyunların keçirilməsi, vətənpərvərlik tərbiyəsi ilə bağlı müxtəlif müsabiqələrin, disputların, gecələrin keçirilməsi, xüsusi fəaliyyət proqramlarının ha-

zırlanması və digər (cəmi 28 maddə) istiqamətlər üzrə tədbirlər müəyyənləşdirilmişdi.

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində təhsil müəssisələrinin roluna xüsusi önəm verilirdi.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 №-li Fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının III bölməsində (ordu quruculuğu və hərbi vətənpərvərlik tərbiyəsi sahəsində tədbirlər) təhsil müəssisələrində hərbi hazırlıq dərslərinin tədrisinin səviyyəsini yüksəltmək üçün Azərbaycan dilində yeni dərsliklərin və əyani vəsaitlərin nəşr olunması, hərbi hazırlıq dərslərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, ümumtəhsil məktəblərində zabitlik peşəsinin təbliği və şagirdlərin ali hərbi məktəblərə seçilib göndərilməsi işinin təşkili, respublikanın şəhər və rayonlarında hərbi-texniki dərnəklərin yaradılması və ya mövcud dərnəklərin işinin gücləndirilməsi kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu [23, №2, s.13].

Vətənpərvərlik tərbiyəsinin əsas istiqamətlərindən biri məktəbliləri hərbi-idman oyunlarına cəlb etməklə onları ordu sıralarına hazırlamaq təşkil edir. Bu məqsədlə 1996-cı ildən başlayaraq Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən Təhsil, Müdafiə nazirlikləri, Könüllü Hərbi-Vətənpərvərlik Texniki İdman Cəmiyyəti, Respublika Veteranlar Şurası və Gənclər Təşkilatları Milli Şurası (GTMŞ) ilə birgə orta məktəblərin IX–XI sinif şagirdləri arasında «Şahin» hərbi idman və 1998-ci ildən VI–VIII sinif şagirdləri arasında «Cəsurlar» hərbi-idman və turizm oyunları təşkil edilirdi. Yuxarıda göstərilmiş strukturların birgə qərarı ilə (11 iyun 2000-ci il tarixli Qərarı, pr. № 7) həmin oyunların əsasnamələri təsdiq olunmuş və Qərara alınmışdır ki, oyunlar 4 mərhələdə: məktəbdaxili yarışlar, rayon (şəhər) birincilikləri, 8 zona (Bakı, Naxçıvan, Tovuz, Qusar, Şirvan, Oğuz, Bərdə, Biləsuvar) üzrə birinciliklər, respublika daxili yarışları keçirilirdi [23, №5, s.39–54]. Hər iki oyun üzrə respublika final yarışları ənənəvi olaraq C.Naxçıvanski adına hərbi liseydə keçirilirdi.

Heydər Əliyevin göstərişlərinə uyğun olaraq Gənclər İdman və Turizm Nazirliyi və onun yerli idarələri gənclərin hərbi xidmətə yola salınması mərasimlərinin təşkilinə xüsusi diqqət yetirirdilər. Bu tədbirlərdə millət vəkilləri, ictimai-siyasi xadimlər, hərbçilər, veteranlar, gənclər təşkilatlarının nümayəndələri iştirak edirdilər.

20 Yanvar və Xocalı faciələrinin, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı qurbanlarının yad edilməsi məqsədilə Gənclər və İdman Nazirliyi və onun yerli idarələri tərəfindən hər il müxtəlif konfranslar və xatirə tədbirləri keçirilir, konfrans və sərgilər təşkil olunurdu. Eləcə də əlamətdar günlərin, dövlət bayramlarının, tarixi hadisələrin qeyd edilməsi, dövlətçilik ənənələrinin və milli-mənəvi dəyərlərin gənclər arasında tətbiqi işi daim diqqət mərkəzində olmuş, bu istiqamətdə rəngarəng tədbirlər keçirilmişdir [97, 16–17].

Gənclərin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb edən müharibə veteranlarının keçdiyi döyüş yolunun təbliği məqsədilə GİN mütəmadi olaraq Respublika Veteranlar Şurası və GTMŞ ilə birgə fəaliyyət göstərmişdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş, milli qəhrəman adına layiq görülmüş gənclərə və onların ailələrinə xüsusi diqqət yetirilməsi də Nazirliyin əsas fəaliyyət istiqamətlərindən biri olmuşdur.

Vətənpərvərlik tərbiyəsi işinin əsas istiqamətlərindən birini də ordu ilə əlaqələrin gücləndirilməsi, əsgərlərin qayğı və problemlərinin həllinə kömək, onların mənəvi-psixoloji və fiziki hazırlığının yüksəldilməsi, asudə vaxtlarının təşkili ilə bağlı tədbirlərin həyata keçirilməsi təşkil edirdi. Bu məqsədlə GİN yerli idarələri tərəfindən ərazidə yerləşən hərbi hissələrlə hamilik müqavilələri imzalamış, mütəmadi olaraq hərbi xidmət keçən gənclərlə müxtəlif səpkili görüşlər keçirilmişdir. Cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti ilə mütəmadi görüşlər təşkil edilir, ənənəvi olaraq konsert proqramları keçirilir, bayram hədiyyələri təqdim edilirdi.

Respublika gənclərinin II Forumundan sonra yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işin səmə-

rəliliyinin daha da artırılması məqsədilə GİN xüsusi tədbirlər planı hazırlamış və təsdiq etdirmişdi. Həmin plana uyğun olaraq, uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onlarda azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, milli-mənəvi dəyərlərinə, dövlət dilinə və rəmzlərinə hörmət hislərinin aşılanması, vətənpərvərlik tərbiyəsinə mənfi təsir göstərən halların qarşısının alınması işinin təşkili, gənclərin hərbi xidmətə hazırlanması sahəsində müvafiq dövlət orqanları və qeyri-hökumət təşkilatlarının fəaliyyətini əlaqələndirmək məqsədilə 13 iyun 2003-cü ildə KİTN nəzdində «Uşaq və gənclərin vətənpərvərlik tərbiyəsi məsələləri üzrə Respublika Şurası» təsis edilmişdir [97, 17–18].

80-ci illərin sonundan etibarən xalqımızın üzləşdiyi faciələr, məruz qaldığı mənəvi sarsıntılar gənclərimizdən də yan keçmədi. Gənclərin dövlət qayğısından kənarda qalması, onların problemlərinə biganəlik, laqeydlik, cəzasızlıq mühitinə rəvac verilməsi, təlim-tərbiyəsi sahəsində yol verilmiş bir çox nöqsanlar, gəncləri cəmiyyətə yadlaşdırmaya bilməzdi.

Heç də təsadüfi deyildir ki, məhz 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində gənclər arasında cinayətkarlığın dinamikasında açıq meyillər müşahidə olunmağa başlanmışdır. Bunu statistik rəqəmlər də sübut edirdi. 1991–1995-ci illərdə qəsdən adam öldürmə cinayəti törətmiş 1456 nəfərin 719 nəfərini və ya 50 faizini, dövlət əmlakına qəsd etməklə cinayət törədən 15153 nəfərin 8269 nəfərini və ya 55 faizini 18–30 yaş arasında olan gənclər təşkil edirdi [144].

Yeniyetmələr arasında cinayətkarlığın dinamikası da narahatçılıq doğururdu. Belə ki 1992–1993-cü illər ərzində 2048 nəfər yeniyetmə tərəfindən 2017 cinayət hadisəsinin törədilməsi qeydə alınmışdır. Yetkinlik yaşına çatmayanların asudə vaxtlarının təşkilinə, təhsilinə və faydalı əməyə cəlb olunmalarına laqeyd münasibətin nəticəsidir ki, 1991–1995-ci illərdə 3807 yeniyetmə cinayət törətmiş, onların 1672 nəfəri (44 faizi) heç bir yerdə oxuyub işləməyənlər olmuşlar. Lakin maraqlı hallardan biri ondan

ibarətdir ki, qaçqın və məcburi köçkün olan yeniyetmələr bütün sıxıntılara və məişət qayğılarına baxmayaraq, daha az cinayət törətmişlər. Onlar qeydə alınmış cinayətlərin yalnız bir faizinin törədilməsində iştirak etmişlər.

Gənclər arasında narkomaniya ilə bağlı cinayətlərin artması da narahatçılıq doğururdu. 1990–1995-ci illərdə narkomaniya ilə bağlı cinayət törətmiş 8489 nəfərin təxminən yarısı – 3172 nəfəri 30 yaşına qədər olan şəxslər idi (4% – 18 yaşadək, 39% – 18–25 yaşadək, 57% – 25–30 yaşlılar) [144, 1969, 8 fevral; 145].

Təəssüf hissi ilə qeyd edilməlidir ki, milli – adət-ənənələrə yad olan əxlaqsızlıq yuvaları saxlamağa görə həmin illərdə 42 nəfər məsuliyyətə alınmışdır.

Ailə bağlılığı, ailə birliyi milli irsə çevrilmiş cəmiyyətimizdə 1990–1995-ci illərdə 165358 nəfərin ailəsi bu və ya digər səbəblərdən dağılmışdır ki, həmin şəxslərin yarıdan çoxu – 89642 nəfəri 30 yaşına qədər olan gənclər idi. Bu da gənclik probleminə, onun ailə, sosial məişət qayğılarına ötən illərdə formalaşan laqeyd münasibətin, valideyn, cəmiyyət etinasızlığının nəticəsi idi [144, 1996, 8 fevral].

Buna görə də Heydər Əliyev gənclərin mənəvi tərbiyəsi, onların mənəviyyata zidd əməllərdən çəkinməsi, narkomaniya kimi zərərli vərdişlərdən qorunması, gənclər arasında cinayətkarlığın qarşısının alınmasını dövlət gənclər siyasətinin başlıca vəzifələrindən biri hesab edirdi.

Hələ 1993-cü ilin sentyabrında gənclərlə ilk görüşündə Heydər Əliyev Azərbaycanda gənclər arasında cinayətkarlığın artmasını, əxlaq pozğunluğunun mövcudluğunu, sərxoşluğa, narkomaniyaya meyilin çoxalması haqqında məlumatları ürək ağrısı ilə qarşıladığını, Azərbaycanın genofondunun gənclər olduğunu vurğulayaraq onları hərtərəfli qorumağı, dövlət orqanlarından bu mənfi halların gənclərə sirayət etməsinin qarşısını almaq üçün lazımi tədbirlər görməyi tələb etmişdi. Bununla yanaşı, bunların təkcə cəza tədbirlərindən ibarət olmamasını, ilk növbədə, profilaktik tədbirlər görülməsini, bu sahədə valideynlərin, təhsil ocaqlarının rolunun böyük olduğunu göstərmişdi.

O bütün bu zərərli vərdişlərə təkcə gənclərin sağlamlığı deyil, xalqımızın ümumi sağlamlığı, bu günü və gələcəyi nöqteyi-nəzərindən yanaşaraq qiymətləndirirdi: «Sərxoşluğa qurşanmış gənclərdən gələcəkdə sağlam övlad törəyə bilməz, onlar bizim nəslimizin davamçısı ola bilməz. Narkomaniyaya qurşanmış gənclər əgər ondan müvəqqəti zövq alırlarsa belə, düşünməlidirlər ki, onlar öz nəsillərini zəhərləyir, itirirlər» [98, 24].

Heydər Əliyev həmin görüşdə 1992-ci ildə cinayət törətdiyinə görə məhkum olunmuş şəxslərin 60 faizinin 30 yaşadək gənclər olduğunu, 1992-ci ilə nisbətən 1991-ci ildə cinayətkarlıqların 15 faiz artmasını gənclərin diqqətinə çatdıraraq, bu təhlükəli və dəhşətli dinamikanın qarşısının alınmasını dövlət orqanları, gənclər təşkilatları, təhsil müəssisələri qarşısında bir vəzifə kimi qoyurdu [76].

Azərbaycan gənclərinin I Forumundakı çıxışında, Forumun birilliyi ilə əlaqədar olaraq Forum nümayəndələrinin bir qrupu ilə 1 fevral 1997-ci il tarixli görüşündə Heydər Əliyev bu məsələyə yenidən diqqəti cəlb edərək, gənclər arasında cinayətkarlıq, digər mənfi halları ört-basdır etməməyi, onlarla mübarizə aparmağı, xüsusən gənclər təşkilatlarına bu mənfi halların aradan qaldırılması ilə bilavasitə məşğul olmağı tövsiyə edirdi [70, 113–114]. O, kütləvi informasiya vasitələrinin bu sahədə rolunun böyük olduğuna diqqəti cəlb edərək, zərərli və pis vərdişlərdən gəncləri çəkindirmək və qorumaq üçün təbliğat işini genişləndirməyi, gəncləri elmə, mədəniyyətə, təhsilə, idmana, ictimai faydalı işlərə daha çox cəlb etməyi təklif edirdi. Heydər Əliyev həmişə bu fikri vurğulayırdı ki, xalqımız dövri-qədimdən spirtli içkilərdən və narkotiklərdən uzaq olmuş, bütün bu mənfi hallar dini, milli ənənələrimizə yad olmuşdur. Bütün bunlar son dövrlərdə xalqımıza, cəmiyyətimizə başqa ölkələrdən, yerlərdən gəlib daxil olmuş xəstəliklərdir. Bunların qarşısı alınmalıdır [71]. Azərbaycanda bazar iqtisadiyyatı, sərbəst cəmiyyət quruculuğunun uğurları ilə yanaşı, onların ölkəmizə mənfi ünsürlər gətirməsi təhlükəsi də həyatın gerçəkliklərindən idi. Ona görə də Heydər Əliyev bazar iqtisadiyyatının, sərbəst iqtisadiyyatın inkişaf etdirilməsinin öz

mənəvi dəyərlərimizə əsaslanaraq təmin edilməsinin tərəfdarı idi. Azərbaycana yad olan mənfi halların cəmiyyətə sirayət etməsinin qarşısını almaq məqsədilə Heydər Əliyev bir sıra inzibati tədbirlərə əl atmalı olmuşdur. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda geniş yayılmış gecə klubları, kazinolar, qumarxanaların gənclərin mənəvi tərbiyəsinə mənfi təsirini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci ilin əvvəllərində Azərbaycan xalqının mənəviyyatına zidd olan, əxlaqını pozan bu tip müəssisələrin fəaliyyətinin qadağan olunması haqqında fərmanlar və sərəncamlar imzalamışdır.

O, əminliklə bildirirdi ki, onun bu fərmanları və sərəncamlarından hər kəs, xüsusən gənclər özləri üçün nəticə çıxaracaqlar: «Gənclər bilməlidirlər ki, həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır. Cürbəcür mənfi hallara uymaq lazım deyil» [90]. Bütün Azərbaycan xalqı kimi, gənclər də prezidentin bu qərarlarını ürəkdən dəstəkləyərək, onların həyata keçirilməsində fəal iştirak edirdilər.

Heydər Əliyev gənclərlə keçirdiyi əksər görüşlərdə onu dərindən düşündürən və narahat edən bütün mənfi hallara – cinayətkarlıq, narkomaniya, spirtli içkilərə meyillilik və s. məsələlərə öz münasibətini bildirir, bu məsələlərə biganə qalmamağı, cəmiyyətə yad olan belə halların aradan qaldırılmasında birgə fəaliyyət göstərməyi tövsiyə edirdi. Heydər Əliyevin bu problemlərə yanaşmasının özünəməxsus cəhətlərindən biri ondan ibarət idi ki, o hər zaman cəmiyyətdə mövcud olan problemlərin gizlədilməsinə qarşı çıxmış, onun açıq müzakirəsinin tərəfdarı olmuşdur. Məsələn, 1998-ci il fevralın 18-də YAP Gənclər Təşkilatı nümayəndələrinin Ümumrespublika toplantısında Heydər Əliyev çox təəssüflə bildirmişdi ki, hüquq-mühafizə orqanlarının narkotiklərin yayılmasına qarşı mübarizə aparmalarına baxmayaraq, gənclər arasında narkotiklərdən istifadə edilməsi statistik məlumatlara görə nəinki azalmır, əksinə artır. Eyni zamanda o Azərbaycanda araq istehsalının artırılmasından çox narahat olduğunu bildirərək

dövlət tərəfindən zəruri tədbirlər görülməsinin vacib olduğunu qeyd etmişdir. Bu zaman liderimiz zorakılıq, qadağa yolu ilə, spirtli içkiləri qadağan etməklə məqsədə nail olmağın yolverilməz olduğunu, yalnız insanları başa salmaqla bu bəla ilə mübarizənin səmərəli olacağını diqqətə çatdırırdı. «Biz spirtli içkiləri qadağan etmirik. Çünki biz hər sahədə müasirliyi təmin etmək istəyirik. Əgər biz insanlara sərbəstlik verəriksə, onları nədənsə zorla məhrum etmək, qadağa qoymaq olmaz. Ancaq insanlara başa salmaq lazımdır... İnsan özü baxmalıdır, spirtli içki ona nə gətirir. Xeyir, yoxsa zərər. Mən spirtli içkidən həddindən artıq istifadə edən adamların ondan xeyir aldığını hələ indiyə qədər görməmişəm» [90].

Gənclik dövrünü insan həyatının ən gözəl hissəsi adlandıran Heydər Əliyev hər bir gəncə bu dövrü uğurla keçməyi, gənclik illərini boş keçirməməyi, sağlam həyat tərzi keçirməyi, yüksək mənəvi dəyərlər əsasında yaşamağı arzulayırdı. O, gənclərin bir hissəsinin müxtəlif əyləncə yerlərində, gecə barlarında vaxt keçirməsini həm onların özlərinə, həm valideynlərinə, həm də bütün cəmiyyətə xəyanət kimi qiymətləndirirdi. Gecə barlarında vaxt keçirən gənclərin hansısa imkanlı ailələrin adamları olduğunu, kasıb ailənin uşağının ora getməsinin mümkünsüz olduğunu bildirən Heydər Əliyev belə imkanlı adamlara üzünü tutaraq deyirdi: «Nə qədər imkanlı olursan ol, zəngin olursan ol, gərək sən övladına düzgün yol göstərəsən, düzgün tərbiyə verəsən. Onun gecə barlarında müxtəlif əyləncələri üçün şərait yaratmayasan». Gənclərə isə tövsiyə edirdi ki, onlar gərək sağlam fiziki və mənəvi həyat tərzi keçirsinlər. Yalnız belə olan halda onlar həm daha sağlam vətəndaş olacaq, yaxşı bilik alacaq, həm də Azərbaycanın gələcəyinin həqiqi qurucuları olacaqlar [45, 333].

Heydər Əliyevin bu sahədə irəli sürdüyü göstəriş və tapşırıqlarına uyğun olaraq böyüməkdə olan nəslin cinayətkar təsirlərdən qorunması, hüquqi maariflənməsi və bununla bağlı müvafiq qanunvericilik aktlarının qəbulu istiqamətində mühüm işlər görülürdü. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununda gənclər siyasətinin əsas istiqamətlərindən birini gənc-

lərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı (maddə 5) təşkil edirdi. Burada qeyd olunur ki, dövlət gənclərin dünyagörüşünün formalaşmasına, mənəvi-əxlaqi tərbiyəsinə yönəlmiş televiziya və radio verilişlərinin, teatr tamaşalarının və filmlərin hazırlanmasına, ədəbiyyatın və mətbuat orqanlarının nəşrinə kömək göstərir (5.2), müvafiq icra hakimiyyəti orqanları gənclərin mənəvi-əxlaqi tərbiyəsi, onlar arasında cinayətkarlığın, narkomaniyanın və digər mənfi meyillərin azaldılması və aradan qaldırılması üçün tədbirlər görür (5.3). Qanunda gənclərin teatr, konsert və sərgi salonlarından, yaradıcılıq emalatxanalarından, studiyalardan, laboratoriyalardan istifadəsi üçün müəyyən güzəştlər də nəzərdə tutulmuşdur (5.4) [101, 410–416].

Azərbaycan Respublikası Prezidentinin «Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» 1996-cı il tarixli Fərmanı, müvafiq dövlət proqramı, cinayətkarlıqla mübarizə ilə bağlı digər qanunvericilik aktları bu istiqamətdə olan mühüm sənədlərdəndir.

Heydər Əliyevin qanunçuluğun möhkəmləndirilməsi ilə bağlı olan hüquqi siyasəti vaxtilə səhv etmiş, yaxud yolundan sapdırılmış vətəndaşların, o cümlədən gənclərin həyatda düzgün mövqe tutmalarına imkan yaratmışdır. Ölkə prezidenti amnistiya haqqında bir neçə qanunvericilik təşəbbüsləri ilə çıxış edərək müxtəlif vaxtlarda 40 mindən artıq insana amnistiya tətbiq edilməsinə nail olmuşdur ki, bunların da əsas hissəsini gənclər təşkil edirdi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğvi də mühüm hadisə olmuşdu. Heydər Əliyevin fəal hüquq-mühafizə siyasəti törədilmiş mənfi əmələ görə cəzanın labüdlüyü prinsipinin bərqərar olması, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlıqla mübarizənin gücləndirilməsi gənclər arasında cinayətkarlığın azalmasına öz müsbət təsirini göstərmişdir. Təkcə 1998-ci ildə 1992-ci illə müqayisədə azyaşlılar və yeniyetmələr tərəfindən törədilən cinayətlərin sayı 40 faiz, müxtəlif cinayətlərə görə məsuliyyətə cəlb olunanların arasında gənclərin sayı isə 2 dəfə azalmışdır [10].

Gənclər arasında neqativ meyillərin aradan qaldırılmasında Gənclər Təşkilatları Milli Şurası da fəal iş aparmağa başlamışdı. 1998-ci il martın 3-də GTMŞ nəzdində narkomaniya ilə mübarizə komissiyası yaradılmışdı. Məqsəd yeniyetmə və gənclər arasında narkomaniya əleyhinə təbliğatı gücləndirmək, maarifləndirmə işini təşkil etmək, narkomaniyanın gətirdiyi ağır bəlaları izah etmək və bu problemləri dövlətin və cəmiyyətin diqqət mərkəzində saxlamaq idi. Komissiya öz işini BMT-nin müvafiq katibliyi, əlaqədar dövlət təşkilatları, xüsusilə Narkomaniya və Narkobiznesə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası ilə sıx şəkildə qururdu.

Milli Şuranın bu sahədə fəaliyyətinin mühüm istiqamətini dini dəyərlərə, yad təriqətçi missionerlərə qarşı mübarizə, onların təxribatçı fəaliyyətinin aşkar edilməsi və ifşası təşkil edirdi. Qərb dövlətlərində belə fəaliyyətləri qadağan edilən bu cür təriqətçi təşkilatlar 90-cı illərin əvvəllərində Azərbaycanda mövcud olmuş anarxiya və qanunsuzluqdan istifadə edərək sərbəst fəaliyyət göstərməyə, gənclərin şüurunu zəhərləməyə başlamışdılar. Görülən işlərin nəticəsi olaraq bu mövzuda bir neçə kitab və broşüra buraxılmış, 600-dən çox məqalə dərc edilmişdir. «Missionerlərin fəaliyyətinin qadağan olunması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 8 yanvar tarixli Fərmanı başlanmış işin dövlət səviyyəsində uğurlu əks-sədası idi. Həmin təriqətlərin bir çoxu Qərb və MDB ölkələrində gənclər arasında tərki-dünyalıq, faşizm, ictimai-siyasi, hərbi biganəlik ideyalarını təbliğ etdiklərinə və cəmiyyətdə qarşıdurma yaratdıqlarına görə qadağan olunmuşdu. Xarici emissarların ölkəmizdə dini təbliğat aparmasının qadağan edilməsini nəzərdə tutan Azərbaycan Prezidentinin bu fərmanı gənclər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Aydındır ki, milli dəyərlərdən uzaqlaşmağa, yabançı dini təsir altına düşməyə səbəb olan təriqətlərin təbliğatçılarından zərər çəkən, ilk növbədə, gənclərdir. Ona görə də gənclər arasında bu sahədə müvafiq təbliğatın aparılması, milli-mənəvi dəyərlərin aşılanması mühüm əhəmiyyət kəsb edən məsələ olaraq qalırdı.

«Ağ ölüm»lə mübarizənin zəruriliyini nəzərə alaraq Azərbaycan Respublikası Gənclər Təşkilatı Mərkəzi Şurasının Narkomaniya ilə mübarizə komissiyası «Narkomaniyanın tibbi-bioloji aspektləri» mövzusunda 1999-cu ilin martında konfrans keçirmişdir. Konfransın əsas məqsədi narkomaniyanın nə qədər təhlükəli olduğunu araşdırmaq və onun tibbi-bioloji aspektlərini və xüsusiyyətlərini ictimaiyyətə çatdırmaq idi. Tədbirin başlıca missiyası müxtəlif dövlət və qeyri-dövlət strukturları arasında birlikdə narkomaniya bəlasının məngənəsindən çıxmaq üçün sıx əməkdaşlıq qurulmasından ibarət idi [100, 1999, 7 mart].

Azərbaycan gənclərinin II Forumu bu sahədə fəaliyyətin daha da genişləndirilməsinə müsbət təsir göstərdi. Forumda gənclər arasında neqativ hallara qarşı mübarizə məsələsi ilə bağlı xüsusi bölmədə – «Gənclər və qanun» bölməsində açıq müzakirələr aparıldı, təklif və tövsiyələr hazırlanaraq qəbul edildi.

1999-cu il noyabrın 16-da Azərbaycan Respublikası GİN GTMŞ ilə birlikdə «Narkomaniya ümummilli problemdir» mövzusunda konfrans keçirmişdir. Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 30 noyabr 1999-cu il tarixli iclasında qəbul edilmiş qərara uyğun olaraq AR GİTN tərəfindən 2000-ci il üçün xüsusi proqram-tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir.

2000-ci il ərzində gənclər və yeniyetmələr arasında narkomaniyanın, cinayətkarlığın və digər zərərli vərdişlərin yayılmasının qarşısının alınması, amnistiya aktları və əfv fərmanları ilə azadlığa buraxılan gənclərin həyatda düzgün mövqe tutması məqsədilə müxtəlif bölgələr üzrə bütün rayonların iştirakı ilə zona müşavirələri keçirilmişdir [97, 36–37].

GTMŞ Narkomaniya ilə Mübarizə Komissiyası «Sağlam gənclik» – orta ümumtəhsil müəssisələrində yeniyetmə və gənclər arasında antinarkomaniya məzmunlu maarifləndirici, profilaktik tədbirlərin keçirilməsi haqqında» layihə hazırlanmış və layihə AR GİTN tərəfindən qismən maliyyələşdirilmişdir. Layihə çərçivəsində nəzərdə tutulmuş maarifləndirmə seminarlarının keçirilməsi məqsədilə müvafiq mütəxəssislərin iştirakı ilə orta

məktəblərdə narkomaniyanın zərəri haqqında mühazirələr oxunmuşdur [97, 36].

Narkomaniyaya qarşı mübarizənin səmərəli təşkilində Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli 371 saylı Fərmanı ilə təsdiq olunmuş «Narkotik vasitələrin, psixotrop maddələrin və preksorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə» Ümummilli Proqram 2006-cı ilədək mühüm rol oynadı. Proqramın həyata keçirilməsi məqsədilə AR GTN tərəfindən «Tədbirlər planı» hazırlanmış və təsdiq edildikdən sonra dövlət orqanları, qeyri-hökumət təşkilatları və nazirliyin yerli idarələrinə icra üçün göndərilmişdir. Tədbirlər planına uyğun olaraq, «Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası»nın işçi qrupu «Antinarkotizm» Beynəlxalq Elmi-Analitik Mərkəzinin nümayəndələri ilə birgə 2002–2003-cü illərdə Lənkəran, Yevlax, Şəki, Gəncə şəhərlərində zona seminar müşavirələrini keçirmiş, həyata keçirilməsi zəruri olan tədbirlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Zona müşavirələrinin keçirilməsi növbəti 2003-cü ildə də davam etdirilmiş və demək olar ki, ölkənin bütün rayonlarını əhatə etmişdir.

Narkomaniya ilə mübarizə sahəsində Azərbaycan beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edirdi. UNICEF-in Azərbaycanın nümayəndəliyi ilə bu sahədə birgə keçirilmiş tədbirləri xüsusi qeyd edilməlidir. Nümayəndəlik GİTN ilə birgə gənclər arasında bir sıra maarifləndirmə kursları, treninqlər, «Gənclər AİDS-ə qarşı» devizi altında kütləvi aksiyalar keçirmişdir.

Hər il 26 iyun BMT-nin Narkotiklərdən sui-istifadə və qanunsuz ticarəti ilə mübarizə gününün qeyd edilməsi məqsədilə GİTN və onun yerli idarələri, orta və ali təhsil müəssisələri, gənclər təşkilatları ilə birgə müxtəlif tədbirlər həyata keçirirdilər.

Həbsdən azadlığa buraxılmış gənclərin yenidən pis əməllərə qurşanmaması, onların məşğulluğunun təmin edilməsi və sağlam həyat tərzinə qaytarılması üçün də mütəmadi işlər görülürdü.

Bütün bunlar öz müsbət nəticələrini, birinci növbədə, Azərbaycanda gənclər arasında cinayətkarlığın azalmasında, narkomaniya, sərxoşluq və digər neqativ halların sayının aşağı düşməsində göstərirdi.

Azərbaycan dövlətinin gənclər siyasətinin mühüm istiqamətini istedadlı uşaq və gənclər qayğısının artırılması təşkil edirdi.

Heydər Əliyev hələ 1 iyun 1996-cı ildə «Uşaqların beynəlxalq müdafiə günü» münasibətilə uşaq musiqi festivalı qaliblərinin yekun konsertində çıxışı zamanı qeyd etmişdi ki, «bizim borcumuz istedadlara daim qayğı göstərməkdir. Ölkəmizin gənc istedadları, istedadlı uşaqları bundan sonra da Azərbaycan prezidentinin xüsusi qayğısı altında olacaqlar». O göstərmişdi ki, ölkənin iqtisadi vəziyyəti, xalqımızın ümumi yaşayış tərzi nə qədər çətin olsa da, biz istedadlara xüsusi qayğı göstərəcəyik. İstedadlı uşaqlar, gənclər də bilsinlər ki, onların bütün qayğılarını Azərbaycan Prezidenti özü şəxsən çəkəcəkdir [86, 122].

Ümummilli lider bildirmişdir ki, istedadını inkişaf etdirmək üçün gənclərə kömək etmək, istedada yol açmaq lazımdır.

Heydər Əliyev bütün dövlət strukturları qarşısında gənclərimizi elmə, mədəniyyətə və bədii yaradıcılığa daha çox cəlb etməyi, bunun üçün müvafiq şərait yaradılmasını bir vəzifə kimi qoyurdu. O, gənc yazıçılar, şairlər, bəstəkarlar, rəssamlarla, yəni gənc ziyalı təbəqəsi ilə tez-tez görüşlər keçirməyi, onların problemləri, qayğıları ilə müntəzəm məşğul olmağı tövsiyə edir, öz tərəfindən bu problemlərin həllinə kömək göstərməyə hazır olduğunu bildirirdi. Azərbaycanın elmini, mədəniyyətini yüksəklərə qaldırmaq, ölkəmizin adını, şöhrətini dünyaya yaymaq, dünya birliyində Azərbaycanın layiqli yer tutması üçün xidmətlər göstərmələrini hər bir azərbaycanlı gəncin milli borcu hesab edirdi [71].

Heydər Əliyev istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, onlara dövlət qayğısının artırılması, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılmasını dövlət orqanları qarşısında bir vəzifə kimi qoymuşdu. Ulu Öndər gənc istedadlara, gənc idmançılara dövlət qayğısının artırılması, onlara fərdi təqaüdlərin verilməsi haqqında bir neçə sərəncam imzala-

mış, mütəmadi olaraq onlarla görüşlər keçirmiş, yaradıcılıqları ilə tanış olmuş, öz dəyərli məsləhətlərini vermişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 22 iyun 1996-cı ildə «Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında» Fərman imzalamışdı. Fərmanda elmi və mədəni tərəqqinin Azərbaycanın gəncliyi üçün müstəsna əhəmiyyətini nəzərə alaraq, istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsi ilə, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək üçün Azərbaycanın gənc istedadlarının «Qızıl kitabının» təsis edilməsi, gənc istedadların adlarının oraya AR Prezidentinin qərarı ilə yazılması, Azərbaycan Respublikası Prezidentinin yanında «Gənc istedadlar Fondu»nun təsis edilməsi, «Qızıl kitab»a adları yazılmış gənc istedadlara xüsusi təqaüdlərin təsis edilməsi nəzərdə tutulmuşdu [4, 1996, 23 iyun].

Uşaq və gənclərlə bağlı milli qanunvericilikdə istedadlı uşaqlara dövlət qayğısı ilə bağlı əsas müddəalar öz əksini tapmışdır. Belə ki «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində qeyd edilmişdir ki, dövlət fitri istedada malik uşaqların erkən yaşdan üzə çıxarılması və onların qabiliyyətinin möhkəmləndirilməsi üçün tədbirlər görür, onlar üçün adlı və xüsusi təqaüdlər müəyyən edir, xüsusi təhsil müəssisələri sistemini yaradır və maliyyələşdirir, bu sahədə beynəlxalq əlaqələri inkişaf etdirir [154]. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun üç maddəsində (istedadlı uşaqlara dövlət qayğısı) sosial və maddi vəziyyətindən asılı olmayaraq, istedadlı gənclərin təhsilini davam etdirməsi, onların müasir peşə və ixtisaslar üzrə təhsil alması, bu məqsədlə onlara kreditlərin verilməsi, istedadlı gənclərin həvəsləndirilməsi məqsədilə dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən xüsusi təqaüd, mükafat və müavinətlərin təsis edilməsi öz əksini tapmışdır [101].

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 1999-cu il tarixli Fərmanı ilə «Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında» 24 noyabr

1997-ci il tarixli Fərmanı ilə istedadlı gənc yazıçılar üçün təyin edilmiş fərdi təqaüdlər iki dəfə artırılmış və «Azərbaycan Respublikasının gənc yazıçılarına fərdi təqaüdlər verilməsi haqqında» həmin tarixli sərəncamı ilə 10 gənc yazıçıya 6 ay müddətində hər biri ayda bir milyon manat (200 AZN) məbləğdə fərdi təqaüdlər verilmişdir [98, 408–409].

GİTN tərəfindən əlaqədar dövlət orqanları və yaradıcılıq ittifaqları ilə birgə istedadlı gənclərin üzə çıxarılması üçün elm, texnika, təhsil, ədəbiyyat, mədəniyyət, incəsənət və s. sahələrdə müxtəlif tədbirlər-müsabiqələr, festivallar, sərgilər, olimpiyadalar, konfranslar təşkil edilmiş, xarici ölkələrdə keçirilmiş müxtəlif tədbirlərdə onların iştirakı təmin olunmuşdur.

İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirməsinə kömək edən Dövlət Proqramı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 avqust tarixli 146 saylı Sərəncamı ilə təsdiq olunmuşdur. Proqramın əsas məqsədi istedadlı yeni nəslin yetişməsi və onların potensialından dövlət quruculuğunda geniş şəkildə istifadə edilməsi üçün həyata keçiriləcək tədbirlərin məzmunu, uşaqlara, yeniyetmə və gənclərə dövlət qayğısının əsas istiqamətlərini müəyyənləşdirməkdir. Proqram təsdiq edildikdən sonra ölkənin bölgələrində gənc istedadların üzə çıxarılması sahəsində işlər daha ardıcıl xarakter almışdı [124, s.23–27]. 2001-ci ildən başlayaraq «Bakı Payızı» estrada mahnı müsabiqəsi, 2001-ci ildən isə Respublika Uşaq Folklor Musiqi festivalları keçirilməyə başlamışdır. 2001-ci ildən etibarən GİTN və Azərbaycan Jurnalistlər Birliyi birgə «Gənclərin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi», «Gənc ailələrin problemləri», «Uşaq problemləri», «Elm və təhsil», «Ədəbiyyat və incəsənət», «İdman», «Turizm» kompaniyaları üzrə gənc jurnalistlərin ümumrespublika müsabiqələri keçirilirdi.

2002–2003-cü illərdə GİTN və Azərbaycan MOK tərəfindən «Nə? Harada! Nə vaxt» klubları Beynəlxalq Assosiasiyası ilə birlikdə Bakı şəhərində bu oyun üzrə I və II Dünya çempionatları keçirilmiş, Azərbaycan, ABŞ, RF, AFR, İsrail, MDB ölkələrinin

komandaları çempionatda iştirak etmişlər. Azərbaycan gənclərindən ibarət komanda «Breyn-rinq» yarışları üzrə Dünya Kubokunun sahibi olmuşdur [97, 40–43].

2002-ci ildən başlayaraq GİT, Mədəniyyət Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı ilə birgə Gənclər gününə həsr edilmiş kinofestivalların keçirilməsi haqqında qərar qəbul edilmişdir. 2001-ci ildən GİN, Mədəniyyət Nazirliyi və Professional Kinorejissorlar Gildiyası «Gənc professional» Audiovizual Festivalları keçirirdilər. Hər il festivalda ona yaxın xarici ölkənin nümayəndəsi iştirak edirdi.

GİTN Azərbaycan Bəstəkarlar İttifaqı ilə birgə ənənəvi olaraq hər ilin payız aylarında «Gənclik» BTM-də gənc bəstəkarların yaradıcılıq simpoziumlarını təşkil edirdi. Simpoziumlar «Azərbaycanın yaradıcı gəncləri və müasir mədəniyyət», «Klassik musiqi və gənclik», «İncəsənətdə musiqinin rolu» mövzularını əhatə etmişdir.

Gənclər arasında ayrı-ayrı sənət növlərinə və əmək fəaliyyətinə marağın artırılması, onların iqtisadi fəallığının yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması məqsədilə GİTN və AHİK «Gənc Peşəkar» fəxri adının verilməsi qaydalarını hazırlamışdır. Bu fəxri adın təsis edilməsində məqsəd gənclərin yaradıcılıq potensiallarının inkişaf etdirilməsi, peşəkarlıq səviyyəsinin artırılması üçün yeni stimullar yaradılmasıdır. Azərbaycan gənclərinin III Forumu ilə əlaqədar GİTN yaradıcı gənclər həftəliyi keçirmiş, həftə çərçivəsində gənc rejissorların, musiqiçilərin, rəssamların ümumazərbaycan müsabiqələrini, gənclərin konsert və sərgilərini təşkil etmişdi [1, 43–44].

Nazirlik gənclərin asudə vaxtının səmərəli təşkili sahəsində yeni üsulların sınaqdan çıxarılması, ölkənin ictimai-siyasi həyatında onların fəal iştirakının təmin olunması məqsədilə «Gənclərin Diskussiya Klubu», «Debat Vətəndaş Cəmiyyəti», «Beynəlxalq Debat Forumu» kimi maraqlı formalar yaratmışdır. GİTN tərəfindən «Uşaqların asudə vaxtının təşkili» adlı metodiki kitabça nəşr edilmişdi.

Yaradıcı gənclərin müxtəlif layihələrinin həyata keçirilməsinə kömək məqsədilə bir sıra işlər görülmüş, yaradıcı və istedadlı gənclərin beynəlxalq tədbirlərdə iştirakına maliyyə və təşkilati yardım göstərilmişdir. Belə ki gənc karikaturaçı rəssam S.İmaməliyevanın bir sıra ölkələrdə keçirilmiş beynəlxalq musabiqələrdə iştirak etməsinə, gənc opera sənətçisi F.Hacıyevanın İtalyanın Siyena şəhərinə ezam olunmasına, gənc bəstəkar R.Muradovun beynəlxalq musiqi müsabiqəsində iştirakına, gənc rəssam O.Hüseynovun Londonda öz əsərlərini nümayiş etdirməsinə yardım göstərilmişdir [97, 39–49].

Gənclər siyasəti sahəsində aparılan işlər haqqında ölkə ictimaiyyətinin maarifləndirilməsi məqsədilə metodik vəsaitlər, informasiya bülletenləri, kitabların nəşri xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyevin xüsusi sərəncamı ilə uşaq və gənclərə aid bəzi qəzet və jurnallar dövlət büdcəsindən maliyyələşdirilirdi.

GİTN və TN tərəfindən uşaq və gənclərdə vətənpərvərlik hislərinin aşılanması məqsədilə uşaq evləri, ümumtəhsil müəssisələri şagird və tələbələr arasında «Doğma vətən» devizi altında respublika baxış-müsabiqələri keçirilirdi. Ölkənin müxtəlif rayon və şəhərlərində ən müxtəlif mövzularda incəsənət müsabiqələrinin, sərgilərin, intellektual yarışların keçirilməsi ənənə halını almışdı. Mədəniyyət müəssisələrində yeniyetmə və gənclərin yaradıcılığının inkişafına xüsusi diqqət yetirilirdi. Bu müəssisələrdə 3734 dərnək, yaradıcı kollektiv, həvəskar birlik və maraq klublarına 52354 yeniyetmə və gənc cəlb olunmuşdu [97, 471].

Heydər Əliyevin yaratdığı sabitliyin, əmin-amanlığın, beynəlxalq aləmdə respublikamızın imicinin artması sayəsində Ümumdünya Skaut hərəkatının Azərbaycanda təşəkkül tapması və genişlənməsi mümkün olmuşdur. Skaut hərəkatı 1907-ci ildə Böyük Britaniyada yaranmışdır. Bu gün Ümumdünya Skaut Hərəkatı Təşkilatının 200-dən çox ölkədə 25 milyona qədər üzvü vardır. Skaut təşkilatları fiziki, əqli, mənəvi cəhətdən inkişaf etmiş, məsuliyyətli və vətənpərvər gənclərin yetişməsi istiqamətində səmərəli iş aparırlar və buna görə də dövlətlər tərəfindən dəstəklənirlər. Azərbaycan Skaut Assosiasiyası (ASA) 1997-ci il oktyabrın 14-də

təsis edilmiş və həmin ilin dekabrında uşaqların ictimai təşkilatı kimi dövlət qeydiyyatına alınmışdır. Onlar xüsusi geyimləri, sol əlləri ilə görüşmələri və üçrəngli qalstuk formaları ilə digər uşaqlardan seçilirdilər.

Təşkilat yaranandan qarşısına qoyduğu vəzifələrin həyata keçirilməsi istiqamətində səmərəli fəaliyyət göstərir, respublikanın ictimai həyatında yaxından iştirak edirdi. Hərəkatın əsas məqsədi ahəngdar inkişaf etmiş vətəndaşların yetişməsinə kömək göstərməkdən, uşaq və yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində işlər görməkdən ibarətdir.

Ölkəmizdə Skaut hərəkatının inkişafını təmin edən mütəxəssislərin hazırlanması məqsədilə 1998-ci ildən Ümumdünya Skaut təşkilatı ilə birgə kurslar təşkil olunmuş və Azərbaycanda ilk dəfə olaraq Nabranda I Ümumrespublika Skaut düşərgəsi yaradılmışdır. İştirakçıların çoxu isə qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar idi. Təşkilatın üzvləri bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən Qahirədə Müsəlman dövlətlərinin Skaut təşkilatlarının 6-cı konfransında, Ümumdünya Skaut təşkilatının Avrasiya bürosunun Yalta şəhərində keçirilmiş konfransda ölkəni layiqincə təmsil etmişdilər.

Qısa müddətdə xarici ölkələrin Skaut təşkilatları ilə əməkdaşlıq əlaqələri yaradılmışdır. Bu əlaqələrin nəticəsi olaraq Assosiasiyanın üzvləri beynəlxalq tədbirlərə, istirahət düşərgələrinə, təlim kurslarına dəvətlər almış Rusiya, Almaniya, Böyük Britaniya, Türkiyədə səfərlərdə olmuşlar. Azərbaycan gəncləri Skaut hərəkatı tarixində ilk dəfə olaraq ümumdünya Skaut toplantısında iştirak etmiş, baş katib Jak Mariyon ilə görüşmüşdülər. Səfərin nəticəsi olaraq baş katib Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevə minnətdarlıq məktubu göndərmişdi [4, 1999, 7 mart].

Azərbaycanlı uşaq və yeniyetmələrin beynəlxalq Skaut hərəkatına qoşulması və beynəlxalq regional tədbirlərdə iştirak etməsi gələcəkdə ölkə gənclərinin dünya birliyinə inteqrasiyasında, dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində çox mühüm əhəmiyyətə malik olacaqdır. Sonrakı illərdə Skaut təşkilatı uşaq və yeniyetmələrin tərbiyəsi sahəsində müxtəlif proq-

ramların həyata keçirilməsi, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqları cəlb etməklə yay istirahət düşərgələrinin təşkili, Skaut mərkəzinin yaradılması, eləcə də məktəbdənkənar təhsilin, asudə vaxtın səmərəli təşkili istiqamətində çox səmərəli işlər həyata keçirmişdir. Skaut hərəkatının ölkəmizdə uğurlu inkişafı və dövlət tərəfindən dəstəklənməsi Azərbaycan Skaut hərəkatının Ümumdünya Skaut hərəkatı təşkilatına tamhüquqlu üzv seçilməsinə şərait yaratmışdı.

1998-ci ildə Azərbaycanın 10 rayonunda (Gəncə, Xaçmaz, Siyəzən, Daşkəsən, Qax, Qəbələ, Mingəçevir, Lənkəran və s.) yay istirahət düşərgələri fəaliyyət göstərirdi. ASA tərəfindən GİTN dəstəyi ilə Nabranda bir çox ölkə skautlarının iştirakı ilə «Avrasiya – 2000» Beynəlxalq Skaut Düşərgəsi, 2001-ci ildə Şahdağ Skaut Düşərgəsi, 2003-cü ildə isə «Yeni Azərbaycan» Beynəlxalq Skaut Düşərgəsi təşkil edilmişdi. Düşərgənin işində ABŞ, RF, Banqladeş, Ukrayna və Özbəkistan milli Skaut birliklərinin üzvləri iştirak etmişlər. Eyni zamanda skautçularımız xarici ölkədə keçirilmiş beynəlxalq tədbirlərdə, kemplərdə, iclaslarda iştirak etmişdilər [91, 48]. 2002-ci ildə Tailantda XX Ümumdünya Skaut toplantısında ASA nümayəndələri ölkəmizi layiqincə təmsil etmişdilər.

Bütövlükdə, mədəni, mənəvi mühitin yaradılmasında, cəmiyyətin mənəvi tərəqqisində yaradıcı gənclik mühüm amil kimi nəzərdən keçirilir, onun gücündən tam istifadə olunmasına səy göstərilir. Gənclik Heydər Əliyevin diqqət və qayğısını öz üzərində daim hiss edirdi. Məhz bunun nəticəsi idi ki, gənc nəslə qayğı və onun gələcək inkişafına himayənin təmin edilməsi dövlət siyasətinin mühüm istiqamətinə çevrilmişdir [97, 48].

Gəncliyin inkişafı cəmiyyətin inkişafının mühüm ünsürü, mədəni-mənəvi potensialının tərəqqisi kimi qəbul edilirdi. Ona görə də gəncliyin mədəni yüksəlişi, onlarda milli-mənəvi dəyərlərimizə xas olan xüsusiyyətlərin qorunub saxlanılması və yüksəldilməsi ilə ayrılmaz surətdə bağlı idi. Heydər Əliyevin gənclərə diqqət və qayğısı gənclərin milli-mənəvi, vətənpərvərlik hislərinin artmasına səbəb olmuş və dövlətimizin gələcək inkişafını təmin edərək mütərəqqi gəncliyin formalaşmasına şərait yaratmışdır.

## 2.3. Azərbaycan Respublikasında uşaq hüquqlarının təminatı sahəsində fəaliyyət

Hər bir xalqın, cəmiyyətin xoşbəxt gələcəyi uşaqların tərbiyəsindən, onların sağlam böyüməsindən, layiqli vətəndaşlar kimi yetişmələrindən bilavasitə asılıdır. Uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi, təlim-tərbiyəsinin gücləndirilməsi, onların mənəvi, intellektual, fiziki inkişafına şərait yaradılması Heydər Əliyevin gənclər siyasətinin mühüm tərkib hissəsi idi.

Müstəqillik ərəfəsində və müstəqilliyin ilk illərində Azərbaycanda cərəyan edən proseslərin mənfi fəsadları uşaqlara da təsirsiz ötüşmədi. Ermənistanın işğal etdiyi ərazilərdə 300 min nəfərədək uşaq öz doğma evlərini, uşaq bağçaları və məktəblərini tərk etməli oldular ki, onlardan da 79 min nəfəri 5 yaşdan aşağı uşaqlar idi. Bu uşaqların əksəriyyəti çadırlarda, ağır şəraitdə özlərinə müvəqqəti sığınacaq tapdılar, onlardan bir çoxu öz valideynlərini itirərək yetim və kimsəsizlərə çevrildilər [16, 269].

Yalnız 1993-cü ildən sonra Azərbaycan Respublikasında həyata keçirilmiş inkişaf strategiyasının sayəsində ölkə həyatının bir sıra sahələrində olduğu kimi, uşaqların hüquqlarının qorunması sahəsində də ciddi addımlar atmaq mümkün oldu.

Heydər Əliyevin Azərbaycan dövlətinin başçısı kimi qayğıları, vəzifələri çox olsa da, uşaqlarla görüşməyi, sevinc və kədərləri ilə bölüşməyi, onlara öz nəsihət və tövsiyələrini bildirməyi, bir an belə yaddan çıxarmırdı. Ulu Öndərin hər Yeni il, Novruz bayramı günlərində, Uşaqların Beynəlxalq Müdafiəsi Günündə və digər əlamətdar tarixlərdə körpə balalar və uşaqlarla bir yerdə olması ənənəyə çevrilmişdi. «Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimizdir» deyən Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti kimi bəyan edirdi: «Müstəqil Azərbaycan Respublikasının, dövlətinin qayğıları çoxdur. Ancaq Azərbaycan Prezidenti kimi mən bəyan edirəm ki, uşaqlara, körpələrə olan qayğı bütün qayğılardan üstündür. Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də

bu bizim müqəddəs borcumuzdur. Biz bu borcu yerinə yetirməyə çalışırıq» [98, 119–120]. Heydər Əliyev Azərbaycanın bütün uşaqlarını öz balaları kimi sevir və əlindən gələni edirdi ki, onların həyatı xoşbəxt və firavan olsun. O, qeyd edirdi ki, mənim həyatda sevdiyim şey çoxdur. Bu, vətəndir, torpaqdır, Azərbaycandır, mənsub olduğum xalqdır, bu torpağın suyudur, havasıdır, dağı-daşıdır, gülü-çiçəyidir, ağacıdır, çayıdır… Amma bunların hamısından çox sizi, uşaqları sevirəm. Çünki siz bizim xalqımızın gələcəyini davam etdirənlərsiniz [88]. O, üzünü uşaqlara tutaraq deyirdi: «Həyatın mənası ondan ibarətdir ki, dünyaya gələn, böyüyüb, ərsəyə çatan hər bir uşaq, həyat fəaliyyətinə başlayan insan, cəmiyyətə, millətə, ölkəsinə, vətəninə layiqli xidmət etsin, xeyir versin» [88]. Heydər Əliyev uşaqlara baxaraq on, on beş, iyirmi il sonrakı Azərbaycanı görür və inamla söyləyirdi ki, Azərbaycanın çox parlaq gələcəyi var, bu istedadlı uşaqlar Azərbaycanın parlaq gələcəyini təmin edəcəklər [98, 90]. Uşaqlara müraciətində Heydər Əliyev: «Siz Azərbaycanın gələcəyisiniz, müstəqil Azərbaycan dövlətinin, müstəqil Azərbaycan Respublikasının gələcəyi sizsiniz. Ona görə də siz şənlənməlisiniz, həyatınız xoşbəxt olmalıdır. Amma, eyni zamanda yaxşı oxumalısınız, təhsil almalısınız, özünüzü gələcək həyata hazırlamalısınız», – deyə vəsiyyət edirdi [81, 6–9].

Şəhid uşaqları, qaçqın ailələrindən olan və kimsəsiz uşaqlar Heydər Əliyevin xüsusi diqqət mərkəzində idi. Bu qəbildən olan uşaqlarla Novruz bayramı günlərində, 1996-cı il 20 martda görüşən Ulu Öndər qeyd edirdi: «Sizin çoxunuz atanızı, ananızı itirmisiniz, çoxlarınızın atası vətənimizi, torpağımızı, müstəqil Azərbaycanı müdafiə edərkən şəhid olub, canını qurban verib. Ancaq onlar sizin də, bizim də, bütün Azərbaycan xalqının qəlbində qəhrəman kimi yaşayırlar. Onlar həyatdan getməyiblər, bizimlədirlər. Qəlbimizdədirlər. Ona görə də siz özünüzü heç də valideynsiz hesab etməyin. Sizin valideyniniz vətənimizdir, müstəqil Azərbaycan dövləti və onun prezidentidir. Siz buna arxayın ola bilərsiniz» [81].

Heydər Əliyev bütün dövlət orqanlarının, icra hakimiyyəti strukturlarının qarşısında uşaq evlərinə, yetim uşaqların yaşayışına, tərbiyə və təhsil almalarına diqqət və qayğı göstərməyi bir vəzifə kimi qoyurdu. O bütün xeyirxah, imkanlı insanlara müraciət edərək, uşaq evlərinə, valideynsiz uşaqlara xüsusi qayğı göstərməyə, kömək etməyə çağırırdı [81].

Heydər Əliyev hər xarici səfərində, görüşlərində bütün beynəlxalq təşkilatların, dünya birliyinin diqqətini Azərbaycanın qaçqın və didərgin düşmüş insanlarının, onların uşaqlarının ağır vəziyyətinə yönəldir, bu vəziyyətin əsas səbəbinin məhz Ermənistanın işğalçılıq siyasəti olduğunu bildirirdi. 1994-cü ilin sentyabrında Heydər Əliyev BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak edərək beynəlxalq uşaq təşkilatı – UNICEF-də Uşaqların Həyatı, Müdafiəsi və İnkişafına dair BMT Bəyannaməsini imzalamış və bununla da bu təşkilatın Azərbaycanda fəaliyyətinin əsasını qoymuşdur. Bu münasibətlə keçirilmiş mərasimdə Heydər Əliyev demişdi: «Uşaqların həyatına diqqət dünyanın gələcəyi ilə məşğul olmaq deməkdir. Belə fəaliyyət Azərbaycan üçün xüsusi əhəmiyyətlidir. Çünki Azərbaycan müharibə vəziyyətindədir, onun ərazisinin 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq adam qaçqındır ki, onların da xeyli hissəsi uşaqlardır. Onlar indi çadırlarda çətin vəziyyətdə yaşayırlar» [98, 75].

Hələ 1994-cü ildə prezidentin qaçqınlarla görüşü zamanı verdiyi tövsiyələrə uyğun olaraq, qaçqın düşərgələrindən 200-dən artıq xəstə və kimsəsiz uşaq Səhiyyə Nazirliyinin xətti ilə Bakıya gətirilərək Buzovna və Mərdəkandakı uşaq sanatoriyalarında yerləşdirilmiş, onların yaşayışı və təhsili üçün hər cür şərait yaradılmışdı.

Heydər Əliyevin bilavasitə rəhbərliyi altında həyata keçirilmiş hüquqi islahatlar sayəsində Azərbaycan Respublikasında uşaq hüquqlarının təmin edilməsi, onların hərtərəfli inkişafına və layiqli vətəndaş kimi yetişməsinə, fiziki, intellektual, yaradıcı potensiallarını reallaşdırılmasına tam təminat verən, uşaqlarla

işin aparılması üçün milli hüquqi baza yaradılmışdır (Bu barədə monoqrafiyanın I fəslinin ikinci paraqrafında ətraflı bəhs edilmişdir – *R.H.*). Bu istiqamətdə Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər Uşaq hüquqlarına dair bütün beynəlxalq normalara, xüsusən BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyaya uyğun olaraq reallaşdırılır. Məlumdur ki, Azərbaycan Respublikası BMT-nin Uşaq hüquqları Konvensiyasına hələ 1992-ci il 13 avqust tarixdə qoşulmuşdur. 1997-ci il iyunun 2–3-də Cenevrədə BMT-nin Uşaq Hüquqları Komitəsində Uşaq Hüquqları Konvensiyası ilə bağlı müstəqil Azərbaycanın ilk məruzəsi dinlənilmiş və müzakirə olunmuşdur. Müzakirələrin nəticələri ilə bağlı Komitənin tövsiyələri Azərbaycan Respublikası hökumətinə təqdim edilmişdir. Bu tövsiyələrlə bağlı nazirlik, komitə və aidiyyəti təşkilatlar tərəfindən irəli sürülmüş təkliflər əsasında UNICEF ilə razılaşdırılmış «Azərbaycan Respublikasında Uşaq Hüquqları Konvensiyasının həyata keçirilməsinə dair Tədbirlər Planı (Milli Fəaliyyət planı)» hazırlanmışdır [23, №2, 2000, 44–45].

1997-ci ildə Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Nazirlər Kabineti yanında, eləcə də şəhər və rayon icra hakimiyyətləri nəzdində yetkinlik yaşına çatmamışların işləri üzrə komissiyalar sistemi yaradılmış və bu BMT-nin Uşaq Hüquqları Komitəsinin tərəfindən yüksək qiymətləndirilmişdir. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə yetkinlik yaşına çatmamışların işləri üzrə komissiyaların səlahiyyətləri genişləndirilmiş və 1998-ci ilin dekabrında bu komissiya tərəfindən «Uşaq hüquqları haqqında» Konvensiyanın Azərbaycan Respublikasında həyata keçirilməsinə dair tədbirlər planı – milli fəaliyyət planı qəbul edilmişdir. Milli fəaliyyət planı 89 bölmədə (ümumi və təşkilati tədbirlər; uşaqların iqtisadi, sosial, mədəni hüquqlarının təmin olunması ilə bağlı tədbirlər; yararsız şəraiti olan uşaqlarla bağlı tədbirlər; dövlət himayəsində olan uşaqlarla bağlı tədbirlər; sosial müdafiyə ehtiyacı olan ailə-

lərin sosial müdafiəsinə dair tədbirlər; uşaqların istismarı və onlara qarşı zorakılığın qarşısının alınmasına dair tədbirlər; məktəblərin inkişafı ilə bağlı tədbirlər; yetkinlik yaşına çatmamış uşaqların hüquqlarının təmin edilməsinə dair tədbirlər; Uşaq Hüquqları Haqqında Konvensiyanın təbliği ilə bağlı tədbirlər) ifadə olunan məsələlərin həllini nəzərdə tuturdu. Tədbirlər planında uşaq hüquqları ilə bağlı milli konsepsiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi və bu istiqamətlər üzrə dövlət proqramlarının hazırlanması, tədbirlərin həyata keçirilməsinə məsul dövlət və qeyri-dövlət təşkilatları, onların icra müddəti dəqiq müəyyənləşdirilmişdi [26]. Sonrakı dövrlərdə Azərbaycan Respublikasında uşaqların hüquqlarının qorunması və problemlərinin həlli sahəsində görülən bütün işlər bu fəaliyyət planında nəzərdə tutulmuş istiqamətlərə uyğun olaraq həyata keçirilmişdir.

MDB ölkələri içərisində ilk olaraq beynəlxalq övladlığa götürmə məsələləri üzrə komissiyanın yaradılması da, bu işlərin beynəlxalq qaydalara uyğun aparılmasına Heydər Əliyev diqqətinin təzahürü idi.

Heydər Əliyevin bütövlükdə uşaqlara münasibəti həm uşaqların hüquqlarının qorunması, həm pedaqoji, həm də psixoloji baxımdan bu gün də əsl örnək olaraq qalmaqdadır.

1990-cı illərin sonunda Azərbaycanda 18 yaşına çatmamışlar respublika əhalisinin 38,8 faizini təşkil edirdi (təqribən 3.028 min nəfər). Onlardan 4 yaşa qədər olanlar 28,5 faiz, 5–9 yaşında olanlar 29,6 faiz, 10–14 yaşda olanlar 27,2 faiz, 15–18 yaşda olanlar isə 14,4 faiz təşkil edirdi. Uşaqların 1.470. 700-ü qız, 1.557.600 nəfəri oğlan idi [100, 1999, 7 mart].

Göstərilən dövrdə ölkəmizdə 20 mindən çox yetim və valideyn himayəsindən məhrum olmuş uşaq var idi. Onların 2078-i dövlət himayəsində saxlanılır, böyük əksəriyyəti isə qohumların ailələrində yaşayırdılar. Son dövrlər uşaqların ailə mühitində saxlanılması ideyası dünyada xüsusi bir sosial strategiya kimi həyata keçirilməyə başlamışdı. Bu baxımdan uşaqlara münasibətdə ən yüksək humanitar şərtlərə cavab verən, bəşəri dəyərləri və mil-

li xüsusiyyətləri özündə əks etdirən Azərbaycan təcrübəsi özünəməxsusluğu ilə fərqlənməyə başlamışdı.

Bütün dünyada geniş şəbəkəyə malik «SOS Kinderdorf İnterneşnl» təşkilatının Azərbaycana gəlişi də məhz Heydər Əliyevin nüfuzu və təşəbbüsü sayəsində baş tutmuşdur. 1997-ci ildə bu təşkilatla Azərbaycan Respublikası hökuməti arasında əldə olunmuş razılığa əsasən Bakının Xətai rayonunda «Bakı SOS Uşaq kəndi» tikilməyə başlamış, 1999-cu ildə isə «SOS Uşaq kəndləri – Azərbaycan» assosiasiyası yaradılmışdır. 2000-ci ildə «Bakı SOS-Uşaq kəndi»nin istifadəyə verilməsinə həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak və çıxış etmişdir. Kəndin ərazisində Avropa standartlarına uyğun olaraq 12 ailə evində və uşaq bağçasında 100-dən artıq yetim və kimsəsiz uşağın yaşaması və tərbiyə alması üçün bütün şərait yaradılmışdır. Bu nəcib işin davamı olaraq 2001-ci ildə Azərbaycanda ikinci belə uşaq kəndinin salınması haqqında yeni razılaşma əldə edilmişdi [16, 275].

Uşaqlarla işin mühüm istiqamətini əlil uşaqların sosial müdafiəsi təşkil edirdi. Göstərilən dövrdə ölkəmizdə olan 250.000 əlilin təqribən 10 faizini 16 yaşına qədər olan uşaqlar təşkil edirdi. Əqli və fiziki cəhətdən qüsurlu olan 2132 uşaq 13 xüsusi məktəbdə tərbiyə alırdı. Belə uşaqlar üçün xüsusi pedaqoji texnologiyaların, psixi bərpa işlərinin aparılması müəyyən tədbirlərin görülməsini tələb edirdi [100, 1999, 7 mart].

Qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar da xüsusi problem təşkil edirdi və bununla bağlı müəyyən işlər görülürdü. Ümumi sayı 300 mindən çox olan bu uşaqların, xüsusən qaçqın düşərgələrində yaşayanların sağlamlığı, psixoloji vəziyyəti Heydər Əliyevi daim düşündürürdü.

Uşaq əməyindən istifadə, uşaqların istismarı, onların cinsi zorakılığa məruz qalmaları, yeniyetmə və uşaq cinayətkarlığı kimi məsələlər də Azərbaycan cəmiyyətini və onun rəhbərliyini ciddi narahat edən məsələlər idi. Heydər Əliyev bütün dövlət strukturlarının, gənclərlə iş aparan qurumların diqqətini bu problemlərə

yönəltməklə, onlarla qısa müddətdə səmərəli mübarizə aparılması üçün bütün tədbirləri görməyi tələb edirdi.

Uşaqların hüquq və azadlıqlarının qorunmasında 1996-cı ilin fevralından fəaliyyətə başlamış Respublika Uşaq Təşkilatı (RUT) da mühüm rol oynayırdı. Təşkilatın qurulması, maddi bazasının möhkəmləndirilməsi, problemlərinin həlli ilə bağlı Heydər Əliyev bir sıra göstərişlər vermişdir. Onun qayğısına cavab olaraq RUT qısa müddət ərzində bir çox işləri görməyə müvəffəq olmuş, rayonlarda təşkilatın bölmələri yaradılmış, şəhid, qaçqın ailələrin uşaqları arasında müxtəlif təlim kursları, seminarlar təşkil edilmiş, uşaq teatrı açılmışdır. Təşkilatın vətənpərvərlik mövzusunda apardığı işlər, uşaq evləri, internatlara, qaçqın şəhərciklərində yaşayan uşaqlara, şəhid ailələrinə göstərdiyi yardımlar Prezident tərəfindən böyük məmnunluqla qarşılanmışdı. Prezidentin göstərişi ilə Azərbaycan Respublikasının Uşaq Təşkilatı dövlət büdcəsindən maliyyələşdirilən qeyri-dövlət təşkilatları siyahısına daxil edilmişdir.

Azərbaycanda uşaq hüquqlarının qorunması sahəsində dövlət qurumları ilə birgə qeyri-hökumət təşkilatları da fəal iştirak edirdilər. «Uşaq və gənclər birliklərinin təşkilatı fəaliyyətinin və proqramlarının qismən maliyyələşdirilməsi» haqqında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin hazırladığı və 27 oktyabr 1997-ci il tarixdə təsdiq olunmuş əsasnamələrə görə uşaqların sosial, fiziki, intellektual, mənəvi inkişafı, hüquqlarının müdafiəsi məqsədilə yaradılmış qeyri-kommersiya xarakterli ictimai birliklər uşaq birlikləri adlanırdı (maddə 1.1). Həmin əsasnamələrə və Nazirliyin kollegiyanın qərarlarına uyğun olaraq uşaq birliklərinin təşkilatı fəaliyyətinin və onların bu məqsədlə hazırladığı proqramların qismən maliyyələşdirilməsi nəzərdə tutulmuş və bu da həmin birliklərə dövlət yardımının (dotasiyanın) bir forması kimi qəbul edilmişdir [23, №4, 2000, 53–58; 59–63].

Bu normativ-hüquqi aktların qəbulu ölkədə uşaq birliklərinin və uşaqların hüquqlarının qorunması ilə məşğul olan ictimai təşkilatların fəaliyyətinin genişlənməsinə şərait yaratmışdı.

Artıq 2000-ci ildə Azərbaycanda doqquz uşaq təşkilatı (Respublika Uşaq Fondu, Azərbaycan Skaut Assosiasiyası, «Bikə» Qayd-Qızlar Assosiasiyası, Uşaq və Yeniyetmələrin Xeyriyyə Fondu, «Buta» Uşaq Humanitar Fondu, Respublika Uşaq təşkilatı, Uşaq Hüquqlarını Müdafiə Liqası, Azərbaycan Uşaqlar Birliyi; «Sahib» Əlil Uşaqlara Yardım Xeyriyyə Cəmiyyəti) fəaliyyət göstərirdi [23, 2000, №4, 78].

Uşaq və yeniyetmələrin problemlərinin ictimailəşdirilməsində Azərbaycan gənclərinin forumları mühüm rol oynadı. 1999-cu ildə keçirilmiş II Forumda uşaq və yeniyetmələrin problemləri ayrıca bölmədə müzakirə edilmiş və bu sahədə işləri canlandırmaq üçün bir sıra maraqlı təkliflər irəli sürülmüşdü. Bu təkliflər sırasında respublikada uşaqlarla iş aparılması – onların sağlamlığı, təhsili, asudə vaxtlarının təşkili kimi problemlərinin həllini nəzərdə tutan dövlət proqramlarının hazırlanması ilə bağlı təkliflər də var idi.

II Forumdan sonra ölkədə uşaq və yeniyetmələrin inkişafı və hüquqlarının müdafiəsi sahəsində geniş tədbirlər həyata keçirilmiş, qanunvericilik sistemi daha da təkmilləşdirilmişdi.

«Uşaq hüquqları haqqında» (1998), «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» (1999), «Dövlət gənclər siyasəti haqqında» (2002), «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında» Azərbaycan Respublikası qanunları qəbul edilmiş, həmin qanunların tətbiq edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanları imzalanmış, Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə bir sıra proqramlar təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı»nın 6.2. bəndinə müvafiq olaraq 2000-ci ilin iyun ayında Gənclər və İdman Nazirliyinin Mərkəzi aparatında Uşaqlarla İş üzrə İdarə yaradılmışdır. 14 fevral 2001-ci ildə AR GİN və qeyri-hökumət təşkilatlarının iştirakı ilə Nazirliyin nəzdində Uşaqlarla iş üzrə Respublika Koordinasiya Şurası təşkil edilmişdir. 2001-ci

ilin iyununda Gənclər, İdman və Turizm Nazirliyinin Mərkəzi aparatında Uşaq və gənclərlə iş üzrə Baş İdarə və İdarənin tərkibində Uşaqlarla iş şöbəsi yaradılmışdır.

2000-ci il iyunun 22-də Azərbaycan Respublikası Nazirlər Kabineti «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» Dövlət Proqramını qəbul etmişdir [156].

Dövlət Proqramı uşaqlarla iş sahəsində dövlət siyasətinin Azərbaycan Respublikasının mövcud inkişaf mərhələsinə uyğun şəkildə həyata keçirilməsi, görülən işlərin səmərəliliyinin artırılması, uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi, onların mənəvi, əxlaqi və fiziki kamilliyə çatması, layiqli vətəndaş kimi yetişməsinə əlverişli şəraitin yaradılması məqsədilə hazırlanmışdır.

Proqramda nəzərdə tutulmuş tədbirlər səkkiz istiqamət üzrə qruplaşdırılmışdır ki, bunlar ümumi və təşkilati tədbirlər; uşaqların iqtisadi, sosial, mədəni hüquqlarının təmin olunması ilə bağlı işlər; əlverişsiz şəraitdə yaşayan uşaqlarla iş; sosial müdafiəyə ehtiyacı olan və dövlət himayəsində olan uşaqlarla iş; uşaqların istismarını və onlara qarşı zorakılığın qarşısının alınması ilə bağlı işlər; uşaqların normal və ahəngdar inkişafı ilə bağlı işlər; yetkinlik yaşına çatmamış uşaqların hüquqlarının təmin edilməsi ilə bağlı işlər; Uşaq Hüquqları Konvensiyasının və Uşaq Hüquqları haqqında Azərbaycan Respublikası Qanununun öyrənilməsi və təbliği ilə bağlı işləri əhatə edirdi. Proqram nəzərdə tutulmuş işlərin həyata keçirilməsi üçün inzibati-təşkilati, normativ-hüquqi, mənəvi-mədəni, maliyyə mexanizmlərini müəyyənləşdirməklə yanaşı, gələcəkdə göstərilən istiqamətlər üzrə bir sıra digər proqramların hazırlanmasını özündə ehtiva edirdi. Sonrakı dövrdə bu proqrama uyğun olaraq müvafiq tədbirlər həyata keçirilməyə başlanmışdı [156].

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planına uyğun olaraq 1999-cu ildə Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi GİN-ə verilmiş və hər il əqli və fiziki qüsurlu, valideyn himayəsindən məh-

rum olmuş, qaçqın və məcburi köçkün, istedadlı və yaradıcı uşaqların istirahəti burada təşkil olunmuşdur. Nazirlik tərəfindən bu kateqoriyadan olan uşaqların respublikanın bir çox bölgələrində istirahəti üçün düşərgələrin fəaliyyəti də qismən təmin olunmuşdur.

Xeyli müddət davam edən müharibə vəziyyəti, respublikada bir milyon qaçqın və köçkün əhalinin olması ölkədə yeni bir problemin – uşaqların baxımsızlığı probleminin yaranmasına səbəb olmuşdur. İlk növbədə, ailə və cəmiyyət tərəfindən uşaqlara diqqətin azalması nəticəsində onların bir qismi təhsildən yayınaraq, işləməyə meyil göstərirdilər. Problemin qarşısının alınması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir.

2000-ci ildə BMT-nin uşaq fondunun dəstəyi ilə baxımsız, küçədə işləyən və yaşayan uşaqların problemini araşdırmaq məqsədilə sosioloji tədqiqat keçirilmişdir. 2001-ci ildə Nazirliyin «Uşaq, ailə və cəmiyyət» mövzusunda təşkil etdiyi dəyirmi masada mövcud vəziyyət təhlil edilmiş, dövlət və qeyri-hökumət təşkilatlarının bu istiqamətdə gördükləri işlər müzakirə edilmişdir [97, 52–53].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2001-ci il tarixli Sərəncamı ilə «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı tədbirlər planı» təsdiq edilmişdi. Plan dövlət himayəsində olan və olmayan, qəyyumluqda, himayədə olan, övladlığa verilən, habelə rəsmiləşdirilmədən, yaxın qohumunun yanında yaşayıb tərbiyə olunan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üçün güzəşt və imtiyazları müəyyən edirdi.

Uşaqlarla iş üzrə Respublika Koordinasiya Şurasının 14 fevral 2001-ci il tarixli iclasında küçədə yaşayan və işləyən uşaqların vəziyyətinin yaxşılaşdırılması məqsədilə təxirəsalınmaz tədbirlər müəyyənləşdirilmiş və dövlət, qeyri-dövlət təşkilatlarının nümayəndələrindən ibarət işçi qrupu yaradılmışdır [97, 53]. Baxımsız və küçədə yaşayan və işləyən uşaqların problemləri haqqında məlumatların ölkə ictimaiyyətinə daha dolğun çatdırılması məq-

sədilə GİN tərəfindən bir sıra təqdimat mərasimləri keçirilmiş, treninq və konfranslar təşkil edilmişdir [97, 53].

Ölkədə baxımsızlığın aradan qaldırılması, bu istiqamətdə aparılan işlərin kompleks və davamlı şəkildə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən «Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli üzrə tədbirlər planı» haqqında 605 saylı 14 aprel 2003-cü il tarixli Sərəncam imzalanmışdır.

Tədbirlər Planında uşaq baxımsızlığı və küçə uşaqları Probleminin aradan qaldırılması istiqamətində müvafiq işlərin aparılması, uşaq problemi ilə bağlı beynəlxalq tələbləri nəzərə almaqla uşaq hüquqlarının qorunub saxlanması istiqamətində işlərin gücləndirilməsi, zəif sosial qruplardan olan uşaqlar üçün sosial və psixoloji reabilitasiya işinin təşkili nəzərdə tutulmuşdur. Tədbirlər Planında uşaqların sosial-iqtisadi hüquqlarının müdafiəsi, onların təhsili, səhiyyə problemləri, dərsdənkənar fəaliyyətin təşkili məsələsi və onların maraqları naminə ictimai və beynəlxalq əməkdaşlıqla bağlı məsələlər öz əksini tapmışdır [98, 53].

27 fevral 2003-cü il tarixdə «Xüsusi qayğıya ehtiyacı olan uşaqlar» adlı konfransda «Küçədə işləyən və yaşayan uşaqlar: Problemin hazırkı vəziyyəti, atılan addımlar, birinci nəticələr, gələcək (təkliflər)» mövzusunda prezentasiya təqdim edilmişdir.

Nazirlik UNICEF-in Azərbaycandakı nümayəndəliyi ilə birgə baxımsız, küçədə işləyən və yaşayan uşaqlarla işləyəcək mütəxəssislərin hazırlığı məqsədilə treninqlər təşkil etmişdir. Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən 30 nəfər baxımsız uşağa xidmət göstərəcək «Baxımsız uşaqlar üçün «Günərzi mərkəzinin pilot layihəsi» hazırlanmışdır. Mərkəzdə uşaqların psixoloji vəziyyətinin korreksiyası, təhsil səviyyəsinin müəyyənləşdirilməsi və onun davam etdirilməsi üçün işlərin aparılması, uşaqlara zəruri səhiyyə xidmətinin göstərilməsi, fiziki və emosional inkişafı məqsədilə proqramların yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

1 iyun 2002-ci ildə tarixdə GİTN-i tərəfindən «Lider – TV» şirkəti ilə birgə keçirilən «Uşaqlara nə deyək» telemarafonu zama-

nı Günərzi mərkəzi haqqında geniş məlumatlar verilmiş, habelə «küçə uşaqları» layihəsi ilə bağlı xüsusi hesab açılmışdır. Günərzi mərkəzi Azərbaycanda hökumət orqanı tərəfindən yaradılan və dəstəklənən ilk xidmət idi. Mərkəzdə iş bölgüsü və struktur müəyyənləşdirilmiş, təhsil, səhiyyə, hüquq və psixososial reabilitasiya bölmələri fəaliyyət göstərməyə başlamışdı [97, 53–54].

Heydər Əliyev göstərirdi ki, indi Azərbaycanda yaşayan uşaqlar ölkəmizi XXI əsrdə irəliyə aparacaqlar, Azərbaycanın müstəqilliyini qoruyacaqlar, inkişaf etdirəcəklər. Ona görə də uşaqlara daim qayğı göstərilməsini yaşlı nəslin, dövlətin, cəmiyyətin, ən müqəddəs, ən şərəfli borcu hesab edirdi və bütün Azərbaycan vətəndaşlarını bu müqəddəs borcu şərəflə yerinə yetirməyə dəvət edirdi.

Heydər Əliyev həyatının da, gələcəyinin də xoşbəxtliyini, səadətini məhz uşaqlara qayğıda, diqqətdə görürdü [15,158]. O Azərbaycanın gələcəyinə çox nikbinliklə baxırdı. Birincisi ona görə ki, Azərbaycan XXI əsrə, III minilliyə müstəqil dövlət, azad millət kimi daxil olurdu. İkincisi, ona görə ki, XX əsrin sonunda dünyaya gəlmiş uşaqlar daha istedadlı, dünya mədəniyyətini, elmini qavramağa, mənimsəməyə daha qabiliyyətli idilər. Buna görə də milli liderimiz Azərbaycanın gələcəyinə arxayın idi və inanırdı ki, XXI əsrdə xalqımız daha böyük nailiyyətlər əldə edəcək. Ölkəmizin son illərdə həyatın bütün sahələrində əldə etdiyi nailiyyətlər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi fikirlərin ən bariz sübutudur.

# III FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏRİNİN İCTİMAİ-SİYASİ TƏŞKİLATLANMASI VƏ BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİ

## 3.1. Azərbaycan Respublikasında gənclər təşkilatlarının fəaliyyəti

Dövlət gənclər siyasətinin əsas məqsədlərindən və istiqamətlərindən birini də gənclərin ictimai fəallığının təmin edilməsi, onların ölkənin siyasi həyatında və dövlət quruculuğunda iştirakının genişləndirilməsi təşkil edirdi.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsində gənclərin böyük rolu olmuş, onlar sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında getmişlər. Erməni ekstremistlərinə qarşı ilk özünümüdafiə dəstələrinin yaradılmasında, düşmənin ilk həmlələrinin dəf edilməsində gənclərin böyük xidmətləri olmuşdur. Həmin dövrdə gənclər müxtəlif siyasi baxışlarından asılı olmayaraq, böyük fəallıq nümayiş etdirir və azadlıq, demokratiya uğrunda birgə mübarizə aparırdılar. Yeri gəlmişkən, həmin illərdə milli mübarizə meydanlarına atılan gənclərin böyük bir hissəsinin sosiallaşması məhz 70-ci illərə – 80-ci illərin I yarısına təsadüf etmişdir. Məhz həmin illərdə Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycanda milli ruha bağlı, vətənpərvər bir gənclik yetişmişdi. Lakin sonrakı dövrlərdə baş vermiş faciəli hadisələr, Qarabağ müharibəsindəki uğursuzluqlar, sistem dəyişikliyindən yaranmış ideoloji boşluqlar, bir sıra mənəvi dəyərlərin itməsi gənclərin şüuruna və psixologiyasına öz mənfi təsirini göstərmiş, nəticədə gənclərin arasında parçalanma baş vermiş, ümidsizlik, ölkənin və dövlətin taleyinə laqeydlik kimi hislər güclənməyə başlamış, bir qismində isə varlanmaq hərisliyi

baş qaldırmışdı. Bəzi gənclər isə cinayət yoluna düşmüşdülər. Gəncliyin bu yolu tutmasının əsas səbəblərindən biri bütün xalqı birləşdirə biləcək, gənclərə düz yolu göstərəcək liderin olmaması idi. Nəticədə gənclərin müəyyən qismi maddi maraqlarını, siyasi ambisiyalarını hər şeydən üstün tutan, səriştəsiz, satqın adamların arxasınca getməyə başladı. Lakin nə yaxşı ki, xalqımız düşmən təcavüzünə və ərazi bütövlüyünün kobud surətdə pozulmasına məruz qalanda sosial və milli ədalətsizliyə qarşı barışmaz mövqedə duran fəal bir gənclik də var idi ki, bu gənclik tarixin ağır sınaqlarından ləyaqətlə və üzüağ çıxdı. Heydər Əliyev həmin illərdə gəncliyin siyasi fəallığını qiymətləndirərkən qeyd edirdi ki, 1988-ci ildən bəri Azərbaycanda milli azadlıq hərəkatı geniş yayılmış və bunun aparıcı qüvvəsi gənclər olmuşlar… Meydanlara toplaşanların əksəriyyəti gənclər idi. Gənclərin hamısı yekdil idi. Meydanlarda, mitinqlərdə fəal iştirak edənlərin çoxu Qarabağa döyüşə gedir, torpağımızı qoruyur, bu yolda şəhid olurdu. Onların hamısı xalqımızın gəncləri, qəhrəman, vətənpərvər oğulları idi. Tariximizdə də belə qalacaqlar [98, 26]. Heydər Əliyev onu da vurğulayırdı ki, bu proseslər şəxsi mənafeyə tabe edilməyə başlayanda savadlı, bilikli gənclər hərəkatdan uzaqlaşdılar və təəssüf ki, milli birliyimiz pozuldu. Ortada isə qanunsuz silah saxlayanlar, ayrı-ayrı quldur dəstələrinə qoşulanlar, mənfi fikirlərlə yaşayanlar qaldılar [98, 26–27].

Heydər Əliyev həmin illərdə böyük səhvlərin buraxıldığını, Azərbaycanın hakim dairələrinin, dövlət orqanlarının, rəhbər şəxslərin Azərbaycan xalqının, onun gənclərinin daxili imkanlarından səmərəli istifadə edə bilmədiyini açıq şəkildə söyləyərək, bunun nəticəsi kimi Azərbaycanda siyasi özbaşınalıqlar olduğuna görə gənclərin bir hissəsinin ölkənin həmin fəlakətli vəziyyətində özlərini kənara çəkdiklərinin, bəzi valideynlərin isə şəxsi hislərini ümummilli hislərdən üstün tutaraq öz balalarını respublikadan kənara çıxardıqlarının, orda-burda gizlətdiklərinin, orduya getməyə qoymadıqlarının həqiqət olduğunu göstərmişdi [98, 28].

Beləliklə, 1993-cü ilə qədər cəmiyyətdə gəncləri, bütün xalqı azadlıq, müstəqillik ideyası ətrafında birləşdirmək qabiliyyətinə malik liderə ehtiyac olduğu kəskin duyulurdu. Milləti bu «ideya çaşbaşlığından» qurtaracaq, xalqımızı sağlam fikirlər, sağlam əhvali-ruhiyyə əsasında birləşdirəcək yeganə şəxsiyyət məhz Heydər Əliyevin özü oldu.

Müstəqillik əldə edildikdən sonra Azərbaycanda gənclər hərəkatının ən bariz göstəricilərindən biri gənclərin müstəqil təşkilatlanması oldu. «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1999-cu il tarixli Fərmanında da qeyd edildiyi kimi 1990-cı illərdə respublikada gənclərin müxtəlif təşkilatları yaranmağa» başladı. Lakin o zaman hökm sürən hərcmərclik şəraitində həmin gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlifyönlü siyasi partiya və qrupların təsiri altına düşmüşdü. Lakin Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunmasını tələb edirdi [43] («Azərbaycan» qəzeti, 1999, 30 iyun).

1993-cü ildə bütün Azərbaycan xalqını, o cümlədən gəncliyi öz arxasınca apara biləcək, ümummilli mənafe və amallar ətrafında birləşdirəcək bir siyasi rəhbərin – Heydər Əliyevin hakimiyyət başına gəlməsi ilə gənclərdə gələcəyə möhkəm ümid və inam yarandı, onların ictimai-siyasi fəallığının artmasına güclü təkan verdi.

Heydər Əliyev ilk günlərdən hər bir gənci Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək üçün çalışmağa və öz xidmətlərini göstərməyə çağıraraq, demokratik dövlət quruculuğunda, ölkənin müstəqilliyinin qorunub saxlanılmasında daim onlara arxalandığını və güvəndiyini bəyan etdi [66].

Heydər Əliyevin ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, qanunçuluğun bərpası, demokratik, hüquqi dövlət quruculuğu

istiqamətində atdığı addımlar gənclər tərəfindən dəstəklənir və müdafiə edilirdi. 1993–1995-ci illərdə respublikada baş vermiş ictimai-siyasi hadisələrdə Azərbaycan gəncliyi dövlətçiliyi və onun qarantı olan prezidenti müdafiə edən mövqeyini açıq şəkildə ifadə etdi. 1994-cü il oktyabr və 1995-ci il mart hadisələri zamanı əksər gənclər təşkilatları qeyri-qanuni hərəkətlərə qarşı etiraz səslərini ucaldaraq prezidentin apardığı siyasəti dəstəklədiklərini bildirmişdilər.

Gənclər müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiya layihəsinin müzakirəsində böyük fəallıq göstərmiş, çoxlu təkliflər vermiş, referendum zamanı «Heydər Əliyev Konstitusiyasını» müdafiə etmişdilər. Konstitusiya layihəsinin müzakirəsi zamanı AR GİN-ə müxtəlif gənclər təşkilatlarından 150-dən çox təklif daxil olmuş, onlar ümumiləşdirilərək 123 bənddən ibarət sənəd şəklində Konstitusiya Komissiyasına təqdim edilmişdi. Səmərəli olduğundan bu təkliflərdən 87-si Konstitusiyada öz əksini tapmışdır [145, 1996, 6 fevral].

Lakin təəssüf ki, o zaman Azərbaycanda mövcud olmuş özbaşınalıq və anarxiyadan istifadə edən bəzi cinayətkar qruplar ayrı-ayrı gəncləri öz siyasi oyunlarına qoşmağa nail olmuşdular. Nəticədə 1994–1995-ci illərdə qeyri-qanuni dəstələrin içərisində gənclər də vardı. Gənclərin müəyyən hissəsi başqa cinayət hadisələrində də iştirak etmiş, bilərəkdən və ya bilməyərəkdən özlərini bədbəxt etmişdilər. Lakin qanunçuluğun bərpası, cinayətkarlıqla qətiyyətli mübarizə nəticəsində bütün cinayətkar qruplar öz cəzalarına çatmış, ölkədə ictimai-siyasi, kriminogen vəziyyət sabitləşmişdi. Heydər Əliyev bu dəfə də çox böyük humanistlik göstərərək həmin qanunsuz dəstələrdə iştirak etmiş gəncləri bağışlamaqla, onlara vətən, millət qarşısında öz günahlarını yumaq, azad cəmiyyətə qovuşmaq imkanı yaratmışdır.

1993-cü ildən sonra ölkədə yaranmış sabitlik, demokratikləşmə prosesinin sürətlənməsi fəal gəncləri təşkilatlanmağa, öz müstəqil təşkilatlarını yaratmağa sövq etdi. Vaxtilə cəmi bir gənclər təşkilatının – komsomolun mövcud olduğu Azərbaycanda hər il

onlarla yeni, müxtəlif istiqamətli, müxtəlif məramlı, müxtəlif fəaliyyət formalarına malik olan təşkilatlar yaranmağa başladı. 1991-ci ildə Azərbaycanda 80-ə yaxın gənclər təşkilatı yaranmışdı. Lakin həmin təşkilatların əksəriyyəti 1996-cı ilin əvvəlində öz işlərini müasir tələblər səviyyəsində qura bilməməkləri, maddi-texniki bazalarının zəifliyi və s. ucbatından öz fəaliyyətini dayandırmış, yalnız 55-i real fəaliyyət göstərirdi. Təşkilatların əksəriyyəti əsasən tələbələri və qismən də müharibə veteranlarını əhatə edirdi [145, 1996, 6 fevral].

90-cı illərin ortalarınadək yaranan təşkilatlar əsasən pərakəndə şəkildə, bir-biri ilə əlaqəsiz, bəzən bir-birinin mövcudluğu haqqında xəbərləri olmadan fəaliyyət göstərirdilər. Belə şəraitdə bütün təşkilatların fəaliyyətini dövlət səviyyəsində əlaqələndirə bilən, onların formalaşması və inkişafı üçün şərait yaradan bir qurumun təsis olunması zərurəti özünü göstərirdi. Məhz bu zərurət 1994-cü ilin iyul ayında Gənclər və İdman Nazirliyinin yaradılmasına gətirib çıxardı. Yeni yaranan nazirliyin qarşısında, ilk növbədə, respublikada fəaliyyət göstərən bütün gənclər təşkilatları ilə sıx əlaqə qurmaq, onların fəaliyyətini müstəqil dövlət quruculuğu prosesinə yönəltmək, bacarıqlı gəncləri üzə çıxarmaq, gənclərin qeyri-hökumət təşkilatlarını dövlət gənclər siyasətinin mühüm subyektlərindən birinə çevirmək kimi vəzifələr qoyuldu. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli «Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi haqqında» Fərmanında göstərilmiş [17] və Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 3 sentyabr tarixli, 200 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi haqqında» Əsasnamədə [18] öz əksini tapmış Nazirliyin əsas vəzifələrindən biri də gənclərin qüvvə və bacarıqlarını, yaradıcılıq potensialını milli dövlət quruculuğuna, suverenliyin möhkəmləndirilməsinə, Azərbaycanın iqtisadi və sosial inkişafı məsələlərinin həllinə, ölkədə həyata keçirilən islahatlar və proqramların gerçəkləşdirilməsinə səfərbər etməkdən ibarət idi. Həmin sənədlərdə Nazirliyin qarşısında həmin gənclər təşkilatlarının formalaşdırılmasında

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq iştirak edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi vəzifəsi də qoyulmuşdu.

Məhz Nazirliyin yaxından iştirakı və köməyi ilə 1995-ci ildə gənclər təşkilatlarının konfederativ qurumu olan Gənclər Təşkilatlarının Milli Şurası (GTMŞ) yaradıldı. İlk vaxtlar 12 təşkilatı birləşdirən GTMŞ-nin yaradılması gənclər arasında əməkdaşlığın və əlaqələrin möhkəmləndirilməsində mühüm və vacib bir addım oldu.

Azərbaycanda gənclər hərəkatının keyfiyyətcə yeni mərhələyə qalxmasında, gənclərin təşkilatlanmasında və dövlət quruculuğu sahəsində rolunun artmasında Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun mühüm əhəmiyyəti oldu. Forum Azərbaycanın tarixində ən müxtəlif spektrli gənclər təşkilatlarını, müxtəlif sahələrdə çalışan, təhsil alan gəncləri bir araya gətirərək, gəncliyin ümdə problemlərini açıq və hərtərəfli müzakirə edərək həlli yollarını müəyyənləşdirən bir hadisəyə çevrildi. Forumda müxtəlif gənclər təşkilatlarının nümayəndələri çıxış edərək cəmiyyətin intellektual potensialının hərəkətə gətirilməsi üçün gənclərin gücündən istifadə edilməsinin zəruriliyini vurğuladılar. Bu Forum göstərdi ki, gənclər təkcə öz spesifik problemlərini deyil, bütün cəmiyyəti düşündürən məsələlərin həllini vacib hesab edir, dövlət quruculuğunda, demokratik islahatların uğurla həyata keçirilməsində öz töhfələrini verməyə hazırdırlar.

Fəaliyyət göstərən gənclər təşkilatları arasında gənclərin siyasi, ictimai fəallığının artırılması, onların dövlət quruculuğuna geniş cəlb olunması, sosial-iqtisadi, mənəvi problemlərin həlli istiqamətində ciddi uğurlara nail olmuş və nüfuz qazanmış təşkilatlar da var idi. Belə təşkilatlardan Gənc İqtisadçılar Birliyi, Azərbaycandan Kənarda Təhsil Alan Mütəxəssislər Təşkilatı, Gənc Mütəxəssislərin Hüquqlarını Müdafiə Təşkilatı, Tarixçi Tələbələrin Elmi Cəmiyyəti, Maarifçi Gənclər Təşkilatı, Təbib Tələbələr Assosiasiyası, Gənclər İttifaqı, Vətən Müharibəsi Veteranları

Birliyi, Demokratik Tələbə Gənclər Təşkilatı, Bakı Gənclər Klubu və s. təşkilatlar Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynamağa başlamış, onların təqdim etdikləri layihə və proqramlar, irəli sürdükləri təşəbbüslər dövlət orqanlarını və ictimaiyyətin dəstəyini qazanmışdı.

Belə ki Gənc İqtisadçılar Birliyi (GİB) ölkədə vüsət alan iqtisadi quruculuq prosesinə kömək göstərmək məqsədilə bir sıra konkret təkliflər hazırlamış, makroiqtisadi təhlil və tədqiqatlar aparmış, gənclər arasında iqtisadi maarifçilik və təbliğat işi ilə məşğul olmuşdu. GİB tərəfindən bir sıra qanun layihələri («Azad iqtisadi zonalar haqqında», «Veksel dövriyyəsi», «Xarici iqtisadi fəaliyyətin əsasları» haqqında və s.), iqtisadi inkişafın ən mühüm istiqamətləri üzrə proqram və konsepsiyalar hazırlanmış, gənc sahibkarlara və iş adamlarına yardım göstərmək, onlara təşkilati-hüquqi məsələlərin həllində kömək məqsədilə İqtisadi Təhlil və Konsorsium Mərkəzi yaradılmışdır [9, 1996, 7 fevral].

Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı nəticəsində respublikadan kənarda, keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində təhsil almış 1200-ə yaxın mütəxəssisi öz sıralarında birləşdirən bir təşkilat olaraq, bu mütəxəssislərin elmi, texniki, mədəni, iqtisadi, siyasi potensiallarından ölkənin inkişafı üçün istifadə etmək, dövlət qurumlarına kömək göstərmək məqsədilə yaradılmışdı. Bu mövcud kadr potensialından səmərəli istifadə etmək məqsədilə təşkilatda milli kadrlar barədə məlumat-informasiya sistemi yaradılmış, onların təhlili aparılmışdı [9, 1996, 7 fevral].

Gənc mütəxəssislərin problemlərinin həlli ilə məşğul olan digər gənclər təşkilatı – Gənc Mütəxəssislərin Hüquqlarını Müdafiə Cəmiyyəti (GMHMC) də öz fəaliyyəti ilə ictimai rəydə böyük rezonans yaratmışdı. Təşkilat 70–80-ci illərdə Azərbaycandan kənarda təhsil almış kadrların problemlərinin həlli üçün müxtəlif yollar aramağı, onların öz ixtisaslarından uzaqlaşmağının qarşısını almağı, potensialından Azərbaycanın tərəqqisi üçün istifadə etməyi öz qarşısına məqsəd qoymuşdu. GMHMC yarandıqdan

sonra bir sıra sosial təşəbbüslər irəli sürmüş, o cümlədən Azərbaycan diasporunun yaradılmasında gənclərin rolunu yüksəltmək barədə fəaliyyət proqramı hazırlamış, gənc mütəxəssislərin mənzil probleminin həlli ilə bağlı bir neçə iş planı ilə hakimiyyət strukturlarına, həmçinin prezidentə müraciət etmişdilər. Cəmiyyətin ən nəcib təşəbbüslərindən biri də Azərbaycan gənclərinə müraciət edərək ölkədə yaşıllığın qorunması məqsədilə Bakı şəhərində ağacların əkilməsi və onlara qulluq edilməsi oldu [9, 1996, 7 fevral].

Qarabağ müharibəsində iştirak etmiş və əlil olmuş gənclərin problemlərinin həllində Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi də çox fəal iştirak edir, dövlət strukturları qarşısında bir sıra ciddi məsələlər qaldırırdı.

1992-ci ildən fəaliyyət göstərən Azərbaycan Təbib Tələbələr Assosiasiyası (ATTA) ATU-nun tələbələri və gənc alimləri tərəfindən təsis edilmiş, əsas məqsədi isə elmi-tədqiqat işləri ilə məşğul olan tələbələrə kömək göstərmək, tibbi təhsilin, tibb elminin inkişafına yardım etmək, təbabətin populyarlaşdırılması, səhiyyənin problemlərinin həlli istiqamətində fəaliyyət göstərməkdən ibarət idi. ATTA 1992-ci ildən hər il «İlin ən yaxşı tədqiqatçı tələbəsi» adı almaq uğrunda müsabiqə keçirirdi. Tələbələrin qarşılaşdığı ən böyük problemlərdən biri olan yeni ədəbiyyatın və elmi informasiyanın əldə edilərək tələbələr arasında yayılması üçün bir sıra proqramların da təşəbbüskarı idi. Tibbi bilikləri populyarlaşdırmaq məqsədilə ATTA nəzdində SPİD Gənclər Komitəsi fəaliyyət göstərirdi. Hər il dekabrın 1-də – Ümumdünya AİDS-lə mübarizə günündə elmi-konfranslar keçirilir, məktəblərdə seminarlar təşkil edilirdi. 1995-ci ildə təşkilatın hazırladığı 500 ədəd maarif vərəqəsi GİN köməyi ilə çap edilmiş və respublika əhalisi arasında yayılmışdı [23, 2000, №4, 37–38].

BDU-nun tələbə və aspirantları tərəfindən 1992-ci ildə təsis edilmiş, Tarixçi Tələbələrin Elmi Cəmiyyətinin əsas məqsədi isə tarix elmi və digər humanitar elmlərlə məşğul olan tələbələrin, gənc mütəxəssislərin, yuxarı sinif şagirdlərinin elmi fəaliyyətini

istiqamətləndirmək, gənclər arasında Azərbaycan tarixini təbliğ etməkdən ibarət idi. Cəmiyyət müntəzəm olaraq Azərbaycan tarixinin əlamətdar hadisələrinin ildönümü ilə bağlı elmi-praktik konfranslar keçirir, diskussiyalar təşkil edirdi [23, 2000, №4, 38–42].

Üzvlərinin əksəriyyəti ixtisasca politoloq və sosioloq olan Maarifçi Gənclər Təşkilatı (MGT) 1994-cü ildə yaradılmış, əsas məqsədi isə gənclər arasında maarifçilik ideyalarını yaymaq, demokratik cəmiyyətin formalaşmasında və hüquqi dövlətin qurulmasında gənclərin fəal iştirakına kömək etməkdən ibarət idi. Bu məqsədlərə nail olmaq üçün MGT tanınmış dövlət xadimlərinin həyat və fəaliyyətini araşdırıb təbliğ etmək, dövlət quruculuğu ilə bağlı müvafiq orqanlara hazır layihələr təqdim etmək, dövlət orqanlarının diqqətini gənclərin problemlərinə cəlb edərək tədbirlər keçirmək istiqamətində işlər görürdü. MGT bu məqsədlə «Gənclərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi» mövzusunda seminar təşkil etmiş, bir sıra qanun layihələri – «Gənclər təşkilatları haqqında» qanun layihəsi, «Azərbaycan Gənclərinin Ümumrespublika Qurultayının Əsasnaməsi», «Azərbaycan Gənclərinin Mədəniyyət Mərkəzinin əsasnaməsi», «Azərbaycan Respublikası Milli Məclisinin sosial siyasət komissiyasının gənclərlə iş üzrə daimi işçi qrupunun Əsasnaməsi və iş proqramı», Azərbaycan Respublikasının Milli Siyasət Konsepsiyasının layihəsi və s. hazırlamış, Azərbaycan Konstitusiya layihəsinin, «Dövlət Gənclər Siyasəti haqqında», «Uşaq və gənclər birliklərinə dövlət yardımı haqqında», «Bələdiyyələr haqqında» qanun layihələrinin müzakirəsində xüsusi fəallıq göstərərək, bir sıra sanballı təkliflər irəli sürmüşdülər [23, 2000, №4, 42–44].

Adı çəkilən gənclər təşkilatlarının fəaliyyəti gənclərin bilik və bacarıqlarının üzə çıxarılmasında, onların maraq və ehtiyaclarına daha yaxın cavab verən layihə və proqramların hazırlanıb həyata keçirilməsində gənclər təşkilatlarının özünəməxsus yeri və rolu olduğunu əyani sübut edirdi. Lakin əksər təşkilatların maddi-texniki bazalarının zəifliyi, maliyyə vəsaitlərinin çatışmaması onlara öz potensiallarını yetərincə reallaşdıra bilməyə, həyata

keçirdikləri tədbirlərə gənclərin daha geniş kütlələrini cəlb etməyə imkan vermirdi. Gənclər təşkilatlarının fəaliyyəti bir neçə dəfə ARGİN kollegiyasında müzakirə edilmiş, onların fəaliyyətinin genişləndirilməsi və səmərəliliyinin artırılması üçün bir neçə qərar qəbul olunmuşdu.

1996-cı il 22 noyabr tarixində keçirilmiş kollegiyada GİN-nin Gənclərlə iş üzrə baş idarəsinin gənclər təşkilatları ilə iş şöbəsinin başqa gənclər təşkilatları ilə bağlı hazırladığı arayış müzakirə edilərək bir neçə tövsiyə və təklifdən ibarət qərar qəbul edilmişdi [23, 2000, №4, 27–31].

Bütövlükdə 1997-ci ilin ortalarınadək 90-dan çox uşaq və gənclər birliyi yarandığı elan edilsə də, onlardan təxminən 30-u müəyyən səbəblərdən, ilk növbədə, maddi-texniki bazanın zəifliyi və maliyyə vəsaitinin olmaması nəticəsində öz fəaliyyətini dayandırmışdı. Fəaliyyətləri bu və digər dərəcədə nəzərə çarpan 61 uşaq və gənclər birliyini şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olardı [23, 2000, №4, 49].

– Siyasi partiyaların və ictimai birliklərin gənclərlə iş aparan bölmələri (gənclər birlikləri, təşkilatları, şöbələri, komitələri, komissiyaları, katiblikləri və s.) respublikada mövcud olan 40-dan çox siyasi partiyadan və qeydiyyatdan keçmiş 600-dən çox ictimai birlikdən 13-nün (o cümlədən 10 siyasi partiyanın və 3 ictimai birliyin) nəzdində gənclərlə iş aparan bölmələr yaradılmışdı [23, 2000, №4, 49].

– İctimai birlik kimi yaradılsa da, əsasən, siyasi məqsədlər güdən, bu və ya digər partiya ilə sıx əlaqədə olan ictimai-siyasi təşkilatlar. Belə birliklərin sayı 9 idi. Onlardan yalnız biri – Azərbaycan gənclərinin sosial-demokrat təşkilatı 1992-ci il martın 3-də dövlət qeydiyyatına alınmışdır. Həmin ilin noyabrında qəbul edilmiş «İctimai birliklər haqqında» Qanun ictimai birliklərin siyasi fəaliyyətlə məşğul olmasına yol vermədiyindən, bu qrupa daxil olan digər təşkilatlar qeydə alınmamışdı.

– «İctimai birliklər haqqında» Qanuna uyğun fəaliyyət göstərən, əsasən, uşaq və gənclərin sosial problemlərinin həlli, hüquqlarının

müdafiəsi və beynəlxalq əməkdaşlıq sahəsində iş aparan birliklər. Həmin dövrdə Azərbaycanda 39 belə birlik fəaliyyətdə idi. Onlardan 31-nin nizamnaməsi Ədliyyə Nazirliyində qeydə alınmışdır.

Təhlillər və müşahidələr göstərirdi ki, təşkilatlanmaya daha çox meyil göstərənlər tələbələr, müharibə iştirakçıları, əlillər, qismən də gənc mütəxəssislər və sahibkarlar idi. Gənclərin digər kateqoriyaları – istehsalatda, ticarət və xidmət sistemində çalışanlar, kəndli gənclər, işsizlər yaradılmış qurumlardan kənarda qalmışdılar. Əksər təşkilatların fəaliyyəti Bakıdan, çox hallarda isə bir neçə və ya hətta bir ali məktəbin çərçivəsindən kənara çıxmırdı. Təşkilatlarda respublika gəncliyinin çox az hissəsi – təxminən 5–6 faizi təmsil olunmuşdu. Uşaq və gənclər birliklərinin sosial bazasının məhdudluğunu aşağıdakı amillərlə izah etmək olar:

– Maddi vəziyyətləri kəskin şəkildə pisləşmiş gənclərin əksəriyyəti öz gündəlik problemlərini həll etməyə məcbur olduğundan, onlarda ictimai işlərə nə vaxt, nə enerji, nə də həvəs qalmırdı;

– Gənclər təşkilatlarının böyük əksəriyyətinin maddi-texniki bazalarının, maliyyə imkanlarının son dərəcə zəif olması və ya heç olmaması onların maraqlı tədbirlər təşkil etməsini, gəncləri cəlb edə biləcək proqramlar hazırlayıb həyata keçirməsini müşkül işə çevirmişdir.

Birinci və ikinci qruplara daxil olan, siyasi partiyalara qoşulub onların imkanlarından istifadə edən gənclər təşkilatlarından fərqli olaraq, üçüncü qrupa daxil olan 39 ictimai birlikdən 19-nun nə qərargahı, nə ən zəruri texniki avadanlığı, nə də maliyyə vəsaiti yox idi. Qərargahla təmin olunmuş 20 ictimai birlikdən 5-i müvəqqəti olaraq digər gənclər təşkilatlarının otaqlarından istifadə edirdi. Hətta 1995-ci il noyabrın 21-də təsis edilmiş, tərkibində 37 uşaq və gənclər birliyini birləşdirən Gənclər Təşkilatları Milli Şurasının da öz qərargahı, telefonu, yazı makinası, tədbirlər keçirmək və aparatın muzdlu işçilərinə əməkhaqqı vermək üçün maliyyə vəsaiti yox idi [23, 2000, №4, 51].

Məhz bu səbəblərə görə Azərbaycanda geniş sosial bazaya, şaxələnmiş strukturlara malik olan, «gənclər təşkilatı» adını doğruldan birliklərin sayı çox az idi.

Qabiliyyətli gənclərin üzə çıxarılmasında, gənc liderlərin müəyyən idarəçilik vərdişləri qazanmasında, dövlət gənclər siyasətinin qeyri-dövlət təşkilatlarının xətti ilə həyata keçirilməsində uşaq və gənclər birliklərinin müstəsna rolunu nəzərə alan Gənclər və İdman Nazirliyi həmin birliklərə dövlət yardımını tənzimləyən normativ-hüquqi aktların hazırlanması sahəsində xeyli iş görmüşdü. 1996-cı ilin iyununda «Uşaq və gənclər birliklərinə dövlət yardımı haqqında» Qanun layihəsi hazırlanaraq Milli Məclisə göndərilmişdir. Layihədə uşaq və gənclər birliklərinə subsidiyaların ayrılması, onların proqram və layihələrinin qismən maliyyələşdirilməsi, dövlətin mülkiyyətində olan binaların, avadanlıqların, torpaqların icarəsi zamanı güzəştlər edilməsi və s. nəzərdə tutulmuşdur.

Xarici ölkələrin təcrübəsi göstərir ki, qanun qüvvəyə minməmişdən əvvəl də gənclərlə iş aparan dövlət orqanı müvafiq əsasnamələr qəbul edib, uşaq və gənclər birliklərinə müəyyən maliyyə köməyi edə bilər. Məsələn, Rusiya Federasiyasında müvafiq Qanun 1995-ci ilin mayında qəbul edilsə də, Gənclərlə İş Üzrə Dövlət Komitəsi hələ 1993-cü ildən başlayaraq gənclər təşkilatlarının proqram və layihələrinin maliyyələşdirilməsi üçün hər il xeyli vəsait ayırmışdır (1993-cü ildə 200 milyon, 1994-cü ildə 562 milyon rubl). Bu təcrübədən Ukrayna, Moldova, Belarus və başqa respublikalarda da geniş istifadə edilirdi. Ukraynada 1995–96-cı illərdə uşaq və gənclər birliklərinin proqram və layihələrinin maliyyələşdirilməsinə 420 min ABŞ dollarından çox vəsait ayrılmışdır. Belarusda Gənclərlə İş üzrə Dövlət Komitəsinin 1996-cı il üçün büdcəsi 224 min ABŞ dolları olmuş, həmin vəsaitin 124 mini uşaq və gənclər birliklərinə ayrılmışdı. Moldovada 1996-cı ildə gənclər siyasəti tədbirlərinə ayrılmış 100 min ABŞ dolları məbləğində vəsaitin beşdə dördü təşkilatlara verilmişdi [23, 2000, №4, 51].

«Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında» Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli 179 saylı Fərmanında və Nazirliyin Əsasnaməsində gənclər

təşkilatlarının formalaşmasına və inkişafına kömək göstərilməsi Nazirlik qarşısında əsas vəzifələrdən biri kimi qoyulmuşdur. Həmin sənədləri əsas götürərək və yuxarıda deyilənləri nəzərə alaraq, Gənclərlə İş üzrə Baş İdarənin Gənclər Təşkilatları ilə İş Şöbəsi uşaq və gənclər birliklərinə dövlət yardımını tənzimləyən 3 əsasnamə layihəsi hazırlamışdı:

– «Uşaq və gənclər birliklərinin təşkilati fəaliyyətinin qismən maliyyələşdirilməsi haqqında»;

– «Uşaq və gənclər birliklərinin proqramlarının (layihələrinin) qismən maliyyələşdirilməsi haqqında»;

– «Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Ekspert-Məsləhət Şurası haqqında».

Hər üç məsələ GİN-nin 21 oktyabr 1997-ci il tarixli kollegiyasında müzakirə edilmiş və qəbul olunmuşdu.

«Uşaq və gənclər birliklərinin təşkilati fəaliyyətinin qismən maliyyələşdirilməsi haqqında» Əsasnamə bu birliklərin təşkilinin və fəaliyyətinin qismən maliyyələşdirilməsi qaydalarını və bu maliyyənin həcmini müəyyən edirdi.

Əsasnamədə göstərildiyi kimi yaşı 18-dən 30-dək olan gənc vətəndaşların könüllülük, özünüidarəetmə prinsipləri və mənafe ümumiliyi əsasında yaratdıqları, kommersiya məqsədi güdməyən ictimai birlikləri gənclər birlikləri adlanır. Eyni zamanda gənclərin sosial, fiziki, intellektual və mənəvi inkişafını təmin etmək məqsədi güdən, üzvlərinin ən azı 2/3 hissəsi 18–35 yaş həddində olan ictimai birliklər də gənclər birlikləri sayılırdı. Onların fəaliyyətinin maliyyələşdirilməsi (subsidiyalaşdırılması) dövlətin gənclər birliklərinə yardımının bir forması hesab edilirdi. Subsidiyanın əsas məqsədi uşaq və gənclərin sosial, fiziki, intellektual və mənəvi inkişafı sahəsində iş aparan ictimai birliklərin fəaliyyəti üçün şərait, təminat və stimul yaratmaqdan ibarət idi.

Əsasnamədə göstərildiyi kimi uşaq və gənclər birliklərinə subsidiyaların ayrılmasından dövlət orqanları və vəzifəli şəxslər həmin birliklərin daxili işlərinə müdaxilə məqsədilə istifadə edə bilməz. Əsasnamədə subsidiyaların alınması şərtləri, verilmə qaydaları,

məsuliyyət tədbirləri və nəzarət kimi  məsələlər də öz əksini tapmışdır.

Uşaq və gənclər birliklərinə dövlət yardımı formalarından biri də həmin  birliklərin proqramlarının qismən maliyyələşdirilməsi (dotasiya) hesab olunur. Dotasiyanın verilməsi qaydaları «Uşaq və gənclər birliklərinin proqramlarının, layihələrin maliyyələşdirilməsi haqqında» Əsasnamə ilə müəyyənləşdirilirdi.

Təqdim olunan proqram və layihələrin müsabiqə əsasında seçilməsi və müvafiq rəy və tövsiyələrin hazırlanması üçün ARGİN nəzdində Nazirliyin əməkdaşlarından, gənclər təşkilatlarının nümayəndələrindən və mütəxəssislərdən komplektləşdirilən kollegial orqan – Ekspert Məsləhət Şurası təşkil edilmiş, Şuranın Əsasnaməsi qəbul  edilmişdi [23, 2000, №4, 64–65].

Respublikada fəaliyyət göstərən gənclər birliklərini dövlət gənclər siyasətinin həyata keçirilməsinə, gənclərlə bağlı qanunvericilik aktlarının hazırlanmasına və təkmilləşdirilməsinə yaxından cəlb etmək məqsədilə 1995-ci ildə, həmçinin GİN Kollegiyasının nəzdində Gənclərlə İş üzrə İctimai Şura yaradılmışdır. Şuranın müntəzəm keçirilən yığıncaqlarından mövcud problemlər, respublikada və dünyada baş verən mühüm ictimai, siyasi hadisələr ətrafında müzakirələr aparılır, gənclər təşkilatları ilə Nazirliyin birgə əməkdaşlıq formaları araşdırılırdı. Şuranın qərarları Nazirliyin kollegiyası üçün tövsiyə xarakteri daşısa da, Nazirlik tərəfindən həyata keçirilən tədbirlər zamanı onların bir çoxu nəzərə alınırdı [97, 12].

Gənclər təşkilatlarının ictimai-siyasi həyatın mühüm subyektləri kimi  tanınması və cəmiyyətdə nüfuzunun artması GİN fəaliyyətinin mühüm hissəsini təşkil edirdi. Gənclər təşkilatları ilə əlaqələr Nazirliyin Gənclərlə İş üzrə Baş İdarəsi və onun Gənclər Təşkilatları ilə İş Şöbəsi vasitəsilə həyata keçirilirdi. Müxtəlif gənclər təşkilatlarının «Gənc lider», «Sağlamlıq» layihələri, «Gənclərin maarifləndirilməsi», «Uşaq-gənclərlə bağlı qanunvericiliyin formalaşdırılması: mövcud vəziyyət, xarici təcrübə və inkişaf perspektivləri» proqramları müzakirə edilmiş və müvafiq rəylər hazırlanmışdı [100, 1999, 4 mart].

Ölkənin nüfuzlu gənclər təşkilatlarını özündə birləşdirən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası gənclər təşkilatları arasında müəyyən problemlər və fikir ayrılıqlarına baxmayaraq, gənclərin əməkdaşlıq mərkəzi kimi özünü qoruyub saxlamış və fəaliyyətinin növbəti mərhələsinə qədəm qoymuşdu. 1999-cu ildə Milli Şura artıq 42 gənclər təşkilatını konfederativ əsaslarla özündə birləşdirirdi. Bu isə respublikada fəaliyyət göstərən gənclər təşkilatlarının əksəriyyəti demək idi. Milli Şuranı digər konfederativ qurumlardan fərqləndirən başlıca fərq, onun ən müxtəlif siyasi mənsubiyyəti və marağı olan təşkilatları vahid gənclik ideyası ətrafında birləşdirə bilməsi idi. Yaranandan bəri Milli Şura sosial, mədəni, humanitar, beynəlxalq və dövlət quruculuğu sahəsində bir sıra real addımlar atmış, milli və mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişafına yönəldilmiş mühüm tədbirlər həyata keçirmişdi. «Milli ideologiya konsepsiyasının formalaşdırılması» mövzusunda silsilə tədbirlər, tarixi keçmişimizin, dövlət rəmzlərinin öyrənilməsi və təbliği, Azərbaycan Cümhuriyyətinin yubileyləri, millətimizə qarşı soyqırımların tarixi ilə bağlı mərasimlər, «Türk-erməni münasibətləri və tarixi həqiqətlər» mövzusunda elmi-praktik konfrans, «İstiqlal tarixinin öyrənilməsi» mövzusunda intellektual oyunlar viktorinası və s. bu kimi tədbirlər buna əyani sübut idi.

Milli Şura ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edirdi. 1998-ci ilin oktyabrında keçirilmiş prezident seçkilərində Milli Şuraya daxil olan 33 gənclər təşkilatı Heydər Əliyevin prezidentliyə namizədliyini irəli sürdü və seçkilərdə iştirak etdi. Seçkilərin daha demokratik keçirilməsi və vahid namizədin seçki kompaniyasının təşkil edilməsi məqsədilə birgə fəaliyyət sazişi imzalandı. Sazişə qoşulan təşkilatların yaratdıqları seçkilərin təşəbbüs qrupu prezidentliyə namizəd Heydər Əliyevin lehinə gənclər arasında 60 mindən çox imza toplamışdı [100, 1999, 4 mart].

Milli Şuranın əsas fəaliyyət sahələrindən biri də gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi idi. Şuraya daxil olan təşkilatlar tez-tez hərbi hissələrdə, tədris müəssisələrində olur, «Şahin»

hərbi-idman oyunlarının təşkilində yaxından iştirak edirdilər. Orta məktəblərdə hərbi-hazırlıq dərslərinin artırılması və keyfiyyətinin yaxşılaşdırılması üçün Şura bir neçə tikliflə çıxış etmişdi.

Milli Şuranın təriqətçi missionerlərə, gənclər arasında zərərli vərdişlərin, o cümlədən narkomaniyanın yayılmasına qarşı mübarizəsi də təqdirəlayiq amillərdən biri hesab edilməlidir.

Yeniyetmə və gənclər arasında narkomaniya əleyhinə təbliğatı gücləndirmək, maarifləndirmə işini təşkil etmək, narkomaniyanın gətirdiyi bəlaları izah etmək və bu problemi daim cəmiyyətin və dövlətin diqqət mərkəzində saxlamaq məqsədilə 1998-ci ilin martında GTMŞ nəzdində narkomaniya ilə mübarizə komissiyası yaradılmış, DİN və prokurorluq orqanları ilə birgə əməkdaşlıq haqqında razılıq əldə olunmuşdu.

Azərbaycan gənclərinin II Forumu (1999-cu ilin martı), Forumda ölkə rəhbəri Heydər Əliyevin məzmunlu çıxışı, «Dövlət Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1999-cu il tarixli Fərmanı və həmin Fərmanla təsdiq olunmuş «Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı» və ən nəhayət, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının qanunu gənclərin ölkənin ictimai-siyasi həyatında və dövlət quruculuğunda iştirakı üçün daha münbit şərait yaradılmasını sürətləndirdi.

GİN tərəfindən gənclər təşkilatlarının cəmiyyətdə rolunun artırılması və fəaliyyətinin stimullaşdırılması məqsədilə, həmçinin gənclərin problemlərinin həlli istiqamətində, onların təqdim etdiyi proqram və layihələrin maliyyələşdirilməsi baxımından da müvafiq işlər görülürdü.

Gənclərin ictimai fəallığının təmin edilməsinin dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olduğunu nəzərə alaraq Gənclərin III Forumu çərçivəsində keçirilən həftəliklərdən biri məhz bu məsələyə həsr olunmuşdu. «Respublikanın ictimai-siyasi və iqtisadi həyatında gənclərin iştirakı» həftəliyi çərçivəsində GTMŞ ilə birgə «Azərbaycanın iqtisadi inkişafı gənclərin gözü ilə» mövzusunda elmi-nəzəri konfrans, «Azərbaycanlıların

deportasiyası: tarix və həqiqətlər» mövzusunda dəyirmi masa keçirilmişdir [97, 11].

Gənclər, İdman və Turizm Nazirliyi ölkədə fəaliyyət göstərən bütün uşaq və gənclər təşkilatları ilə sıx əlaqələr yaratmış, onların fəaliyyətini məqsədyönlü istiqamətə yönəldərək əhəmiyyətli proqram və layihələrin maliyyələşdirilməsi sahəsində xeyli iş görmüşdür. 2003-cü ilin sonlarında Azərbaycanda uşaq və gənclərlə işləyən və onları öz ətrafında birləşdirən qeyri-hökumət təşkilatlarının (QHT) sayı 120-dən artıq idi. Bu təşkilatların 2/3-si konfederativ qurum olan Gənclər Təşkilatlarının Milli Şurasında birləşirdi [130, 63].

2002-ci ildə qəbul edilmiş «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununda gənclər siyasətinin əsas prinsiplərindən biri kimi cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təminatı, onların yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması qeyd edilirdi. Gənclərin problemlərinin həlli, hüquqlarının müdafiəsi, mənəvi tələbatlarının ödənilməsi məqsədilə qanunvericilikdə müəyyən olunmuş qaydada yaradılan ictimai birliklər və fondlar gənclər təşkilatları hesab olunurdu. Qanunun 10-cu maddəsi gənclər təşkilatlarına dövlət yardımını özündə ehtiva edirdi. Qanunun bu maddəsi dövlətin gənclər təşkilatlarının formalaşmasına və inkişafına şərait yaradılmasını, gənclər təşkilatları tərəfindən gənclər siyasətinin əsas istiqamətlərinə uyğun hazırlanmış proqramların (layihələr) müsabiqə əsasında seçilərək dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsini, bunun üçün tələb olunan vəsaitin müvafiq icra hakimiyyəti orqanlarının xərcləri sırasına daxil edilməsini nəzərdə tuturdu [101, m. 10].

«Uşaq və gənclər birliklərinin proqramlarının (layihələrinin) qismən maliyyələşdirilməsi haqqında» GİTN Kollegiyasının qərarına və «Gənclər siyasəti haqqında» AR qanununa müvafiq olaraq, 2000–2003-cü illərdə gənclər təşkilatları tərəfindən təqdim olunmuş 85 layihənin qismən maliyyələşdirilməsinə dövlət

büdcəsindən 653 milyon manatdan çox (köhnə qiymətlərlə) vəsait ayrılmışdı [97, 12].

Bütün bunların nəticəsi olaraq 1999-cu ildən sonra Azərbaycanda onlarla gənclər təşkilatı yaranmış və dövlət qeydiyyatından keçirilmişdir. «Ümidli Gələcək» Gənclər Təşkilatı, Yeni Yazarlar və Sənətçilər Qurumu, «Dünya» Gənc Türk Yazarlar Birliyi, Gənc Vətənpərvərlər Birliyi, «Gələcək naminə» Gənclər Təşkilatı, Azərbaycan–Türkiyə Gənclərinin Dostluq Cəmiyyəti, Azərbaycan–Böyük Britaniya Gənclər Cəmiyyəti, Azərbaycan–Amerika Gənclər Birliyi, «Nur» Uşaq və Gənclər İctimai Birliyi, Azərbaycan Gənc Sahibkarlar Assosiasiyası, Azərbaycan Könüllülər Birliyi və s. qeyri-hökumət gənclər birliklərinin fəaliyyəti ölkədə III Sektorun inkişafının bariz nümunəsi idi.

Gənclərin ictimai-siyasi fəallığının mühüm təzahürlərindən biri onların dövlət quruculuğu prosesinə, dövlət idarəetmə orqanlarına geniş cəlb edilməsi hesab olunmalıdır.

Azərbaycan Gənclərinin II Forumundakı çıxışında Heydər Əliyev bu məsələyə xüsusi diqqət yönəldərək hökumət orqanlarından, nazirliklərdən, yerli hakimiyyət strukturlarından gəncləri qətiyyətlə irəli çəkməyi, öz imkanlarını həyata keçirmək, reallaşdırmaq üçün şərait yaratmağı, bu istiqamətdə konkret tədbirlər görməyi tövsiyə etmişdi. «Biz yaşlı, orta nəslin Azərbaycanın bugünkü həyatında xidmətlərini yüksək qiymətləndirməliyik. Onların təcrübəsindən, biliyindən, bacarığından bundan sonra da istifadə edəcəyik. Ancaq bunlar gənclərin irəli çəkilməsinə, dövlət işlərinə cəlb edilməsinə mane olmamalıdır. Əmin ola bilərsiniz ki, mən bu fikri axıradək həyata keçirəcəyəm» [77].

«Dövlət gənclər siyasəti» haqqında Azərbaycan Respublika Prezidentinin 29 iyul 1999-cu il tarixli Fərmanında ayrı-ayrı dövlət hakimiyyəti və idarəetmə orqanlarına gənclərlə iş üzrə əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsi üçün lazımi şəraitin yaradılması, gənclərin daha geniş təbəqələrinin dövlət idarəetmə işlərinə cəlb olunması sahəsində əlavə tədbirlərin görülməsi zəruriliyi vurğulanırdı [43].

Ölkə başçısının qarşıya qoyduğu vəzifələrin icrası ilə bağlı ölkənin nazirlik, komitə, rayon (şəhər) icra hakimiyyətləri sistemində bacarıqlı gənc kadrlar məsul vəzifələrə irəli çəkilmiş, hər bir idarədə bu barədə məlumat-informasiya bankı yaradılmışdı [97, 11]. İdarəetmə orqanlarına işə qəbul zamanı dərin biliyə və müasir dünyagörüşünə malik olan gənc kadrlara daha çox üstünlük verilməyə başlanmışdı. Kadrların gəncləşdirilməsi prosesi respublikada ümummilli miqyas almışdı. Dövlət işçilərinin 80%-ni 45 yaşadək insanlar təşkil edirdi. Heydər Əliyevin sərəncamı ilə nazirlik, dövlət komitələri, hüquq-mühafizə orqanları, yerli hakimiyyət orqanları rəhbərliyinə 30 yaşadək xeyli gənc təyin edilmişdi [163, 2002, 2 noyabr]. Xüsusən GİTN-nin fəaliyyəti bu baxımdan təqdirəlayiq idi. Azərbaycan Respublikası Prezidentinin «Dövlət gənclər siyasəti haqqında» Fərmanına uyğun olaraq, gənclərin 1999-cu ildə ilk dəfə olaraq yerli özünüidarəetmə orqanlarına – bələdiyyələrə keçirilən seçkilərdə fəal iştirakına müvafiq şərait yaradılmışdı. Ölkə üzrə bələdiyyə üzvü seçilmiş 21 min nəfərdən 6 mini gənclərin nümayəndəsi idi [97, 10].

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə müstəqil dövlət quruculuğunun fəal iştirakçısı kimi gənclərə göstərilən diqqət və qayğı, bu istiqamətdə həyata keçirilən tədbirlər gənclərin respublikada cərəyan edən ictimai-siyasi proseslərdə daha yaxından iştirakı üçün şərait yaratmış, gəncliyin problemlərinin həllinə dövlət qurumlarının diqqətini əhəmiyyətli dərəcədə artırmışdı. Gənclərlə bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsi sonrakı dövrdə də təmin edilmişdi.

### 3.2. Azərbaycan gənclərinin beynəlxalq əlaqələri

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında uğurla həyata keçirilən dövlət gənclər siyasəti gənclər hərəkatının geniş vüsət almasına, ölkənin sosial-iqtisadi, mədəni-mənəvi inkişafında gənclərin rolunun artmasına, həmçinin Azərbaycan gənclərinin beynəlxalq əlaqələrinin təşəkkül taparaq genişlənməsinə münbit şərait yaratmışdı.

Gənclərin beynəlxalq əməkdaşlığı Azərbaycanın dövlət müstəqilliyinin, beynəlxalq nüfuzunun və mövqeyinin möhkəmləndirilməsi məqsədilə həyata keçirdiyi nəhəng işlərin daha uğurla davam etdirilməsinə xidmət etməklə yanaşı, ölkənin beynəlxalq münasibətlərinin tərkib hissəsi idi. Bu əməkdaşlıq, həmçinin dünya gənclərini düşündürən bir sıra qlobal problemlər, o cümlədən regional münaqişələr, iqtisadi və sosial inkişaf, qanunvericilik, özünüidarə, elm, təhsil, mədəniyyət, gənclərin sağlamlığı mənəvi-əxlaqi dəyərlər, ekologiya, idman və s. üzrə müzakirə etdikləri və həyata keçirdikləri proqramlarda Azərbaycan gənclərinin iştirakını təmin edirdi.

Heydər Əliyevin prezidentliyi dövründə həyata keçirdiyi uğurlu xarici siyasət Azərbaycan Respublikasının dünya miqyasında layiqli yer tutmasına, gənclərimizin beynəlxalq əlaqələrinin genişlənməsinə böyük zəmin yaratmışdır. 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılması ölkə gənclərinin beynəlxalq əlaqələrinin inkişafı üçün mühüm amil oldu. Beynəlxalq tədbirlərdə gənclərin fəal iştirakına kömək göstərilməsi Nazirliyin mühüm vəzifəsi kimi müəyyənləşdirilmişdi. Prezidentin 3 sentyabr 1994-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası GİN haqqında Əsasnamənin 2.11 bəndinə uyğun olaraq bu vəzifə bir daha təsdiqlənmişdi [18].

Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə 1994-cü ildən başlayaraq məqsədyönlü işlər həyata keçirilməyə başlanmışdı. Qısa müddət ərzində Avropa Gənclər Forumu, Avropa Gənclər Mərkəzi və beynəlxalq gənclər təşkilatları, MDB üzvü olan ölkələrin gənclər strukturları ilə əlaqələr yaradılmışdı. Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan, Özbəkistan, Moldova, Türkiyə hökumətləri arasında bağlanmış sazişlərdə gənclər arasında əməkdaşlığın genişləndirilməsini özündə ehtiva edən xüsusi bəndlər öz əksini tapmışdır. MDB ölkələrinin gənclər və idman üzrə müvafiq dövlət strukturlarının 1998-ci ildə Bakıda keçirilən görüşü gənclərin beynəlxalq əməkdaşlığında mühüm yer tutdu. Həmin ilin avqustunda Portuqaliyada dünya ölkələri gənclər

nazirliklərinin BMT himayəsi altında keçirilmiş ilk görüşü zamanı forumun vitse-prezident vəzifəsi Azərbaycan nümayəndə heyətinə həvalə edilmişdi. Bunu Azərbaycan gənclər hərəkatının mühüm uğuru kimi qiymətləndirmək olar.

Azərbaycan dövlətinin rəsmi xarici siyasət kursunun beynəlxalq arenada qeyri-hökumət təşkilatları tərəfindən dəstəklənməsinə xüsusi əhəmiyyət verən Azərbaycan Respublikasının GİN ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin artırılması və nüfuz qazanmaları üçün ciddi addımlar atırdı.

Azərbaycan gənclərinin beynəlxalq əlaqələrində türk və islam dünyası ilə əməkdaşlıq mühüm yer tuturdu. Azərbaycan Gənclər Təşkilatları Milli Şurası 1996-cı ildən Dünya Türk Gənclər Birliyinin (DTGB) tədbirlərində iştirak edirdi. 1997-ci ilin aprelində Bakıda keçirilmiş DTGB Liderlər Şurasının IV toplantısında MŞ bu quruma tamhüquqlu üzv qəbul edilmişdir. 1998-ci ilin sentyabrında DTGB-nin Qazaxıstanda keçirilmiş XVIII qurultayında azərbaycanlı Əkbər Yolçuyev (Qoşalı) Dünya Türk Gənc Yazarlar Birliyinin sədri seçilmişdir.

1992-ci ildə Kazan şəhərində təsis edilmiş DTGB Şərqi Çindən tutmuş ABŞ-dakı Türk Gənclər təşkilatlarınadək böyük əhatə dairəsinə malik idi. Birliyin əsas məqsədi türksoylu xalqların gənclərini bir-birinə yaxınlaşdırmaq, bu xalqların ortaq mədəniyyətlərini öyrənmək və təbliğ etmək, türk dövlət və topluluqlarında baş verən ictimai-siyasi, elmi, mədəni, ekoloji, sosial problemlərə öz münasibətini bildirmək, azsaylı türk xalqlarının hüquqlarının dünya birliyi tərəfindən qorunması işinə kömək etməkdən ibarət idi. Yeri gəlmişkən, 90-cı illərdə fəaliyyətə başladıqlarını elan etmiş bir çox gənclər təşkilatları öz məramnamələrində də məhz bu amalları həyata keçirəcəklərini göstərmişdilər. Bunlar arasında Türk Gəncləri Ocağı İctimai Birliyi (TGOİB), Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB), Türk Dünyası Mədəniyyət Birliyi (TDMB), Yaşlek-Azərbaycan Tatar Gənclərinin Mədəniyyət Mərkəzi, Türkiyə Universitetləri Məzunları Birliyi (TUMB), Məhsəti Türklərinin «Vətən» Cəmiyyətinin Gənclər Təşkilatı

(MTVCGT), «Turan» Gənclər Təşkilatı (TGT) kimi təşkilatları göstərmək olar.

TGOİB-nin əsas məqsədi türkdilli gənclərin təşkilatlanması və onların beynəlxalq arenaya inteqrasiyası, eləcə də onlar arasında milli dəyərlərin mənimsənilməsinə yardımçı olmaq, DGTYB dünyanın gənc türk yazarlarını bir araya cəmləmək, onlara əsərlərində türkçülük, turançılıq ideyalarını səsləndirməyi aşılamaq, TDMB türkdilli xalqların «Türksoy» çərçivəsində mədəni birliyinə nail olmaq, TUMB isə Azərbaycan və Türkiyə arasında qardaşlıq əlaqələrini inkişaf etdirmək, məzunlar arasında həmrəyliyi saxlamaq və onların ictimai işlərdə fəal iştirakını təmin etməkdən ibarət idi [116, 358–364].

1997-ci ilin sentyabrında Türkiyədəki Əskişəhərdə qaçqın və məcburi köçkün gənclərin problemlərinə və ətraf mühitin qorunmasına həsr edilmiş «Habbibat -2» və «Gündəm-21» adlı beynəlxalq konfransda dünyanın 35 ölkəsindən, o cümlədən Azərbaycan Respublikasından gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdilər. Təmsilçilər Azərbaycanda ictimai-siyasi vəziyyət, qaçqın və məcburi köçkün gənclərə dövlət qayğısı, müasir cəmiyyətə onların inteqrasiyası mövzusunda çıxışlar etmiş, konfrans günlərində «Qarabağ həqiqətləri» mövzusunda sərgi nümayiş etdirmişdilər [107].

Türkiyənin gənclər hərəkatı ilə sıx əməkdaşlıq edən gənclər təşkilatlarından biri də Azərbaycan–Türkiyə Gənclərinin Dostluq Cəmiyyəti idi. Cəmiyyətin fəaliyyətində türk dünyasının gənclər təşkilatları ilə əməkdaşlıq mühüm yer tuturdu. Cəmiyyət qısa müddətdə türk həmyaşıdları ilə sıx əlaqələr yaratmağa müvəffəq olmuşdu. 2000-ci ilin avqustunda Dostluq Cəmiyyəti Türkiyə Cümhuriyyətində səfərdə olmuş, mühüm görüşlər keçirmişdi. «Mərmərə» Qrupu Strateji Araşdırmalar Vəqfi ilə «Dostluq və əməkdaşlığın dərinləşdirilməsi haqqında» müqavilə imzalanmış, qrup tərəfindən gənclər təşkilatına maliyyə və texniki yardım göstərilməsinə dəstək verilmişdi. Dostluq Cəmiyyəti məşhur «Arı» beynəlxalq hərəkatı ilə də əlaqələr yaratmış, cəmiyyətin nüma-

yəndələri Mərmərə, İstanbul universitetlərində olmuş, İstanbulun «Şekili», «Bəyoğlu» bələdiyyələrinin iş təcrübəsi ilə tanış olmuşdular. Həmin səfər zamanı Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəllə görüş keçirilmiş və ona cəmiyyətin xüsusi mükafatı təqdim edilmişdi. Türkiyənin Sol Demokrat, Ana Vətən Partiyaları, Ankara gənclik təşkilatı əməkdaşları ilə görüşlər də olduqca faydalı olmuşdu [35].

Cəmiyyət dünya ictimaiyyətində Qarabağ hadisələri haqqında obyektiv məlumatın formalaşması üçün də ciddi iş aparırdı. Azərbaycanlılara qarşı Ermənistanın genosidi, Qarabağ probleminin tarixi kökləri və s. internet saytları hazırlanaraq yayılırdı [4, 2001, 20 may].

Azərbaycanın dövlət və qeyri-dövlət gənclər təşkilatları ilə islam ölkələrinin gənclər təşkilatları arasında da əlaqələr təşəkkül taparaq inkişaf etməkdə idi. 2000-ci ilin fevralında Azərbaycan GİN nümayəndə heyəti Səudiyyə Ərəbistanı Gənclərə Qayğı Baş Sədrliyinin prezidenti Əmir Sultan ibn Fəhd ibn Əbdül Əzizin dəvəti ilə bu ölkədə olmuş, səfər zamanı iki ölkənin müvafiq idarələri arasında gənclər və idman sahəsinə əməkdaşlıq sazişi imzalanmışdı. Həmin saziş Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə 2001-ci ilin sentyabrında təsdiq edilmişdi [4, 2001, 7 sentyabr].

Avropa və Amerika ölkələri ilə əlaqələrin genişləndirilməsini bir çox dövlətlərin gənclik qurumları ilə əməkdaşlıq haqqında sazişlərin imzalanması sübut edir. II Forumdan sonra gənclər təşkilatlarının, ayrı-ayrı yaradıcı qrupların, istedadlı və yaradıcı gənclərin müxtəlif sahələr üzrə beynəlxalq əlaqələri genişlənmiş, beynəlxalq qeyri-dövlət gənclər təşkilatlarına inteqrasiya prosesi dönməz xarakter almışdı. Müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq, regional tədbirlərdə Azərbaycan gənclərinin nümayəndə heyətləri müntəzəm iştirak etməyə başlamışdılar. BMT Gənclər Forumu, Avropa Şurası Gənclərə dair İdarəetmə Komitəsi, Avropa Gənclər Forumu, Avropa Şurası Gənclər və İdman Direktorluğu, UNICEF, BMT-nin İnkişaf Proqramı, Əhalinin İnkişaf

Fondu, ECOSOC ilə əlaqələr daha səmərəli olmuşdur [97, 13–14]. Həmin təşkilatların Azərbaycanda həyata keçirdikləri bir çox proqram və layihələrdə Azərbaycan GİN və Gənclər təşkilatları fəal iştirak etmişdilər. Bu baxımdan BMT-in UNICEF təşkilatı ilə əlaqələr daha məhsuldar olmuşdu. Azərbaycanın müxtəlif regionlarında gənclər və uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin tikintisi, «Döşlə əmizdirmə və millətin sağlamlığı» Milli proqramı, çadır şəhərciklərində «Gənclərin təhsil və sağlamlıq mərkəzlərinin yaradılması, narkomaniya, cinayətkarlıq, AİDS-ə qarşı mübarizə sahəsində müxtəlif tədbirlər, «Baxımsız uşaqlara qayğı» proqramı, «Uşaqlar üçün Dünya Hərəkatı Forumu» treninq və kursları məhz UNICEF-in fəal dəstəyi və gənclər təşkilatlarının iştirakı ilə həyata keçirilmişdi.

UNICEF-in Azərbaycanda həyata keçirdiyi mühüm layihələrdən biri də «Azərbaycan Beynəlxalq Gənclər Poçt xidməti» və «Uşaqlara kömək xidməti»nin yaradılması olmuşdu. Bu «xidmətlər» UNICEF-in təşəbbüsü, GİN və Azərbaycanda işləyən xarici neft şirkətlərinin iştirakı ilə 1997-ci ildə yaradılmışdı. «Xidmətlər»də, əsasən, qüsurlu, ailə dəstəyindən məhrum olmuş gənclər işlə təmin olunmuşdu. Onların özlərini cəmiyyətin tamhüquqlu üzvləri kimi təsdiq etmələri üçün şərait yaratmaqla Azərbaycan qoşulduğu Beynəlxalq Uşaq Hüquqları Konvensiyasının prinsiplərinə sadiqliyini bir daha sübut etmişdi. Layihənin təqdimat mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmiş və onun həyata keçirilməsini alqışlamışdı. Heydər Əliyev bu işi fiziki cəhətdən qüsurlu olan, çətinliklərlə üzləşən gənclərə göstərilən qayğı və diqqətin təzahürü kimi qiymətləndirmişdi [159].

Avropa məkanında Avropa Gənclər Forumu (AGF) ən nüfuzlu beynəlxalq fond təşkilatıdır. Avropa Gənclər Forumu qeyri-hökumət, qeyri-siyasi təşkilat olub, bütün Avropa məkanında işləyir və AŞ-ın ideoloji məramnaməsi əsasında fəaliyyət göstərir, 1998-ci ildən AŞ-ın strukturudur. Forum milli hökumətlər, xarici siyasət idarələri, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir,

qeyri-dövlət gənclər təşkilatlarının inteqrasiya formasını özündə əks etdirir. AGF-in məqsədi gənclərin problemlərinin həlli və istəklərinin həyata keçirilməsi istiqamətində müxtəlif siyasi institutlar səviyyəsində iş aparmaq, üzv təşkilatların fəaliyyətinə yardım göstərməklə koordinasiya etməkdir. AGF həm Avropa Şurası, həm də Avropa İttifaqı tərəfindən tanınmış və Ermənistan istisna olmaqla Avropa məkanına aid olan bütün keçmiş sovet respublikaları orada təmsil olunmuşdular. Foruma üzvlük tam, namizəd və müşahidəçi olmaqla 3 mərhələdən ibarət olsa da, Azərbaycan GTMŞ sınaq müddəti və müşahidəçi statusu almadan, birbaşa Forumun üzvlüyünə namizəd kimi qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, Forumun bir neçə nüfuzlu üzvü – Fransa, Portuqaliya, Makedoniya, Yunanıstan, İspaniya, hətta Rusiya gənclərinin təmsilçiləri Azərbaycanı Avropaya aid olmayan müsəlman ölkəsi kimi qələmə verərək, AGF-ə üzvlüyə hər vəchlə mane olmağa çalışırdılar. Lakin 1997-ci ilin noyabrında Budapeştdə keçirilən AGF Baş Məclisində ARGİN və GTMŞ-in gördüyü işlər, məsləhətləşmələr öz nəticəsini vermiş və GTMŞ 85 faiz səslə Foruma üzv qəbul olmuşdur. 34 ölkənin milli şuralarını və 60 beynəlxalq gənclər təşkilatını öz ətrafında birləşdirən AGF-ə daxil olmaqla GTMŞ Forumun həyata keçirdiyi bütün proqramlarda iştirak etmək, GTMŞ-a daxil olan gənclər təşkilatlarının inkişafına və beynəlxalq əlaqələrinin genişlənməsinə şərait yaratmaq, dünya gəncləri arasında Azərbaycan həqiqətlərini yaymaq kimi üstünlüklər qazanmışdır. Yeri gəlmişkən, o zaman Cənubi Qafqaz respublikalarından yalnız Azərbaycan bu qurumun üzvü idi. Gürcüstan AGF-də müşahidə statusuna malik idi, ermənilər isə heç özlərində milli şura yarada bilməmişdilər [23, 2000, №4, 69–70].

AGTMŞ BMT sistemindəki Ümumdünya Gənclər Forumu, Avropa Şurası Gənclər Direktorluğu ilə də geniş əlaqələr yaratmışdı. Azərbaycanın Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu alması Gənclər Direktorluğunun müxtəlif proqramlarında GTMŞ-nin yaxından iştirak etməsinə şərait yaratmışdı. 1999-cu ilin martında Avropa Şurasının Gənclər Direktorluğunun

rəhbəri P.Suralan Bakıya səfəri zamanı «Azərbaycan gəncləri beynəlxalq aləmdə» mövzusunda dəyirmi masanın iştirakçısı olmuş, Azərbaycanda gənclər hərəkatının, gənclərin təşkilatlanmasının yüksək səviyyədə olduğunu təsdiq etmişdi.

Azərbaycan gəncləri Qafqaz və Xəzər hövzəsi regionunda regional əməkdaşlıqda da yaxından iştirak edirdilər. «Qafqaz gənclər dialoqu», əsasən, Avropanın gənclər institutları tərəfindən maliyyələşdirilirdi. Beynəlxalq tədbirlər də, əsasən, Gürcüstan ərazisində keçirilirdi. Azərbaycan gənclər təşkilatlarının nümayəndələri istər Qafqaz gənclər dialoqunda, istərsə də digər sülhməramlı tədbirlərdə, müxtəlif təcrübə kurslarında fəal iştirak edirdilər. 1996-cı ilin martında keçirilən «Qafqaz gənclər dialoqu»-nun əsas məqsədi Qafqazda sülhün bərqərar olunmasında gənclərin iştirakını təmin etmək idi. Batumda keçirilən «gənclər Qafqazda sülh uğrunda» konfransında gənclər region dövlətlərinin rəhbərlərinə müraciət qəbul etmiş, onları Qafqazda sülh yaradılması sahəsində əməli iş görməyə çağırmışdı [100, 1999, 4 mart].

1993-cü ildən sonra Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasındakı münasibətlərin hərtərəfli inkişafı bütün sahələrdə olduğu kimi, gənclər təşkilatları arasındakı əlaqələri də əhatə etmişdi. Hər iki ölkənin gənclərinin tədbirlərində qonşu dövlətin gənclərinin nümayəndələri müntəzəm iştirak edir, fikir və təcrübə mübadiləsi aparırdılar. Məsələn, 1997-ci ilin avqustunda Tiflis şəhərində keçirilmiş «Qızıl beşik» gənclər bayramında AR GİN nümayəndə heyəti iştirak etmiş və Gürcüstan, Azərbaycan, Ukrayna və Rusiyanın müvafiq dövlət qurumları ilə birgə kommunike imzalamışdı. Bayramda Azərbaycanın gənclərdən ibarət özfəaliyyət ustaları konsert proqramı ilə çıxış etmişdilər [120, 1997, 8 avqust]. 1999-cu ilin mayında «Qırmızı Körpü» keçid məntəqəsində Azərbaycan və Gürcüstan gənclərinin «Qafqazda sülh» devizi altında birgə dostluq görüşünün keçirilməsi əsası hələ 1970-ci illərdə Heydər Əliyev tərəfindən qoyulmuş ənənənin bərpa edilməsi demək idi. Azərbaycanın Qərb regionları və Gürcüstanın Kartli rayonunun gənclərinin iştirak etdiyi görüşdə hər iki dövlətin

başçısına müraciət qəbul edilmiş, regionda sülhün və əməkdaşlığın genişləndirilməsi üçün səylərin daha da artırılmasından ötrü onların fəaliyyətinə dəstək ifadə olunmuşdu [31].

Hələ 1995-ci ildə GİN, AR GTMŞ Xəzəryanı ölkələrdə yaşayan gənclərin birliyinin yaradılması ideyasını reallaşdırmaq məqsədilə çıxış etmiş 1996-cı ildə Bakı şəhərində Forumun keçirilməsi üçün təklif irəli sürmüşdü. Lakin İran və Türkmənistan nümayəndələri müxtəlif bəhanələrlə nəzərdə tutulan tədbirə gəlməkdən imtina etdiklərindən, həmin ideyanı reallaşdırmaq mümkün olmamışdı [19, 69–70]. 1998-ci ilin sentyabrında Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakı şəhərində qədim İpək yolunun bərpası ilə əlaqədar TRASEKA konfransının keçirilməsi bu ölkələrdə yaşayan Gənclərin Forumunun yaradılması ideyasını aktuallaşdırmış, AGTMŞ bununla bağlı həmin ölkələrin gənclər təşkilatlarına xüsusi müraciət göndərmişdi [4, 1999, 4 mart].

Azərbaycan Gənclərinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) çərçivəsində də üzv ölkələrin gənclər qurumları ilə əlaqələri təşəkkül tapmağa başlamışdı. Bu məqsədlə QDİƏT PA-nın 2000-ci ildə keçirilmiş iclasında AGTMŞ və ARGİN birlikdə «Qara dəniz regionunda gənclərin əməkdaşlığına dair» təkliflər paketini hazırlayaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etmişdi [20, 71].

Azərbaycan gənclərinin beynəlxalq əlaqələrində Müstəqil Dövlətlər Birliyi ölkələri ilə əməkdaşlıq mühüm yer tuturdu. MDB-yə daxil olan ölkələr arasında tarixən formalaşmış siyasi, iqtisadi, mədəni, humanitar əlaqələr gənclər siyasəti sahəsində əməkdaşlığı zəruri edən amillərdəndir. Buna görə də Azərbaycan Respublikası keçmiş SSRİ məkanına daxil olan dövlətlərlə bu sahədə əlaqələrin inkişafına xüsusi diqqət yetirirdi. Heydər Əliyevin qeyd etdiyi kimi, MDB dövlət və qeyri-dövlət gənclər təşkilatları arasında ünsiyyətin davam etdirilməsi və öz fəaliyyətlərini əlaqələndirmələri MDB-nin səmərəliliyini yüksəltmək, onun fəaliyyətini təkmilləşdirmək işinə böyük dəstək idi [72]. 1997-ci ilin dekabrında Moskvada Azərbaycan, Belarusiya, Qazaxıstan, Ermənistan, Gürcüstan, Moldova, Rusiyanın gənclərlə iş üzrə

dövlət orqanları rəhbərlərinin görüşü keçirildi. Görüşdə MDB ölkələrində gənclərlə iş üzrə dövlət siyasətinin həyata keçirilməsinin səmərəliliyini yüksəltmək, bərabərlik, demokratik əsasda əlaqələri möhkəmləndirmək məqsədilə məşvərətçi qurum – «Nazirlər klubu» yaradılmış, onun əsasnaməsi, iclaslarının keçirilməsi qaydaları təsdiq edilmişdi. Klubun növbəti iclası 1998-ci ilin martında Bakı şəhərində keçirilmişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev MDB ölkələrinin gənclərlə iş üzrə «Nazirlər klubu»nun iştirakçılarını qəbul etmiş, MDB dövlətləri gənclər strukturlarının bu formatda görüşlərini, təcrübə mübadilələrini hər bir ölkədə gənclərlə işin daha uğurla həyata keçirilməsi baxımından olduqca faydalı hesab etmişdi [72]. Azərbaycan gənclərinin nümayəndələri «Nazirlər klubunun» sonrakı görüşlərində də iştirak etmiş, iştirakçı dövlətlərdə gənclər siyasəti sahəsində vahid informasiya sistemi və proqramının yaradılmasını müzakirə etmişdilər [20, 70]. Azərbaycan Respublikası GİN və gənclər təşkilatlarının nümayəndələri 1999-cu ilin oktyabrında Minsk şəhərində keçirilmiş MDB gənclər təşkilatlarının konqresində gənclər hərəkatının müxtəlif sahələrinə aid problemlərin müzakirəsində fəal iştirak etmişdilər.

Azərbaycan gənclərinin müxtəlif qurumları bir çox xarici ölkələrin gəncləri ilə də sıx əməkdaşlıq münasibətləri yaratmağa can atırdılar. ABŞ, Böyük Britaniya, Səudiyyə Ərəbistanı və s. ölkələrin gəncləri ilə əməkdaşlıq daha da inkişaf etdirilmiş, Gürcüstan, Özbəkistan, Türkiyə, Moldova, ÇXR, Ukrayna ilə qarşılıqlı əməkdaşlıq müqavilələri imzalanmışdı.

Tələbə gənclər tərəfindən yaradılmış Azərbaycan–Amerika Gənclər Birliyi iki ölkə gəncləri arasında təhsil sahəsində əməkdaşlığın inkişafı məqsədilə Amerika Beynəlxalq Təhsil Şurası ilə əlaqə yaratmışdı. 1992-ci ildən Azərbaycanda fəaliyyət göstərən ABTŞ azərbaycanlı istedadlı gənclərin Amerikada təhsil almaları üçün ölkəmizin dövlət və qeyri-dövlət təşkilatları, o cümlədən adıçəkilən təşkilatla birgə layihələr həyata keçirirdi.

1999-cu il oktyabrın 20–23-də ABŞ-ın Honolulu şəhərində Dünya Gənclərinin Minillik Konqresində «Şərq ulduzları» uşaq

folklor ansamblı və KİV əməkdaşlarının daxil olduğu Azərbaycan nümayəndə heyəti də iştirak etmişdi [20, 71]. Həmin konqresdə BMT-nin elan etdiyi «Sivilizasiyalararası dialoq ilinin keçirilməsi haqqında» qərar qəbul edilmişdi. 2001-ci ilin sentyabrında «İlin uşağı» Beynəlxalq təşkilatının təşəbbüsü və AR GİN dəstəyi ilə dialoq ili çərçivəsində Bakıda «Gənclik» BTM-də ümumdünya zirvə görüşü keçirilmişdi. Azərbaycan belə bir zirvə görüşünün keçirildiyi ilk ölkə olmuşdu [108].

Azərbaycanlı gənclərin britaniyalı həmyaşıdları ilə birgə yaratdıqları «Azərbaycan–Böyük Britaniya Gənclərinin Açıq Dostluq Cəmiyyəti» iki ölkə gəncləri arasında dostluq münasibətlərinin yaradılması, gənclərin sosial inkişafının, elmi, mədəni və digər əməkdaşlığının inkişaf etdirilməsi, habelə informasiya mübadiləsinin həyata keçirilməsi məqsədi daşıyırdı. Digər gənclər təşkilatlarından fərqli olaraq bu cəmiyyət öz fəallığı, bir neçə birgə layihəni uğurla həyata keçirmələri ilə fərqlənirdi. Cəmiyyət üzvləri tərəfindən «Azərbaycan–Böyük Britaniya münasibətlərinin inkişafı haqqında» adlı kitabın nəşri bunun əyani sübutu idi [106].

Azərbaycan gənclərinin əlaqə saxladıqları ölkələrdən biri də Çin Xalq Respublikası idi. Bu əlaqələrin əsası 1999-cu ilin noyabrında AR GİN nümayəndə heyətinin ÇXR-ə səfəri ilə qoyulmuşdur. Səfər zamanı Ümumçin Gənclər Federasiyası, ÇKGİ MK, Dövlət Baş İdman İdarəsi, Çin İnkişaf Fondu, Çin Gənclər və Turizm Bürosu, Çin Uşaq mərkəzi və s. idarələrdə görüşlər keçirilmiş, müxtəlif razılaşmalar əldə edilmişdi [4, 1999, 3 dekabr].

Azərbaycanın ayrı-ayrı gənclər təşkilatlarının uyğun profilli beynəlxalq gənclər təşkilatlarına inteqrasiyası da sürətlə gedirdi. Azərbaycan Skautlar Assosiasiyası Ümumdünya Skaut Hərəkatı təşkilatına, Gənc Hüquqşünaslar Birliyi Gənc Hüquqşünasların Beynəlxalq Assosiasiyasına, Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı Avropa Demokratik Tələbə İttifaqına üzv qəbul edilmiş [130, 64], Azərbaycan Təbiblər Assosiasiyası Beynəlxalq Təbib Tələbələr Assosiasiyaları Federasiyası, Elitar Gənclər Klubu Gənc Avropalılar Təhlükəsizlik Uğrunda Təşkilatı, Azərbaycan

Gənclər İttifaqı MDB ölkələrinin Gənclər təşkilatları, Azərbaycan Gənclərinin Sosial Demokrat Təşkilatı Beynəlxalq Sosialist Gənclər İttifaqı, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Ümumdünya Veteranlar Birliyi ilə əlaqələr yaratmışdı [103, 71].

Bununla yanaşı, gənclər təşkilatlarının beynəlxalq əlaqələri sahəsindəki vəziyyət heç də qənaətbəxş deyildi. Belə ki xarici ölkələrdə keçirilən tədbirlərin əksəriyyətində gənclər təşkilatları nümayəndələrinin iştirakı təmin edilsə də, Azərbaycanda beynəlxalq səviyyəli tədbirlər nisbətən az keçirilirdi. Ölkənin əksər gənclər birliklərinin uyğun profilli beynəlxalq və regional təşkilatlarla əlaqələri də zəif idi. Bu bir tərəfdən bəzi təşkilat liderlərinin və fəallarının xarici dilləri bilməməsi, maliyyə imkanlarının yoxluğu, digər tərəfdən isə beynəlxalq gənclər qurumları haqqında onların məlumatının azlığı ilə izah olunurdu.

Bütün bunları nəzərə alaraq, AR GİN kollegiyasının 29 dekabr 1997-ci il tarixli Qərarı ilə Gənclərlə iş üzrə baş idarəyə və Beynəlxalq əlaqələr idarəsinə gənclər təşkilatlarının beynəlxalq əlaqələrini məqsədyönlü, sistemli və kompleks şəkildə inkişaf etdirmək üçün əlaqədar dövlət orqanları və gənclər təşkilatları ilə birlikdə müvafiq dövlət proqramı və beynəlxalq gənclər təşkilatları haqqında məlumat kitabı hazırlamaq tapşırılmışdı [102].

Azərbaycan gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin gücləndirilməsi sahəsində dövlət rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü tədbirlər öz nəticələrini göstərirdi. 2000-ci illərin əvvəllərində artıq Azərbaycan gəncliyi ümumdünya gənclər hərəkatının mühüm subyektinə çevrilməkdə idi. Ölkə tanınmış beynəlxalq gənclər təşkilatlarının xətti ilə bir çox mötəbər tədbirlərin keçirildiyi məkana çevrilmişdi. Azərbaycan GTMŞ-nin, Azərbaycan Skaut Assosiasiyasının, digər milli təşkilatların bir sıra müvafiq beynəlxalq gənclər forum və təşkilatlarına üzv qəbul edilmələri, gənclər siyasətinin həyata keçirilməsi sahəsində ölkəmizdə qazanılmış müsbət təcrübə, gənclər təşkilatlarının beynəlxalq səviyyədə tanınmaları ölkəmizin uşaq və gənclərinin dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq tədbirlərə daha geniş cəlb olun-

masına şərait yaratmışdı. Azərbaycan gənclərinin beynəlxalq əlaqələri 2003-cü ildən sonra daha da inkişaf etmiş, coğrafiyası genişlənmişdi. Gənclərimiz ölkə daxilində və onun hüdudlarından kənarda keçirilmiş beynəlxalq tədbirlərdə fəal iştirak edərək Azərbaycan haqqında obyektiv məlumatları xarici yaşıdlarına çatdırmaq üçün bütün imkanlarından istifadə etməyə çalışırdılar. 2005-ci ildə Bakıda AŞ ilə birgə Avrasiya Gənclər Forumunun, 2006-cı ildə GUAM ölkələri Gənclər Forumunun I Konqresinin keçirilməsi, 2004-cü ildə İslam Konfransı Təşkilatı Dialoq və Əməkdaşlıq Gənclər Forumunun təsis edilməsi, bu təşkilata azərbaycanlı gənc diplomat Fuad İsgəndərovun seçilməsi, 2007-ci ildə yenə Bakıda Avropa Gənclər Forumunun keçirilməsi və orada 44 ölkədən 75 gənclər təşkilatı nümayəndələrinin iştirak etməsi Azərbaycan gənclərinin beynəlxalq əlaqələrinin genişlənməsinin bariz nümunəsi oldu. Forum çərçivəsində Azərbaycan tərəfinin təşəbbüsü ilə AGF və İKT GT arasında xüsusi memorandum imzalanması Qərb dünyası ilə İslam dünyası gəncləri arasında dialoqun, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə böyük töhfə oldu.

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında dünyanın müxtəlif ölkələrində təhsil alan azərbaycanlı tələbələrin və onların yaratdıqları cəmiyyətlərin xidmətləri də əvəzsizdir.

Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş «Azərbaycan Gəncliyi» Dövlət Proqramında (2005–2009) [8] dövlət gənclər siyasətinin bir sıra məsələləri ilə yanaşı, gənclərin ölkənin ictimai-siyasi həyatında iştirakı, uşaq və gənclər təşkilatlarının inkişafı üçün şəraitin yaradılması, gənclərin beynəlxalq əməkdaşlığı sahəsində layihələrin həyata keçirilməsi, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulması, onların nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakına köməklik göstərilməsi nəzərdə tutulmuşdu.

Proqramın, həmçinin digər layihələrin qəbulu və həyata keçirilməsi Heydər Əliyevin gənclər siyasətinin uğurla davam etdirilməsinin bariz nümunəsi idi.

# NƏTİCƏ

1993-cü ildən sonra Azərbaycan Respublikasında həyata keçirilən gənclər siyasətinin təhlili göstərir ki, gənclərlə bağlı iş, gənc nəslə qayğı Azərbaycan dövlətinin daxili siyasətinin ən prioritet istiqamətlərindən birini təşkil etmişdir. Araşdırmalar belə bir nəticəyə gəlməyə imkan verir ki, ölkədə dövlət gənclər siyasətinin formalaşması və inkişafı prosesi bilavasitə ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Hələ 1969–1982-ci illərdə Azərbaycan SSR-in siyasi rəhbəri olduğu dövrdə Heydər Əliyevin ictimai, iqtisadi, mədəni həyatın bütün sahələrində həyata keçirdiyi tədbirlər Azərbaycan gənclərinin inkişafına mühüm təsir göstərmiş, onların iqtisadi-siyasi fəallığının artımı, mədəni və təhsil səviyyəsi xeyli yüksəlmişdir. Siyasi rəhbərin həmin dövrdə formalaşdırdığı iqtisadi, mədəni və kadr potensialı Azərbaycanın çiçəklənən gələcəyi üçün mühüm zəmin yaratmışdır. Onun Azərbaycan gənclərinin dünyagörüşünün, mənəvi inkişafının təkamülü üçün atdığı strateji addımlar bu gün də öz bəhrəsini verməkdədir. Gənclərin mənəvi və iqtisadi tələbatlarının ödənilməsi dövlət siyasəti səviyyəsinə qaldırılmış, nəticədə gəncliyin tərəqqisi milli inkişaf strategiyasının əsas göstəricilərindən birinə çevrilmişdir.

Lakin XX əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində keçmiş SSRİ-də baş verən dağıdıcı proseslər, Azərbaycanın yaşadığı siyasi, iqtisadi, mənəvi sarsıntılar, Qarabağ müharibəsindəki uğursuzluqlar cəmiyyətin bütün təbəqələri kimi gəncliyin də həyatına mənfi təsir göstərdi. Gənclərlə bağlı dövlətin mövcud siyasəti tam tənəzzülə uğradı.

1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı ilə gənc nəslə dayağı və diqqəti Azərbaycan dövlətinin üstün istiqamətlərindən birini təşkil etdi. Qısa müddət ərzində Heydər Əliyev tərəfindən dövlət gənclər siyasətinin əsas məqsədləri, prinsipləri, prioritetləri müəyyənləşdirildi, gənclərin sosial-

iqtisadi, mənəvi problemlərinin həlli, siyasi fəallığının artırılması, təşkilatlanması üçün müvafiq addımlar atıldı.

Respublika üçün ağır və mürəkkəb bir dövrdə – 1993-cü ilin sentyabrında gənclərlə görüşməyə imkan tapan Heydər Əliyev gəncləri ölkənin taleyinə biganə qalmamağa, onun müstəqilliyini və ərazi bütövlüyünü qorumağa çağırdı. Onun bu çağırışı gənclər arasında böyük əks-səda doğurdu. Görülmüş tədbirlər nəticəsində cəbhədə təşəbbüs Azərbaycan ordusunun tərəfinə keçdi. Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində cəbhədə atəşkəsə nail olunması, siyasi sabitliyin möhkəmlənməsi dövlət quruculuğu prosesinə başlamağa imkan verdi. Gənclərlə bağlı dövlət siyasətini həyata keçirmək məqsədilə təşkilati, hüquqi tədbirlər müəyyənləşdirildi.

1994-cü ilin iyununda Azərbaycanda Gənclər və İdman Nazirliyinin yaradılması gənclərin problemlərinin həllinə diqqətin artırılmasına, onların milli vətənpərvərlik ruhunda tərbiyəsinin yaxşılaşdırılmasına təkan verdi.

Gənclər üçün xüsusi nazirliyin yaradılması ilə gənclərin dövlət quruculuğu prosesində iştirakı, gənclər siyasətinin sistemli şəkildə həyata keçirilməsi üçün əlverişli şərait yarandı.

Azərbaycanda gənclər hərəkatının inkişafında Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin fevralında çağırılmış Azərbaycan Gənclərinin I Forumunun da mühüm rolu oldu. Forumda Heydər Əliyevin çıxışı gənclər hərəkatının qarşısında duran əsas məqsədlərin və vəzifələrin müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətli idi.

Heydər Əliyevin 1 fevral 1997-ci il tarixli Sərəncamı ilə müstəqil Azərbaycan gənclərinin I Forumunun keçirildiyi gün – 2 fevral Gənclər Günü kimi qeyd edilməyə başlandı. Bu, milli liderimizin gənclərə diqqət və qayğısının daha bir təzahürü idi.

Ölkədə gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsində Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar əhəmiyyətli rol oynadı. Bu sənədlər arasında «Dövlət gənclər siyasəti haqqında» 29 iyul 1999-cu il tarixli Fərman xüsusi qeyd edilməlidir.

Fərmanda uşaq və gənclərin problemlərinin həlli üçün kompleks tədbirlər müəyyənləşdirilmiş, dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir.

Heydər Əliyevin rəhbərliyi altında dövlət gənclər siyasətinin normativ-hüquqi bazasının formalaşdırılması və inkişafı istiqamətində mühüm işlər görülmüş, müvafiq qanunvericilik aktları və dövlət proqramları qəbul edilmişdir. 6 may 2002-ci ildə qəbul edilmiş «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu gənc nəslin hərtərəfli inkişafı üçün bu sahədə müxtəlif dövlət strukturlarının səlahiyyətlərini müəyyən edən əsas normativ-hüquqi sənəd oldu. Qanun gənclər siyasətinin əsas məqsədlərini, prinsiplərini, istiqamətlərini, dövlət orqanlarının bu sahədə vəzifələrini və səlahiyyətlərini dəqiq müəyyən etdi. Bu qanunun qəbulundan sonra gənclərin hərtərəfli inkişafı üçün hər cür şəraitin yaradılmasına üstünlük verilirdi.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə uşaqların, xüsusi qayğıya möhtac gənclərin hüquqlarının təmin edilməsini, bədən tərbiyəsi və idmanın inkişafını nəzərdə tutan müvafiq qanunvericilik bazası da formalaşmışdı.

Ümummilli liderimizin həyata keçirdiyi genişmiqyaslı sosial-iqtisadi islahatlar əhalinin bütün təbəqələri kimi, gənc nəslin də sosial problemlərinin həllinə, həyat səviyyəsinin yaxşılaşdırılmasına ciddi təkan verdi. Gənclərin sosial-iqtisadi problemlərinin həllində dövlət gənclər siyasəti ilə bağlı qəbul edilmiş proqram və layihələr mühüm rol oynadı.

Heydər Əliyev cəmiyyətin özəyini təşkil edən ailə institutunun möhkəmləndirilməsi, gənc ailələrə diqqət və qayğının artırılması üçün dövlət strukturları qarşısında konkret vəzifələr qoymuş və onların həyata keçirilməsi üçün kompleks hüquqi, iqtisadi tədbirlər müəyyənləşdirmişdi.

Göstərilən dövrdə gənclərin məşğulluğunun təmin edilməsi, işsizliyin azaldılması, ordudan tərxis olunmuş gənclərin problemlərinin həlli, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi ilə bağlı bir çox ciddi işlər də həyata keçirilmişdir.

Heydər Əliyevin gənclər siyasətinin mühüm istiqamətlərindən biri kimi qaçqın və köçkün gənclərin sosial müdafiəsi və cəmiyyətə inteqrasiyasının təmin edilməsi, onların problemlərinin həlli sahəsində də mühüm nəticələr əldə olunmuşdu.

Heydər Əliyev bizə gənclərin mənəvi, vətəndaşlıq tərbiyəsi haqqında bütöv bir elmi-nəzəri irs qoyub getmişdir. O, dövlət və ictimai təşkilatlar qarşısında gənclərin Azərbaycanın müstəqilliyinə sədaqət ruhunda tərbiyə edilməsini, onların tərbiyəsində milli ənənələrlə ümumbəşəri dəyərlərin vəhdətdə götürülməsini əsas vəzifə kimi qoymuşdu. Ümummilli lider vətənpərvərlik tərbiyəsi fəlsəfəsini müəyyənləşdirərkən gənclərin mənəvi inkişafının əsas amili kimi azərbaycançılıq amalını əsas götürməyi tövsiyə edirdi.

O gənclərə tariximizi, milli adət-ənənələrimizi, dinimizi öyrənməyi və sevməyi bəşəriyyətin malik olduğu mütərəqqi dəyərlərə yiyələnməyi məsləhət görürdü. Eyni zamanda o, gənclərdə hərbi-vətənpərvərlik, orduya hörmət hislərinin, döyüş ruhunun möhkəmləndirilməsini mənəvi tərbiyənin ən vacib istiqaməti hesab edirdi. Heydər Əliyev gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında təhsil müəssisələrinin roluna xüsusi önəm verirdi.

Milli liderimiz onu dərindən düşündürən və narahat edən bütün mənfi halları – cinayətkarlıq, narkomaniya, spirtli içkilərə meyillilik və s. halları aradan qaldırmağı, sağlam həyat tərzi keçirməyi, yüksək mənəvi amallarla yaşamağı gənclərə tövsiyə edir, bu sahədə Azərbaycanda müvafiq qanunvericilik bazası yaradılmasını, proqram və layihələr həyata keçirilməsini təklif edirdi. Cinayət yolunu tutmuş gənclərin doğru yola qayıtmaları, cəmiyyətin faydalı üzvlərinə çevrilmələri üçün humanistlik nümayiş etdirən Heydər Əliyev onların bağışlanılması üçün müvafiq qərarlar vermişdi. Eyni zamanda azadlığa buraxılmış gənclərin yenidən pis əməllərə qurşanmaması, onların sosial problemlərinin həlli üçün dövlət orqanları tərəfindən zəruri işlər görülürdü.

Heydər Əliyev gənclərimizin elmə, mədəniyyətə, bədii yaradıcılığa cəlb edilməsini bir vəzifə kimi qarşıya qoyur, gəncləri Azərbaycanın milli-mənəvi inkişafına öz töhfələrini verməyə çağırırdı.

İstedadlı və yaradıcı gənclərin üzə çıxarılması, onlara dövlət qayğısının artırılması da Heydər Əliyevin daim diqqətində olmuş, bu məqsədlə onun tərəfindən bir neçə sərəncam və fərman imzalanmış, xüsusi dövlət proqramı hazırlanmışdı. Uşaq və gənclərlə bağlı milli qanunvericilikdə istedadlı uşaqlara dövlət qayğısı ilə əlaqədar xüsusi müddəalar öz əksini tapmışdı.

Uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi, onların mənəvi, intellektual, fiziki inkişafına şəraitin yaradılması Azərbaycan dövlətinin gənclər siyasətinin mühüm tərkib hissəsi idi.

Heydər Əliyev bütün dövlət orqanları qarşısında kimsəsiz qaçqın və köçkün ailələrindən olan uşaqlara diqqət və qayğının artırılmasını əsas vəzifə kimi qoyurdu. Onun rəhbərliyi altında həyata keçirilmiş siyasi-hüquqi islahatlar sayəsində Azərbaycan Respublikasında uşaq hüquqlarının təmin edilməsi, potensiallarının reallaşdırılması üçün müvafiq hüquqi baza yaradılmışdı.

Uşaq hüquqlarının qorunması sahəsində dövlət qurumları ilə yanaşı, bir çox qeyri-hökumət təşkilatları da yaxından iştirak edirdi. 2000-ci illərin sonunda Azərbaycanda bu sahədə 10-a yaxın təşkilat fəaliyyət göstərirdi.

1993-cü ildən sonra gənclərin ictimai fəallığının artırılması, ölkə həyatının müxtəlif sahələrində, dövlət quruculuğunda yaxından iştirakları üçün əməli tədbirlər həyata keçirilmiş, təşkilatlanmaları, gənclər hərəkatının inkişafı üçün real şərait yaradılmışdı. Gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq potensiallarının milli dövlət quruculuğu, islahatların gerçəkləşdirilməsi işinə səfərbər edilməsində Gənclər və İdman Nazirliyinin rolu böyük idi.

Gənclərin təşkilatlanmasında, dövlət quruculuğu prosesinə daha geniş cəlb edilməsində ölkə gənclərinin forumlarının mü-

hüm əhəmiyyəti oldu. 1995-ci ildə Gənclər Təşkilatları Milli Şurasının yaradılması gənclər hərəkatının keyfiyyətcə yeni mərhələyə qalxmasında, gənclər arasında əməkdaşlığın və əlaqələrin möhkəmləndirilməsində xüsusi mərhələ təşkil etdi.

Əgər əvvəllər maliyyə çatışmazlığı səbəbindən gənclər təşkilatları tam fəaliyyət göstərə bilmirdilərsə, həyata keçirilən tədbirlər bu sahədə müsbət dəyişikliklərin yaranmasına səbəb oldu. Gənclər təşkilatlarının fəaliyyətinin genişləndirilməsi məqsədilə bir neçə dövlət proqramı həyata keçirilmiş, təqdim edilən bəzi layihələrin (proqramların) dövlət büdcəsindən qismən maliyyələşdirilməsi təmin olunmuşdu.

Gənclər təşkilatlarının dövlət gənclər siyasətinin həyata keçirilməsinə, gənclərlə bağlı qanunvericilik aktlarının hazırlanmasına cəlb edilməsi üçün müvafiq təşkilati və hüquqi addımlar atılırdı. Həyata keçirilən tədbirlər gənclərin öz təşkilatları vasitəsilə ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakına geniş şərait yaratdı.

Gənclərin ictimai fəallığının mühüm şərtlərindən biri də onların dövlət quruculuğu prosesinə, dövlət idarəetmə orqanlarına geniş şəkildə cəlb edilməsidir. Heydər Əliyev bu məsələyə dəfələrlə diqqəti cəlb edərək, qətiyyətlə öz çıxışlarında hakimiyyət orqanlarından gəncləri məsul vəzifələrə irəli çəkməyi tövsiyə edirdi. Nəticədə dövlət aparatının gəncləşdirilməsi, gənc kadrların rəhbər vəzifələrə təyin edilməsi, gənclərin müxtəlif seçkili orqanlara seçilməsi sahəsində ciddi, müsbət dəyişikliklər baş vermişdi.

Heydər Əliyevin gənclərlə bağlı strategiyasının uğurla həyata keçirilməsi gənclərimizin beynəlxalq əlaqələrinin artmasına da müsbət təsir göstərmişdi. Qısa müddət ərzində Azərbaycanın gənclər təşkilatları müxtəlif regional və beynəlxalq gənclər təşkilatları ilə əlaqələr yaratmış, bir sıra mötəbər təşkilatların (AGF, AGM, DTGB, BMT, GF, UNICEF və s.) fəaliyyətində yaxından iştirak etməyə başlamışdılar. Azərbaycan gəncləri bir çox xarici ölkələrin gəncləri ilə də əməkdaşlıq əlaqələri yaratmağa nail

olmuşdular. Gənclərin beynəlxalq əməkdaşlığını inkişaf etdirmək, gənclər təşkilatlarının müxtəlif beynəlxalq tədbirlərdə daha geniş iştirakını təmin etmək məqsədilə dövlət orqanları tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilmiş, nəticədə Azərbaycan gənclər hərəkatı dünya gənclər hərəkatının mühüm tərkib hissəsinə çevrilmiş, ölkə gəncləri həm respublika, həm də beynəlxalq səviyyəli tədbirlərdə, proqramların icrasında daha yaxından iştirak etməyə başlamışdılar. Beynəlxalq gənclər təşkilatlarının xətti ilə keçirilən bir sıra tədbirlərə Azərbaycan ev sahibliyi etmişdi.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan dövlətinin gənclər siyasəti bu gün uğurla davam etdirilməkdədir. Bunu 2003-cü ildən sonra gənclər siyasəti ilə bağlı qəbul edilmiş qərar və sərəncamlar, dövlət proqramları da sübut edir. Ölkə prezidentinin sərəncamı ilə 2007-ci ilin «Gənclər ili» elan edilməsi, 2011-ci il iyulun 5-də «Azərbaycan gəncliyi 2011–2015» Dövlət Proqramı bu siyasətin varisliyinin əyani təzahürüdür.

Prezident İlham Əliyev Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında onların rolunun artırılmasına xüsusi diqqət yetirir, ölkənin idarə olunmasında gənclərin daha geniş cəlb olunmasına çalışır.

Dövlət proqramının qəbul edilməsi, eləcə də Prezidentin fərmanı ilə Gənclər Fondunun yaradılması gənclərin ictimai fəaliyyətlərinin, yaradıcılıq və təşəbbüslərinin dövlət tərəfindən dəstəkləndiyinə bariz göstəricidir. Bu proqramda və ondan əvvəl qəbul edilmiş Azərbaycan Gəncliyi Dövlət Proqramında (2005–2009-cu illər) gənclərin sosial müdafiəsi, məşğulluqlarının təmin edilməsi, yaradıcılıq fəaliyyətlərinin stimullaşdırılması, onların milli və hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzlərinin təbliği istiqamətində çoxsaylı tədbirlər həyata keçirmək nəzərdə tutulub ki, bu da öz növbəsində gənclərin sosial-iqtisadi, mənəvi problemlərinin daha sürətlə həllinə, onların ölkənin ictimai-siyasi, mədəni həyatında iştirakının genişlənməsinə gətirib çıxarmışdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Abdullazadə F.H.** Heydər Əliyev: siyasi portret. Bakı XXI əsr, 1998, səh. 114.
2. **Ağayev Ə.Ə.** Heydər Əliyev irsində vətəndaş tərbiyəsi məsələləri. «Azərbaycan məktəbi», 2005, №3.
3. **Axundova E.H.** Heydər Əliyev: şəxsiyyət və zaman: 2 cilddə, Bakı, «Ozan», 2007, səh. 352 və 784.
4. «Azərbaycan» qəzeti.
5. Azərbaycan beynəlxalq aləmdə. Bakı, «Göytürk», 1996–2007-ci illər, 7 cilddə.
6. Azərbaycan dövlət quruculuğunda gənclərin rolu. Bakı: ADBTİ-nin mətbəəsi, 1998, səh. 82.
7. «Azərbaycan gəncləri» qəzeti.
8. Azərbaycan gəncliyi. Dövlət Proqramı. 2005–2009-cu illər. «Azərbaycan» qəzeti, 2005, 2 sentyabr.
9. Azərbaycan gənclərinin I Forumu, «Azərbaycan» qəzeti, 4–9 fevral 1996-cı il.
10. Azərbaycan gənclərinin II Forumu, 2–3 mart 1999-cu il. Bakı, «Azərbaycan», 2000, səh. 224.
11. Azərbaycan – 2003. İnkişaf strategiyasında yeni mərhələ, Bakı, 2005, səh. 520.
12. Azərbaycan konstitusiyası. Bakı: «Azərbaycan» nəşriyyatı, 2009, səh. 37.
13. Azərbaycan milli dövlət quruculuğu yolunda. Bur. məs.: **R.Mehdiyev**, **H.Orucov.** Bakı, «Azərnəşr», 1996, səh. 368.
14. «Azərbaycan müəllimi» qəzeti.
15. Azərbaycan Prezidentinin gənclərlə görüşü. Bakı, Sabah, 1997, səh. 103.
16. Azərbaycan Respublikası. 1991–2001. Bakı, XXI əsr Yeni nəşrlər evi, 2001, səh. 273.
17. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi (ARGİN) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. «Azərbaycan» qəzeti, 27 iyun 1994-cü il.
18. Azərbaycan Respublikası GİN haqqında əsasnamə. ARDGS İB, Bakı, 2000, №1, səh. 40–51.
19. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Cari Arxivi. 1993–2005-ci illər.
20. ARGİN-nin fəaliyyəti haqqında arayış Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni (ARDGS İB). Bakı, «Elm», 2001, №6, səh. 50–90.

21. Azərbaycan tarixi. 7 cilddə. VII cild, Bakı, «Elm», 2003, səh. 605.
22. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Siyasi Sənədlər Arxivi. Fond 1, səh. 1, iş 11.
23. Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni, Bakı, «Elm», 1998–2001-ci illər, №1–6.
24. Azərbaycan Respublikasında fəaliyyət göstərən gənclər birlikləri. ARDGS İB, №4, 2000, səh. 73–79.
25. Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003–2007-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 17 fevral 2003-cü il, «Azərbaycan» qəzeti, 18 fevral 2003-cü il.
26. Azərbaycan Respublikasında Uşaq Hüquqları Konvensiyasının həyata keçirilməsinə dair tədbirlər planı. ARDGS İB, №2, 2000, səh. 47–62.
27. Azərbaycan Respublikasının gənc yazıçılarına fərdi təqaüdlərin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 6 dekabr 1999-cu il, «Azərbaycan» qəzeti, 7 dekabr 1999-cu il.
28. Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 1999-cu il. «Azərbaycan» qəzeti, 7 dekabr 1999-cu il.
29. Azərbaycan Respublikasının statistik göstəriciləri. Bakı, «Səda», 1993–2003-cü illər.
30. Azərbaycan rəqəmlərdə. 1987, Bakı, DSK nəşriyyatı, 1988, 275 s.
31. Azərbaycan və Gürcüstan gənclərinin dostluq görüşü, «Azərbaycan» qəzeti, 27 may 1999-cu il.
32. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı, «Azərbaycan», 1999, səh. 152.
33. Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 22 iyun 1996-cı il, «Azərbaycan» qəzeti, 23 iyun 1996-cı il.
34. Azərbaycanın gəncliyi Azərbaycanın gələcəyi. Bakı, «Azərbaycan», 2003, səh. 143.
35. BDU-nun gəncləri beynəlxalq arenada. «Azərbaycan» qəzeti, 3 sentyabr 2000.
36. Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu.
37. **Cəfərov H.R.** Azərbaycanda gənclər hərəkatı (XX əsr). Bakı, «Nurlan», 2009, səh. 458.
38. **Cəfərov H.R.** Azərbaycanda gənclər hərəkatının təşəkkülü və inkişafı. Bakı, «Nurlan», 2008, səh. 352.

39. **Cəfərov N.Q.** Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Bakı, «Çaşıoğlu», 2004, səh. 159.
40. **Cəfərov N.Q.** Azərbaycanşünaslığa giriş. Bakı, Az.ATAM, 2002, səh. 600.
41. Cəmşid Naxçıvanski adına hərbi liseyin 30 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 noyabr 2000-ci il, «Gələcək gənclərindir», Bakı, 2000, səh. 442–447.
42. Dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 4 avqust 2003-cü il. «Azərbaycan» qəzeti, 5 avqust 2003.
43. «Dövlət Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 29 iyul 1999-cu il, «Azərbaycan» qəzeti, 30 iyun 1999.
44. **Əliyev H.Ə.** Ali məktəblərə ən yüksək balla daxil olmuş tələbələrlə görüşdə nitq. 30 avqust 2002-ci il, «Gələcək gənclərindir», Bakı, «Azərbaycan», 2004, səh. 357–362.
45. **Əliyev H.Ə.** Ali məktəblərə ən yüksək balla qəbul olmuş gənclərlə görüşdə nitqi. 3 sentyabr 2001-ci il, «Gələcək gənclərindir», səh. 325–333.
46. **Əliyev H.Ə.** Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə nitq. 27 iyul 2001-ci il. «Gələcək gənclərindir», səh. 348–356.
47. **Əliyev H.Ə.** Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışına həsr olunmuş mərasimdə nitq. 25 avqust 2001-ci il. «Gələcək gənclərindir», səh. 340–347.
48. **Əliyev H.Ə.** Azərbaycan Gənclər Günü münasibətilə gənclərlə görüşdə nitq. 2 fevral 2001-ci il, Müstəqilliyimiz əbədidir, XXXII kitab, Bakı, «Azərnəşr», 2010, səh. 224–249.
49. **Əliyev H.Ə.** «Azərbaycan gəncləri» qəzetinin kollektivinə təbrik məktubu. 26 oktyabr 1994-cü il, Müstəqilliyimiz əbədidir, II kitab, səh. 421–423.
50. **Əliyev H.Ə.** Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında. 2001-ci il, yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciəti. «Azərbaycan» qəzeti, 30 dekabr 2000.
51. **Əliyev H.Ə.** Azərbaycan gəncləri günü münasibətilə gənclərlə görüşdə nitq. 2 fevral 2001-ci il, Müstəqilliyimiz əbədidir, XXXII kitab. Bakı, «Azərnəşr», 2010, s. 224–249.
52. **Əliyev H.Ə.** Azərbaycan gəncləri gününə həsr edilmiş bayram gecəsi iştirakçılarına təbrik. 1 fevral 2000-ci il, Müstəqilliyimiz əbədidir, XXIV kitab, səh. 419.

53. **Əliyev H.Ə.** Azərbaycan gəncləri gününün qeyd edilməsi ilə bağlı bayram mərasimində çıxış. Müstəqilliyimiz əbədidir, XIV kitab. Bakı, «Azərnəşr», 2005, səh. 197–205.
54. **Əliyev H.Ə.** Azərbaycan Respublikası Gənclərinin III Forumuna təbrik. «Azərbaycan» qəzeti, 14 oktyabr 2003.
55. **Əliyev H.Ə.** Azərbaycan Respublikası Silahlı Qüvvələri gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il, «Gələcək gənclərindir», səh. 286–300.
56. **Əliyev H.Ə.** Azərbaycanda məcburi köçkünlər: avtoportret fotosərgisinin açılış mərasimində çıxış. 8 dekabr 2000-ci il, «Gələcək gənclərindir», səh. 243–246.
57. **Əliyev H.Ə.** Bakı Şəhər İcra Hakimiyyətinin şəhid övladları və kimsəsiz uşaqlar üçün keçirdiyi Yeni il şənliyində çıxış. 31 dekabr 1996-cı il, Müstəqilliyimiz əbədidir, VIII kitab, Bakı, «Azərnəşr», 1998, səh. 227–229.
58. **Əliyev H.Ə.** Bakı uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların yeni il şənliyində çıxış. 31 dekabr 1995-ci il, Müstəqilliyimiz əbədidir, V kitab, Bakı, «Azərnəşr», 1998, səh. 240–249.
59. **Əliyev H.Ə.** Bakıda ilk özəl ümumtəhsil kompleksinin istifadəyə verilməsi mərasimində nitq. 1 sentyabr 2001-ci il, «Xalq qəzeti», 2 sentyabr 2001.
60. **Əliyev H.Ə.** Bakıdakı 23 saylı orta məktəbdə Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənovun xatirə lövhəsinin açılışına həsr olunmuş mitinqdə çıxış. 3 sentyabr 1994-cü il, Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, «Azərnəşr», 1997, səh. 183–186.
61. **Əliyev H.Ə.** Bilik günü və yeni dərs ilinin başlanması münasibətilə Bakının Səbail rayonundakı Tofiq İsmayılov adına riyaziyyat və informatika təmayüllü 6 nömrəli məktəb-liseydə nitq. 1 sentyabr 2001-ci il, «Xalq qəzeti», 2 sentyabr 2001.
62. **Əliyev H.Ə.** Cəmşid Naxçıvanski adına hərbi liseyin 30 illiyinə həsr olunmuş yubiley mərasimlərində çıxış. 19 və 21 aprel 2003-cü il, «Gələcək gənclərindir», səh. 363–370.
63. **Əliyev H.Ə.** Doqquz yaşlı rəssam Əli Cəfərinin fərdi sərgisinin açılışında çıxış. 30 dekabr 1995-ci il, Müstəqilliyimiz əbədidir, V kitab, Bakı, «Azərnəşr», 1998, səh. 227–229.
64. **Əliyev H.Ə.** Dünya azərbaycanlılarının I qurultayında nitq. Azərbaycan qəzeti, 10 oktyabr 2001-ci il.
65. **Əliyev H.Ə.** Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsinin hər vasitə ilə gücləndirilməsi. Respublika komsomolunun XXXI qurultayında nitq. 3 aprel 1982-ci il, Bakı, «Azərnəşr», 1982, səh. 67.

66. **Əliyev H.Ə.** Gənclərin, müharibə və idman veteranlarının bir qrupuna ilk ümumvətəndaş pasportlarının təqdim edilməsi mərasimində çıxış. 20 may 1998-ci il, «Gələcək gənclərindir», səh. 204–208.
67. **Əliyev H.Ə.** Hərbi hissələri özbaşına tərk etmiş və ya çağırışdan yayınmış gənclərin bir qrupu, onların valideynləri və yaxın qohumları ilə görüşdə çıxış. 2 yanvar 1994-cü il, Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, «Azərnəşr», 1997, səh. 310–311.
68. **Əliyev H.Ə.** Kommunizm uğrunda mübarizədə partiyanın sədaqətli dayağı. Azərbaycan Komsomolunun XXX qurultayında nitq. Bakı, «Azərnəşr», 1978, səh. 52.
69. **Əliyev H.Ə.** Qoy ədalət zəfər çalsın (Aktual müsahibə). «Literaturnaya qazeta»nın müxbirinin suallarına cavab. Bakı, «Azərnəşr», 1981, səh. 36.
70. **Əliyev H.Ə.** Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunda çıxış. 2 fevral 1996-cı il, «Gələcək gənclərindir», səh. 91–134.
71. **Əliyev H.Ə.** Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun 1 illiyi ilə əlaqədar olaraq Forum nümayəndələrinin bir qrupu ilə keçirilən görüşdə çıxış. 1 fevral 1997-ci il, Müstəqilliyimiz əbədidir, VIII kitab, səh. 382–395.
72. **Əliyev H.Ə.** MDB ölkələrinin Gənclərin İşləri üzrə Nazirlər klubunun 2-ci iclasının iştirakçıları ilə görüşdə çıxış. 28 mart 1998-ci il, «Azərbaycan», 29 mart 1998.
73. **Əliyev H.Ə.** Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, 26 cilddə. Bakı, «Azərbaycan» nəşriyyatı, müxtəlif illər.
74. **Əliyev H.Ə.** Respublika Ailə-Sağlamlıq mərkəzinin açılışında çıxış. 29 dekabr 1995-ci il, Müstəqilliyimiz əbədidir, V kitab, Bakı, «Azərnəşr», 1998, səh. 219–226.
75. **Əliyev H.Ə.** Respublika ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar keçirilən müşavirədə giriş sözü. 2 avqust 1994-cü il, «Gələcək gənclərindir», səh. 46–57.
76. **Əliyev H.Ə.** Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxış. 22 sentyabr 1993-cü il, Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, «Azərnəşr», 1997, səh. 164–182.
77. **Əliyev H.Ə.** Respublika Gənclərinin II Forumunda çıxış, 2–3 mart 1999-cu il, Müstəqilliyimiz əbədidir, XIX kitab, Bakı, «Azərnəşr», 1997, səh. 209–221.
78. **Əliyev H.Ə.** Respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdə nitq. 14 sentyabr 1994-cü il, Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, «Azərnəşr», 1997, səh. 215–222.

79. **Əliyev H.Ə.** Silahlı Qüvvələr gününə həsr edilmiş təntənəli mərasimdə çıxış. 26 iyun 2000-ci il, Müstəqilliyimiz əbədidir, XXVIII kitab, Bakı, «Azərnəşr», 2009, səh. 323–341.
80. **Əliyev H.Ə.** Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda çıxış. 18 avqust 2001-ci il, «Azərbaycan» qəzeti, 2001, 19 avqust.
81. **Əliyev H.Ə.** Şəhid uşaqları və kimsəsiz uşaqlar üçün təşkil olunmuş Novruz şənliyində çıxış. 20 mart 1996-cı il, Müstəqilliyimiz əbədidir, VI kitab, Bakı, «Azərnəşr», 1997, səh. 6–9.
82. **Əliyev H.Ə.** Təhsil, bilik, məktəb. Bakı, «Müəllim», 2001, səh. 386.
83. **Əliyev H.Ə.** Təhsil millətin gələcəyidir. Bakı, «Təhsil», 2002, səh. 580.
84. **Əliyev H.** Türkiyənin ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrlə görüşdə çıxış. 7 fevral 1994-cü il, Müstəqilliyimiz əbədidir, I kitab, səh. 354–356.
85. **Əliyev H.Ə.** Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilən bayram şənliyində çıxış. 1 iyun 1997-ci il, Müstəqilliyimiz əbədidir, X kitab, Bakı, «Azərnəşr», 2002, səh. 35–37.
86. **Əliyev H.Ə.** Uşaqların Beynəlxalq Televiziya və Radio Günü münasibətilə keçirilən şənlikdə nitq. 10 dekabr 2001-ci il, «Gələcək gənclərindir», səh. 334–339.
87. **Əliyev H.Ə.** Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Uşaq Musiqi Festivalı qaliblərinin yekun konsertlərində çıxış. 1 iyun 1996-cı il, Müstəqilliyimiz əbədidir, VI kitab, Bakı, «Azərnəşr», 1998, səh. 365–368.
88. **Əliyev H.Ə.** Uşaqların Beynəlxalq Televiziya və Radio Günü münasibətilə keçirilən şənlikdə nitq. 10 dekabr 2001-ci il, «Gələcək gənclərindir», s. 334–389.
89. **Əliyev H.Ə.** Uşaqların Beynəlxalq Televiziya və Radio günü, habelə UNICEF-in 50 illiyi münasibətilə «Uşaqlar dünyanın sevincidir» şənlik mərasimində çıxış. Müstəqilliyimiz əbədidir, VIII kitab, Bakı, «Azərnəşr», 1998, səh. 185–186.
90. **Əliyev H.Ə.** Yeni Azərbaycan Partiyasının Gənclər təşkilatı nümayəndələrinin Ümumrespublika toplantısında çıxış. 18 fevral 1998-ci il, Müstəqilliyimiz əbədidir, VIII kitab, Bakı, «Azərnəşr», 1998, səh. 287–309.
91. **Əliyev H.Ə.** Yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə çıxış. 1 sentyabr 1997-ci il, «Gələcək gənclərindir», səh. 162–169.
92. **Əliyev H.Ə.** Yeniyetmələrin II ümumrespublika oyunlarının təntənəli açılış mərasimində çıxış. 12 may 2000-ci il, Müstəqilliyimiz əbədidir, XXVII kitab, Bakı, «Azərnəşr», 2009, səh. 151–153.

93. **Əliyev H.Ə.** UNICEF-in Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə Bakıda yaradılmış «Azərbaycan beynəlxalq gənclər nitq xidməti» və «Uşaqlara kömək xətti» xidmətlərinin açılışında çıxış. 23 iyul 1997-ci il, Müstəqilliyimiz əbədidir, XI kitab, Bakı, «Azərnəşr», 2002, səh. 424–426.
94. **Əliyev İ.H.** Azərbaycan gənclərinin IV Forumunda nitq, «Azərbaycan» qəzeti, 15 oktyabr 2005.
95. **Əliyev İ.H.** Gənclər Müstəqil Azərbaycanın gələcəyinin qurucularıdırlar. «Dirçəliş – XXI əsr», 1999, №3, səh. 16–19.
96. **Əliyev İ.H.** İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar. Bakı, «Azərnəşr», 2008, səh. 342.
97. Forumdan foruma. Bakı, «Azərbaycan», 2003, səh. 64.
98. Gələcək gənclərindir. Bakı, «Azərbaycan», 2004, səh. 496.
99. Gənc ailə proqramı. ARDGS. İB. 2000, №2, səh. 27–38.
100. Gənclər Müstəqil Azərbaycanın gələcəyinin qurucularıdır, Azərbaycan gənclərinin II Forumunun materialları. «Azərbaycan» qəzeti, 4–9 mart 1999.
101. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il, «Gələcək gənclərindir», səh. 410–416.
102. Gənclər təşkilatlarının beynəlxalq əlaqələrini gücləndirmək sahəsində əlavə tədbirlər haqqında ARGİN Kollegiyasının Qərarı. 29 dekabr 1997-ci il, Protokol №9, ARDGS İB, №4, 2000. səh. 66–72.
103. Gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında ARGİN Kollegiyasının arayışı. ARDGS İB, №4, 2000, səh. 69–81.
104. Gənclər və problemlər. «Azərbaycan Ordusu» qəzeti, 5 mart 1996.
105. Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi proqramı. ARDGS İB. 2000, səh. 36–43.
106. Gənclərimiz dünya ilə dost olmaq istəyir. «Azərbaycan» qəzeti, 10 aprel 2001.
107. Gənclərin beynəlxalq konfransında. «Azərbaycan» qəzeti. 1 oktyabr 1997.
108. Gənclərin ümumdünya zirvə görüşü başlayır. «Azərbaycan» qəzeti, 5 sentyabr 2001.
109. **Hacıyev İ.M.** Heydər Əliyev və milli tarixi yaddaşın bərpası. Bakı, «Elm», 2003, səh. 164.
110. **Hacı R.M.** Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakı. Monoqrafiyanın avtoreferatı. Bakı, 2008.
111. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı, QAPP-Poliqraf kooperasiyası, 2003, səh. 368.

112. Heydər Əliyev və uşaqlar. Bakı, «Azərbaycan», 2008, səh. 175.
113. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, «Azərbaycan», 2006, səh. 183.
114. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, «Şərq-Qərb», 2009, səh. 248.
115. Heydər Əliyev və Azərbaycan məfkurəsi. Bakı, Bakı Universiteti Nəşriyyatı, 2001, səh. 472.
116. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə, Bakı, «Nurlar», NPM, 2008.
117. Heydər Əliyev və mənəvi dəyərlər. Bakı, «Nurlan», 2003, səh. 276.
118. **Hüseynova İ.M.** Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, «Təhsil», 2004, səh. 472.
119. **Hüseynova İ.M.** Müstəqilliyimizin təminatçısı. Bakı, «Təhsil», 2002, səh. 503.
120. «Xalq qəzeti».
121. 2 fevral – «Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 1 fevral 1997-ci il. «Azərbaycan» qəzeti, 2 fevral 1997.
122. 2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı. «Azərbaycan müəllimi» qəzeti, 20 aprel 2007.
123. İnkişafın keşməkeşliyi. «Dirçəliş – XXI əsr» jurnalı, 1998, №2, səh. 45–65.
124. İstedadlı yeniyetmələr və yaradıcı gənclərin sosial-iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirməsinə kömək edən Dövlət Proqramı. ARDGS İB. 2001, №5, səh. 23–27.
125. «Kommunist» qəzeti.
126. «Körpələrin və erkənyaşlı uşaqların qidalanması» haqqında Azərbaycan Respublikasının Qanunu. 17 iyun 2003-cü il, «Gələcək gənclərindir», səh. 448–457.
127. **Qaffarov T.B.** Azərbaycan tarixi 1920–1991. Bakı, 1991, səh. 251.
128. **Qaffarov T.B.** Əsrə bərabər on il. 1991–2001, Bakı, «Tural», 2001, səh. 325.
129. **Qarayev Ə.** Müstəqil Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. «Dirçəliş – XXI əsr» jurnalı, 2004, №72, səh. 59–69.
130. Qayıdış, 1991–1993. Bakı, «Azərnəşr», 1996.
131. **Qurbanov A.M.** Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı. Bakı, «Gənclik», 1997, səh. 34.
132. **Qasımlı M.C.** Heydər Əliyev – İstiqlala gedən yol (1969–1987-ci illər). Bakı, Bakı Universiteti, 2001, 608 s. (XX əsrin 70–80-ci illəri), Bakı, «Təhsil», 2009, səh. 310.

133. **Qasımov Ə.Q.** Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası.
134. **Mahmudov Y.M.** Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı, «Təhsil», 2002, səh. 328.
135. **Mahmudov Y.M.** Azərbaycan: qısa dövlətçilik tarixi, Bakı, «Təhsil», 2005, səh. 140.
136. **Mahmudov Y.M.** Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, «Təhsil», 2002, səh. 324.
137. **Mahmudov Y.M.** Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, «Təhsil», 2011.
138. **Mehdiyev R.Ə.** Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, AMEA, 2001, səh. 276.
139. **Mehdiyev R.Ə.** Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, «Azərbaycan», 2005.
140. **Mehdiyev R.Ə.** Azərbaycanın inkişaf dialektikası. Bakı, AMEA, 2004, səh. 286.
141. **Mehdiyev R.Ə.** XXI əsrdə milli dövlətçilik. Bakı, XXI əsr Yeni Nəşrlər evi, 2003, səh. 248.
142. **Mehdiyev R.Ə.** Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə (2 cilddə), Bakı, XXI-YNE, 2008.
143. Müasir Azərbaycan gəncliyi son on ildə. «Azərbaycan» qəzeti. 2007, 11 aprel.
144. Müstəqil Azərbaycan gənclərinin I Forumunun materialları, «Azərbaycan» qəzeti, 6–9 fevral 1996.
145. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Azərbaycan Respublikası Gənclərinin I Forumu (2 fevral 1996). Bakı, 1996, səh. 195.
146. «Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunun keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 26 yanvar 1996-cı il, «Azərbaycan» qəzeti, 27 yanvar 1996.
147. **Nağıyev Ə.X., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə.** Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, Bakı, «Elm», 1998, 268 s.
148. Naxçıvan MR GİN-in məlumat kitabı, Naxçıvan, 2007, səh. 13.
149. Ordudan tərxis olunmuş gənclərin məşğulluğu ilə bağlı Dövlət Proqramı. ARDGS. İB. 2001, №5, səh. 29–39.
150. **Orucov H.** Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, «Şərq-Qərb», 2001, səh. 342.
151. **Rəcəbli H.M.** Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komparativ təhlili. Bakı, «Elm», 2003, səh. 325.
152. Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı. 2003–2008, Bakı, «Təhsil», 2008, səh. 692.

153. «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında». Azərbaycan Respublikasının Qanunu, «Gələcək gənclərindir», səh. 419–423.
154. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu. 19 may 1998-ci il, «Gələcək gənclərindir», Bakı, 1998, səh. 378–391.
155. Uşaq Hüquqları haqqında Konvensiya, ARDGS İB. №3, 2000, səh. 3–38.
156. «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» Dövlət Proqramı. ARDGS İB. №5, 2001, səh. 5–21.
157. «Uşaq və gənclər birliklərinin proqramlarının (layihələrinin) qismən maliyyələşdirilməsi haqqında» Əsasnamə. ARDGS İB, 2000, №4, səh. 59–63.
158. Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri. Bakı, «Elm və Təhsil», 2010, səh. 424.
159. UNICEF-in ölkəmizdə xeyirxah təşəbbüsü. «Azərbaycan» qəzeti, 25 iyul 1997.
160. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu. 22 iyun 1999-cu il, «Gələcək gənclərindir», Bakı: 1999, səh. 394–403.
161. «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında» Əsasnamə. 5 iyul 2002-ci il, «Gələcək gənclərindir», Bakı, 2002, səh. 413–440.

**Rus dilində**

162. Алескеров Ф., Самедов И. Концепция государственной молодежной политики. «Коммунист» журн. 1990, №12, стр. 48-57.
163. «Бакинский рабочий».
164. Материалы делегату XXXII съезда ЛКСМА, 1982-1987, Баку: Азернешр, 1987, 52 с.
165. Молодежь Азербайджана. Статистический Сборник. Баку: АСУ, 1990, 120 с.
166. «Московский комсомолец». 7 декабря 1991.
167. Народное хозяйство Азербайджанской ССР в 1985. Статистический ежегодник, Баку, АСУ, 1986, 175 с.
168. Народное хозяйство Азербайджанской ССР в 1987. Статистический ежегодник. Баку, АСУ, 1988.
169. Народное хозяйство СССР в 1990 г. Москва, ЦСУ, 1991, с. 289.
170. «Панорама Азербайджана» газета.
171. Зарубежные молодежные организации Справочник. Москва, 1981, 129 с.

## MÜNDƏRİCAT

Önsöz *(Ədalət Qasımov)* ....................................................................3
Giriş ..........................................................................................................6

### I FƏSİL
**Heydər Əliyev və Azərbaycan Respublikasında gənclər siyasətinin təşəkkül tapması (1993–2003-cü illər)**

1.1. Müstəqilliyin ilk illərində Azərbaycan gəncliyinin inkişaf problemləri ..................................................16
1.2. Gənclərlə bağlı yeni dövlət siyasəti və strukturlarının formalaşması ..........................................................................33

### II FƏSİL
**Heydər Əliyevin gənclər siyasətinin əsas istiqamətləri**

2.1. Azərbaycan Respublikasında gənclərin sosial-iqtisadi problemlərinin həlli istiqamətlərində tədbirlər...........................51
2.2. Heydər Əliyevin nəzəri irsində gəncliyin mədəni-mənəvi inkişafı məsələləri............................................74
2.3. Azərbaycan Respublikasında uşaq hüquqlarının təminatı sahəsində fəaliyyət...............................115

### III FƏSİL
**Azərbaycan Respublikası gənclərinin ictimai-siyasi təşkilatlanması və beynəlxalq əlaqələrinin genişlənməsi**

3.1. Azərbaycan Respublikasında gənclər təşkilatlarının fəaliyyəti.........................................................................127
3.2. Azərbaycan gənclərinin beynəlxalq əlaqələri...........................145

Nəticə ........................................................................................158
İstifadə olunmuş ədəbiyyat..............................................................165

***Rəhman Balabəy oğlu Hacıyev***
AZƏRBAYCAN GƏNCLİYİNİN HİMAYƏDARI
(Heydər Əliyevin gənclər siyasəti (1993–2003-cü illər))
Bakı, «Aspoliqraf», 2014.

---

Nəşriyyat redaktorları ***Məsudə Əvəzqızı, Aida Quliyeva***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçısı ***Mələk Cəlilova***
Korrektoru ***Natəvan Məmmədova***

Çapa imzalanmışdır 18.09.2014. Kağız formatı 60x90 $^1/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 12. Sifariş 73. Tiraj 500.

«Aspoliqraf LTD» MMC nəşriyyat-poliqrafiya
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., $121^B$
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: as_poliqraf@box.az